www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Çağdaş Azərbaycan romanı”

Mustafa ÇƏMƏNLİ

ÖLÜM MƏLƏYİ

Tarixi roman

2012

YENI YAZARLAR VƏ SƏNƏTÇILƏR QURUMU. E-NƏŞR N 01 (58 2012)

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

Bu elektron nəşr http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Çağdaş Azərbaycan romanı" Kulturoloji-Tərcümə Layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 01

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 01 - 58 (2012)

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Azərbaycan Yazıçılar Birliyi - http://www.azyb.net

Mustafa ÇƏMƏNLİ

ÖLÜM MƏLƏYİ

Tarixi roman

Tanınmış Azərbaycan yazıçıısının tarixi romanının ilk e-variantı...

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 01 (58 - 2012)

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana

Bakı – 2012

Mustafa ÇƏMƏNLİ



ÖLÜM MƏLƏYİ

Tarixi roman

I fəsil

QƏFİL GƏLMİŞ ƏCƏL

Allaha and olsun ki, qətl etmək və

öldürməklə səltənət işi irəli gedə bilməz.

Pərixan bəyim Səfəvi

- Sən kiminləsən, ölülərlə ya dirilərlə?

Qatillərlə, ya qətlə yetirilənlərlə?

Roma şairi Ovidiya

1576-cı ilin Novruz bayramından heç bir ay da keçməmişdi. Torpaq hələ indi - indi isinirdi. Yaz otu təzə-təzə cücərirdi. Axtarsan, otluqda rəngbərəng çiçəklərə də rast gələrdin. Günəşin ilıq şəfəqləri altında quşlar budaqdan - budağa qonub civildəşir, qatarlaşmış atlı qarışqalar ağlasığmaz bir nizamla yuvalarına dən daşıyırdılar. Gözünü günəşə açan qızılgüllərin ətri adamı bihuş edirdi. Hər zaman olduğu kimi, bu ilıq, qəlbə fərəh gətirən yaz səhəri də cürbəcür xəbərlərlə açılırdı. Yaxşı deyiblər ki, gecə hamilədir, sabah nə doğulacağını kimsə bilmir. Gecə doğulan kim, gecə dünyasını dəyişən kim.

Şah İsmayıl Səfəvinin oğlu I Şah Təhmasibin bu yaz bəxti gətirməmiş, öz ehtiyatsızlığı ucbatından yatağa düşmüşdü. Əslində, şahı dilxor eləyən, onu yatağa salan, açılıb-bükülməsi mümkün olmayan incə bir məsələ vardı. Onu incidən, ağrıdan o idi ki, döyüş meydanında çarpışmada yox, özünün səhlənkarlığı üzündən yatağa düşmüşdü. Əhvalat bir ay bundan qabaq olmuşdu. Həmişə hamama gürcü əsilli arvadlarından birinin qardaşı Zal bəylə gedərdi. Zal bəy onun etibarını qazanmışdı. Hamamda onu kisələyər, sərin şərbət içirdər, həm də şahın qarovulunu çəkərdi. Şah bir dəfə necə oldusa hamama tək getdi. Bu da nəticəsi. Bədənindəki artıq tükləri tökmək üçün dərisinə nürə deyilən maddədən qədərindən artıq sürtmüşdü. Hamamdan çıxandan sonra bədəni yara səpməyə başladı. Günlərlə

qızdırma içində çapaladı. Adi bir ehtiyatsızlıqdan bir ay idi ki, yorğan-döşək xəstəsi idi. Həkimlər dərdinə bir çarə tapa bilmirdilər. Nürə deyilən bu andıra qalmış şahın dərisini yaman günə qoymuşdu. Lənət şeytana, bir az da dərinə getsək, bu şan-şöhrətli kişi can üstə idi. Deyəsən, Allahın əmri ilə Əzrail gəlib başının üstünü kəsdirmişdi. Təhmasib şah düz əlli üç il altı ay idi ki, atası Şah İsmayıl Səfəvinin taxtında oturub şahlıq eləyirdi. Bu da Tanrının ona lütfü idi, axı hər adama hakimiyyətdə bu qədər müddət qalmaq nəsib olmur.

Səhər yenicə açılmışdı. Xəstə şah qızılgülün ətrini hiss edirdi. Şahın şüuru, nəfəsi hələ üstündəydi və rəsmi olaraq Səfəvilər xanədanının sahibiydi. Nəfəsi artıq boğazında olsa da, çıxmayan canın sağalmasına, az da olsa, hələ ümid vardı. Belə düşünməyə də əsas vardı. Çünki şahın həyatında bir dəfə də belə bir iş olmuşdu. İki il bundan qabaq da şah yorğan-döşəyə düşmüşdü, hətta molla gəlib başı üstündə yasin də oxumuşdu, amma, necə deyərlər, kəfəni yırtıb çıxmışdı, türkün sözü, o dünyadan qayıtmışdı. O, Tanrının mərhəməti sayəsində öz gözlənilməz qayıdışı ilə çox-çox əcaib-qəraib işlərin, nanəcibliklərin şahidi olmuşdu. Əslində, şah bu qəfil «dirilməyi» ilə taxt-tac uğrunda çarpışmağa hər an hazır olan doğmalarını da çaşdırmışdı… Şah iyirmi yaşında olanda, hər cür bədzat işlərdən uzaq olmaq üçün «Allahın qarşısında tövbə edirəm» demişdi və andına bu günəcən sadiq qalmışdı. Məmləkətdə şərabxanaları, qumarxanaları, fahişəxanaları ləğv eləmişdi. Şah daim kamilliyə can atırdı, nəfsinin qulu yox, ağası olmaq ən böyük amalı idi.

Şahın bu uzun hakimiyyəti dövründə xeyirxah işləri çox olmuşdu. Çoxlu məktəblər, mədrəsələr açdırmışdı, məscidlər tikdirmişdi. Qədim təzkirələrin üzünü köçürtmüşdü. Hüseyn Vaizin «Rövzətüş-Şühəda» əsərini Nişati adlı şəxsə türkcəyə çevirtmişdi. O, şah olaraq hər məqamda insanları haqqa dəvət etmiş, həmişə üləmaların, ibadət sahiblərinin, iman əhlinin ehtiramını saxlamışdı. Yetimlərə hamilik eləmişdi. Bütün böyük şəhərlərdə qızlar və oğlanlar üçün yetimxanalar açıb həddi-buluğa çatana kimi onların qayğısına qalmışdı. Tacirləri, sənətkarları yolhaqqı olaraq alınan tamğadan - vergidən azad eləmişdi. Sənətkarlardan, maldarlardan, otlaqlardan istifadəyə görə alınan vergiləri də ləğv eləmişdi. Bundan sonra rəiyyət azad nəfəs almışdı. Özü də hiss edirdi ki, xalqın ona məhəbbəti böyükdür. Bu da səbəbsiz deyildi. O bir dəfə də olsun tövbəsini pozmamışdı. Nəyinsə xatirinə xalqın zərərinə olan bir işin çiçəklənməsinə rəvac verməmişdi. Məhz buna görə əlli üç il altı ay idi ki, taxta əyləşmişdi. İndi ömrünün bu çağında ancaq xeyirxah işlərinə görə təskinlik tapırdı.

Ölkənin şahı pərqu yorğan-döşəkdə arxası üstə uzanıb cınqırını da çıxartmadan keçmişinin - yaşadığı illərin tamaşasına durmuşdu. Uşaqlıqdan bu günə kimi hər şeyi, ən xırda, lüzumsuz təfərrüatları belə bir-bir xatırlayırdı.

I Şah Təhmasib hicri 999-cu ilin Zülhəccətül - hərəm ayının 26-da - yəni miladi tarixlə 26 fevral 1514-cü ildə İsfəhanın Şahabad kəndində doğulmuşdu. Dayəsi onu bələkdə gətirib atası Şah İsmayılın qucağına verəndə o, xoşbəxtlərin xoşbəxtiydi. Təhmasib Şah İsmayılın ilki idi və bu anda bu xoş təmasdan atalıq hissi qəlbini sarmışdı. Kədərlənməyə də elə bir əsas yoxdu. Əksinə, belə cavan yaşında ucsuz - bucaqsız ərazilər, məmləkətlər onun hökmü - fərmanı altındaydı. Fələyin gərdisi ilə çox mənəm - mənəm deyən hökmdarlar atından yerə salınsa da, Şah İsmayıl hakimiyyətə qədəm basdığı çağdan bu günə məğlubiyyətin nə olduğunu bilməmişdi. İndi, balaca Təhmasib qucağında həyatının xoşbəxt anlarını yaşayan Şah İsmayıl, əlbəttə, qarşıda onu nə gözlədiyini bilmirdi. Çünki məşhur Çaldıran döyüşünə - onun şahlıq qürurunun qırıldığı günə (23 avqust 1514-cü il) hələ altı ay vardı. Doğrudur, Sultan Səlimlə məktublaşırdılar, bu onu, o bunu sancırdı. Sultan Səlim ona kəşkül, təsbeh göndərirdi ki, get dərvişliyini elə, Şah İsmayıl da ona tiryək göndərirdi ki, sən də tiryəkini çək, nəşələn, sultanlıq sənə yaraşmaz. Amma bu sancmalardan hələ qan iyi gəlmirdi …

Şah qucağına sığınıb qığıldayan körpə Təhmasibi bir daha qoxlayıb dayəsinə qaytardı, üzünü ətrafındakı əyanlara tutdu:

- Ağalar, Xorasan hakimliyini Təhmasib mirzəyə tapşırıram, - dedi. - Bu gündən Əmir xan da onun lələsidir.

Əmir xan əyanlar arasından qalxıb əlini sinəsinə aparıb ədəblə baş əydi:

- Şah sağ olsun, Allah sizdən razı olsun. Təhmasib mirzənin lələsi olmaqdan qürur duyuram. Allah ömrünü uzun, qədəmlərini sayalı eləsin.

Şah İsmayıl Əmir xana:

- Sabah Xorasana yola düşə bilərsiniz, - dedi.

Dövrün qanunu beləydi, şahın övladlarını lap kiçik yaşlarından hakimiyyət işlərinə hazırlayırdılar. Lələsi şah oğlunun həddi-büluğa çatıb ərgənlik donunu əyninə geyinənə kimi tərbiyəçisi, hamisi olurdu.

Beləcə, Təhmasib mirzə bir müddət lələsi Əmir xanla Xorasanda yaşadı. Amma nə səbəbdənsə, çox keçmədi Əmir xan Səfəvilərdən üz döndərdi. Orda-burda ağzına gələni çərənləyirdi. Şah İsmayıl axırda qəzəblənib Əmir xanı hakimiyyətdən uzaqlaşdırdı, Təhmasib mirzəni isə saraya gətirtdi. Bəlkə də, balaca Təhmasibin həyatının ən xoş dəqiqələri ata-anasına qovuşduğu o günlər idi. Ata-ananı kim əvəz edə bilər axı? Təhmasib mirzə ata-anasının nəvazişləri altında böyüdü.

Amma bu səadət dolu illər sən deyən qədər də çox sürmədi. Çaldıran döyüşündə məğlub olandan sonra üzü gülüb könlü açılmayan Şah İsmayıl cəmi on il yaşadı. O, 1524-cü ildə Sərab mahalının Manqutay adlı məkanında qəflətən dünyasını dəyişəndə oğlu Təhmasib mirzə on bir yaşının içində idi. Atası heç vaxt ona Çaldıran döyüşündən danışmazdı. O, elə bil bu söhbətdən qaçırdı. Tez-tez ova gedərdi ki, dərdini unutsun. Dərd adamın içindədirsə, ondan qaçmaqmı olar?! Ancaq saray kitabxanasının baş rəssamı Sultan Məhəmməd şagirdi Təhmasib mirzəyə atası Şah İsmayılın şücaətindən fərəhlə danışardı.

- Əziz şahzadə, - deyərdi, - Çaldıran döyüşü yay vaxtı olmuşdu. Sultan Səlim saysız-hesabsız ləşkəri, çoxlu top arabaları ilə üstümüzə gəlmişdi. Qoşun böyüklərindən Xan Məhəmməd düşmənin topçular alayını görüb atanıza demişdi:

- Gəlin, onların üstünə gecə hücuma keçək.

Bu vaxt bö yük əmirlərdən olan sənin dayın, anan Taclı xanımın qardaşı Durmuş xan bu cür basqının qızılbaşların şəninə yaraşmadığını söyləmişdi. Durmuş xanın bu sözlərindən sonra rəhmətlik şah demişdi ki, mən karvanbasan quldur deyiləm, Allah necə istəyirsə, eləcə də olacaq. Təhmasib mirzə, cənnətməkan atanız Çaldıranda məğlub olsa da, çox böyük şücaətlər göstərdi. Hələ döyüş başlamamışdan Osmanlıların məşhur pəhləvanı Malqucoğlu bir dəstə atlı ilə Qızılbaş qoşununun orta cinahının qarşısına gəldi. Bu Malqucoğlu o qədər həddini aşmışdı ki, qılıncını siyirib Səfəvilər Şəhriyarını təkbətək döyüşə səslədi. Əziz şahzadə, Malqucoğlu xaçpərəstlərlə təkbətək döyüşlərdə ad çıxartmışdı. Sultandan başqa kimsəyə boyun əymir, heç kəsi rəqib saymırdı. Onun özündən belə razılığı, müştəbehliyi cənnətməkan atanıza xoş getmədi. Yanındakı əmirlər ona «Getmə» desələr də, şah heç kəsi eşitmədi, atını qəzəblə Malqucoğlunun üstünə sürüb ona elə bir qılınc zərbəsi endirdi ki, başındakı polad dəbilqə, əynindəki zireh belə parçalandı. Osmanlılarla Səfəvilər arasında qovğa belə başladı…

Təhmasib mirzə bu cür öygülü, fəxarət doğuran söhbətlərdən sonra həyəcanlanar, gözləri dolmuş halda soruşardı:

- Ustad, bəs o qılınc məsələsi...

- Cənnətməkan atanız Qızılbaşlara böyük tələfat verən topların zəncirlərini vurub qırırdı. Bir həmləsində hətta topun lüləsini vurub salmışdı. Bu əhvalat döyüş meydanını seyr edən Sultan Səlimə çatanda xəbər göndərdi ki, o qılınca baxmaq istəyir. Rəhmətlik şah qılıncı göndərdi. Deyirlər Sultan Səlim qılıncı götürüb var gücü ilə topun lüləsinə vurub, amma heç nə alınmayıb. Xəbər göndərib ki, bu

qılınc haman qılınc deyildir. Rəhmətlik şah gülümsəyib qarşısında dayanıb cavab gözləyən elçiyə deyib:

- Get ağana de ki, qılınc haman qılıncdır, qol hamankı deyil…

Təhmasib mirzə:

- Ustad, bəs atam Şah İsmayıl bu davadan nə yolla qurtula bilib? - soruşdu.

- Atanız cənnətməkan, Diyarbəkirdən qoşunla gəlmiş Xan Məhəmmədi ordunun çərəxçisi təyin etmişdi. Sarı Pirə qorçubaşı, Durmuş xan, Nurəli xəlifə Rumlu, Xülafə bəy, Hüseyn bəy Lələ, Xəlil Sultan Zülqədər sağ cinahda, şah özü isə mərkəzdə mövqe tutmuşdu. Vəzir Mir Əbdülbaqi, sədr Mir Seyid Şərif, Seyid Məhəmməd Kəminə kimi adlı-sanlı dövlət adamları da onun yanındaydılar. Əziz şahzadə, Çaldıran döyüşündə bu adamların hamısı şəhid oldular. Sultanəli Əfşarın bir suyu rəhmətlik atanıza oxşayırdı. Döyüş zamanı əsir düşər, apararlar Sultan Səlimin hüzuruna. Soruşar, sən Şah İsmayılsan? Sultanəli Əfşar deyər: - Xeyir, mürşidimiz əsir düşməz. Mən Sultanəli Əfşaram. Onu oradaca öldürürlər. Atanız Cənnətməkan, vəziyyəti belə görəndə gəranaylar çaldırır, salamat qalanlar şahın başına toplaşır. Geri çəkiləndə şahın atı bataqlığa düşür. Atanızı Xızır ağa Ustaclı adlı bir qızılbaş xilas edir. Öz atını ona verir ki, oradan uzaqlaşsın. Əziz şahzadə, deyilrlər, Sultan Səlim Təbrizi ələ keçirdikdən sonra Nəsriyyə məscidində namaz qılır. Şəhərin xətibi çaşaraq xütbəni Sultan Səlimin yox, atanız Şah İsmayılın adına oxuyur. Yeniçərlər xətibi öldürmək istəyirlər. Amma Sultan Səlim xətibin çaşdığını başa düşüb qoymur. Sultan Səlim bir həftədən sonra Təbrizdən çıxıb Amasiyaya gedir. Atanız Şah İsmayıl yenidən Təbrizə qayıdır. Bax, belə-belə işlər, mənim şahzadəm.

Təhmasib mirzə, beləcə, atasının şücaətlərini eşidəndə fərəhlənər, sevinci yerə-göyə sığmazdı…

Şah Təhmasibin qanı qaçmış dodaqlarında təbəssüm işardı. Onun başı üstündən o yana getməyən Heydər mirzə şahın dodaqlarına gün işığı kimi düşmüş bu işartıda yaşamaq nişanəsi gördü. Ancaq Heydər mirzə yanılırdı. Bəzən doğmaların da səni yaxşı tanımır. İndi Heydər mirzə də atasının rəssam təbiətli bir şah olduğunu unutmuşdu. Bu iyirmi iki yaşlı şahzadədə günah yox idi. Bütün saray əhli Təhmasib şahı ancaq hökmdar kimi tanıyırdı. Onlar şahın nəqqaşlardan da dərs aldığını unudurdular. Şah Təhmasib haçan asudə vaxt tapsaydı, yolunu saray kitabxanasından salardı. Şah burada özünü balıq suda hiss edən kimi hiss edirdi. Ona görə ki, bura toplaşan nəqqaşların hərəsi bir aləm idi. Şah bu nəqqaşların hər birinə hörmətlə yanaşırdı. Atası Şah İsmayıl da sənətkarlara həmişə rəğbət

göstərərdi. Onlar hamıya bənzəməz, nadir adamlardı -- deyərdi. Şah Təhmasib də saray kitabxanasında çalışan bu insanlara hörmət-izzətlə yanaşardı. Dövrün ən tanınmış xəttatları, nəqqaşları Firdovsinin «Şahnamə»sini düz otuz ilə işləmişdilər. Nizami Gəncəvinin «Xəmsə»sini də məxsusi onun üçün incə, mənalı miniatürlərlə bəzəmişdilər. O, bu kitabları oxumaqdan, onu bəzəyən miniatürlərə baxmaqdan həmişə böyük zövq alırdı. Bu kitablarda kimin əməyi yoxdu: Xəttat Şahmurad Nişapurinin, nəqqaşlardan Sultan Məhəmmədin, Ağa Mirəkinin, Mövlana Müzəffər Əlinin, Mir Zeynalabdinin… Ağa Mirəkini məclislərinin başında oturdardı. Bu üzügülər, xoşrəftar kişiyə lap ürəkdən bağlanmışdı. Ah, Mövlana Müzəffər Əli onun sarayına, Çehelsütun eyvanının divarlarına necə gözəl rəsmlər çəkmişdi: iki göz istəyirdi bunlara baxsın. İllər keçsə də, bu rəsmlər hələ də təravətini itirməmişdi. Şah nəqqaşlığın sirlərini ədəb-ərkanlı, ağır oturub batman gələn Mir Zeynalabdindən də öyrənmişdi. Onun insan çöhrəsini çəkməkdə tayı-bərabəri yoxdu. Hələ Sadıq bəy Əfşar! Misilsiz rəssamdı. Şairliyi də vardı. Bir ara nəqqaşlıqdan fayda görməyib dərvişlərə qoşulub dünyanı dolaşmışdı. Ona heyifi gəldi, saray kitabxanasına gətirdi. Amma deyir, Allah bir tərəfdən verəndə, bir tərəfdən də alır. Bu Sadıq bəy Əfşarın sənətinin böyüklüyünə söz ola bilməzdi, di gəl ki, xasiyyəti bir xasiyyət deyildi, lovğa, özündən razı, bir sözlə, zəhər tuluğu. Ətrafındakılar sənətinə görə onun hərzə-hədyanlarına göz yumurdular. Elə o özü də Sadıq bəy Əfşarın bu ağır xasiyyətini bildiyindən, onu yüksəltməyə əli gəlmirdi. Nə etməli, xasiyyət də insanla bir yerdə doğulur…

Nəqqaşlar bir-bir şahın gözləri önündən gəlib keçirdi. Birdən baxışları xəyalən Mövlana Həsən Bağdadinin qarayanız çöhrəsinə dikildi. Qızıl suyu ilə naxış vurmaqda onun tayı-bərabəri yoxdu. Mövlana Həsən bu sahədə ustadlar ustadıydı. Bir gün qulağına çatdı ki, Mövlana Həsən nimçəyə, piyaləyə, məcməyiyə qəribə-qəribə, açıq-saçıq, şəhvani hislər yaradan səhnələr nəqş eləyir. Qulağına inanmadı. Xəbər gətirənin üstünə bozardı:

- Sübut!

Sübut tapıldı. Çuğulçu çuxasının altından bir piyalə çıxardıb qoydu şahın qarşısına. Şah piyaləni əlinə götürdü, gözü incə naxışlarla işlənmiş çılpaq qadın bədəninə, bu bədənə ilan kimi sarınmış kişiyə dikilib qaldı. Təsvir olunan mənzərə o qədər canlı, cazibədar idi ki, bircə anda vücudunu ehtiras sardı. Əlində piyalə, donub qalmışdı. Nəqqaşın əməlini ya təqdir, ya da inkar etməli idi. Çuğulçu qorxaq gözlərlə qarşısında müticəsinə dayanıb gözləyirdi. Şah bir anlığa nəqqaş Mövlana Həsənlə çuğulçunu yan-yanaşı qoyub müqayisə etdi. Yox, nəqqaş Mövlana Həsəni bu miskinin ayaqları altına atmaq heç insafdan olmazdı. Birisi sənətkar, digəri çuğulçu - evyıxan. Şah:

- Yaxşı, sən get, cəzasını verərik, - dedi.

Şah piyalədə təsvir olunan səhnəyə bir də diqqətlə baxıb gözdən uzaq bir yerə qoydu. Bir müddət bu işin üstünü vurmadı. Hərdən gecələr piyaləni gizlətdiyi yerdən çıxarıb şam işığında baxardı. Şam işığında bu səhnələr daha canlı, sirli görünürdü. Şah piyaləni yerinə qoyub arvadlarından birinin yanına tələsərdi.

Ancaq Mövlana Həsənin piyalələrinin sayı çoxalıb, müştəriləri artanda şah dözmədi, nəqqaşa ismarıc göndərdi ki, İslama zidd əməlindən əl çəkməsə, bu yoldan daşınmasa, nəqş edən əlini kəsdirib itlərə atdıracaq!

* * *

Şahın ismarıcı Mövlana Həsənə çatdı. Nəqş edən əlinə baxıb üşəndi. Xəbər gətirənə söylədi ki, bir də belə iş tutmayacaq. Amma Mövlana Həsən sözünün yiyəsi olammadı, əlinə fırça alan kimi gözləri önündə məhz belə səhnələr canlanır, istər-istəməz xəyalında canlananları piyalələrə, məcməilərə həkk eləyirdi.

Çuğulçular Mövlana Həsənin bir-birindən zərif işlənmiş piyalələrini, nimçələrini şaha gətirirdilər. Nəhayət, şah, Mövlana Həsənə sonuncu dəfə xəbərdarlıq etdi:

- Bu yoldan çəkilməsə, əli kəsiləcək! Getsin, təzə tikdirdiyim İmam Hüseyn məscidinin günbəzinə zinət vursun. Xülasə, taleyi İmam Hüseyn məscidində görəcəyi işdən asılıdır!

… Mövlana Həsən sübh tezdən İmam Hüseyn məscidinin günbəzini qızıl suyu ilə bəzəyirdi.

Bir müddətdən sonra şah cümə namazına gələndə Mövlana Həsənin qızıl suyu ilə işlədiyi rəsmlərə baxıb, Mövlana Həsənin nəqş edən əlini kəsdirmədiyinə sevinmişdi. Ona hədiyyələr vermişdi. Mövlana Həsən də daha şəhvani hisslər yaradan səhnələr nəqş etməyi tərgitmişdi…

Təhmasib şah dərindən köks ötürdü. Ürəyinin lap dərinliyində heyifsiləndi ki, nəqqaşlıq peşəsi ilə mütəmadi məşğul ola bilmədi. Şahlığın minbir qayğısı, çarpışmalar, vuruşmalar, tayfalar arasındakı bitib-tükənməyən didişmələr, hərc-mərclik, qovğalar, saraydakı ixtilaflar onun zərif duyğularını alt-üst edir, əlinə fırça almağa macal tapmırdı. Az qala hər il üstünə qoşun çəkən özbək padşahı Übeyd xanla nə qədər çarpışmaq olardı?! Bu il burnunu əzirdi, gələn il yenə peyda olurdu.

Bu cılız bədənli adam öz inadından əl çəkmirdi. Neçə dəfə Xorasana soxulmuşdu, vurub çıxartmışdı, amma yenə ona dərs olmamışdı. Döyüşlərin birində Qızılbaş sərkərdələrindən biri Übeyd xanın başına var gücü ilə bir əmud ilişdirib onu atından salmışdı. Heyif ki, onu ölmüş bilib atdan düşüb başını kəsməmişdi. Übeyd xan bu əmud zərbəsindən ölməmişdi, amma ömürlük kar olmuşdu. Ona görə də Qızılbaşlar ona Kar Übeyd deyirdilər.

Ömrünün bir qismi də Osmanlı Sultan Süleymanla, qardaşı Əlqas mirzəylə döyüşlərdə keçdi. Yaxşı ki, Sultan Süleyman sonda dindaşlarından əl çəkib üzünü Avropa dövlətlərinə tutdu. Atası Şah İsmayıl da, intiqam hissilə yanmağına baxmayaraq, onunla hörmətlə davranıb Fransa və Rusiya ilə qovğaya girən Sultan Süleymanla dava etmək fikrindən daşındı. Eh, kənardan gəlmələrlə çarpışıb-vuruşmağa nə var, vay o günə özününkülərlə vuruşmalı olasan. Dəhşət onda olur. Sonu görünməyən, bitib-tükənməyən bir qovğaya düşürsən.

Nələr, nələr baş vermədi bu əlli üç ildən artıq hakimiyyəti dövründə. Axı hər şeyi kəsib atmaq olmur. O da bir şah kimi, çox naqisliklər görürdü, amma özünu görməməzliyə vururdu. Bilirdi ki, çözələyib axırına çıxa bilməyəcək, ilişib qalacaq kələfin içində. Hə, ömür beləcə keçdi… Əgər vaxt tapsaydı, əcəldən möhlət olsaydı, bir az da nəqqaşlıqla məşğul olardı. Bu halında özünü ən çox nəqqaşlığa az vaxt ayırmağına görə qınayırdı.

O, indi ömrünün bu son günündə eşitdiklərini, gördüklərini bütün çılpaqlığı ilə gözləri önündə canlandırır, bütün bunları kağız üzərinə, kitab səhifələrinə, çini boşqablara, piyalələrə, məcməyilərə nəqş etməməyindən darılırdı. Fürsəti fövtə vermişdi. O, atası ilə Malqucoğlunun döyüş səhnəsini yaddaşında o qədər aydın canlandırırdı ki, belə bir tarixi döyüşün əbədiləşməməsinə heyifsilənirdi.

II fəsil

SARAYDA BİR PƏRİ DOLAŞIRDI

Ey Həqiqi, ço tora ömr be payan berəsəd,

Ba həme hekmətе-loğman dava nətvan kərd1.

Qapı ahəstəcə açıldı. Xoş bir ətir qoxusu doldu otağa. Şah gözüyumulu olsa da, bu ətir qoxusundan gələnin kim olduğunu anladı; sevimli qızı Pərixan bəyim idi. O, doğrudan da, bir pəriydi. Pərixan bəyim həm gözəl, həm də ağıllı, dərrakəli bir qız idi. Şah onu çox sevirdi. Bu mütənasib əndamlı, nazlı-qəmzəli qızın ala gözləri o qədər nüfuzedici idi ki, baxanların qəlbini titrədirdi. Bir sözlə, Pərixan bəyim sanki baharın özüydü. Yerişi, duruşu, uca boyu, zərif vücudu, cingiltili gülüşü adama gəl-gəl deyirdi. Təhmasib şah qızının bir sözünü iki eləməzdi. Dövlət işlərində belə, Pərixan bəyimlə məsləhətləşirdi. Şahın qızına istəyi o həddə idi ki, hətta onu ərə getməyə məcbur etmirdi. Şah Pərixan bəyimi qardaşı Bəhram mirzənin oğlu Bədiüzzamana nişanlamışdı. Pərixan bəyim nişanlanmağa etiraz etməsə də, ərə getməyə tələsmirdi. Yazıq Bədiüzzaman vüsal həsrətiylə odsuz-ocaqsız yanırdı. Pərixan bəyim onun gözlərinə ilahi bir pəri kimi görünüb çəkilərdi. Bu qızda hakimiyyət həvəsi, kiminsə arvadı olmaq həvəsindən qat-qat üstün idi. Nişanlansa da, məhəbbət qəlbinə yol tapmamışdı, gecələr eşq odunda yanmırdı. Hakimiyyət eşqi isə, elə bil onun canında, qanındaydı. Müşkül işi asan eləmək, açılmayan düyünləri açmaq, iti, çevik ağlı ilə qarşısındakını susdurmaq, özünə ram etmək onun xislətindəydi. Gərək Bədiüzzamanda Pərixan bəyimdə olan bu keyfiyyətlərin hamısından üstün cəhətlər olaydı ki, qızın qəlbini ələ ala biləydi. Bədiüzzaman düşünürdü ki, Pərixan bəyim hər qıza bənzəmir, o, gərdək arxasında oturub arvad olmaq üçün ər gözləyən qızlardan deyil. Pərixan bəyim nə isə sirli bir aləmdi. Oğlan bütün bunları duyduğundan şəriətin qanununa əsaslanıb, nişanlısına sahib olmaq istəmirdi, onun qəlbinə açar axtarırdı.

Sarayda bir pəri dolaşırdı ruh kimi, ətir saça-saça. Nökərlər, qaravaşlar da ona pərəstiş edirdilər.

Sarayda, Səfəvilər şahının yanında xətir-hörməti olan bu gənc xanıma şairlər, nəqqaşlar da biganə deyildi. Bir dəfə şair Mövlana Möhtəşəm Kaşi ona bir qəsidə həsr eləmişdi. Xanım şairin qəsidəsini - ünvanına yağdırılmış tərif dolu sözləri oxuyub xoşhal olmuşdu. O yaxşı bilirdi ki, şairin sözü quşqanadlı olar. Dillərdə dolaşmağın nəyi pisdir ki… Qəsidəni ona gətirən nökərlə şairə bir neçə qızıl pul göndərmişdi. Möhtəşəm Kaşi bundan ruhlanıb bir qəsidə də Şah Təhmasibə yazmışdı. Şair qəsidəsində şahı qaldırıb qoymuşdu dağ başına. Onu dahilər dahisi, igidlikdə, şücaətdə tayı-bərabəri olmayan sərkərdə, səxavətli, rəhmdil şah kimi məth eləmişdi. Şair qəsidənin üzünü xəttata köçürtdürüb Pərixan bəyimə

göndərmişdi və ondan xahiş etmişdi ki, atası mürşidi-kamilin mübarək əlinə tapşırsın.

Pərixan bəyim qəsidəni atasına verməkdə bir neçə gün tərəddüd etmişdi. Buna da səbəb o idi ki, şah sarayda şairlərə yer ayırmamışdı. Bu barədə söz düşəndə eşitmişdi ki, atası hakimiyyətinin ilk illərində şairlərə də nəqqaşlar kimi hörmət edib sarayda saxlayırmış, amma onların şəraba meyilini görüb işarə edib ki, sarayı tərk eləsinlər. İndi sarayda bir nəfər də olsun şair yoxdu.

Bir gün Pərixan bəyim şahın divanxanasına gedəndə qərara almışdı ki, Möhtəşəm Kaşinin qəsidəsini atasına təqdim etsin. Pərixan bəyim atası ilə üzbəüz əyləşib ordan-burdan söhbət eləyəndə birdən soruşmuşdu:

- Ata, sən şairləri heç sevmirsən?

- Necə bəyəm? - Şah davamlı baxışlarıyla qızını ayaqdan - başa süzmüşdü.

- Mənə belə gəlir ki, şairləri sevmirsən.

- Xeyr, şairə, sənətə hörmətim çoxdur. Onlara hörmət-izzətim olmasaydı, saray kitabxanasında bu qədər nəqqaş, xəttat, kitabdar saxlayardımmı?

- Bəs elə isə, məmləkətimizdə şairlər çox olsa da, sarayımızda niyə yoxdur?

- Şairlər ruhən çox azadlıq sevəndilər, mən onları sarayın hücrələrində saxlamaq istəmirəm. Bir də, sarayda olsalar, günlərini məni, şahzadələri vəsf etməklə keçirəcəklər.

- Nə olar, bizi vəsf etmək eləmi günahdı? - deyə Pərixan bəyim ala gözlərini süzdürüb o qədər ürəkdən gülmüşdü ki, şah da ona qoşulmuşdu. Nəhayət, şah gülüşünə ara verib:

- Əlbəttə, bizi də vəsf etmək olar. Amma buna bütöv bir şair ömrü sərf etməyi kimsəyə arzu etməzdim.

- Amma, dediniz ki, bir dəfə olar.

Şah qızının işıq saçan gözlərinə məftunluqla baxıb:

- Hə, bir dəfə olar, - deyə onunla razılaşdı. Pərixan bəyim fürsəti qaçırmadı.

- Ata, - dedi, - şair Mövlana Möhtəşəm Kaşi sənin şəninə gözəl bir qəsidə yazıb. -- Yaylığının altından müşk-ənbər qoxuyan kağızı çıxarıb şaha uzatdı. Şah ürəyində qızının siyasətinə əhsən deyib kağızı aldı. Qəsidəni ürəyində oxudu və təəssüflə başını buladı:

- Görürsən, Pərixan bəyim, vergili bir adam mənim şənimə nə qədər şirin-şəkər söz toxuyub.

- Ata, məgər sən bu tərifə layiq deyilsən?

- Qızım, söhbət mənim tərifə layiq olub- olmamağımdan getmir. Bu qəsidədə Möhtəşəm Kaşinin istedadı yox, dəllallığı üzə çıxıb.

Pərixan bəyim razılaşmaq istəmədi:

- Hər kəs öz işinin dəllalıdı da, ata, - dedi.

- Hər kəs ola bilər, amma mən şairi dəllallıq eləyən görmək istəmirəm. Bir məmləkətin şairi ki, var-dövlət, şan-şöhrət üçün söz dəllallığına qurşandı, vay o məmləkətin halına.

Pərixan bəyimin biçimli qəşəng dodaqları büzüldü:

- Ay ata, bəs bu şair bədbəxt necə dolansın?

Şah ayağını ayağının üstünə aşırdı:

- Mən demirəm ki, şair acından ölsün. Vəsf etməyə özünə başqa bir ünvan tapsın. Allaha, peyğəmbərə yaxın səhabələri, yurdumuzu vəsf eləsin. Şərəfli keçmişimizi nəzmə çəksin. Əlbəttə, Möhtəşəm Kaşi layiqli bir əsər yaradarsa, mən onun zəhmətini dəyərləndirərəm. Amma məni az qala, əstəğfürullah, Allaha bərabər tutan bu qəsidəyə heç bir dinar da vermərəm. Bilirsən niyə? - şah sınayıcı nəzərlərlə qızına baxdı.

Pərixan bəyim gülümsəyərək soruşdu:

- Niyə?

- Əgər mən bu qəsidəyə görə Kaşini mükafatlandırsam, qorxuram ölkəmdə mənə qəsidə yazmayan şair qalmaya. Sən elə zənn etmə mən tərif sevmirəm. Yox, sevirəm. Amma istəmirəm şairlər məndən büt düzəltsinlər, məni Allahın, peyğəmbərin şəriki eləsinlər. - Sözünə ara verdi. - Söylədiklərinə rəğmən Möhtəşəm Kaşiyə heç nə verə bilmərəm. Düşünsə, görər ki, mən onu çiyninə götürmək istədiyi ağır bir yükdən qurtarmaq istəyirəm.

- O nə yükdü elə, ata?

- Sənin bu sevimli şairin Möhtəşəm Kaşi deyir ki, canım ağzımdan çıxana kimi qələmim sənin xidmətində olacaq. Yazır ki, mən səni, əsilini-nəslini, oğul-qızını, nəvə-nəticəni ölənə kimi vəsf edəcəyəm. - Şah köks ötürdü. - Yazıq deyilmi? O

şairə xəbər göndər, de ki, məmləkətdə huri-mələklər ola-ola vaxtını məni vəsf etməyə sərf etməsin. Axı o, vergili şairdir. Möhtəşəm Kaşi rübailərinin birində gör necə gözəl deyibdi:

Ey badi-səba, naməni ol yarə yetir,

Şəhri-dili-zarimi vəfadarə yetir,

Dil müntəziri-vüsaldır tanrı üçün,

Öldüm yenə, ey məsih, bir çarə yetir.

Söhbət bununla da bitmişdi. Pərixan bəyim atasından şairə barat ala bilməsə də, həyat dərsi almışdı. Sən demə, müdrik adammış atası. Tərifə uymamışdı.

III fəsil

BİR DAMLA GÖZ YAŞI

Dünya duracaq yer deyil, ey dil, səfər eylə,

Aldanma onun alına, ondan həzər eylə.

İmadəddin Nəsimi

Şah Təhmasib sevimli qızına istəkli bacısı Pərixan xanımın adını qoymuşdu. O, bu ad seçimi ilə qəlbinin lap dərinliyində hərdən-hərdən qövr edən kədərini bir növ unutmaq istəmişdi. Çünki bacısı Pərixan xanımla bağlı ürəyində bir nisgil vardı. Yaşa dolduqca bu nisgil peşmanlıq qarışıq bir ağrıya çevrilmişdi. Bu kədər o hələ dünyaya gəlməmişdən çox-çox qabaq baş verən qanlı-qadalı olaylardan qaynaqlanırdı. Hər şey də Şirvan torpağından başlamışdı. Babaları Şeyx Cüneyd, Şeyx Heydər bu Şirvanın yolunda başlarından keçmişdilər. Buna görə Səfəvilər zaman-zaman Şirvanşahlara kin bəsləmişdilər. Şirvanşah 1 Xəlilüllah ulu babası Şeyx Cüneydin, onun oğlu Fərrux Yasar isə babası Şeyx Heydərin başını kəsdirmişdi. Buna görə də Qızılbaşlar kin içində qovrulurdular. Əhdə sadiq müridlər Şeyx Heydərin oğlu balaca İsmayıla da düşmənini göstərib onu gələcək

döyüşlərə hazırlamışdılar. Qızılbaşlar 1500-cü ildə özlərində Şirvanşahla vuruşmağa güc hiss etdilər. Onlar bu qərara keçən ilin axırlarında Ərzincandakı toplantıda gəlmişdilər. Gecə-gündüz məscidlərdəki sufiyanə söhbətlər, aşkar-gizli danışıqlar artıq öz bəhrəsini vermişdi. İsmayılın başına ustaclı, şamlı, rumlu, təkəli, zülqədər, afşar, qacar tayfalarından çoxlu mürid toplanmışdı. Qüvvətli əllər, məslək, əqidə sahibləri on üç yaşlı yeniyetmə İsmayılı özlərinə şeyx seçmişdilər. Zəmanənin gərdişinə, papaq altında düşünən başların sədaqət, vəfalılıq peymanına bax ki, yeniyetmə bir uşağı at belinə qaldırıb ona inam bəsləyirdilər. Ona: «Sən hələ uşaqsan, get uşaq işinlə məşğul ol» deyən kimsə yoxdu. Çünki bu yeniyetməyə qarşı ürəklərdə kin, həsəd küləyi əsmirdi, əksinə, onun yetkin bir gənc olduğunu etiraf edirdilər. İsmayıl da, «Mənim bu yaşımda döyüş meydanında nə işim var», - deyib kənara çəkilmirdi. Əksinə, at belində, başında atası Şeyx Heydərə məxsus qızılbaş papağı, müridlərin önündə gedirdi. Kimsə onu hazırın şahı etmək fikrində deyildi. Şah olmaq istəyirsən, buyur, ancaq zəhmət çək hər şeyi, qorxunu, sevinci, kədəri özün öz canınla yaşa. Hazır taxt-tac yoxdur! Bu taxt-tacın uğrunda vuruşmalısan. Qanlı döyüşlərdən igid sərkərdə kimi çıxsan, lap yaxşı, yox, məğlub, ya da şəhid olsan, bəxtindən küs. Amma o işi ki, sən görməlisən, zəhmət çək onu şərəflə yerinə yetir. Bəli, onda oturduğun taxt-tac sənin halal haqqındı. On üç yaşlı İsmayıl halal haqqını öz şəxsi şücaəti ilə qazanmalıydı. Gəncədən, Qarabağdan onlara qoşulanlar vardı. Qoyun ölümü deyilən yerdə Kürü keçib Şamaxıya hücum etməliydilər. Başına toplaşmış əmirlər, qoşun böyükləri Kürü bərəsiz keçməyin mümkünsüz olduğunu söyləyirdilər. Körpü-bərələr düzəltməyə isə vaxt lazımdı. İsmayıl fikirləşirdi ki, vaxt itirmək olmaz, Fərrux Yasarın üstünə qəflətən, gözlənilmədən hücum etmək lazımdı. İsmayıl bunu fikirləşib qızılbaşlara bir söz demədən atını dəhmərləyib münasib bir yerdən çaya saldı. Hamı bu saat onun çayda batacağını düşünürdü. Amma belə olmadı, İsmayıl atın belində üzüb qarşı sahilə çıxdı. Hamının gözündə bu on üç yaşlı oğlan o anda ucadan uca göründü: «Doğrudan da, ağıl yaşda deyil, başdadı» deyə düşünən qızılbaşlar mürşidlərinə heyranlıqlarını gizlədə bilmədilər.

… Döyüş başlamışdı. İsmayıl yeddi minlik süvarisi ilə özününkündən sayca çox olan Şirvanşahın qoşunu ilə döyüşürdü. Qələbənin ilk uğuru ürəklərdə olmalıdı, qəlblər qorxu hissilə çırpınırsa, məğlubiyyət qaçılmazdı.

İsmayılın süvariləri döyüşə qələbə həvəsi ilə girmişdilər. Şirvanşah Fərrux Yasar da süvarilərini həvəsləndirmək üçün qılıncını sıyırıb döyüşürdü.

Döyüş Cabani adlanan yerdə gedirdi. Ağaclarda titrəşən qızılı yarpaqlara, atların ayaqları altında tapdanan yamyaşıl xırda payız otlarına fikir verən yoxdu. Qılınc zərbələri, at kişnərtisi, süvarilərin nərələri, yaralıların fəryadı çılpaq təpəliklərdə

əks-səda verirdi. Dili dilindən, dini dinindən olan insanlar bir-birinə qənim kəsilmişdilər. Üstunluk on üç yaşlı İsmayılın tərəfindəydi. Bir qədər də çarpışmadan sonra şirvanlılar məğlub oldular. Fərrux Yasarın sərkərdələri döyüş meydanında şəhid olmuşdular. Şirvanşah Fərrux Yasarın üç oğlu vardı. Bəhram bəy sabahkı günü göz altına alıb döyüşün şiddətli vaxtında atasının izni ilə Gülüstan qalasına çəkilmişdi, Bakının, Mahmudabadın, Salyanın hakimi Məhəmməd Qazi bəy Bakıdakı iqamətgahında idi. Digər oğlu - Şeyxşah deyə əzizlədiyi Şeyx İbrahim də məğlubiyyətin qaçılmaz olduğunu görüb Bakıya üz tutmuşdu.

Doğrudur, Şeyxşah bir ara Şəki hakimi Şah Hüseynin felinə uyub atasına qarşı çıxmışdı. O da qoşun çəkib Qəbələdə onları məğlub eləmişdi. Məğlubiyyətin acısını duyub peşman olan Şeyxşah atasının hüzuruna gəlib bağışlanmasını rica etmişdi. Fərrux Yasar o anda qəzəbindən bığlarının ucunu çeynəsə də, əlini oğul qanına batırmaq istəməmişdi: «Bir də yolunu azsan, özündən küs!» demişdi və atının başını çevirmişdi.

Belə baxanda, Fərrux Yasar ədalətli hakim idi. Şairlərin, alimlərin, ruhanilərin, dərvişlərin qayğısına qalar, rəiyyətini ədalətlə idarə etməyə can atardı.

İndi ömrünün bu anında oğlanları sarıdan da bir qədər rahat olmuşdu. Tanrı ona övlad dağı göstərməmişdi. Ancaq meydanda tək qalmışdı. İndi onu tərk edənləri heç qınamırdı da. İnsan öz canının hayında olanda başqası yada düşmür. Fərrux Yasar Allahı çağırıb qara kəhərini Buğrut qalasına tərəf çapmağa başladı. Məqsədi dağılmış qoşununu alınmaz Gülüstan qalasına toplamaq idi. Qalaya sağ-salamat çata bilsəydi, yerdə qalan qüvvələrini üstünə yeriyən bu qızılbaş selindən qoruyardı.

Lakin qızılbaşlar Buğrut qalasına sarı çapan atlını gördülər. Qoşundan bir dəstə ayrılıb atlının ardınca çapdı. Hüseyn bəy Lələnin şələbığ, yekəpər cilovdarı Şahgəldi ağa qılıncını əlində tovlaya-tovlaya atını lap qabaqda çapırdı. Çuxasının ətəkləri qartal qanadı tək gərilmişdi. O, atlını haqlamaqdaydı. Yox, deyəsən Tanrı Fərrux Yasardan üz döndərmişdi; atı da daha sözünə baxmırdı, əvvəlki kimi dördnala çapmırdı. Fikirləşdi ki, Allahın qabağında nə günah iş tutub. Axı, o, Ərdəbil şeyxlərinin üstünə qoşun yeritməmişdi, əksinə, onlar Şirvana hücum eləmişdilər, Allahın izni ilə də cavablarını almışdılar. Bəs harada, nə zaman günaha batmışdı? «Günahsız insanmı var, Fərrux Yasar, - düşündü, - özün də hakim olasan. Kəsdiyin başın sorğu-sualı vardımı? Yoxdu, Fərrux Yasar, yoxdu! Sevindirdiklərin də olub, sinsitdiklərin də…» Ölüm qaşla göz arasındaydı. Fərrux Yasar ona doğru çapan süvariləri, yerdəki Əzraillərini görüb xilası üçün çarə

arayırdı. Çox pis yerdə axşamlamışdı. Bir anlığa bütün həyatı gəlib gözü önündən keçdi. Acı-acı düşündü ki, deyəsən, bu dünyadan öz əcəli ilə köçmək ona qismət olmayacaq. Ömrunü naz-nemət içində yaşasa da, həyatdan doymamışdı hələ. Altmış yaşına təzəcə qədəm qoymuşdu, qolunda güc, dizlərində taqət, ürəyində təpər vardı. Otuz beş ildi ata-babalarının taxtında oturub padşahlıq eləyirdi. Adı gümüş sikkələrin üstündə yazılırdı. Onun hakimiyyət əli də çox uzun idi. Dərbənd, Dağıstanın cənub əyalətləri də ona tabe idi. Əlinin üstə əl yoxdu. İndi əyan-əşrəfsiz, sərkərdəsiz, qoşunsuz, hətta hökmü altındakı qara kəhər atına da çatmayan adicə bir Allah bəndəsi idi. Bir Allahı, bir də özü bilirdi ki, bu yorğun atın üstündəki adam Buğurt qalasına çatmağa, Gülüstan qalasına sığınmağa can atan otuz beş il Şirvanşahlar taxtında oturmuş Fərrux Yasardı. Keçib getdiyi bu yol, ağacda titrəşən qızılı yarpaqlar, batmağa tələsən günəş, təzəcə göyərmiş payız otları, vəhşi heyvanlardan yox, insanlardan qorxub qaçan quşlar onun bu yerlərin hakimi Fərrux Yasar olduğunu bilirdilər, bilmirdilər, deyə bilməzdi. Ah, qanı qanından, dili dilindən, dini dinindən olan düşmənin zərbəsindən atın ayaqları altına düşmək necə də acı bir mənzərədi.

Fərrux Yasarı çəkib atından yerə salmışdılar. Çox sevdiyi qara kəhərinin cilovu düşmən əlindəydi. Acı-acı gülümsədi: «At kimindi? - Minənin! Arvad kimindi? - Saxlayanın».

Müqavimət göstərməyin yeri yoxdu.

Cilovdar Şahgəldi ağa Fərrux Yasarın görkəmindən, təkəbbürlü baxışlarından, atının yəhər-yüyənindən, gümüş pulcuqlarla bəzədilmiş sinəbəndindən bu adamın elə-belə, yoldan keçən biri olmadığını duymuşdu. O, Fərrux Yasarın gözlərinin içinə sınayıcı nəzərlərlə baxaraq soruşdu:

- Kimsən, nəçisən?

Fərrux Yasar yalan söyləməyi şəninə sığışdırmadı:

- Mən Şirvanşah Fərrux Yasaram!

Şahgəldi ağanın çiçəyi çırtladı:

- Çox pakizə. On iki il bundan əvvəl mürşidimiz şücaətli Şeyx Heydərin başını kəsdiyiniz gün yadınızdadırmı?

Fərrux Yasar halını pozmadan:

- Bəli, yadımdadır. Ancaq şahlar baş kəsmirlər, - dedi. - Şeyx Heydərin başını sənə bənzər bir nökərim - qapıçı Əli ağa kəsib gətirmişdi, mən də onun qiymətli başını

doğmaca dayısına, qızımın əri, nəvəm Baysunqurun atası Sultan Yaquba göndərdim. O da onun başını görk üçün üç gün camaata göstərib anası Xədicəyə qaytardı.

Şahgəldi ağa qılıncını tovladı:

- İndi mən də sənin o qiymətli başını bədənindən ayırıb mürşüdümüz Şeyx Heydərin oğlu İsmayıla aparacam.

Fərrux Yasar acı-acı gülümsədi:

- Baş kəsmək nökərlərin işidi, ehtiram göstərmək ağaların. Lafın yeri deyil, başımı aparıb ənamını alarsan!

Şahgəldi ağa qeyzləndi:

- Hərzə-hərzə danışma! Sən mənim əsirimsən.

Fərrux Yasar qarşısındakı cəlladı nifrətlə süzdü:

- Ey yolunu azmış qudurğan gəda, həddini bil! Mən Allahın əsiriyəm, sən kimsən?! Məni ağrıdan sənin kimi bir duyğusuzun əlində girinc olmağımdır.

Şahgəldi dilini gödək eləmədi:

- Sənin kimiləri şahlıq taxtına bizlər oturtmuşuq, ey Fərrux Yasar! İndi mən səni o taxtından salaram, bilərsən mən kiməm, - dedi.

Bu an üstlərinə kölgə düşdü. Bir topa qapqara bulud yağmağa, Fərrux Yasarın bu vəziyyətinə ağlamağa hazır dayanmışdı. Doğrudan da, şehə bənzər iri bir damcı Fərrux Yasarın sol yanağına düşdü, göz yaşı kimi iz salaraq cod saqqalında görünməz oldu. Fərrux Yasar sonuncu dəfə doğma yerləri, başı üstündəki bir topa qara buludu süzdü. Qəribə idi ki, canında qorxudan əsər-əlamət yoxdu. Əcəli gəlmişdi və ölməyə hazır idi. Özünü toplayıb canını almağa hazırlaşan cəlladına - Şahgəldiyə heç vaxt yadından çıxmayan acıdan acı nəsə bir söz demək istədi, amma buna macal tapmadı. Şahgəldi ağa elə bil eşidəcəyi - zaman-zaman onu ağrıdacaq o sözdən qorxdu və var gücü ilə qılıncını hərlədi, Fərrux Yasarın başı ayaqları altına düşdü. Şirvanşahın başsız bədəni müvazinətini itirib otluğa düşdü. Bu an şimşək çaxdı, şıdırğı yağış başladı. Şirvanşahın qanı yağış suyuna qarışıb çəmənliyə axdı. Əlində Fərrux Yasarın kəsilmiş başını tutmuş Şahgəldi ağaya elə gəldi ki, ətrafında nə varsa qan rənginə boyandı.

Şahgəldi ağa Fərrux Yasarın kəsilmiş başını torbasına atıb atının belinə sıçradı və İsmayılın hüzuruna tələsdi. O, atını qəribə bir havanın içi ilə çapırdı. Bir tərəfdə yağış yağır, bir tərəfdə isə günün solğun şəfəqləri tala-tala ağ-qara buludları çəhrayı rəngə boyayırdı.

Şahgəldi ağa özünü yeniyetmə sərkərdəyə yetirib baş əydi və torbanı çevirdi. Fərrux Yasarın kəsilmiş bası onun qarşısındaydı. Şirvanşahın gözləri açıqdı, kinli-kinli baxırdı. İsmayıl Şirvanşahın gözlərini qapatdı. Şahgəldi ağaya da «sağ ol» deyib bir ovuc qızıl bağışladı.

İsmayıl üç gün üç gecə düşərgəsindən kənara çıxmadı. Üç gündən sonra Şamaxıya girdi. Seyidlər, qazılar, əyanlar onu qarşılayıb baş əydilər. İsmayıl taxta çıxdı, amma şəhərdə cəmi bircə gün qaldı.

Fərrux Yasarın yerdə qalan qüvvəsi Gülüstan qalasına sığınmışdı.

Bəhram bəy atası Fərrux Yasarın yerini tutmuşlu. Lakin Şirvan həmin Şirvan deyildi…

İsmayıl eşitdi ki, döyüş meydanından qaçıb canını qurtarmış Fərrux Yasarın oğlu II Şeyx İbrahim - hamı ona Şeyxşah deyərdi - Xəzər dənizinin sahilindəki Şəhrinoy qalasındadır. Salamat qalmış qoşunu ətrafına toplayıb. İsmayıl sərkərdəsi Hülafə bəyə qoşun verib Şeyxşahın üstünə göndərdi. Şeyxşah müqavimətin yersiz olduğunu görüb adamları ilə gəmiyə oturub Gilana yollandı. Hülafə bəy Şəhrinoyu müqavimətsiz tutdu. Növbə Bakının idi. Üçqat möhkəm divarlarla, bir tərəfi dənizlə, geniş və dərin xəndəklərlə əhatə olunmuş Bakını almaq qızılbaşlar üçün heç də asan olmadı. İsmayıl özü də Bakıya gəldi. Mühasirə altı ay çəkdi. Məhəmməd Qazi bəy də Şamaxı ilə Bakı arasında qalmışdı. Özü Bakıda olmayanda arvadı onu əvəz eləyirdi. İsmayıl Bakını təslim etmək üçün o qadının yanına elçi göndərmişdi, hakimiyyəti əlinə almış qadın isə, Bakının açarı əvəzinə, elçisinin başını ona göndərmişdi. Bakının darğası Əbülfət ağa da qadına müqavimətin mənasız olduğunu, təslim olmaq təklifini etdiyinə görə başından keçmişdi. Məhəmməd Qazi bəy belə cəngavər xanımı ilə fəxr eləyə bilərdi.

Müqavimətə baxmayaraq, İsmayıl 1501-ci ilin baharında Bakını aldı, Şirvanşahların xəzinəsini ələ keçirdi.

Şirvanşahlar indi də Gülüstan qalasına sığınıb müqavimət göstərirdilər. İsmayıl Şamaxıya gedib Gülüstanı mühasirəyə aldı. Bir səhər söz sahiblərini başına yığıb soruşdu:

- Ağalar, sizə Gülüstan qalası lazımdı, yoxsa Azərbaycan taxtı?

- Azərbaycan taxtı.

- Elə isə, mən indi Naxçıvanda oturub üstümüzə qoşun göndərməyə hazırlaşan Ağqoyunlu Əlvənd mirzənin üstünə gedirəm. Şirvanı da Hüseyn bəy Lələyə tapşırıram, - deyə İsmayıl süvarilərinə dərhal atlanıb yola çıxmağı əmr etdi.

Hüseyn bəy Lələ uşaqlıqdan tərbiyəsi ilə məşğul olduğu, yolunda çox əziyyət çəkdiyi İsmayılı yalqız qoymaq istəmədi, Şirvanı cilovdarı Şahgəldi ağaya tapşırıb onunla getdi. İsmayıl onun verdiyi qərara etiraz etmədi.

Fərrux Yasardan sonra onun yerini oğlu Bəhram bəy tutdu. Bu xəbəri eşidəndə Məhəmməd Qazi qardaşından rəncidə olmadı. Fikirləşdi ki, indi taxt-tac uğrunda boğuşmaq zamanı deyil. Təki Şirvanşahlar sülaləsinin kökü kəsilməsin. Taxtda Bəhram oturdu, ya da o, fərq etməz. İndi pərən-pərən olmuş, növrağı dönmüş şirvanlıların qayğısına qalmaq, onları düşgünlük girdabından çıxarmaq gərəkdir…

Amma Bəhram bəyin hakimiyyəti uzun sürmədi, bir ildən sonra öz əcəli ilə dünyasını dəyişdi. Qazi bəy qardaşının yasını verib hakimiyyəti öz əlinə aldı. Qazi bəy Şirvanın dağlıq yerlərindəki qalalara sığınaraq hələ də qızılbaşlara müqavimət göstərmək niyyətində idi. Lakin ona qızılbaşlarla təkrar döyüşmək qismət olmadı, hakimiyyətinin altıncı ayında oğlu Sultan Mahmud qiyam qaldırdı və onu qətlə yetirdi. Amma şirvanlılar bu ata qatilini heç taxtını isitməyə də qoymadılar. Sultan Mahmud şirvanlıların rəğbətini qazana bilmədi. Bu vaxt Gilanda gizlənən Şeyxşah qardaşının ölüm xəbərini eşidib Şamaxıya gəldi. Sultan Mahmud hələ Şamaxıya çatmamış, şirvanlıların Şeyxşahın pişvazına getdiklərini eşidib başını salamat saxlamaq üçün sarayını tərk etdi.

Şeyxşah dəbdəbə və təntənəylə gəlib Şirvanşahlar taxtında oturdu. Şahgəldi ağa camaatın Şeyxşaha rəğbətini görəndə canına üşütmə düşdü. Çölün düzündə Şeyxşahın atası Fərrux Yasarın başını kəsəsən, sonra da əlinin qanını yuyub, namaz qılıb, salavat çevirib gəlib oturasan kişinin çənəsinin altında, başını salamat saxlayasan… Yox, bu, baş tutan sevda deyildi. Qanı qanla yuyublar, Allahın izni ilə qisas qiyamətə qalmır. Amma Şahgəldi ağa qırxıq başını qaşıyıb, şələ bığına sığal çəkib, pırpız qaşlarını oynadandan sonra qisasın qiyamətə qalmasını istədi. Bir gecə başının dəstəsi ilə Şamaxıdan çıxıb Bakıya gəldi və həmişəlik burada qaldı. Oğul-uşağı artıb çoxaldı, qorxa-qorxa, hürkə-hürkə, səksəkə içində uzun bir ömür yaşadı. Buna yaşamaq deyərlərsə. Bu dünyadan köçəndən sonra ondan İçərişəhərdə Şahgəldilər məhəlləsi yadigar qaldı. Yadıcaları onun nə vaxtsa Şirvanşah Fərrux Yasarın bışını kəsdiyindən xəbərsiz yaşayırdılar. Onlar bilmirdilər ki, babaları Şahgəldi ağa Şirvanşah Fərrux Yasarın başını kəsməsəydi, tarixdə o adda adamın heç tozu da qalmayacaqdı. Görünür, baş kəsməklə də tarixə

düşmək olurmuş. Ancaq bu da baş kəsənin şücaətinə görə deyildi, kəsilən başın kimə məxsusluğuna görə idi…

Gülüstan qalasında vaxt itirməyin mənasız olduğunu başa düşən İsmayıl, Naxçıvana tələsmişdi. Şərur düzündə hər iki qoşun üz-üzə gəlmişdi. Qüvvələr nisbəti Əlvənd mirzənin xeyrinə olsa da, İsmayıl onu məğlub etmişdi. Əlvənd mirzə Ərzincana qaçmışdı. Bəxt bu Ağqoyunlu hökmdarından üz döndərmişdi.

İsmayıl isə təntənəylə Təbrizə girib Azərbaycan taxtında oturmuşdu. O, tarixdə ilk dəfə öz adına yox, on iki imamın adına xütbə oxutduraraq Səfəvilər dövlətinin əsasını qoymuşdu…

* * *

Şirvandan çıxan Sultan Mahmud xilasını Şah İsmayılın sarayına qaçmaqda gördü. O, artıq bir neçə gündən sonra Təbrizdə, Şah İsmayılın hüzurunda idi. Şah İsmayıl qarşısında boynunu burub suçlu-suçlu, hürkmüş baxışlarla ona baxan Sultan Mahmudu xeyli süzüb fikrə getdi: «Allah bilir şirvanlılarla döyüşdə neçə qızılbaşın canına qıyıb bu hərif!» Fərraşlar, cəlladlar qapının dalındaydı, şahın əmrini gözləyirdilər. Sultan Mahmudun, bu ata qatilinin taleyi indi onun əlindəydi. Şah İsmayıl susub fikirləşirdi. O fikirləşdikcə Sultan Mahmud da gün dəymiş sırsıra təki əriyir, ölüb-dirilirdi. Zalım oğlu Şah İsmayıl da, deyəsən, onun bu halından ləzzət alırdı, qərar verməyə tələsmirdi. Bu hal diri-diri soyulmağa bərabər idi. Nəhayət, Şah İsmayılın sifəti işıqlandı. Fikirləşdi ki, el nahaq deməyib, saxla samanı, gələr zamanı. Bu niyyətlə də üzünü ata qatilinə tutub dedi:

- Murad bəy, ürəyin istəyən qədər sarayımda qala bilərsən. Mənə pənah gətirən adama zaval yoxdur.

Murad baş əydi:

- Təşəkkürlər, şah sağ olsun. Ömrüm boyu duaçınız olaram.

Şah İsmayıl çaxçaxı vurdu, qapı açıldı, fərraş içəri girdi, cəllad onun çiyni üstündən içəri boylandı. Şahın üzündəki təbəssümü görüb qılıncını qınına saldı.

Şah İsmayıl fərraşa:

- Mahmud bəy bizim əziz qonağımızdı, ona xidmət göstərin, - dedi.

Mahmud bəy qabaqda, fərraş arxada otaqdan çıxdılar.

* * *

… Sarayda Sultan Mahmuda gözün üstə qaşın var deyən yoxdu. Yeyib-içib yatmaqdan, bağ-bağatda var-gəl eləməkdən özgə bir işi yoxdu. Əsas məşğuliyyəti gecə-gündüz əmisi Şeyxşaha kin bəsləmək idi. Əmisini xəyalən asıb-kəsirdi, öz əlləri ilə at tövləsinin tirindən asırdı, çinar ağacına sarıtdırıb qırmancla döyürdü, kürəyinin dərisini soyub yerinə duz basırdı, gözünə mil çəkdirirdi, başına torba keçirtdirib qayadan atdırırdı, dəmir qəfəsə saldırıb kəndbəkənd gəzdirtdirirdi… Bu kin üç il çəkdi. Onu geri çağıran, yolunu gözləyən yoxdu. Əlacı hücum eləyib taxtı geri almağa qalırdı. O, bir gün Şah İsmayıldan kömək istədi. Şah da elə bir az əvvəl hərəmxanadan çıxmışdı, canında hələ də aldığı ləzzətin ovqatı, qadın bədəninin xoş təması vardı. Bir sözlə, kefi duruydu:

- Şirvan taxtına sahib olmaq istəyirsən? - Şah İsmayıl özündən razı, nəşəli halda soruşdu.

Sultan Mahmud baş əydi:

- Bəli, hökmdar. Ancaq Şeyxşahla tək bacarmaram, mərhəmət göstərin, qoşun verin! Taxta çıxsam, təbəəliyinizi qəbul edəcəm, adınıza xütbə oxutdurub sikkə kəsdirəcəm.

Şah İsmayıl qarşısında ikiqat olub cavab gözləyən Sultan Mahmudu süzüb, «Samanın zamanı gəldi», deyə düşündü:

- Oldu, sənə qüvvə verərəm. Sabah yola düşə bilərsən.

Sultan Mahmud baş əydi, şahdan rüsxət alıb otaqdan çıxdı. Onu kölgə kimi izləyən sevimli qulu məmlük Qara bəy gözləyirdi. Sultana sevincini gizlədə bilmədi:

- Şah qoşun verir, Qara, sabah Şirvana gedirik. Üç ildi yeyib-yatırıq, daha bəsdi.

Qara bəy də xəbərdən sevindi. Həm də ona görə ki, doğma yerlərə qayıdacaqdı.

* * *

Şeyxşah Sultan Mahmudla açıq döyüşə girməyə ehtiyat elədi. Qüvvəsini tükətmək istəmədi, ona görə də Gülüstan qalasına sığındı. Sultan Mahmud onu mühasirəyə aldı və bu mühasirə üç ay çəkdi. Gülüstan qalasında vəziyyət get-gedə ağırlaşırdı, əsgərlərə azuqə çatmırdı. Əcəl qədəm-qədəm yaxınlaşmaqdaydı.

Şeyxşahın gözünə yuxu getmirdi. Xüsusən gecələr əziyyət çəkirdi. Gecənin zəhmi çox ağırdı, elə bil bütün ağrı-acı, dərd-sər adamın üstünə gəlir. İstədin-istəmədin, içindəki dərdinlə, sevinc-kədərinlə, qorxu-hürkünlə baş-başa qalırsan.

İndi Şeyxşahın da ürəyi səksəkədə idi. Ona elə gəlirdi ki, bu gecə nəsə baş verəcək. Hər şey ola bilərdi. Düşmən kimisə ələ ala, ona sui-qəsd də edə bilərdi. Belə düşünəndə ətrafında dolaşanlara şübhə ilə baxırdı. Çox düşünüb-daşınandan sonra fikirləşdi ki, hər bir müşkül işi nizamlayan Allahdı. Bir də gördün, gözləmədiyin yerdən üzünə qapı açıldı. Mühasirə uzanır, bəlkə sabah onu mühasirəyə alanların özləri bezib çəkilib gedəcəklər. Yox, əksinə də olar. Şah İsmayıl qızılbaşlara kömək göndərə bilər… Hər şey ola bilərdi, hər şey! Şeyxşahın gözləməkdən özgə çarəsi yoxdu.

* * *

Sultan Mahmud dərin yuxuya getmişdi, amma sevimli qulu Qara bəy yata bilmirdi. Fikirləşirdi ki, yaxşı, sabah bu Mahmud Gülüstan qalasını alsa, nə baş verəcək? Təkcə əmisi Şeyxşahı öldürməklə kifayətlənəcəkmi? Şirvan camaatı ondan ədalət görəcəkmi? Onda ədalət, rəhm hissi olsaydı, atasını öldürərdimi? Ey başıboş Qara, doğma atasının qanını içən, bir gün heç nədən səni də qanına bələməzmi? Bələyər, Qara, bələyər… Dur, Qara, dur ayağa, kəs bu ata qatilinin başını, yoxsa nə vaxtsa o sənin başını kəsəcək. İlahi, sən özün kömək ol…

Yerindən qalxdı. Gecənin yarısıydı. Çölü dinşədi. Hərdənbir at fınxırtısı gəlirdi. Arxası üstə yatmış Sultan Mahmuda yaxınlaşdı. Qara bəy hiss etdi ki, bir an ləngisə gec olacaq… Var gücü ilə qılıncı endirdi. Qan fışqırdı…

Gecənin qaranlığında əlində torba, bir adam irəliləyirdi. Bu adam Qara bəyin tapşırığı ilə Mahmudun başını Şeyxşaha aparırdı.

… Şeyxşah Sultan Mahmudun kəsik başına baxıb: - Kərəminə şükür, Xudaya, - dedi, - sənə şəkk gətirən kafirdi. Sən heç kəsi cəzasız qoymursan, necə ki, qoymadın.

Şeyxşah səhərin açılmasını gözləmədi, qoşunla qaladan çıxıb qızılbaşların üstünə yeridi. Bu qəfil hücumdan özlərini itirən qızılbaşlar məğlub oldular. Şeyxşah öz taxtında möhkəmləndi. Ancaq o, başa düşdü ki, Şah İsmayılla sülhlə dolanmasa günü qara olacaq. Şeyxşah zahirən də olsa ondan asılılığını qəbul etdi. Hətta Şah İsmayıl Çaldıran döyüşündə Sultan Səlimə məğlub olanda da ondan üz döndərmədi. Şeyxşah hətta bir dəfə şahın sarayında olmuşdu. Şah İsmayıl da ona iltifat göstərir, xətrini əziz tuturdu.

Bir dəfə də Şeyxşah oğlu Sultan Xəlili qiymətli hədiyyələrlə Təbrizə, Şahın sarayına göndərdi. Sultan Xəlillə gedən ağsaqqallardan biri Şeyxşahın arzusunu şaha çatdırdı:

- Şeyxşah həzrətləri möhtərəm şahımız, mürşidi-kamilimizin qızı Pərixan xanımı oğlu Sultan Xəlilə istəyir.

Şah İsmayıl elə o məclisdə qızının «hə»sini verdi və çox keçmədi ki, qızı Pərixan xanım Şamaxıya gəlin köçdü. Şah İsmayıl kürəkənindən, Pərixan xanım da gənc ərindən çox razıydı. Sultan Xəlil ağıllı, bacarıqlı bir adamdı. Məclislər qurmağı, çal-çağırı, əyləncəni də çox sevirdi. Həmişə alimləri, şairləri məclislərinin başında oturdardı.

Şah İsmayıl ömrünün sonuna bir il qalmış Şeyxşahla ikitərəfli qohum olmaq sevdasına düşdü, elçi göndərib Şirvanşahın qızıyla evlənmək arzusunda olduğunu bildirdi. Şeyxşah bu izdivacdan şad oldu. 1523-cü ildə, payızın son ayında Şah İsmayıl özünə yaxşı bir toy elədi. Amma ona Şeyxşahın qızı ilə uzun illər bir yastığa baş qoymaq qismət olmadı. Şahdağa ova gedən şah tezliklə ağır xəstələndi, hətta Ərdəbilə də özünü çatdıra bilmədi, Sərab mahalının Mənqutay adlı yerində dünyasını dəyişdi.

Elə həmin il əcəl Şeyxşahın da qapısını döydü. İyirmi iki il hakimiyyət sürmüş Şeyxşah özündən sonra yeddi oğul, bir də Şirvanşah taxtını qoyub getdi.

Şirvan taxtına onun böyük oğlu Sultan Xəlil - II Xəlilüllah çıxdı. Şah İsmayılın da taxtında on bir yaşa qədəm qoymuş oğlu Təhmasib mirzə oturdu.

Amma zaman keçdikcə gənc Təhmasib bacısı Pərixan xanımın ərindən - II Xəlilüllahdan şübhələnməyə başladı. Əslində, bu şübhəyə heç bir əsas yoxdu. Qardaşının ərinə belə qısqanc münasibətindən Pərixan xanım da xeyli rəncidəydi. Şah Təhmasib Səfəvilər dövlətinin bütövlüyü naminə Şirvanşahlar sülaləsinə son qoymaq fikrindəydi. Onun bu niyyətinin həyata keçməsinə bacısı Pərixan xanımın Sultan Xəlilin - II Xəlilüllahın arvadı olması mane olurdu. Doğrudur, II Xəlilüllahın övladı olmurdu, amma Şirvanşahlar taxtına oturmağa hazır dayanmış

qardaşları vardı. Təhmasib şah taleyin qəzavü-qədərini çox gözləyəsi olmadı - hicri 942 (1535) -ci ildə II Xəlilüllah - Sultan Xəlil dünyadan köçdü. Onun ölümü ilə Şirvan taxtı varissiz qalmışdı. Bunu nəzərə alan əyanlar vaxt itirmədən II Xəlilüllahın Şamxal ölkəsində (Dağıstan) yaşayan qardaşı oğlu Şahruxu dərhal Şamaxıya gətirib taxta oturtdular. Əslində, Şirvanı azyaşlı Şahruxun adından Hüseyn bəy idarə edirdi. Lakin Şirvanşahların keçmiş ehtişamından əsər-əlamət qalmamışdı, ixtişaşlar, hərc-mərclik baş alıb gedirdi. Elə bu vaxt Salyan və Mahmudabadda bir qələndar (dərviş) peyda oldu və söylədi ki, bilin, agah olun, mən II Xəlilüllahın qardaşı Məmməd Əminəm, Cam yaxınlığındakı döyüşdə özbəklərin əlinə keçmişdim, dərviş paltarı geyinib birtəhər xilas olmuşam. (Həqiqətdə isə, II Xəlilüllahın qardaşı Məhəmməd Əmin Şah Təhmasibin yanında qulluq eləyirdi). Yalan ayaq tutar, yeriməz desələr də, qələndərin yalanı iri addımlarla yeridi. Ətrafına çoxlu yoxsul, həyatdan, yaşayışdın bezmiş, incik adamlar toplaşmışdılar. Beləcə, qələndərin başında yoxsullardan ibarət böyük bir qoşun yarandı. İntizamsız halda hərəkət etmələrinə baxmayaraq yalançı Məhəmməd Əmin «lütlərdən» ibarət ordusu ilə Salyanı, Mahmudabadı tutaraq Şamaxıya doğru irəlilədi. Şirvan əyanları Şamaxı sarayını müqavimət göstərmədən qələndərə təslim etdilər. Şahrux adamları ilə Buğurt qalasına çəkildi. Dul qalmış Pərixan xanım qardaşı Şah Təhmasibin gizli göstərişlərinə rəğmən hərəkət edirdi. Pərixan xanım yalançı Məhəmməd Əminin Şirvanşahlar taxtına olan iddialarını müdafiə edirdi. Hətta xanımın bu sədaqətindən qələndər o qədər ruhlandı ki, Pərixan xanımla evlənmək fikrinə düşdü. Amma Şah Təhmasib bu «evlənmə təklifini» rədd etdi. Qələndər Şirvanşahlar taxtına iddialı olsa da, necə hərəkət edəcəyini, ölkəni idarə etməyin yolunu bilmirdi. Onun başına toplaşan adamların da məramları aydın deyildi. Bir sözlə, qələndər Şirvanşahlar taxtında oturub hakimiyyət qura bilmədi və qırx gündən sonra Şamaxını tərk etdi. Qələndərin Şamaxıdan çıxıb Salyana doğru hərəkət etdiyini eşidən Şahrux ətrafındakı əmirlərlə qaladan çıxıb onu təqib elədi. Qələndərin «lütlərdən» ibarət qoşunu darmadağın edildi. Yalançı Məhəmməd Əmin ələ keçdi. Qorçubaşı Şeyx Padar onu bir az sorğu-suala çəkəndən sonra qətlə yetirdi.

Qələndərin meyiti Təbrizə - saraya göndərildi. Şahın əmri ilə onun cəsədini dəmir qəfəsə qoyub böyük bir kütlənin müşayiəti ilə Qeysəriyyə bazarına gətirdilər. (Bu o demək idi ki, ay camaat, yolunu azmış qələndərin bu dəmir qəfəsdəki cəsədinə baxın, ibrət götürün. Bilin ki, şah olan yerdə hakimiyyət həvəsinə düşən kəslərin sonu belə olacaqdır.)

Meydanda qələndərin cəsədi ətrafında böyük bir mərəkə başlamışdı. Şah Təhmasib, qardaşları Bəhmən mirzə, Əlqas mirzə, Sam mirzə və vəzir-vəkil,

möhürdar, eşikağası üçün xüsusi yer düzəltmişdilər. Guya qəfəsin içində əbədi yuxuya getmiş qələndər oyanıb oyun çıxardacaqdı. Amma qırx gün Şirvanşah taxtında oturmuş qələndər bir daha yerindən qalxası deyildi. Sadəcə bütün bunlar həyatda olanlar üçün görk idi. Muzdlu həcv yazanlar qələndəri lağa qoyur, ələ salırdılar. Nağaralar aramsız gumbuldayır, zurna-balabanın səsi kəsilmək bilmirdi. Bir neçə gün meydanda saxladıqdan sonra qələndərin cəsədini Sahibabad meydanındakı məscidin minarəsindən asıb yandırdılar.

Pərixan xanım bu mərəkədə iştirak etməsə də, Şamaxıdan saraya, qardaşı Şah Təhmasibin yanına gəlmişdi. O, qardaşına deyirdi ki, Şirvanda hərc-mərclikdir, əmirlər bir-biri ilə yola getmirlər, bu diyarın istila olunmasının vaxtı çatıb.

Şah Təhmasib də bu fikirdə idi. Dünən axşam Şamaxıdan yanına gəlmiş qorçubaşı Şeyx Padar da şaha yalvarmışdı ki, amandı, Şamaxını biri-biri ilə yola getməyən əmirlərdən xilas edin.

Şah qardaşı Əlqas mirzəni iyirmi min qoşunla Şirvana göndərdi. Şirvanın hər cığırına bələd olan Şeyx Padar ona bələdçilik eləyirdi.

1538-ci ilin yayında Əlqas mirzə iyirmi minlik ordusu, həmçinin Qarabağ və Muğan qoşun dəstələri ilə Şirvana daxil oldu. Tezliklə Surxab, Qorçu qalaları, habelə Qəbələ tutuldu. Başıbəlalı Şirvan əyanları yenə Buğurd və Gülüstan qalalarına sığındılar. Bu mühasirə dörd ay çəkdi. Təhmasib şah şirvanlıların müqavimətini qırmaq üçün özü qoşun götürüb Şamaxıya gəldi. Bir neçə gün müdafiəçilərin sığınacaqları, qalalar aramsız top atəşinə tutuldu. Müdafiəçilər müqavimətin mənasız olduğunu görüb təslim oldular. Şahruxun vəkili Hüseyn bəy əyanlarla məsləhət-məşvərət edib sığıncaqdan çıxaraq Şahruxu, qalanın və xəzinənin açarını şaha təqdim etdi. Hüseyn bəyi qızılbaşlara müqavimət göstərdiyinə, əks hücuma keçdiyinə görə, elə oradaca qətlə yetirdilər. Şirvanşahın sonuncu hakimi Şahruxu isə Təbrizə göndərdilər (onun da boynu orada vurulacaqdı).

Beləcə, Şirvanşahlar dövlətinə son qoyuldu. Şirvan indi Səfəvilər dövlətinin bəylərbəyliklərindən biri olmuşdu. Şah yeni yaradılmış bəylərbəyliyi qardaşı Əlqas mirzəyə tapşırıb Təbrizə qayıtdı. Növbə Şəkinin idi. Şah Şəkini istila edib Səfəvilər dövlətinə qatmaq üçün zəmin hazırlamalıydı. Şəkinin hakimi Həsən bəy vaxtilə atası Şah İsmayıldan yardım alıb gürcülərlə vuruşmuşdu. Sonu görünməyən bu döyüşlərin birində Həsən bəy şəhid olmuşdu. Amma onun oğlu Dərviş Məhəmməd özünü heç yaxşı aparmırdı. Şah onu da eşitmişdi ki, Dərviş Məhəmməd xan

şirvanlılara kömək məqsədi ilə gecələr qızılbaş qoşunlarına basqınlar edibdir. Hələ desən, Sultan Süleyman Azərbaycana hücum eləyəndə Dərviş Məhəmməd xanın ona hədiyyələr göndərdiyini də çatdırmışdılar şaha.

Şah Təhmasib Dərviş Məhəmməd xanın bu hərəkətlərini cavabsız qoymaq fikrində deyildi. Amma hər şeyin bir vaxtı vardı.

Dərviş Məhəmməd xan da Şirvanşahların süqutundan pərişan olmuşdu, çünki əsas müttəfiqini itirmişdi. Dərviş Məhəmməd xan çox düşündükdən sonra hakimiyyətini saxlamaq üçün şahla qohum olmaq fikrinə düşmüşdü. Hicri 946 (1539)-cı ildə Şah Təhmasibin bacısı Pərixan xanıma elçi düşüb onu almışdı. Beləcə, Şəki hakimi ilə Şah Təhmasib bir neçə il sülh şəraitində yaşamışdılar.

1548-ci ildə Pərixan xanım dünyasını dəyişmişdi. Elə həmən il Əhərdə şahın Şamxal sultan Çərkəzin bacısından bir qızı doğulmuşdu. Şah ona bu dünyadan övlad həsrəti ilə köçmüş bacısı Pərixan xanımın adını vermişdi. Artıq Şəki hakimi Dərviş Məhəmmədlə onu heç bir tel birləşdirmirdi. Bununla belə, şah hələ də ona toxunmurdu. Amma məsəl var, deyirlər, «südlə gələn sümüklə çıxar». Dərviş Məhəmməd xan Şah Təhmasibin əsəblərilə oynamağından qalmadı. Əlqas mirzə Səfəvilərdən ayrılmaq fikrinə düşəndə onu müdafiə elədi. Bununla da kifayətlənməyib, qardaşı Şahnəzəri qoşunla onun yanına göndərdi. Şəkiyə hücum etməyə elə bu da bəs idi. Vaxt yetişmişdi. 958 (1551)-ci ildə Şah Təhmasib Şəkiyə qoşun yeritdi. Kiş qalası iyirmi gün ərzində top atəşinə məruz qalıb xarabalığa çevrildi. Dərviş Məhəmməd xan alınmaz Gələsən-Görəsən qalasına sığınmışdı. Şah qalanı tutmağı Abdulla xan Ustaclıya tapşırmışdı. Qızılbaşlar qalaya aramsız həmlələr edirdilər. Dərviş Məhəmməd xan sığındığı qalaya nə qədər güvənsə də, burada uzun müddət qalmağın ölümə bərabər olduğunu dərk eləyirdi. Qızılbaşların davamlı həmlələrindən, top atəşlərindən bezmiş Dərviş Məhəmməd xan gecə dörd yüz atlıyla qaladan çıxdı, qızılbaşların cərgəsini yarıb keçmək üçün atını qamçıladı. Lakin bəxti ona yar olmadı, Kosa Piriqulu adlı bir mülazim onun qarşısına çıxdı. Sıyrılmış qılınclar toqquşdu. Atlar şahə qalxdı. Hamı əl saxlayıb onların döyüşünə baxırdı. Kosa Piriqulunun ürəyində şahdan alacağı mükafatın eşqi, Dərviş Məhəmməd xanın qəlbində isə ümidsizlik haləti hökm sürürdü. Kosa Piriqulunun dayanmadan qılınc çalmağı, nəhayət, Dərviş Məhəmməd xanın atdan yıxılması ilə nəticələndi. Kosa Piriqulu bəy dərhal atdan düşüb zərbədən huşunu itirmiş Şəki hakiminin başını bədənindən ayırdı. Atını dördnala çapıb Şəki hakiminin kəsilmiş başını döyüş meydanını seyr eləyən Şah Təhmasibin atının ayaqları altına atdı. Beləcə, Şəki xanlığının müstəqilliyinə son qoyuldu.

Təhmasib şah olub keçmiş bu əhvalatlar barədə indi yastığının yanını kəsdirib oturmuş, rəhmətlik bacısının adını daşıyan Pərixan bəyimə heç vaxt danışmamışdı.

IV fəsil

İKİ RƏQİB ÜZ-ÜZƏ

Vəfa hər kimsədən kim, istədim, ondan cəfa gördüm,

Kimi kim, bivəfa dünyada gördüm, bivəfa gördüm.

Məhəmməd Füzuli

Xəstə şahın bir tərəfində sevimli Pərixan bəyim, o biri tərəfində oğlu Heydər mirzə oturmuşdu. Heydər mirzə şahın gürcü əsilli arvadından doğulmuşdu. Şah, oğluna babası Şeyx Heydərin adını qoymuşdu. Bu iyirmi iki yaşlı ortaboy, ağbəniz, qaraqaş, qaragöz şahzadəni şah olduqca çox istəyirdi. Heydər mirzə o biri qardaşlarıyla müqayisədə daha həlim təbiətli, insanpərvər, atasının tapşırığını can-başla yerinə yetirən bir cavan idi. Heydər mirzə şahın üçüncü oğlu idi.

Təhmasib şah altı qadının əriydi. Sarayda olduğu müddətdə hər gecəsini onlardan birinin yanında keçirərdi. Onun altı qadından doqquz oğlu, səkkiz qızı dünyaya gəlmişdi.

Atası Şah İsmayıl Xətaiyə oğul toyunu görmək qismət olmamışdı. Onun böyük oğlu Təhmasib mirzə şahlıq taxtına oturandan səkkiz il sonra Bayanduriyyə tayfasının əmirlərindən Musa sultan Mosullu Türkmanın qızı Sultanım xanımla evlənmişdi. Onda onun on səkkiz, sevimli qadınının on altı yaşı vardı. Sultanımla bir yastığa baş qoyanda ömrünün ən qaynar çağı idi. Sultanımla söz-söhbəti də tuturdu. O çağlarda heç ağlına da gəlməzdi ki, Sultanımdan başqa da arvad alar. Cavan şah: - Ey Sultanım, - deyəndə elə sanırdı dünyanı ona bağışlayırlar. Sultanım da Sultanımdı ha… Üzünü ona çevirib qara gözlərindən güləndə elə sanırdı gözləri qamaşacaq. Bu gənc xanım olduqca lətafətliydi. Səsinin ahəngi də o qədər ahəngdar, musiqiliydi ki… O, çevrilib gedəndə ləpələnən əndamı sanki ona gəl-gəl deyirdi. Belə anlarda cavan şahın gecəni gözləməyə səbri çatmazdı, şirin-şirin gərnəşib xanımın arxasınca hərəm odasına keçərdi. Qadınları kölgə kimi

izləyən, kişilikdən məhrum edilmiş bədbəxt xacə də o dəqiqə gəlib qapının ağzında bitər, içəridən gələn həzin qadın iniltisinə sonsuz kədərlə qulaq asardı.

Bir ildən sonra Təhmasib şahla Sultanım xanımın gecələr bir-birinə sarmaşıb cıdıra çıxmalarının nəticəsi olaraq oğulları dünyaya gəldi. Cavan şah sevincindən az qalırdı qanadlanıb uça. İlk övlad nə şirin olurmuş… Oğlunun adını Məhəmməd qoydu. Amma bundan sonra cavan şah başqa qadınlara da tamah saldı. Doğrusu, cavan şah bu qadınların bir neçəsi ilə könlünün istəyi ilə yox, müəyyən xoşagəlməz hadisələrin qarşısını almaq məqsədi ilə evlənmişdi. Bu cür izdivaclar, əslində, siyasi niyyətlərdən doğurdu. Bəzisini isə xoşlayıb yatağına salmışdı.

Arvadlarının sayı artsa da, Sultanıma olan eşqi sönməmişdi, əksinə, bir az da artmışdı. Sultanım şahın məhəbbətini təkcə lətif bir qadın kimi yox, həm də ağlı, dərrakəsi ilə qazanmışdı. Bu qarşılıqlı məhəbbətin nübarı olaraq onların ikinci övladları dünyaya gəlmişdi. Ona babasının adını vermişdilər - İsmayıl!

Təhmasib şah övladlarından heç vaxt atalıq məhəbbətini əsirgəməzdi. Hətta Qəhqəhə qalasına saldırdığı İsmayıl mirzəyə də bir zərər gəlməsini qətiyyən istəmirdi. İndi bu xəstə çağında böyük oğlu Məhəmməd Xorasanda hakimiyyət başında, ondan kiçik oğlu İsmayıl mirzə isə Qəhqəhə qalasında dustaq həyatı yaşayırdı. Gürcü əsilli arvadından olar Heydər mirzə isə daim başı üstündə, əlinin altındaydı. Şamxal sultan Çərkəzin bacısından dünyaya gələn dördüncü oğlu Süleyman mirzəni Məşhədə göndərmişdi. Amma hazırda yanında, ordugahda idi. Süleyman mirzə həm də Pərixan bəyimin doğmaca qardaşıydı.

Günlərin bir günü, bir yaz gecəsində, qanın damarlarda qaynayan çağında kənizlərindən birinin gözəlliyi Təhmasib şahı yoldan çıxarmışdı. Bağda gəzərkən gül-çiçəyin, oyanmış təbiətin tamaşasına durduğu anda, kəniz, əlində şərbət dolu kuzə, çiynində dəsmal onun hüzuruna gələndə bir anda şahın qanı üzünə vurdu, ehtirasdan ürəyi şiddətlə döyünməyə başladı. Şahın alışıb yanan gözlərini görəndə kənizin yanaqları allandı. Şərab dolu badəni şaha verəndə şah onun ağappaq biləyindən yapışıb qızı özünə tərəf çəkdi. Qız onun qolları arasında xeyli çırpındı, şahın əlləri onun qabarmış yaxasında dolaşdı. Kəniz daha etiraz etmirdi. Bağda ikisindən başqa kimsə yoxdu. Şah onu qızılgül kollarının arxasına çəkdi. Hər şeyi unutmuşdu, böyük bir məmləkətin şahı olduğunu, yaşının qırxı çoxdan keçdiyini… Kənizi otluğa uzandırıb öpüşlərə qərq etdi…

Və kəniz kənizlikdən çıxıb şahın xanımı oldu. Bir ildən sonra aylı bir gecədə beşinci oğlu Mustafa mirzə dünyaya göz açdı. Vaxtilə Gilanın Piye-piş vilayətinin başıpozuq adamlarını ram etməkdə Mustafa mirzə şəxsi şücaət göstərmişdi. Atası da bu igidliyini qiymətləndirib ona əyalət hakimliyi rütbəsi vermişdi. Buna görə də

Mustafa mirzə qoşun sahibi idi. Onun həm atasının, həm də əmrlərin yanında hörməti vardı. Hazırda Mustafa mirzə sarayda yaşayırdı. Neçə il idi evlənmişdi, iki qız atasıydı.

Şahın altıncı oğlu Mahmud mirzə də cariyəsindən olmuşdu. Şah hələ Mahmud uşaq ikən onu Gilana hakim təyin eləmişdi. Mahmud mirzə bir müddət lələsiylə Gilanda yaşamışdı. Amma arada Gilanda fitnə-fəsad baş qaldıranda şah oğluna bir sədəmə toxunacağından ehtiyatlanıb onu saraya gətirtmişdi. Şah xeyli vaxt idi ki, Mahmud mirzəni Şirvana hakim, Azər xanı da onun lələsi təyin etmişdi. Amma Mahmud mirzə hakimiyyətə can atmadığından, hələ də Şirvana getməmişdi.

Təhmasib şah Gürcüstana dördüncü dəfə hücum edəndə əsir kimi gətirdiyi Zal dərhal İslamı qəbul etdi və Zal bəy adı ilə sarayda yaşamağa başladı. Şah hamama gedəndə də Zal bəylə gedərdi. Axırda Zal bəyin bacısını da alıb özünə arvad elədi. Ondan da yeddinci oğlu İmamqulu mirzə doğuldu. Şah onu Lahicana vali təyin eləmişdi və şahın bu xəstə vaxtında Lahicanda yaşayırdı. Amma hələ on dörd yaşında olduğundan şah onu lələsi Pirə Məhəmməd Ustaclıya tapşırmışdı. O yerlərin hakimi, əslində, Pirə Məhəmməd Ustaclıydı. Şahın səkkizinci oğlu Əli mirzə isə, Mustafa mirzəylə anabir qardaş idi. İndi Gəncədə, Qarabağ bəylərbəyliyində İbrahim sultan Ziyadoğlunun yanındaydı. Deyib-gülən, şən bir yeniyetməydi.

Sonuncu, doqquzuncu oğlu Əhməd mirzə də onun sevimli bir cariyəsindən doğulmuşdu. O da bir müddət lələsi Əmiraslan sultan Əfşarla İsfahanda yaşamışdı. Şah bu sonbeşiyini Əhməd Bağbadi deyə əzizləyirdi. Əslində, elə bil onunla nəfəs alırdı.

Şah qızlarının bir neçəsini ərə vermişdi, bir neçəsini də nişanlamışdı. Nişanlı olan qızlarından biri də Pərixan bəyim idi.

* * *

Canını zəli kimi soran ağrının şiddətindən qıvrılan şah həm də fikirlərinin burulğanında çapalayırdı. Ömrünün bu taqətsiz çağında hakimiyyətinin, Səfəvilər xanədanının sabahından çox nigaran idi. Səfəvilər hakimiyyətə gələnə kimi hansı mərhumiyyətlərə dözməmişdilər: başları nə bəlalar çəkməmişdi: ulu babaları Şeyx Cüneyd, Şeyx Heydər, əmisi Şeyx İbrahim bu yolda şəhidlik şərbətini içmişdilər.

Hələ beşikdə ikən hakim olan, hökmranlığın, hökm etməyin ləzzətini yaşayan, ətrafındakıların sayğısını, çox vaxt da mütiliyini görən şahzadələrin çoxluğu bir vaxt şaha qol-qanad, qürur verirdisə, indi qəlbinin lap dərinliyində bundan qəribə bir ağrı duyurdu. O, bu əlli üç il altı aylıq şahlığı dövründə çox-çox müdhiş hadisələrin şahidi olmuşdu. Hakimiyyətin necə acgöz bir əjdaha olduğunu da çox gözəl bilirdi. Doğmalar belə, hakimiyyətə yetmək üçün bir-birini parçalamağa, didib-dağıtmağa hazır idilər. Doqquz qardaş, səkkiz bacı, hələ üstəlik, yeznə, qayın, əmi, dayı, xala, bibi uşaqları… Vay, vay, vay… İlahi, bizi özün qoru.

Şah sabah baş verə biləcək fitnə-fəsadın miqyasını götür-qoy edib düşündükcə canındakı ağrıları da şiddətlənirdi. Onun ölümün pəncəsində bu cür çapaladığı dəqiqələrdə belə düşünməyi heç də səbəbsiz deyildi. İki il bundan qabaq da beləcə bərk xəstələnmişdi. Onda da indiki kimi ölüm ayağında idi… Həkim Gilanin oğlu Əbu Nəsir gecə-gündüz onun yanını kəsdirib min bir dava-dərman düzəldib verirdi. Təbabətə dair qədim tibb kitabları oxumaqdan gözləri ağrıyırdı. Amma hələ ki, düzəltdiyi dava-dərmanın bir nəticəsi yox idi. Saray əhli artıq bu fikirdə idi ki, şah sağalmayacaq. Şahın sevimli oğlu Heydər mirzə də bu fikirdə idi. Son illər şahın ən yaxın köməkçisi olduğu üçün, artıq özünü Səfəvi xanədanının vəliəhdi hesab edirdi. Həm də ona görə ki, özündən böyük qardaşı Məhəmməd mirzə Xorasanda hakim idi, gözləri də görmürdü, ondan kiçik qardaşı İsmayıl mirzə Qəhqəhə qalasında göz dustağıydı. Belə olan halda vəliəhd Heydər mirzə olmalıydı. O, özünü artıq şah taxtına layiq bilirdi. Murad xan Süfrəbaşı, Hüseyn bəy Yüzbaşı, tir və kaman qorçusu Piri bəy Qoçulu, baş mehtər Məhəmməd bəy Qoyunçuoğlu, Allahqulu sultan Aycəkoğlu da bu fikirdəydilər ki, daha şah o dünyalıqdı. Bu adamlar düşünürdülər ki, şahı torpağa tapşırmamış, isti-isti bu hakimiyyət məsələsini həll etmək gərəkdir.

Bir axşam şahı Əbu Nəsir həkimə, «Quran» oxuya-oxuya zikir eləyib xəstənin sağalması üçün Allaha dua edən mollaya tapşırıb, sarayın baş tərəfindəki hücrəyə çəkildilər.

Heydər mirzə başda əyləşmişdi. Məntəşə sultanın nəvəsi Murad xan Süfrəbaşı (şahın şərəfinə açılan süfrələrin başçısı o idi) onun sol yanında, Hüseyn bəy Yüzbaşı sağ tərəfində, sonra Piri bəy Qoçulu, Məhəmməd bəy Qoyunçuoğlu ilə Allahqulu sultan Aycəkoğlu əyləşmişdilər. Təzəcə saray dəftərxanasında mühasiblik edən gənc İsgəndər bəy də Hüseyn bəy Yüzbaşıya görə burada idi. Amma danışmırdı, susub oturmuşdu. Onluq bir iş yoxdu, sadəcə, bu gəncin baş verənlərə sonsuz marağı vardı. Bu məclisdə iştirak etməsələr də, həkim Əbu Nəsir, Heydər mirzənin dayısı Əlixan bəy Gürcü, Zal bəy Gürcü də onlarla idi.

Heydər mirzə əlini belindəki xəncərin qızıl dəstəyinə aparıb üzünü qarşısında oturanlara tutub soruşdu:

- Məsləhətiniz, ağalar?! Əlbəttə, hamımızın taleyi Yaradanımızın əlindədi. Allahdan şahənşah atama şəfa diləyirəm. Amma o, bildiyiniz kimi, çox ağır xəstədir, sağalıb ayağa durmasına ümid qalmayıb. Sabah nə baş verəcək, onu Allah bilir. İşdi, əgər sabah bir hadisə baş verərsə, məmləkəti başsız qoymaq olmaz.

Piri bəy Qoçulu yerində qurcalandı:

- Biz də elə bu fikirdəyik. İşdi, belə bir əhvalat vaqe olsa, şəhriyarımız Allahın dərgahına getsə, gərək əvvəl-əvvəl şahın ölüm xəbərinin saraydan dişarıya çıxmasına yol verməyək. qarovulu möhkəmləndirək. Bir də, gözləmək lazım deyil ki, sizi şah dünyasını dəyişəndən sonra taxtda oturdaq. Bu işi əvvəlcədən görmək gərəkdir.

Bu yerdə Məhəmməd bəy Qoyunçuoğlu sinəsini qabağa verdi:

- Heydər mirzə, siz iki ildi ki, atanızın sağ əlisiniz. Son illər çox işdə sizə güvənib. Doqquz qardaşsınız. Bəxtiniz onda gətirib ki, siz sarayda böyük qardaşsınız. Məhəmməd mirzə Xorasanda hakimiyyətdədi. Özünün də gözləri tutulub, güman eləmirəm ki, kor bir adam bu boyda məmləkəti idarə eləmək fikrinə düşsün.

Allahqulu sultan Aycəkoğlu bığına sığal çəkib, alimanə bir görkəm alıb dedi:

- Yanılırsan, Məhəmməd bəy, hakimiyyətin necə şirin olduğunu unutma. Məhəmməd mirzə kor olsa da, onun Məhdi-ülya xanım kimi tədbirli, dilavər arvadı var. O xanımın ata-babaları Təbəristan diyarının hökmdarları olmuşlar. Deməyim odur ki, Məhəmməd mirzənin də arxası, tərəfdarları var. Bu Məhəmməd mirzə hələ altı yaşında olanda Xorasanın hakimi idi. Əlbəttə, Xorasanı altı yaşlı uşaq yox, lələsi Səfərəddinoğlu Təkəli idarə edirdi. İnsafən, Məhəmməd mirzə xoşxasiyyət adamdı, özü də çox istedadlıdı. Bəzən Fəhmi təxəllüsü ilə şeirlər də yazır…

Heydər mirzə tıncıxdı, elə bildi ki, bu saat hakimiyyət əlindən çıxacaq. Ona görə də Allahqulu sultanın sözünü kəsdi:

- Məhəmməd mirzənin şairlik qabiliyyətinin bizim söhbətə nə aidiyyəti var, Allahqulu sultan?

Allahqulu sultan geri çəkilmədi:

- Var, bəy, var. Çünki onun qəlbində ata məhəbbəti, Allah xofu var.

Heydər mirzənin qaşları çatıldı:

- Məgər bizdə ata məhəbbəti, Allah xofu yoxdu? - soruşdu.

Allahqulu sultan səsini bir az da mülayimləşdirdi:

- Sənə fəda olum, kim dedi yoxdu?! Deməyim odur ki, yadımdadı, Məhəmməd mirzə göz ağrısı tapanda atanız şahənşah - yastığı yüngül olsun (bu arada oturanlar səs-səsə verib «Amin!» dedilər) - onu saraya çağırıb yerinə kiçik qardaşını - İsmayıl mirzəni göndərdi. O isə ürəyindəkiləri tez büruzə verdi. Hakimiyyət eşqinə düşdü. Başımın üstə Allah var, onu haqq yoldan çıxaran, ağlını azdıran lələsi Əli sultan Təkəli olmuşdu. Cidanı çuvalda gizlətmək olmaz. Xəbər gəlib saraya çatanda şah bundan çox qəzəblənmişdi. O, bir vaxt sənə lələlik eləmiş Sevindik bəy Əfşarı yanına çağırıb: - Günü sabah adamlarını götür get Xorasana, - demişdi, - oğlum İsmayıl mirzəni Qəhqəhə qalasına sal, o xain Əli sultanı da onun gözləri qabağında qorçuların təpikləri altına at, qoy yolunu azanlara dərs olsun. Sevindik bəy Əfşar şahın tapşırığını can-başla yerinə yetirdi. Hə, mənim şahzadəm…

Bu zaman şahın iniltisi eşidildi. Hamısı susub bu iniltiyə qulaq kəsildi. Elə bil dəhşətli bir xəyanət üstə tutulmuşdular. Düzdü, şaha sui-qəsd etməmişdilər, amma sağ ikən oğlunu taxta oturtmaq fikrinə düşmək də elə sui-qəsd kimi bir şey idi.

Az sonra yenə saraya sükut çökdü. Hardasa İsaq-Musaq quşunun adama qəm gətirən səsi eşidildi: «Tapdın? - Yox!»

Allahqulu sultan bayaqkı sözünü tamamladı:

- Mənim qorxum on yeddi ildi dustaq olan İsmayıl mirzədəndi.

Hüseyn bəy Yüzbaşı:

- Doğrudu, - dedi, - o çox qansız, həm də qorxmaz adamdı. Bu on yeddi ildə, yəqin, bir az da üstünə qoyub. İşdi, əgər o, taxtda otursa, gərək kəfənimizi salaq boynumuza.

Heydər mirzə bu xəbərdarlıqdan üşəndi. Qeyizli bir səslə:

- Kimdi onu Qəhqəhə qalasından buraxan? - dedi.

Murad xan:

- Heydər mirzə, - dedi, - onun da tərəfdarları var. Biri elə Pərixan bəyim. Nə gizlədək, səni də görməyə gözü yoxdu.

Heydər mirzə tam səmimiyyətlə dedi:

- Vallah, bilmirəm bu Pərixana neyləmişəm. İkimiz də atamızın sevimlisiyik.

- Bu Pərixan bəyimin xasiyyətində hökmranlıq xisləti var. Bəxtiniz onda gətirib ki, o, kişi olmayıb, kişi olsaydı, taxta yaxın düşə bilməzdiniz. Şah da bunu bilir. Ona görə də onun məsləhətlərindən çıxmır. Ağıllı, dərrakəli qızdı.

Heydər mirzə:

- Onu öz tərəfimizə çəkə bilmərikmi?

Hüseyn bəy Yüzbaşı:

- Bəy, incimə, çətin, qan özünü göstərir, - dedi.

- Biz ki, bir qandanıq.

- Bəli, bir atanın belindən gəlmisiniz, amma başqa-başqa anaların südünü əmmisiniz.

Şahzadə bu acı həqiqəti inkar edə bilmədi, daha doğrusu, xanədanda öz yerləri, xidmətləri, həm də tərəfdarları olan bu adamlarla söz güləşdirmək istəmədi:

- Yaxşı, bizi bu Pərixan bəyim sevmir, bəs İsmayıl mirzəni başqa istəyənlər kimlərdi?

- Pərixan bəyimin doğmaca qardaşı Süleyman mirzə, rumlu tayfası içində yaşayan Mahmud mirzə, əfşarların can-ciyəri Əhməd mirzə, Pərixan bəyimin doğmaca dayısı Şamxal sultan Çərkəz, hiyləgərlikdə ad çıxartmış Hüseynqulu Xüləfa. Marıqda yatanlar da var.

Heydər mirzənin çatma qaşları bir az da çatıldı:

- Maşallah, az deyillər. Yaxşı, bu gecə gözləyək, görək nə olur. Amma gərək adlarını çəkdiyiniz bu adamları gözdən qoymayaq.

- Doğru buyurursan, - Hüseyn bəy Yüzbaşı dedi. Ayağa qalxdılar. Qapını açıb çölə çıxanda «şahın qulağı»nın - Kor Şahəli Rumlunun yanını basa-basa dəhlizlə getdiyini gördülər. Bu söhbət yasovulunu hamı yaxşı tanıyırdı. Onun vəzifəsi görüb-eşitdiklərini şaha çatdırmaq idi. Ona görə də ona öz aralarında «şahın qulağı» deyərdilər. «Qulağı» dəhliz boyu irəliləyən görəndə xəstə şahın hakimiyyətini ələ keçirmək istəyənlərin sümükləri eyməndi. Çünki şah ən əziz adamlarından da çox onun söylədiklərinə inanırdı. Bu bəstəboy, tosqun kişidən uzaq durmaq müşkül məsələydi. Harda olsan, başının üstünü kəsdirən görərdin. İndi yanını basa-basa irəliləyən bu kişinin arxasınca ürkək-ürkək baxa-baxa

qalmışdılar. Tam əmin idilər ki, «Qulaq» onların söhbətini eşidib, niyyətlərindən xəbər tutub. İndi iş Allaha qalıb. Allahın da ki, min bir möcüzəsi var. Onun əmrilə şah sağala da bilər, ölə də. Sağalıb ayağa dursa, onların «sui-qəsd»inin üstü açılsa, cəzayə layiqdilər.

Daha olan olmuşdu. Geriyə yol yox idi. Birdən elə bil yer yarıldı, yerin altından başı cıqqalı, qolu bazubəndli Pərixan bəyim çıxdı. Həmişə üz-gözündən şəfqət yağan, ətrafa xoş ovqat yayan Pərixan bəyim tutqun idi. Məsum çöhrəsi kədərli görünürdü. Heydər mirzə onun qarşısına yeridi. Onlar üz-üzə dayanmışdılar. Gözləriylə bir-birini oxumaqdaydılar. Kəlmə kəsməmişdilər ki, Hüseynqulu Xüləfa, Əmiraslan sultan Əfşar, Cabuq Türkman, Pərixan bəyimin qardaşı Süleyman mirzə, dayısı Şamxal sultan Çərkəz gəlib Pərixan bəyimin arxasında dayandılar. Bəlli oldu ki, onlar da məşvərət eləyirmişlər. Sözə Pərixan bəyim başladı:

- Heydər, sənə yaraşarmı atamızın xəstə vaxtında taxt-tac fikrinə düşmək?

- İki ildir atamın işlərini mən aparmırammı?! Ağlın kəsəndən sən məndən qibleyi-aləmə, əziz atamıza qarşı bir sayğısızlıq görmüsənmi?

Pərixan bəyim səsini qaldırdı:

- Bəs bu sayğısızlıq deyilmi, atamızın nəfəsi üstündə ikən şahlıq eşqinə düşmüsən?

- Mən, sabah bir şey olsa, məmləkətdə baş verə biləcək qarışıqlığın qarşısını almaqdan ötrü əvvəlcədən tədbir görməyi vacib bilirəm.

- Səni kim vəkil seçib?

- Bəs sənə kim izin verib, hərəm dairəsindən çıxıb kişilərlə məşvərət edəsən?

Pərixan bəyimin yanaqları qızardı:

- Nə qədər ki mən sağam, sən taxt-taca sahib ola bilməzsən! Biz şahın sadiq qullarıyıq, siz kimsiniz?

- Biz şahımızı candan artıq sevirik, amma məmləkətin sabahını da düşünürük.

- Əsl vəliəhd indi Xorasanda olan böyük qardaşımız Məhəmməd mirzədi.

- Onun ki halı hamımıza bəllidi?!

- Bəllidi, bəli, ondan sonra vəliəhdlik İsmayıl mirzəyə düşür.

- Sənin o İsmayıl mirzən on yeddi il qabaq şahlıq eşqinə düşmüşdü.

- Ona görə də cəza çəkir.

- Unutma ki, atamız onu hələ də bağışlamayıb.

- İnşaallah, bağışlar.

- Belə çıxır ki, siz şahsevənsiniz, biz yox?

- Belə görünür.

- Ey Pərixan bəyim, bu saat siz şah atamızı yox, İsmayıl mirzəni hakimiyyətdə görmək istəyirsiniz. Amma səhv yoldasınız. Siz özünüzü nahaq şahsevənlər kimi göstərirsiniz.

Pərixan bəyim cavab verməyib qardaşından ayrıldı. Bayaqdan onların deyişməsinə qulaq asan ağalar da dağılışdılar. Bu hadisənin sonu heç də yaxşı görünmürdü.

V fəsil

NİGARANLIQ İÇİNDƏ

Əfsus ki, yarım gecə gəldi, gecə getdi.

Ağabəyim ağa Ağabacı

Şah canı ilə əlləşsə də, sabahkı gün üçün tədbir görməyindən də qalmırdı. Gecələr hamı çəkiləndən sonra söhbət yasavulu Kor Şahəli Rumlu onun yanına gəlirdi və sarayda baş verənləri, kimin nə ilə nəfəs aldığını, hansı yuvanın quşu olduğunu asta-asta, artırıb-əksiltmədən şaha söyləyirdi. Şahın ilk nigarançılığı on yeddi il bundan qabaq Qəhqəhə qalasına saldırdığı İsmayıl mirzə sarıdan oldu. Kor Şahəlinin söhbətindən anlamışdı ki, eşikağasıbaşı Qaradağlı Fərruxzad bəy də Heydər mirzənin tərəfdarıdı. Ondan qorxusu yoxdu, yanında, ordugahındaydı, istədiyi vaxt onu cəzalandıra, yerində oturda bilərdi. Onu ehtiyatlandıran Qəhqəhə qalasının hakimi Xəlifə Ənsar idi. Çünki o, Fərruxzad bəyin yerlisiydi. Doğrudu, şah, Xəlifə Ənsarı etibarlı adam kimi tanıyırdı, ancaq bununla belə, İsmayıl mirzəyə bir sədəmə toxunmasından narahat idi. Şah ehtiyat edirdi ki, birdən Xəlifə Ənsarın əli ilə İsmayıl mirzəyə sui-qəsd edərlər. Şah, İsmayıl mirzəni

bağışlamamışdı və heç bağışlamaq fikri də yoxdu, bununla belə, oğlunun başından bir tük əskik olmasını istəməzdi. Sadəcə, ondan qəlbi qırılmışdı, vəssəlam!

İsmayıl mirzənin anası, sevimli arvadı Sultanım bəyim də oğlunun bağışlanması üçün ona çox dil tökmüşdü. «Cavandı, beyni qandı, bağışla» demişdi, şah isə fikrindən dönməmişdi:

- Yox, Sultanım bəyim, gözüm nuru, yox! Oğlumuz tez çaşdı. Mənim babalarım, atam Şah İsmayıl Səfəvilər xanədanını qurana kimi həyatlarından keçiblər. Oğlumuz məndən nə yamanlıq gördü ki, mən dura-dura hakimiyyət eşqinə düşdü?!

- Qanmayıb…

- Sultanım, qanmayacaq da. Südlə gələn, sümüklə çıxar deyiblər. Ona heç vaxt güvənə bilmərəm.

Sultanım bəyim dedi:

- Mürşüdüm, mən daha bu dərdə dözəmmirəm. İzin ver Qum şəhərinə müqəddəslərin ziyarətinə gedim. Bir müddət oradakı mülkümüzdə yaşayaram.

Şah xeyli tərəddüddən sonra:

- Allah amanında, Sultanım, gedə bilərsən.

Bununla da söhbətləri bitmişdi.

Şah bilirdi ki, Sultanım bəyim sözünü yerə saldığı üçün ondan inciyib gedir. Bəlkə də, bir oğul anası kimi, ondan inciməyə haqqı vardı. Amma o, təkcə oğlunun, sevimli arvadının istəklərini yerinə yetirməklə Səfəvilər xanədanını qoruyub saxlaya bilməzdı. Dövlətin, hakimiyyətin naminə çox zaman ürəyinə daş bağlamağa məcburdu. İndi oğlu İsmayılın bağışlanmasını ondan xahiş edən Sultanım bəyimə «yox» deyəndə ürəyinə daş bağlamışdı. Bu «yox» kəlməsi heç də onun şahlıq qürurundan gəlmirdi, sadəcə, məmləkətin sabahı naminə kimsəyə - hətta doğmalarına da güzəştə gedə bilməzdi.

Təhmasib şah övladlarının hər birini canı qədər istəyirdi. Sadəcə, bu xəstə vaxtında, sarayda, saraydan dişarda yastı-yapalaq damlar altında, hücrələr küncündə, bulaq başında, çay qırağında… hörülən hörümçək torlarını düşünəndə ən çox İsmayıl mirzənin taleyini düşünürdü. Çox nigaran idi, çox. Ona görə də ona sadiq əmirlərdən birini yanına çağırdı, əfşar tayfasından on iki nəfər qorçu ayırıb Qəhqəhə qalasına göndərməyi, İsmayil mirzəni hər cür təhlükədən qorumağı tapşırdı. Özü də bu barədə kimsəyə bir söz deməmək şərtilə. Təhmasib şahın bu

tədbirindən sarayda heç kəsin xəbəri olmadı. İsmayıl mirzə qalada dustaq edildiyindən, hər kəs elə zənn edirdi ki, şahın onu görməyə gözü yoxdur. Amma əslində belə deyildi. Bu saat, bu xəstə çağında İsmayılı görmək, onun nəfəsini duymaq üçün burnunun ucu göynəyirdi. On yeddi il idi oğlunu görmürdü. Bir əmri kifayət idi ki, İsmayılı təm-təraqla saraya - onun hüzuruna gətirsinlər. Amma buna qüruru yol vermirdi. Bir də, inanmırdı İsmayıl mirzə dəyişmiş ola, atası sağ ola-ola onun yerini tutmaq fikrinə düşməyə. Görünür, xasiyyət də insanla bir yerdə doğulur, ona görə də onu dəyişmək hər kəsə müyəssər olmur.

O, 962 (1554)-ci ilin payızında bacısı Xanış bəyimin qızı Səkinə xanımla İsmayıl mirzənin toyunu etmişdi. Təbriz yaxınlığında saldırdığı bağda iki böyük toy mağarı qurdurmuşdu. Birisi qadınlar, digəri kişilər üçün. Aşxanada tiyan-tiyana, qazan-qazana söykənmişdi, kəsilən buğaların, toğluların sayı-hesabı yoxdu.

Kişilərin məclisində məşhur udçalan Məhəmməd Mömün, kamanzən Mirzə Məhəmməd, tənburçu Mirzə Hüseyn, cəngiçalan Sultan Məhəmməd, sarayın məşhur xanəndələri - Hafiz Əhməd, Hafiz Lələ Təbrizi, Ərdəbil aşıqları, qissə söyləyənlər yerlərini tutmuşdular. Hamı bəyin - İsmayıl mirzənin mağara gəlməsini gözləyirdi. Bir dəstə adam «Gəlinatlandı» havasının sədaları altında gəlini gətirdi. Yengə irəli durub başında qırmızı çarqat, əynində al qumaşdan paltar, ayağında zövqlə tikilmiş məst, belində qızıl kəməri, sinəsində bərq vuran boyunbağısı olan gəlini kəcavədən düşürtdü. Sındırmaq üçün ayaqları altına çini qab qoydular. Gəlin qabı sındırıb keçdi. Bu, xoşbəxtlik əlaməti idi.

Qazı İsmayıl mirzə ilə gəlinin kəbinini kəsdi. Gəlini qadınlar olan mağara, İsmayıl mirzəni kişilərin məclisinə gətirdilər. Şah yerindən qalxıb oğlunun alnından öpdü:

- Xoşbəxt ol!

İsmayıl mirzə:

- Sağ ol, ata, - dedi.

Toy başladı, nə başladı. Xanəndə Hafiz Əhmədlə Hafiz Lələ Təbrizinin adamın huşunu başından alan avazı, zurnaçı Həsənin sümükləri oynadan çalğısı məclisdəkiləri bihuş eləmişdi. Xanəndələr atası Şah İsmayıl Xətainin qəzəllərini oxuduqca fərəhdən ürəyi köksünə sığmırdı. Aşıqlar atası Şah İsmayılla anası Taclı xanımın həyatından dastan bağlamış, mürşidi-kamilin şərəfinə «Şah Xətai» havasını yaratmışdılar. Atasından da bu cür havalar yadigar qalmışdı, özü də bu cür havalar bəstələmişdi. İndi iki cəbhəyə bölünmüş şahsevənlərlə Heydər mirzə tərəfdarları qol-qola girib «Yallı» gedirdilər. Söhbət yasovulu Kor Şahəli Rumlunun məzəli rəqsinə baxıb qəşş eləyənə qədər gülmüşdülər. Bəs indi nə oldu,

aradan qara pişikmi keçdi? Görünür, Allaha itaət etməyən şeytan tək deyil, hərənin içində gözə görünməyən bir şeytan yatır. Belə olmasaydı, ikitirəlik yaranmazdı.

Şah arxası üstə uzandı. Lələ Təbrizinin o toyda oxuduğu «Rast»ı canlandı yaddaşında. Toyda Lələ Təbrizi başına yağan şabaşdan ruhlanıb «Rast» oxumağa başlamışdı. Lələ Təbrizi gördü ki, məclisdə Şah İsmayıl Xətainin yaşa dolmuş müridləri də var, ona görə də onun belə bir qəzəlini oxumağa başladı:

Allah, Allah den, qazilər, qazilər deyən şah mənəm,

Qarşu gəlin, səcdə qılın, qazilər deyən şah mənəm.

Uçmaqda tuti quşuyam, ağır ləşgərlər başıyam,

Mən sufilər yoldaşıyam, qazilər deyən şah mənəm.

Bu yerdə «Sağ ol! Yaşa!» sədaları ucaldı.

Nerdə əkərsən bitərəm, xanda çağırsan, yetərəm,

Sufilər əlin dutaram, qazilər deyən şah mənəm.

Mənsur ilə darda idim, Xəlil ilə narda idim,

Musa ilə Turda idim, qazilər deyən şah mənəm.

Məhəmməd Mömün udunu, Mirzə Məhəmməd kamançasını, Mirzə Hüseyn tənburunu, Sultan Məhəmməd cəngini dilə gətirib xanəndəni daha da sövqə gətirirdilər.

Lələ Təbrizi sufilərin alqışından coşmuşdu:

Əsir edin, bəri gəlün, novruz edin, şaha yetin,

Hey qazilər, səcdə qılın, qazilər deyən şah mənəm.

Qırmızı taclu, boz atlı, ağır bir ləşgər nisbətlü

Yusif peyğəmbər sifətlü, qazilər deyən şah mənəm.

Xətaiyəm, al atlıyam, sözü şəkərdən datluyam,

Murtəzə Əli zatlıyam, qazilər deyən şah mənəm.

Xanəndə muğama «əyaq» verib sədəfli qavalını dizləri üstə qoydu: «Sağ ol, yaşa!» sədaları bağda əks-səda verdi. Təhmasib şah ortada gəzən fərraşı yanına çağırıb sazandalara bir kisə əşrəfi göndərdi…

Amma bu toy-büsatın sədası yaddaşlarda sönməmiş İsmayıl mirzə yolunu azdı. Halbuki, şah onu Herata hakim göndərmişdi. Ona daha nə lazımdı? Görünür, ona böyük bir məmləkətin şahı olmaq çox asan gəlir. Ancaq adamları öldürməklə, gözlərə mil çəkməklə, zindana atmaqla, axtalamaqla, mıxa keçirtməklə ölkəni idarə etmək olmaz! Şah hansısa kitabdan oxumuşdu ki, İsgəndər Zülqərneyin atası Filipp quluna icazə veribmiş ki, onun yanınca gəzsin və tez-tez qulağına pıçıldasın: «Sən Allah deyilsən! Sən Allah deyilsən! Sən Allah deyilsən!»

Atası, mürşidi-kamili Şah İsmayıl Xətai də vəsiyyət etmişdi ki:

Sufi isən, alıb-satma,

Halalına haram qatma,

Yolun əyrisinə getmə,

Doğru yolu nəzər eylə.

Köks ötürdü. «Bəlli, şah Allah deyildir, onun yerdəki kölgəsidir. Amma bu kölgə heç vaxt həddini aşmamalıdır, - deyə düşündü. - Mən də qan tökmüşəm, hətta öz əlimlə adam da öldürmüşəm, amma tək olan Allah şahiddi ki, bu işləri səbəbsiz etməmişəm».

Kartli çarı Simayun (əslində Simon) farağat oturmurdu, tez-tez Şəkiyə, Şirvana hücum eləyirdi. Buna görə dörd dəfə Cürcüstana hücum edib onları yerində oturtmuşdu. Sonuncu dəfə qaynı Şamxal sultan Çərkəz Kartili çarını əsir götürüb Qəzvinə - onun hüzuruna göndərmişdi. Şah onun qarşısında dayanmış əsiri Simayunun bütün günahlarından keçib İslamı qəbul etməsini təklif etdi. O isə dinindən dönmədi. Simayunun taleyi onun əlindəydi, amma ona heç bir cəza vermədi. Bir müddət dövlətxanada saxladı. İslamı qəbul etmədiyinə görə yox, dəfələrlə məmləkətin sərhədini keçib əlsiz-ayaqsızların qanını tökdüyünə görə onu Ələmut qalasına saldırdı. Axı, hər kəs tutduğu əmələ görə öz mükafatını almalıdır.

* * *

Gecə şahı öz düşüncələri, ağrı-acıları ilə baş-başa qoyub hamı öz odasına çəkilmişdi. Şah düşündü ki, canda olan ağrı-acıya, üstünə qoşun çəkən fikir-zikirə hətta ən doğma, canı canından, qanı-qanından olanlar da şərik ola bilmir. Dərdini bölüşməyə sirdaş taparsan, amma canındakı ağrıya yox. Təbib də dərman verib, tövsiyəsini edib səni tək qoyacaq. Bəli, Tanrının sənə rəva gördüyünü özün tək yaşamalısan.

Baharın gül nəfəsi pəncərələrdən içəri süzülüb Təhmasib şahın ruhunu oxşayırdı. Səssizlik idi. Hətta ağacda quşlar belə uyumuşdu. Bir xeyli sükuta qulaq asdı. O qədər sakitlik idi, ürəyinin döyüntüsünü eşidirdi.

Birdən hiss elədi ki, qapı astaca açıldı. Kimsə ayaqlarının ucunda içəri girdi. Qapını ustufca, səs salmadan örtdü. «Bu kim ola?! Yoxsa keşikçiləri yuxu tutub? Axı kimin nə cəsarəti var gecənin bu vaxtında onun otağına girsin». Ehtiyat üçün yastığının altında gizlətdiyi qızıl dəstəkli xəncərinə əl atdı. Amma ətir qoxusu hiss edib susdu. Gələnin qadın xeylağı olduğunu duydu. «Yəqin xanımlardandı». İki aydı hərəm dairəsinə keçmirdi. Canından az qala unutduğu bir istilik keçdi. Şah nəfəsini çəkmədən içəri girənin hərəkətlərinə fikir verdi. Çağırılmamış mələyin kimliyini hələ də anışdıra bilməmişdi. Fikrindən keçdi: «Olmaya gələn Sultanımdı?»

Gələn kim idisə, otağın küncünə, üstünə şamdan qoyulmuş dolaba tərəf getdi. Şah, «Şamdanın yerini bilirsə, deməli, məhrəm adamdı» - deyə düşündü. Yaddaşında bir mahnının musiqisi canlandı. Lələ Təbrizi oxuyurdu: «Bu gələn yara bınzər…»

Qadın sakitcə üç şam yandırdı. «Ancaq evin xanımı komasından işıq gəlməsini istər». Otaq tam olmasa da, yarısı işıqlandı. Qadın çarşabını, rübəndini tələsmədən açıb pəncərənin ağzına qoydu. Şah gözləyirdi. Qadın üst paltarını da soyunub şahın yatağı tərəfə çöndü. Şam işığında onun gözəl çöhrəsini aydınca gördü. Gör neçə ildi ayrı düşmüşdülər. Şah - Sultanım! deməkdən özünü güclə saxladı. Sultanım bəyim ona yaxınlaşdı. Təhmasib şah xoş ətir qoxusunu ciyərlərinə çəkə-çəkə:

- Sultanım, sənsən?

- Mənəm, şahım!

- Nə zaman gəldin?

Sultanım şahın sol tərəfində dizi üstə oturub əlini onun alnına qoydu:

- Eşitdim xəstələnmisən, Qumda qərar tuta bilmədim. Neçə gündü yol gəlirəm. Axşam atdan düşmüşəm.

Şah qayğılandı:

- Gərək dincələydin.

- Yuyunub özümə gəlmişəm, - dedi və əyilib şahın geniş alnından öpdü. Şahın əli Sultanımın sifətində, sonra çılpaq dizində gəzdi.

- Nə yaxşı gəldin, Sultanım, nə yaxşı, - səsi titrədi. - Səndən ötrü çox darıxmışdım. Rəhmətlik atam yaxşı deyib:

Neylərəm ol cənnəti, içində dildar olmasa?

Qoy anı viranə qalsın - bağçada bar olmasa.

- Elədi. Mən də darıxmışdım, hökmdarım.

- Sultanım, sən niyə məni adımla çağırmırsan?

Sultanım bəyim nazlandı:

- Sən təkcə məmləkətin deyil, həm də mənim qəlbimin hökmdarısan axı.

- Atamın bir şeiri də var, yəqin anam Taclı xanıma yazıb. İndi mən də o şeiri sənə xitabən deyəcəm. İndiki halımı bu şeir qədər izhar eləyən heç nə yoxdur.

Üzün gördüm sənin, ey yarı-məhru,

Könüllər afəti, ya yüzümdür bu?

Dodağın həsrətindən xəstə haləm,

Axıtdı gözlərim yaşı bəhər su.

Həbəşdir kim, müsafir Rumə düşmüş

Üzün səfihindəki ol xali-hindu.

Gözündən ahu tək dağlara düşdüm,

Nə sehr etdi mənə ol iki cadu?

Xətai dər yürün xurşidə nisbət,

Sözü rövşən dedim yüzünə qarşu.

Sultanım bəyim xəfif gülüşlə:

- Hökmdarım, ürəyin doluymuş ki…

- Səni başa düşməyən bir həmdəmin olmayanda, min nəfərin içində olsan belə, təksən. Sənsiz mən tək idim, Sultanım, yaxşı ki gəldin.

- Gəlməyə bilərdimmi, hökmdarım?

- Sən Quma gedəndə elə zənn etdim ki, bir daha səni görməyəcəyəm.

- Mən də elə düşünürdüm. Amma Qumda keçən hər günümdə qəlbimdəydin. Hər an səni anırdım, hökmdarım.

Təhmasib şah bir az kənara çəkilib yorğanı qaldırdı:

- Gəl bura, baharın soyuğudur, sənə soyuq olar.

Sultanım bəyim şahın əli ilə qaldırdığı yorğanın altına girdi. Əlləri xəstə şahın tüklü sinəsində gəzdi. Şah bu təmasdan dirçəldi, sevimli arvadını qolları arasına alıb sinəsinə sıxdı. Sultanımın nəfəsindən elə bil alov qalxırdı. Getdikcə bu alov şahın boyun-boğazını qarsdı. Bir an ona elə gəldi ki, xəstə-zad deyil. Damarlarında qanı qaynayırdı. Şah Sultanımı gənclik ehtirası ilə öpməyə başladı. Get-gedə hər şeyi unudurdu. «Qadın nə böyük qüvvəymiş», deyə düşündü.

Səhərə yaxın, hava hələ işıqlanmamış Sultanım bəyim yataqdan qalxıb gəldiyi kimi də səssizcə otaqdan çıxdı.

* * *

Səhəri gün çeştə çıxanda həkim Əbu Nəsir qaranəfəs özünü saraya çatdırdı. Şah sarıdan gecəni narahat yatmışdı. Əbu Nəsir keşikçilərə salam verib şahın otağına girdi. O, şahı üzügülər, əhvalını yaxşı görəndə mat qaldı. Şahın hüzurunda ikiqat əyilib ədəblə salam verdi:

- Tanrıya çox şükür, şahım, ovqatınız bu gün yaxşıdı. Yəqin İbn Sinadan bəhrələnib hazırladığım həblərin xeyri olub.

Şah mənalı-mənalı başını tərpətdi:

- Ola bilər, - dedi. - «Sənin verdiyin dərmandan çox, Sultanımın şəfqəti məni sağaltdı, həkimbaşı» demək istədi, amma deyəcəklərini dilinin ucundan qaytardı.

Əbu Nəsir qayğılandı:

- Şah sağ olsun, amma ehtiyatlı olmaq vacibdi. Xəstəlikdən təzə durmusunuz, özünüzü soyuqdan qoruyun. Qibleyi-aləm, pəhrizkarlıq da ən böyük dərmandı, - dedi.

Şah gülümsədi:

- Sufilərin həyatı elə pəhrizlə keçir.

- Elədir, qibleyi-aləm, sufilər heç zaman nəfsinin qulu olmayıblar. Həyatın bir çox zövq-səfasından uzaq durmaq, pəhriz saxlamaq, doğrusu, böyük fədakarlıqdı.

- Bəli, həkimbaşı, sufilərin dünya malında gözü olmaz. Onlar bir tikə çörəyə də qail olarlar. Zahirlərinə yox, batinlərinə fikir verərlər. Bildiyin kimi, əyinlərində də qaba yun parçadan ya paltar, ya da xirqə olar.

Şah bu sözlərlə demək istəyirdi ki, şah olsam da, sufiməzhəbəm, dünyanın hər cür zövq-səfasından olmasa da, haram şeylərdən əl çəkmişəm.

- Həkimbaşı, - dedi, - bizim nəsil şəcərəmizi böyük alimlər araşdırıb, təzkirələrdə yazılıb, mən də oxumuşam, dilavər qocalardan eşitmişəm, bu qənaətə gəlmişəm ki, sufilik bizim zatımızda olub. Mənim iyirmi altıncı babam Əbülqasim Həmzənin

məzarı Ərdəbil yaxınlığındakı Şeyx Kəhzəlan qəbiristanlığındadır. Ziyarətgahdır. Babam Şeyx Səfiəddin İsaq Ərdəbilinin ismi-şərifi isə bütün məmləkətə bəllidir.

- Doğru buyursunuz, qibleyi-aləm. El-oba ancaq sevdiklərinin adını, qəbrini min illər boyu qoruyub saxlayır.

Şah başını tərpətdi və bayaqdan ayaq üstə dayanmış həkimə yer göstərdi:

- Əyləşin.

Həkim Əbu Nəsir ədəblə baş əyib şahın işarə etdiyi yerdə oturdu. Hiss etdi ki, şah ürəyini boşaltmaq istəyir.

- Həkimbaşı, bizim nəslimiz öz nəfsinin qulu olmaqla şahlıq mərtəbəsinə yüksəlib. Mənim ulu babam Xoca Əli üç dəfə Əmir Teymurla görüşüb. Əmir Teymur Xorasana yürüşü zamanı Ceyhun çayını keçirmiş, necə olursa, qamçısı suya düşür. Bu vaxt dərviş paltarında, yoxsul görkəmdə bir kişi əyilib qamçını götürür, verir Əmir Teymura. Fateh ondan soruşur:

- Kimsən, hardansan?

Babam cavab verir:

- Adım Xoca Əlidi, yurdum Ərdəbil. Ey böyük hökmdar, biz yenə görüşəcəyik.

Doğrudan da, Əmir Teymur Bağdaddan İranın Xuzistan vilayətinə qoşun çəkəndə Dizful çayı üstündə çiyninə qara xirqə salmış babam Xoca Əlini görür. Babam deyir:

- Hökmdar, mən Ceyhun çayının kənarında sənin əlinə qamçı vermiş dərvişəm. Biz bir də Ərdəbildə görüşəcəyik, hökmdar.

Doğrudan da, Əmir Teymur Osmanlı Sultanı İldırım Bəyazidi məğlub edir, xeyli əsir götürüb Ərdəbilə gəlir. Ərdəbildə o, ulu babamız Şeyx Səfinin məqbərəsini ziyarət etməyə gedir. İçəri girəndə vaxtilə əlinə qamçı vermiş babam Xoca Əlini səcdədə görür. Müridlərdən biri yaxınlaşıb babama dünyanın hökmdarı Əmir Teymurun gəldiyini söyləyir. Babam Xoca Əli heç halını da pozmur, əli ilə hökmdara oturmaq üçün yer göstərir. Babam səcdədən ayrılıb hökmdarla üzbəüz oturanda Əmir Teymur ondan nəyə ehtiyacı olduğunu soruşur. Babam dünya malında gözü olmadığını söyləyir. Əmir Teymur heyrət edir. Təkidlə babama deyir:

- O zaman sən məndən dünya malı olmayan bir şey istə!

Babam Xoca Əli deyir:

- Hökmdar, Allah rizası üçün Osmanlı əsirlərini azad edin, Sizdən başqa bir təmənnam yoxdur.

Əmir Teymur əsirləri azad edir. Əsl sufilər Allahdan başqa kimsəyə itaət etməzlər, həkimbaşı. Bax, bu inam, əqidə bizi ucaldıbdır.

- Elədir, şahım, - həkim əlini sinəsinə qoyub təzim etdi. - Dünyanı sizin kimi müdrik şahlar idarə etməsə, vəhşilik baş alıb gedər.

- Müdrük olmaq üçün çox şeydən keçib kamilliyə can atmaq gərəkdir. Kamil insandan kimsəyə xəta gəlməz, həkimbaşı, cahildən isə hər sifəti gözlə. Ad - sufilərin əlaməti, Allaha görə elm - onların sifəti, ibadət - onların bəzəyi, mömünlük - onların şüarı, haqqın həqiqətləri - onların sirləridir. Sufi yolunu tutan kəs son məqsədinə çatmaq üçün şəriət, təriqət, həqiqət, mərifət deyilən mərhələlərdən keçməlidir. Atam Şah İsmayıl cənnətməkan bu xüsusda belə buyurub:

Keçmək gərək dörd qapıdan,

Qurtulasan mürəbbidən,

Mürəbbidən, müsahibdən

Ələ gərək yol Əlinin.

- Allah atanıza rəhmət eləsin, düz buyurub.

Fərraşlardan biri qapını açıb içəri girdi:

- Qibleyi-aləm, Sultanım bəyim yanınıza gəlmək üçün izn istəyir.

- Gəlsin!

Həkim Əbu Nəsir dərhal ayağa qalxdı:

- Qibleyi-aləm, Allah yastığınızı yüngül, taxtınızı uca eləsin. İcazənizlə mən gedim.

- Buyurun, həkimbaşı.

Həkim çıxdı. Bir qədər keçmiş Sultanım bəyim içəri keçdi:

- Mənim qəlbimin sultanı özünü necə hiss eləyir?

- Yaxşıyam, Sultanım, gərək çoxdan gələydin, ayağın mənə düşdü.

Sultanım bəyim nazlandı:

- Hər gün bayram olmur, hökmdar.

- Sənin hər gəlişin mənə bayramdı, Sultanım, sən mənə gəncliyimi, çılğın çağlarımı xatırladırsan.

- Qayğısız günlərimizi.

- Yox, mənim qayğısız günüm olmayıb, Sultanım. Bu boyda məmləkətin qayğısı mənim çiyinlərimdədi. İki aydı xəstəyəm, ətrafımda dolaşanlar nə fikirlərə düşməyiblər?! Mənim öləcəyimi zənn ediblər, şahlıq, taxt-tac eşiqinə düşüblər. Allah, Allah… - Şah köksünü ötürdü.

- Allah eləməsin, hökmdar, səni istəməyənlər ölsün.

- Allah yox, bəndələr bu fikrə düşüblər, Sultanım. Hökmümüz altında olanlar iki dəstəyə bölünüblər. Hələ mən həyatda ola-ola bu oyunları törədirlər, gör olmayanda nə fəlakətlər olacaq.

- Allah səni qorusun, hökmdarım. Sənə sayğısızlıq göstərənlər, inşaallah, cəzalarına çatarlar. - Bir qədər susub əlavə etdi. - Hökmdarım, bu Heydər mirzə tərəfdarlarından oğlumuz İsmayıl mirzəyə bir xətər toxunmaz?

- Ürəyini sıxma, tədbir görmüşəm, inşaallah heç nə olmaz.

- İsmayıl sarıdan ürəyim çox narahat idi. Allah səndən razı olsun… Yaxşı, ürəyin nə istəyir, deyim, aşpazlar hazırlasın.

- Meyxoş bir şey. Çoban buğlaması, yanında da bir badya dovğası, - şah güldü.

- Hökmdar, elə dedin, lap iştaha gəldim.

- Hazırlasınlar, bir yerdə yeyərik.

- Yaxşı, - deyə Sultanım otağı tərk etdi.

VI fəsil

ZƏRİF RUHLU ATA. YIRTILMIŞ KƏFƏN

Bir ovuc tozdur küləklər qarşısında bu bədən,

Ömrümüz qartək əriyir hər an günəşdən, şölədən.

İmadəddin Nəsimi

Təhmasib şah başını əlləri arasına alıb fikrə getmişdi. Yaxşı bilirdi ki, Allahın izni ilə qəfil ayağa qalxmağı çoxlarını çaşdırıb. Yuxusu ərşə çəkilənlər də, sevincindən çiçəyi çırtlayanlar da olacaq. Biri-birini sevməyənlər qapısını açıb - örtməkdən yağır edəcək, onun əlilə bir-birini sıradan çıxarmağa çalışacaqlar. Gör haqqı nahaqqa verməmək üçün nə qədər baş sındırmalı, düşünüb daşınmalı olacaq.

Heydər mirzənin tərəfdarları xeyli dilxor görünürdülər - ona görə yox ki, şah gözlənilmədən kəfəni yırtmışdı, yox, onlar şahın sağalmasından heç də təəssüflənmirdilər. Ancaq görünən o idi ki, İsmayıl mirzə fədakarları Heydər mirzəni Səfəvi xanəgahının taxtında görmək istəyənlərdən fərqli olaraq, şahın gözündə ucalmaq fürsəti qazanmışdılar. Pərixan bəyim, onun doğma qardaşı Süleyman mirzə, dayısı Şamxal sultan Çərkəz, digər oğlanları Əhməd mirzə, Mahmud mirzə, hiyləgərlikdə şeytana papış tikən Hüseynqulu Xüləfa Rumlu indi özlərini elə aparırdılar ki, sanki Qəhqəhə qalasında dustaq olan İsmayıl mirzənin yox, şahın yolunda canlarından keçməyə hazır olan fədailərdilər. Onlar şahsevən olmuşdular. Şahsevənlər qorxub-çəkinmədən Heydər mirzənin, onun tərəfdarlarının ünvanına söyub-söylənir, onları Səfəvi xanədanının düşmənləri hesab edirdilər.

İndi əsas məsələ özünə gəlib dirçəlmiş Təhmasib şaha düşmənlərinin yerini göstərmək idi. Onların məqsədi Heydər mirzəni gözdən salmaq, tərəfdarları Hüseyn bəy Yüzbaşını, Piri bəy Qoçulunu, Məhəmməd bəy Qoyunçuoğlunu, Allahqulu sultan Aycəkoğlunu sıradan çıxarmaq, saraydan qovdurmaq idi, özü də rüsvayçılıqla, urvatsız…

Bu məsələdə şahsevənlərin hər birinin öz məqsədi, öz məramı vardi. Birisi var-dövlətini qorumaq hayında, digəri sarayda yüksək vəzifə tutmaq umacağında idi. Eləsi də vardı, küyə gedirdi, heç özü də bilmirdi ki, ona nə lazımdı. Pərixan bəyim isə nə istədiyini, nə üçün istədiyini, nəyin naminə canfəşanlıq etdiyini çox gözəl bilirdi. Bilirdi ki, şəriət qanunlarına görə, şahlıq taxtında heç zaman otura bilməz, amma istədiyi şəxsin başına hakimiyyət tacını qoya bilsə, gözə görünmədən

məmləkətin sahibi o olacaqdı. O, istəklərini həyata keçirmək üçün Heydər mirzəni də dəstəkləyə bilərdi. Amma onun örkəninin üstünə darı yığa bilmirdi. Heydər mirzə atası Şah Təhmasibin sevimli oğluydu, iki il idi, demək olar, şahın göstərişlərini o icra edirdi, sarayda hörmət-izzət sahibiydi, tərəfdarları vardı, deməli, sabah hakimiyyətə gəlsə, onun boynunda zərrəcə minnəti olmayacaqdı. Pərixan bəyim bu düşüncəylə Heydər mirzədən xoşlanmırdı, onu şahlıq taxtında görmək istəmirdi. Bilirdi ki, Heydər mirzə taxtda otursa, cavan şahın işlərinə qarışsa, onu zorla da olsa nişanlısına ərə verib, ərini də uzaq əyalətlərdən birinə vali təyin edər və bu yolla onu saraydan birdəfəlik uzaqlaşdırardı. Ona görə də Pərixan bəyim düşünürdü ki, İsmayıl mirzəni Qəhqəhə qalasından çıxartdırıb şahlıq taxtında oturtsa, onun boynunda haqq-sayı olacaq, o yan - bu yan eləcə, keçmişini ona xatırladacaq: «Mən olmasaydım, indi dustaqxanada can çürüdürdün. Məni başıörpəkli adi qadınlarla tərəzinin bir gözünə qoymağı dirdəfəlik unut! Səni şahlıq taxtında oturdan, oradan düşürdə də bilər».

Pərixan bəyimin kəfəni yırtmış atasına Heydər mirzə, onun tərəfdarları ilə bağlı bir söz demək fikri yoxdu. Çünki atasını hər kəsdən yaxşı tanıyırdı. Bilirdi ki, yanına gedib danışsa, atası səbirlə ona qulaq asacaq, ancaq nə qərara gəldiyini söyləməyəcək. Şah dedi-qoduya, qeybətə qoşulmayan adamdı. Yanına gələni dinləyirdi, amma nə qərara gəldiyini, necə tədbir tökəcəyini Allahdan başqa kimsə bilə bilməzdi. Əlbəttə, o, bağışlamağı sevdiyi kimi, günahkarı cəzalandırmağı da yaxşı bacarırdı. Bəzən günah iş tutmaqda həddini aşana elə cəza növü seçirdi ki, bu barədə camaat illərlə danışırdı. Pərixan bəyim elə qəbahət iş tutmamışdı ki, cəzalandırılsın, amma həm də zərif ruhlu atasının gözündən düşməkdən, onun tənəli, adamın yeddi qatından keçən sözlərini eşitməkdən ehtiyatlanırdı. Atası onun niyyətini dərhal başa düşüb ox kimi adamın gözlərinin içinə sancılan baxışlarını çəkmədən: «Sən də belə, Pərixan! Mən səni nişanladım ki, ərə gedib ev-eşik sahibi, ana olasan, sən isə hər şeydən keçib hakimiyyət eşqinə düşmüsən. Heyif mənim zənnimə, mən səni kamil insan bilirdim, demə sənin qəlbin şeytan yuvasıymış…» Yox, bu sözləri eşitmək, canı qədər sevdiyi atasının gözündən düşmək, onun inamını qırmaq istəmirdi Onun gözündən düşənlər, illər keçsə belə, əvvəlki tək onun rəğbətini qazana bilmirdilər. Ona görə də yaxşı olardı Heydər mirzə haqqında onun ürəyindən keçənləri başqaları, lap öz doğma anası danışsın. Lalın dilini anası bildiyi kimi, kişinin də dilini arvadı yaxşı bilər. Gecə gedib girsin ərinin yatağına, həm ləzzətli şirin bir gecə keçirtsin, həm də məqamında olub-keçənlərdən şahı agah etsin. Desin, bilirsənmi oğlun Heydər mirzə hansı yuvanın quşudu, Piri bəy Qoçulunu, Məhəmməd bəy Qoyunçuoğlunu, vaxtı ilə cəzalandırdığın o Allahqulu sultan Aycəkoğlunu, ustaclıların əmiri Hüseyn bəy Yüzbaşını sən yaxşı tanıyırsanmı?

Bu yerdə Pərixan bəyimin fikri bir az çiləkənlədi. Ustaclı Hüseyn bəy Yüzbaşı tədbirli, ağıllı, hörmətli bir adamdı, onu şahın gözündən salmaq elə də asan iş deyildi. Pərixan bəyim bir qədər düşünüb sonra bu qərara gəldi ki, gündüzlər kişilər hakim olsalar da, gecələrin hakimi qadınlardır. Anası şahın yanına gedib hər şeyi bircə-bircə ona anladar.

VII fəsil

SARAYDA HÖRÜMÇƏK TORU

Ey bəxtinin dalınca səy edən,

Bəxt və dövlət işi bilməklə deyil.

I Şah Təhmasib Səfəvi

Hüseyn bəy Yüzbaşı məsləhət-məşvərətə gələn Piri bəy Qoçulunu, Məhəmməd bəy Qoyunçuoğlunu, Allahqulu sultan Aycəkoğlunu yola salıb qayıtdı. Onlara dönə-dönə tapşırdı ki, ehtiyatlı olsunlar, Hüseynqulu Xüləfa kimi hiyləgərin felinə getməsinlər, onun qurduğu tora yaxın düşməsinlər. Onlar da Hüseyn bəy Yüzbaşını arxayın salmışdılar.

Hüseyn bəy Yüzbaşı otağa keçəndə onu gözləyən gənc İsgəndər bəy ehtiram göstərib ayağa qalxdı. Bu ucaboylu, qaraqaş, qaragöz oğlanın xətrni çox istəyirdi. Hüseyn bəy sağ əli ilə gəncin çiynindən basdı:

- Otur, otur, böyüklərin yolunu tutduğun üçün Allah yanında üzün ağ olsun, - dedi.

- Çox sağ olun, Hüseyn əmi, - deyə İsgəndər bəy cavab verdi.

Qulluqçu iki piyalə kəklikotu çayı gətirdi:

- Buyurun, çay için, ağa.

- Sağ ol, hardan bildin ürəyim kəklikotu çayı istəyir?

Qulluqçu xoş sözdən məmnun halda:

- Adamın ürəyinə damır, ağa, - dedi.

Hüseyn bəy təbəssümlə:

- Adam olanın, hə…

Qulluqçu baş əyib çıxdı. Hüseyn bəy ağzına iki tutqurusu atdı və çaydan iki qurtum alıb piyaləni süfrəyə qoydu, sınayıcı nəzərlərini nə barədə isə düşünən İsgəndər bəyə dikdi:

- Nə düşünürsən?

İsgəndər bəy fikirdən ayrılıb:

- Heç, elə-belə… - dedi

- Elə-belə heç nə yoxdu, oğlum.

- Doğrudu, Hüseyn əmi.

- Sən mənim ən yaxın dostumun oğlusan, ürəyində nə sıxıntın olsa, utanma, de. İşindən razısanmı?

- Razıyam, Allah da sizdən razı olsun. Saray dəftərxanasında işləmək, məşhur nəqqaşlarla, xəttatlarla hər gün görüşüb söhbət etmək çox xoşdu, Hüseyn əmi.

- Çox gözəl. Sənin bu siyaq elminə bağlılığın nədəndir? - Hüseyn bəy soruşdu.

İsgəndər bəy yerində qurcuxub dedi:

- Ağa, bu işə məni mal-dövlət düşgünü olan insanlar həvəsləndirdilər. İndi mən dəftərxanada dövlət xəzinəsinə daxil olan mədaxil və məxaric dəftərlərinə xüsusi işarələrlə, rəmzlərlə qeydlər edirəm ki, kimsə bu dəftərlərdə düzəliş etməyə cəsarət etməsin. Mən siyaq elmini yaxşı mənimsəmişəm, əmi.

Hüseyn bəy bir qədər düşünüb dedi:

- Əcəb, heç sözüm yox. Amma məni sənin gələcəyin düşündürür. Hələ çox cavansan, həyatın qabaqdadır, de görüm bütün ömrünü siyaqlıq peşəsinə bağlamaqmı istəyirsən?

- Məni bu işə həvəsləndiriblər, mən də bu peşəni öyrənmişəm, daha mənim əlimdən nə gəlir?

Hüseyn bəy inamla:

- İstəsən çox şey, İsgəndər bəy, - dedi. - Sən lap gənc yaşında gəlib düşmüsən saraya. Bu həm xoşbəxtlikdi, həm də … - arxasını demədi, amma İsgəndər bəy «bədbəxtlik» sözünü aydınca oxudu. - Allah sənə görmək fürsəti, yazıb-oxumaq qabiliyyəti veribdi. Sən işindən ayrılmadan ətrafına diqqət eləsən, ayıq gözlə baxsan, çox şey görəcəksən. Sən bu gördüklərini gecələr qələmə al! Səfəvilər xanədanının tarixini yaz. Yaşlı adamlarla söhbət elə, qədim əlyazmaları oxu. Səni tarixdə mədaxil-məxaric dəftərlərindəki rəmzi işarələr yox, qələmə aldıqların yaşadacaq. Görürsənmi ətrafımızda nələr baş verir? Sən deyə bilərsənmi, indi üzbəüz oturub söhbət etdiyin Hüseyn əminin başına sabah nələr gələcək?

İsgəndər bəy «bəli, xeyr» demək əvəzinə çiynlərini çəkdi.

- Görürsən, səhih cavab verə bilmirsən. Çünki sabahımız bəlli deyil, getdiyimiz cığır fikir meşəsində itib-batır. Taleyimiz isə Ulu Tanrıdan çox Hüseynqulu Xüləfa kimi şeytanla qolboyun olub yatanların əlindədir.

- Hüseyn əmi, belə bədbin düşünməyin. Mən sizi çox güclü bir adam bilirəm.

- Söhbət güclü, yaxud gücsüz adamdan getmir. Söhbət ətrafımızı, daha doğrusu, ürəyimizi qapsımış hörümçək torlarından gedir. Mən sənə gündüzlər insafdan, mürvətdən, Allaha sadiqlikdən, bəndələrə hörmətdən, insanlıqdan laf edib, gecələr min bir hiylə işlədib, yolları üstə çıxan heç kəsə aman verməyən, qazdıqları quyuya salan, gözlərinə mil çəkdirən, baş kəsən, ev yıxan cəlladlardan danışıram. Sən bunları görürsənmi, İsgəndər bəy?!

İsgəndər bəy dirçəlmiş halda:

- Görürəm, Hüseyn əmi, əlbəttə görürəm. Mən də bu hadisələrin içində deyiləm bəyəm?

- Xeyr, sən bu hadisələrin içində deyilsən, ancaq şahidisən. Oğlum, heç mən səni bu iyrənc olayların içində görmək də istəmirəm. Amandı, sən özünü bulaşdırma, uzaqda dayan, amma gör, əyrini düzdən, düzü əyridən, doğrunu oğrudan, safı hiyləgərdən, mərdi mərdimazardan ayırd etməyi bacar.

İsgəndər bəy dolub - daşan Hüseyn bəy Yüzbaşıya söz verdi:

- Arxayın olun, Hüseyn əmi, haqqı nahaqqa vermədən hər şeyə diqqət yetirəcəyəm. Siz məni söhbətinizlə qəflət yuxusundan oyatdınız. Son vaxtlar ətrafımda baş verənlər məni də düşünməyə sövq edir.

- Çox əcəb. Sən həmişə ayıq ol. Sənin gözlərinin önündə gözləri baxa-baxa, ayaq üstə yatanlar çox olacaq. Sən onlara məbadə qoşulasan. Onlar heç İsrafil gəlib sur

düdüyünü çalanda da oyanmayacaqlar. Sən çox oxu, kamilliyə can at, onsuz da ətrafımız nadanlarla doludu. Sən dünya işlərindən huşyar ol. Vəzifədə, ad-sanda yox, öz içində, öz gözündə uca ol, onda hər kəsin yanında da uca olarsan.

- Hüseyn əmi, bu dəyərli nəsihətlərinizi ömrüm boyu unutmaram. Söylədikləriniz həyat dərsləridi, - dedi. Az sükutdan sonra əlavə etdi: - Gecdi, icazə verin mən gedim, valideynlərim narahat olarlar.

Hüseyn bəy:

- Gecdi, getmə. Valideynlərin bilirlər ki, mənim yanımdasan. Mən də yorulmuşam, yer salsınlar yataq, - dedi və çaxçaxı vurdu. Qulluqçu qapını açıb içəri girdi:

- Yatmağa yer hazırlayın.

VIII fəsil

BAŞ TUTMAYAN SÖHBƏT

Sərvətin artdıqca bil ki, artacaq dərdi-sərin,

Sən ələntək parçalar ol sərvəti varislərin.

İmadəddin Nəsimi

Gecə Pərixan bəyimin anası şahın yanındaydı. Biri-birini oxşayandan, sığal-tumardan, can alıb, can verəndən sonra iki övlad anası keçdi əsas mətləbə:

- Təhmasib, bilmirəm necə deyim, sən ağır xəstə yatanda Heydər mirzə heç özünü yaxşı aparmadı… - susdu. Gözlədi ki, şah nə isə desin, soruşsun, Səfəvilər xanədanının hökmdarı isə susmuşdu.

- Qan özünü göstərdi, Təhmasib. Qan…

Şah qeyzlə arvadına baxdı:

- Bu nə qan söhbətidi belə, Heydər mirzə mənim qanımdan deyilmi?

Xanım sözünə düzəliş verdi:

- Əlbəttə, sənin qanındandır, ayrı nə cür ola bilər?

- Bəs onda bu nə sözlərdi deyirsən?

- Axı onun anası gürcü qızıdı.

- Nolsun, İslamı qəbul eləyib, övladımın anasıdı.

Arvadı çoxdan içində qövr eləyən sözü, nəhayət, söylədi:

- O ki sənin cariyələrindən biriydi.

Şah arvadının sarı simə vurduğunu anlayıb:

- O Gürcüstanda sayılan bir kişinin qızıydı. O məmləkətə üçüncü yürüşümdə o qızı əsir götürmüşdük. Saraya, hərəmxanaya gətirdik. O da cariyələrimdən biri oldu. Amma indi o, şahzadə Heydər mirzənin anasıdı. Ona hörmətlə yanaşmaq hər kəsin borcudu! - Şah bu sözlərlə «yəni sənin də borcundu» dedi və xanım da bunu gözəlcə anladı.

- Bəs onun qardaşı Əlixan bəy Gürcüyə, onun dostu Zal bəyə nə deyirsən?

- Zal bəy nə qələt eləyib? - Şah açıqca istehzayla soruşdu.

- O da Heydər mirzənin tərəfindədi.

- Bəs kimin tərəfində olacaq, Zal bəy Heydər mirzənin doğmaca dayısı Əlixan bəyin dostu deyilmi?

- Vallah, qəribə adamsan, hər dinini dəyişən, elə bilirsən içini də dəyişir?

- Mərdi qova-qova namərd eləməsək, əlbəttə, zahirdə bizimlə, batində özününkülərlə olar. Mən bu binəvaları yox, onların bizə kəc baxan ağalarını, Şəkini, Şirvanı yağmalayıb aparanları, gəlin-qızlarımızı çıl-çılpaq atdöşü eləyənləri cəzalandırmaq üçün Gürcüstana qoşun çəkmişdim. Sən ki yaxşı bilirsən, çox vaxt qurunun oduna yaş yanır. Zal bəy, Əlixan bəy və bacısı əsir düşdü, biz də götürüb gəldik. İndi deyirsən bu adamlara hər fürsətdə zülm eləyim? Peyğəmbər əfəndimiz beləmi buyurub, xanım əfəndim? Biz xaçpərəstlərlə qəddar rəftar etsək, İslamın müqəddəs qılıncı heç zaman parlamaz.

- Bəli, Peyğəmbər salavatullah zülm etməyi heç kəsə rəva bilməyib.

- Bəs elə isə sən niyə mənə haqsız olmağı rəva bilirsən?

- Allah eləməsin, Təhmasib, mən səni ayıq olmağa dəvət edirəm. Yaxşı, bu Heydər mirzə əzizindi, Əlixan bəylə Zal bəy qayınlarındı, bəs bu Piri bəy Qoçuluya,

Məhəmməd bəy Qoyunçuoğluna, Allahqulu sultan Aycəkoğluna, Hüseyn bəy Yüzbaşıya, onların bir yığın tərəfdarlarına nə deyirsən?

- Yaxşı, mənim tərəfimi saxlayanlar kimdi?

- Qızımız Pərixan, oğlumuz Süleyman mirzə, dayıları Şamxal Çərkəz, Hüseynqulu Xüləfa…

Şah xanımını sınayıcı nəzərlərlə süzdü:

- Bəlkə onlar mənim yox, İsmayıl mirzənin tərəfdarlarıdı?!

- Məgər İsmayıl da sənin oğlun deyilmi?

- Əlbəttə, oğlumdu, vaxtilə şücaət göstərmiş şahzadədi…

- Amma zindanda yatır.

- Əmrimə itaət etməyib, hakimiyyət sevdasına düşüb atasının üzünə ağ olanın yeri, əlbəttə, zindandı. Yoxsa onu gətirib sarayda pərqu yorğan-döşəkdə yatırtmalıyam?

Xanım da tabe olmaq istəmirdi:

- Təhmasib, əgər insafla danışsaq, Heydər mirzə də hakimiyyət sevdasına düşməyibmi?

- Xeyr. Mən onu hər kəsdən yaxşı tanıyıram. Bütün bu həngamələr xəstəliyimlə bağlı olub. Ehtiyatkarlıqdan yaranıb. Yaxşısı budur sən bu cür çirkin işlərə qarışma, - deyə şah yerindən qalxdı və bununla da söhbət bitdi. Xanım da çənə vurmağın, dil tökməyin mənasız olduğunu görüb ayağa durdu. Söhbətin ürəyi istəyən kimi alınmadığından pərt olmuşdu. Hətta ürəyində onu bu işə qatdıqlarına görə qızıyla oğlunu qınadı da. Qorxdu ki, şahın qəlbi ondan sına. Ərinin necə kinli olduğunu gözəl bilirdi, ondan incisə, bir də ona yaxın durmayacaqdı, yana-yana qalacaqdı. Belə olmağını isə qətiyyən istəmirdi. Nigaranlığına aydınlıq gətirmək üçün əri ilə üz-üzə, göz-gözə durdu. Bəzən bir lal baxışın dediklərini bir yığın sözlə çatdırmaq olmur. Gördü ki, ərinin gözləri dumdurudu, orada özünə qarşı zərrəcə kin yoxdu və içindəki sevinc hissinin təsiri ilə şahın tüklü iri əllərini dodaqlarına apardı.

- Gecən xeyrə qalsın, hökmdar.

- Xeyrə qarşı, xanım. Çox şeyi ürəyinə salma, Allah özü hər şeyi yoluna qoyacaq.

IX fəsil

XƏYANƏTİN İZİ İLƏ

Çəkmə, çəkə bilməzsən, bərkdir fələyin yayı.

(Atalar sözü)

Heydər mirzəni və tərəfdarlarını gözdən salmaq üçün elə bil növbəyə durmuşdular. Şah isə müdriklik göstərib onlara dil vermirdi. Amma istər-istəməz içi bulanmışdı. Gəlib-gedənlər ürəyinə xal sala bilmişdilər. Əlbəttə, şah çox gözəl başa düşürdü ki, bu işdə hər kəsin öz məramı, öz həqiqəti var. Bəs əsl həqiqəti harada aramalı? Həqiqət sandığın şeyin özü doğrudanmı həqiqətdir? Doğrudanmı sən hər an həqiqətin yanındasan? Bəlkə, sənin həqiqət zənn etdiyin, əslində, həqiqət deyil? Hər kəsin həqiqəti öz mənafeyindən doğmurmu? Biz həmişəmi ədalətli oluruq?

Şahın bu yerdə fikri yaşamış olduğu günlərə uçdu, keçmişi də onun yadına Heydər mirzənin tərəfdarları arasında adı hallanan Allahqulu sultan Aycəkoğlu ismini saldı. Allahqulu məsələsini düşündüyü yerdə Gilan vilayəti, o vilayətin Xan Əhməd və Müzəffər sultan adlı hakimlərini də xatırladı, daha doğrusu, o zaman baş verənləri bütün olaylarıyla yaddaşında bərpa elədi. Vaxtilə baş vermiş bu hadisələrin bir ucu da Allahqulu sultan Aycəkoğluna gəlib dirənirdi. Şahın özünün, doğmalarının Gilan vilayətinə, oranın adamlarına xüsusi rəğbəti vardı. Çünki gələcək Səfəvilər xanədanının banisi Şah İsmayılı uşaq vaxtı məhz Gilanda gizlədib, bəlalardan qorumuşdular. Bu Gilan vilayəti də iki hissəyə ayrılmışdı. Biye-pəsə və Biye-pişə. Biye-pişə Xan Əhməd, Biye-pəsə isə Müzəffər deyilən Əmirə Dibac hakimlik edirdi. Bu Əmirə Dibaca Müzəffər adını da atası Şah İsmayıl cənnətməkan Çaldıran döyüşündən dörd il keçmiş, onun sarayında olanda ona vermişdi. Şah hətta Müzəffəri qızı Xanış bəyimlə də evləndirib onunla qohum olmuşdu. Amma o neylədi?

Çaldıran döyüşündə qələbə çalan Sultan Səlim Şah İsmayıldan öncə dünyadan köçdü. Onun yerini oğlu Süleyman tutdu. Dörd il sonra Şah İsmayıl da dünyasını dəyişdi, on bir yaşına qədəm qoymuş Təhmasib mirzə onun yerinə taxta çıxdı. Əvvəl hər şey öz qaydası ilə gedirdi. Amma bəzi adamları şeytan yolundan azdırdı. Təhmasib mirzə taxtda oturandan bir müddət sonra atasının zamanında yasavul olan Üləma Təkəliyə eşikağası rütbəsi verib əmirlər cərgəsinə çıxartdı. Üləmanın

sevincinin həddi-hüdudu yoxdu. Elə bu vaxt Xorasanda Təkəli camaatı üsyan etdi. Şah Üləma Təkəlini Azərbaycanın əmrül-ümrası1 seçdi və ona mənsub olduğu tayfanı sakitləşdirmək üçün üç yüz qorçu götürüb Xorasana getməyi tapşırdı. Üləma şaha «baş üstə, göz üstə» desə də, Xorasana yox, Təbrizə getmişdi. Onun könlündən səltənətin vəkili olmaq keçirdi. Şahının isə bu vəzifəni ona vermək fikri yoxdu. Ona görə də rəncidəydi. O, burada Sarayın darğalığını2 ələ keçirmək istəmişdi. Amma qorçular ona mane olmuşdular. Üləma həddini aşaraq şaha məxsus cins atları, fərşxanada saxlanan naxışlı çadırı ələ keçirmişdi. Təbrizin varlı adamlarını bir bəhanə ilə dama basıb, mal-mülklərini əllərindən almışdı. Şah bəlkə də səltənətin vəkili olmaq eşqinə düşmüş Üləmanın törətdiyi bu işlərə göz yumardı, amma eşidəndə ki, onun göstərişi ilə güləbətin tikən kənizləri (qızları) ustaların əlindən alıb mülazimlərinin ixtiyarına verib, onu Allahın izni ilə ayaqlarından asacağına and içdi. Üləma da cəzasının ağır olacağını tez başa düşdü və gecə ikən Türkiyəyə - Sultan Süleymanın sədr-əzəmi İbrahim paşanın yanına qaçdı. Təhmasib şah elçi göndərib xaini geri istədi. Sultan Süleyman da İbrahim paşanın əlindən qaçıb Təhmasib şaha pənah gətirmiş Şərif bəyi tələb etdi. Təhmasib şah müdriklik göstərib Sultan Suleymana yazdı ki, etirazım yoxdu, Üləmanı göndərin, Şərif bəyi aparın: «Nə üçün Üləma və Şərif bəyə görə iki İslam padşahı arasında çəkişmə olsun». Amma hər şey əksinə oldu. Sultan Süleyman Üləmanın sözü ilə Azərbaycana qoşun yeritdi. Ah, Üləma, Üləma, sənə görə nə qanlı-qadalı hadisələr baş verdi, səni tutmaq üçün nə qədər vaxt sərf olundu.

Sultan Süleyman əvvəl-əvvəl onu dişinə vurub, bərkliyini, boşluğunu yoxlamaq istədi. Fil paşa adlı birini əlli minlik qoşunla Van qalasının sərhədlərinə göndərdi. O da dərhal əks hücuma keçib Fil paşanı toplarını döyüş meydanında qoyub qaçmağa məcbur elədi. Elə bu vaxt eşitdi ki, Kar Übeyd xan Özbək Xorasana hücum edib. Vaxt itirməyib dərhal Xorasana getdi. Üləma xan İbrahim paşaya şahın Azərbaycanda olmamasından yararlanmağı, Əcəm torpaqlarına hücuma keçməyi məsləhət bildi. İbrahim paşa Azərbaycana hücum etmək üçün Sultan Süleymandan izn aldıqdan sonra səksən min nəfərlik orduyla hücuma keçdi. Bu yürüşdə xain Üləma xan ona bələdçilik elədi. 1534-cü ilin iyun ayı idi.

Təhmasib şah Sultan Süleymanın qoşunu barədə səhih məlumat alandan sonra hesabladı ki, Sultanın üç yüz min nəfərlik qoşunu varsa, deməli, bir o qədər də xidmətçisi, atı, dəvəsi, qatırı var. Hər adama və heyvana gündə iki mən1 azuqə lazımdı. Bu da hər gün on beş min xalvar2 edir. Yaxşı, tutaq ki, Sultan özü beş yüz min dəvə yükü azuqə gətirib, bu ki onlara bir aydan artıq bəs eləməz.

Şah fikirləşdi ki, bu qoşunun qabağına çıxsa, məğlub olar. Ona görə də əmr verdi ki, Qorçuları Rum3 qoşununu qabaqlayıb tarlaları, biçənəkləri, zəmiləri otartsınlar,

düşməni ərzaqdan, içməli sudan məhrum etsinlər. Onlar axırda aclığa dözməyib ölkəni tərk edəcəklər. Şah buna çox əmin idi.

İki ay sonra Sultan Süleyman da İbrahim paşanın ardınca Azərbaycana gəldi. O, məmləkəti tamam-kamal tutmaq niyyətindəydi. Sultan Süleyman yararsız hala salınmış tarlalardan, əhalisi koçürülmüş kəndlərdən, qəsəbələrdən keçərək İranda düşərgə saldı.

Şah Təhmasib Sultan Süleymanın qarşısına çıxmasa da qorçuları vasitəsi ilə daim düşmənini izlətdirirdi. Düşmən tərəfin hər addımı ona bəlli idi və arxadan hər an ona zərbələr vururdu.

Bir axşam elə bil Əmirə Dibacı-Müzəffəri şeytan yoldan çıxartdı, atlanıb kiçik bir dəstə ilə Sultan Süleymanın Təbrizin Ucan deyilən yerindəki düşərgəsinə gəldi. Hələ o yolda ikən onun gəlişini Sultan Süleymana çatdırmışdılar. Düşərgəyə çatanda yeniçərlər onun qabağına yeriyib atının çilovundan yapışdılar. Sultan Süleyman da öz ayağı ilə hüzuruna gəlmiş Şah Təhmasibin qaynını, Biye-pəsənin hakimi Əmirə Divacı hörmət-izzətlə qarşıladı, tabeliyini qəbul etdiyinə görə ona qiymətli bəxşişlər verdi.

Əmirə Divac-Müzəffər Sultan Süleymanın düşərgəsinə getməyə hazırlaşanda arvadı Xanış bəyim onun qabağına yeridi. Müzəffər bu an ayağını üzəngiyə keçirmişdi və atın üstünə qalxmağa hazırlaşırdı. O, arvadını görüb ayağını üzəngidən çıxardı. Bolluca arpa yemiş at yerində sakit durmurdu, sahibini alıb aparmağa hazırdı.

Xanış bəyim üzünü ərinə tutdu:

- Müzəffər, sənə atam Şah İsmayıl, qardaşım Şah Təhmasib bir yamanlıq eləyib? - soruşdu.

- Yox, bir yamanlıq görməmişəm.

- Bəs sənə nə vacib olub qardaşımın düşməni Sultan Süleymanın qabağında diz çökməyə gedirsən?

- Mən var-dövlətimi, hakimiyyətimi qorumağın başqa yolunu görmürəm.

Xanış bəyim bu sözü eşidəndə elə bil qocaldı: «Doğrudanmı bu çağacan bir yastığa baş qoyduğu adamı tanımayıb. Mən də bunu qardaşıma arxa-dayaq bilirdim».

- Daha sənə sözüm yoxdu, Müzəffər. Bircə onu bilirəm ki, özün öz əlinlə ölüm hökmünü yazırsan. Qardaşım Şah Təhmasib buna görə səni heç vaxt bağışlamaz.

Müzəffər istehza ilə gülümsədi:

- Hələ yaşayaq, görək bu qovğanın axırı nəylə qurtaracaq.

- Görəcəyik, - deyə Xanış bəyim hikkə ilə fırlanıb otağına qayıtdı. Bu söhbətdən çox keçməmişdi. Azuqələrinin qıtlığından, qızılbaşların gözlənizməz hücumlarından bezmiş Sultan Süleyman bir gün getmək təbili çaldırıb, Miyanəci keçib Sultaniyyəyə yetişdi. Burada çadırlar qurdurub düşərgə saldı. Amma bəxti burda da gətirmədi, gecə bərk qar yağmışdı, çadırlar qar altında görünməz olmuşdu, əsgərlərdən donanlar vardı. Bir tərəfdən də, qızılbaşlar onu təqib edirdilər. Sultan Süleyman məcbur olub İraqa çəkildi, amma orada da bənd almadı, Mosula gəlib orada qışladı. Şah Təhmasib də Sultan Süleymanı cavabsız qoymadı, osmanlıların Van qalasını mühasirəyə alıb bütün qışı orada qaldı.

Müzəffər elə bil yatmışdı, ayıldı. Güvəndiyi qoşununu çəkib getmişdi. O, başının dəstəsi ilə Gilana qayıdanda yavəri Əmrə Xatəm qoşunu ilə onun qarşısına çıxdı:

- Öz şahına, qaynına xəyanət eləyənə Gilanda yer yoxdu! - dedi.

Müzəffərlə Əmrə Xatəm arasında şiddətli bir döyüş oldu. Əmirə Dibiac-Müzəffər bu vuruşmada rüsvayçılıqla məğlub oldu. Başa düşdü ki, Gilanda ona daha yer yoxdu. Bayaqdan hakimiyyətini, mal-mülkünü qorumaq istəyən Müzəffər necə böyük bir səhv etdiyini anlayıb indi canının hayına qalmışdı. Başa düşdü ki, öz yavəri ona qılınc çəkəndə ürəyində hansı sarsıntını keçirtmişdisə, ondan da yüz qat artdığını, onun Sultan Süleymanın hüzurunda diz büküb oturduğunu eşidəndə Şah Təhmasib keçirmişdir. Axı, böyüklərin ağrısı da böyük olur.

Daha iş işdən keçmişdi, sabahı düşünməyib, yaşadığı günü - hakimiyyəti, var-dövləti qorumaq xatirinə belə urvatsız hala düşmüşdü. Özünü qorumağın yollarını götür-qoy edəndə Şirvanşahın - bacanağı II Xəlilüllahın, baldızı Pərixan xanımın ərinin yanına qaçmaqdan, ondan imdad istəməkdən özgə yol görmədi və kiçik bir dəstəylə gəmiyə minib Şirvana getdi.

Sultan Xəlil - yəni II Xəlilüllah bacanağını gülərüzlə qarşıladı. Əhvalatı eşidib onu belə etibarsız iş tutduğuna görə «xırsızlıq eləmisən» deyə qınadı da.

Amma bilmədi ki, Müzəffəri sarayda saxlamaqla onsuz da Şirvanşahlar sülaləsinə son qoymaq istəyən, ancaq bacısı Pərixan xanıma görə bu istəyini gerçəkləşdirməyən Şah Təhmasibi necə qəzəb atına mindirib. Şah səbrini basıb Müzəffəri atdöşü eləyib hüzuruna gətirmək üçün Şirvana elçi göndərmədi. Yenə qucağı körpə görməyən Pərixan xanımı gözləri önünə gətirib onun xatirinə

Şirvanşah II Xəlilüllahın qürurunu qırmaq fikrindən daşındı. Amma Müzəffərin xəyanətkar adını yaddaş kitabının ağappaq səhifəsinə iri hərflərlə yazdı. Bacısı Xanış bəyimi göz yaşları içərisində qoysa belə, tülkü kimi qaçıb Şirvanda bağışlanacağı günü gözləyən, atasının, Müzəffərim, deyə əzizlədiyi o Əmirə Divacı iynənin gözündən keçirəcəyinə and içdi. «Təbriz əhli gərək onun mələrtisinə tamaşaya dursun. Onda bilər şahın məmləkətinə xəyanət etmək nə deməkdir. Onda başa düşər ki, şah xəyanət eləyəni, doğma qardaşı da olsa, bağışlamaz».

II Xəlilüllah bacanağı Müzəffərə söz verdi ki, məqamında şahdan bağışlanmasını xahiş edər: «Hələlik otur sarayda, gözlə, şahın da sənə qarşı qəzəbi bir az soyusun». Amma şahın qəzəbinin soyumasını Allah gözlətmədi və bir gecə II Xəlilüllah dünyasını dəyişdi. Qaynının ölüm xəbəri Şah Təhmasibə çatanda o, Təbrizdə sarayında idi. Şah dərhal həm bacısına başsağlığı vermək, həm də Müzəffəri yanına gətirmək üçün hörmətli əmirlərdən bir neçəsini Şirvana göndərdi.

X fəsil

ƏMİRƏ DİBACIN SON HARAYI

Fəryadına yetdiklərim imdadıma yetməz…

942 (1535)-ci ilin yayı idi. Əmirlər Şirvandan Təbrizə əl-qolu bağlı Müzəffərlə qayıtmışdılar. Vücudunu qorxu bürümüş Müzəffərin rəng-urfu qaçmışdı. Dadına yetən, imdadına çatan kimsə yox idi. Əmirlərin əhatəsində bu an ancaq on yeddi il bir yastığa baş qoyduğu Xanış bəyimi, oğlu Sultan Mahmud xanı andı. Bəlkə onların yalvarışları şahın ürəyinə rəhm hissi salaydı. Ancaq indi onlar hardadılar? Gilandamı, şahın yanındamı? - Bunu ancaq Allah bilirdi.

O gecə onu şahla görüşdürmədilər. Ona dedilər ki, axşamın xeyrindənsə səhərin şəri yaxşıdı. Müzəffəri zindana saldılar. Hücrədə ondan başqa kimsə yoxdu. Başını əlləri içərisinə alıb: «Kiminin əvvəli, kiminin axırı», - deyə acı-acı düşündü.

Qapı açıldı, zindanban onun qabağına saxsı nimçədə yemək, bir-iki lavaş, bir baş soğan, bir bardaq su qoyub: - Nuş olsun, - deyib getdi.

Bərk acdığından nimçəni, lavaşı lap yaxına çəkdi, baş soğanı basıb əzdi: «Ac qarına ölməkdənsə, tox qarına cəhənnəmə getmək yaxşıdı».

Çörəyini yedi, cibindən tütün kisəsini çıxarıb qəlyanını doldurdu. Yandırıb, acgözlüklə bir-iki qüllab vurub tüstünü havaya üfürdü. Başa düşürdü ki, bəlkə də, düşünüb-daşınmaq üçün bu onun yaşadığı sonuncu gecədir. Fikirləşdi ki, son ayaqda bir gecəlik ömür də az deyil.

Səhəri gün fərraşlar qolubağlı Müzəffəri qabaqlarına qatıb divanxanaya - Şahın hüzuruna aparırdılar. Amma nə üçüncə onu kəsə yox, dolambac yollarla aparırdılar. Elə bil son kərə Təbrizi görməsi üçün onu başmaq seyrinə çıxarmışdılar. Bəhram mirzənin keşikxanasının, vəzir Qazi Cahanın evinin yanından olduqca geniş və səliqəli meydana girdilər. Burada bir-birinə yaxın, günbəzləri rəngbarəng kaşılarla bəzədilmiş iki gözəl məscid vardı. Günbəzlərin üstünə çoxlu göyərçin qonmuşdu. Bu anlarda məscidlərin minarəsindən azan verilməsə də qulağına azan səsi gəldi. Məscidlərin seyrindən ayrılıb əvvəl At, sonra Nağara meydanına gəldilər. Burada ayaq saxladılar. Bu meydan Müzəffərə yaxşı tanışdı. Novruz bayramlarında, şahın zəfərlərlə bitən yürüşlərindən sonra burada üç gün - üç gecə nağaralar çalınardı. Burada şahın özünün də qoşulduğu top və çövkən oynu oynayardılar. Həm də bu meydançadakı dirəklərdən görk üçün kəsilmiş başlar asılardı. Müzəffər başa düşdü ki, onu bura bilərəkdən - ibrət üçün gətiriblər. Meydandakı dirəklərdən üç günahkarın içinə saman təpilmiş başı asılmışdı. Yaxınlıqda keşikçilər qaravulda durmuşdular.

Nəhayət, Müzəffəri saraya gətirdilər. Şahın sarayı bağ-bağatla əhatə olunmuşdu. Həyətdə içində balıqlar üzən hovuz vardı. Müzəffər, şahın balıq ovunu çox sevdiyini yaxşı bilirdi. Fikirləşdi ki, yəqin hovuzu da balıqlara görə tikdirib.

Asta addımlarla gedirdilər. Hər tində, hər qapıda əli dəyənəkli, qılınclı, oxlu-yaylı keşikçilər dayanmışdı. Kiçik bir qapıdan keçib dəhlizlə irəlilədilər. Müzəffər qapısı açıq otaqlarda süvari qorçuların qılınclarını dizləri üstünə alıb yerdə oturduqlarını gördü.

İkinci böyük otaqda mənsəb sahibi olan sultanlar, üçüncü otaqda aşağı mənsəbli sultanlar, dördüncü otaqda isə sultan olmağa namizəd qorçular əyləşmişdilər. (Bu qorçular şahın icazəsi olmasa evlənə bilməzdilər…) Şahın yataq otaqlarının qapıları bağa açılırdı. Bu otaqların yanında onun hamamı vardı.

Müzəffərə bu sarayın hər küncü tanışdı (Doğma deməyə dili gəlmirdi). Nəhayət, divanxanaya çatdılar.

… Şah divanxanada əyləşmişdi. Bu gün yolunu azanları cəzalandıracaq, şikayətə gələnlərin işinə baxacaqdı. Günortaya az qalmışdı. Qapı açıldı və fərraş Müzəffər sultanı ustufca arxadan itələyib saldı içəri. Fərraşın kobudluğundan elə bil içində nəsə qırıldı. «Böyüklərin gözündən düşmə, düşdünsə, nökərləri qızmış cöngə kimi atılıb boynuna minəcək» - düşündü. Salam verdi. Şah onun salamını almadı, qaş-qabağını sallayıb oturmuşdu.

Şah üzərinə məxmər çəkilmiş, yerdən çox da hündür olmayan zərli taxtda oturmuşdu. Başında lələkli tac, belində qızıl kəmər, qızıl qınlı qılınc vardı. Divanxananın divarları mavi rəngdə idi və yarpaqvari ornamentlərlə bəzədilmişdi. Divanxananın pəncərələri də şüşədən kəsilmiş çox gözəl fiqurlarla süslənmişdi.

Müzəffər üstündə cürbəcür quş və ağac rəsmləri toxunmuş, bütün otağın döşəməsini örtmüş, yeləni dəvə yunundan olan qırmızı keçənin üstü ilə şaha doğru iki addım atıb dayandı.

Şah onun gətirilməsindən axşamdan xəbərdardı. Cümə axşamı olduğundan, onu hüzuruna gətirtməmişdi; müqəddəs ruhları narahat edəcəyindən ehtiyatlanmışdı.

Şah dinib-danışmadan qarşısında donub qalmış Piye-pəsənin hakiminə, bacısının ərinə baxırdı. Daha doğrusu, baxa-baxa içində götür-qoy eləyirdi: «Necə də olsa, doğma bacısının əridi, bəlkə günahından keçsin, bacısını gözüyaşlı qoymasın…» Yox, bu sənə yaraşmaz, Təhmasib şah, qətiyyən yaraşmaz! Deməli, yadları, qanı qanından olmayanları günahkar olanda cəzalandır, doğmaların olanda bağışla?! Məscidlərdə, bayramlarda camaata söylədiyin ədalət, insaf, mürvət belə olurmu? Mizan-tərəzi belə qurulurmu? Özgələri damla, özününküləri ötür getsin. Doğmalarının günahı olanda əzizlərinin göz yaşlarına bağışla, zaman-zaman sənə xidmət edib bircə kərə yolunu azanın oğul-qızının naləsinə göz yumub dar ağacından asdır. Belə davranmaq ədalətdəndirmi? Yox, yox, ədalətdən deyil, Təhmasib şah, heç ədalətdən deyil! Ədaləti pozsan, xalq üzdə sənə itaət edib, ürəyində səndən qaçacaq. Sufilər, aza qane olub, var-dövlətindən keçib haqqa qovuşanlar beləmi edərdilər? - soruşacaqlar.

Şah nəhayət, başını qaldırıb:

- Sən niyə mənə xəyanət etdin? Üstümüzə qoşun yeridən Sultan Suleymanın hüzurunda nə itin azmışdı? - deyə bir qədər ağrıyla, qəzəb dolu səslə soruşdu.

Müzəffər sultan yalvarmaqdan özgə çıxış yolu görmədi:

- Şah sağ olsun, şeytan məni yoldan çıxartdı. Qul xətasız, ağa kərəmsiz olmaz. Məni balalarının başına çevir.

- Balalarımın yox, səni xalqın başına çevirmək lazımdır. Gərək bunu əvvəlcədən düşünəydin. Mən ürəyimə daş bağlayıb sənə layiq olduğun cəzanı verəcəyəm.

- Məni dustaq edəcəksənsə, Qəhqəhə qalasına göndərmə, oranın havası mənə düşmür, başqa…

Şah onun sözünü kəsdi:

- Yox, arxayın ol, səni Qəhqəhə qalasına göndərməyəcəm, babam Uzun Həsən paşanın məscidində, camaatın gözü qabağında yandırtdıracağam, - dedi və çaxçaxı vurdu. Fərraş içəri girdi.

- Bunu, - Müzəffər sultanı göstərdi, - aparın dəmir qəfəsə salın. Sabah Həsən paşa məscidinin minarəsindən asıb yandırın.

Fərraş ayaq üstə ölmüş Müzəffər sultanın qolundan yapışıb birtəhər qapıdan çölə çıxardı. Allah ona bir gecə də möhlət vermişdi.

* * *

Şahın Müzəffər sultan üçün çıxardığı qərar çox amansız, həm də gözlənilməz idi. Şeyxlər, üləmalar məsləhətləşdilər ki, necə də olsa, Müzəffər, şahın qohumudu, hökmdarın yanına gedib onun günahlarının bağışlanması üçün xahiş edək. Şah səbrlə onları dinləyib dedi:

- Ağalar, elə zənn etməyin mənim ürəyim daşdandı. Xeyr, belə deyil. Mən də ölüb-öldürməyin nə olduğunu bilirəm. Ancaq, nə olur-olsun, Vətənə xəyanət eləyəni bağışlaya bilmərəm. Hələ bu cəza da ona azdı. Baxmayaraq onun oğlu Sultan Mahmud xan bir xəta sahibi deyil, amma atasını bu rəzil yoldan çəkindirmədiyinə görə, onu da irsi mülkündən məhrum edirəm, Piye-pəsə, vilayətini Piye-pişənin hakimi Sultan Xəlilin oğlu Sultan Həsənə bağışlayıram!

Bununla da şah son qərarını vermişdi. Səhəri gün şahın əmri ilə Müzəffər sultanı dəmir qəfəsə salıb Həsən paşa məscidinin həyətinə gətirdilər. Kişinin saç-saqqalı bir gecənin içində ağappaq ağarmışdı. Dünənə qədər hər kəsdən özünə qarşı hörmət-izzət görən qürurlu bir adamın indi xalqın qabağında dəmir qəfəsdə oturması ora toplaşanlarda qorxu, həyəcan, təəssüf hissi oyadırdı. Müzəffər sultan hələ də key kimi idi, taleyinin bu anında nə etməli olduğunu dərk eləmirdi. Təbrizin məhəllələrindən məscidin həyətinə axışıb gələn camaat Müzəffər sultana

qəfəsə salınmış şirə baxan sayaq baxırdılar. «Bu nə rüsvayçılıqdı, İlahi! Bu nə qəzavü-qədər idi başıma gəldi!» - Müzəffər sultan acı-acı düşünürdü.

Nəhayət, iş bilən adamlar dəmir qəfəsi qaldırıb qoşa minarədən asdılar. Kütlənin içindən bir uğultu keçdi: «İndi yandıracaqlar! Yandıracaqlar…»

Müzəffər sultan dəmir qəfəsin içindən donuq nəzərlərlə Təbrizin məhəlləsinə, başında buludlar oynayan Eynal-Zeynal dağına, Şah sarayına, məscidin həyətinə toplaşıb onun yandırılacağı anı gözləyən adamlara baxırdı. On yeddi il bundan qabaq Təbrizə gəlib Şah İsmayılın hüzurunda olduğu anları, onun qızı Xanış bəyimlə evləndiyi o xoşbəxt günü, camaatın dilində əzbər olan toy büsatını yana-yana, içindən əriyə-əriyə xatırladı. Bəlkə on yeddi il bundan qabaq o toyda çalınan qara zurnanın havasına Təbrizin küçələrində atılıb-düşən uşaqlar da indi bu camaatın arasındaydı…

Uzaqdan qayğısız bir yeniyetmənin oxumaq səsi gəldi:

Təbrizin küçələri dolambadolan,

Qaragilə, dolamba dolan.

Əgər məni sevmirsən, get ayrı dolan,

Qaragilə, get ayrı olan…

Bu saf uşaq səsi sinirlərini oxşadı. Göz yaşlarını güclə saxladı. Xalqın yaddaşında qorxaq, zəif adam kimi qalmaq istəmədi, ona görə də papağını gözləri üstünə endirdi. Ona elə gəldi ki, bu səs on yeddi il qabaq ona çalınan o toy axşamından gəlir. Dərindən bir ah çəkdi: «Dünənki cah-cəlalımı gör, bugünkü halıma bax, İlahi! Mən bu cəzaya layiqəmmi? Doğrudanmı, indi mənə od vuracaqlar, camaatın gözü qabağında diri-diri bu dəmir qəfəsin içində yandıracaqlar. -Bağırmaq istədi, səsi içində itib-batdı. - Bu halımdadamı Təhmasib şahı sevməliyəm, qulu olmalıyam?! Axı, ona kim haqq verib taleyimizlə istədiyi kimi rəftar eləsin? Məni yandırmağa onun haqqı varmı? Allahdan qorxmurmu?.. Kaş bir qurtum su olaydı, içəydim… Ey İlahi, bir möcüzə göstər, leysan başlasın, ildırım çaxsın, tufan qopsun!»

Yox, nə tufan qopdu, nə də ki leysan başladı. Günəş asta-asta göyün ortasına doğru yuvarlanırdı, ordan da yerə od yağırdı. Günəşə baxmaq istədi, gözləri qamaşdı.

«Görəsən nəvəm Cəmşid neyləyir? Kaş son nəfəsdə onun üzündən öpəydim. Gözümün nuru Cəmşidim, - içindən dəhşətli bir ağrı keçdi. - Bura toplaşanlardan bircəciyi məni xilas eləmək istəyir? Eygili1 gündə küçəyə çıxa bilmirdim bunların əlindən. Üstümə cumub hərə bir şey istəyirdi… İnsandan da vəfasızı, xırsızı varmı dünyada? Dünən şahın istəklisiydim, hamı ətrafımda dolaşırdı, bu gün şahın düşməniyəm - qəfəsdəyəm, hamı məndən uzaqdadı. İndi bir qaşıq su istəsəm, verməzlər».

Birdən Müzəffər sultanın dili açıldı:

- Nə baxırsınız, ay camaat? Bu gün, bu qəfəsdə mənəm, sabah da məni bura salanı tutub salarlar qəfəsə. Mən Allahın peyğəmbəri İsaqın nəslindənəm. Mənim intiqamımı Şah Təhmasibdən Allah özü alacaq.

Cəlladlardan biri bağırdı:

- Kəs səsini! Ağzına gələni çərənləmə!

- Ey miskin gədə, sən mənim yerimə olsaydın, qorxundan indi şalvarını batırmışdın, bağırtından qulaq tutulardı.

- İndi mən sənə od vuraram, görüm bağırmayacaqsan?

- Ay haramzada, canı yanan bağırmazmı?!

Hökm verildi. Dəmir qəfəsə ucu yanan bir ox atdılar. Neft tökülmüş qəfəs alışdı. Müzəffər sultan alovlanmış qəfəsin içində çığıra-çığıra deyirdi:

- Şahınıza deyin ki, gün gələcək meyiti ortalıqda qalacaq. Əzrail canını alanda başa düşəcək diri-diri adamı yandırmaq nə deməkdi.

Cəlladlar, fərraşlar səs-səsə vermişdilər.

- Səsini kəs!

- Sus, haramzada!

- Sənə hələ bu da azdı.

Müzəffər sultan nifrətinin son həddi olaraq:

- Tüpürüm sizin murdar sifətinizə - deyib bir lomba yerə, cəlladlara tərəf tüpürdü.

Bu an Müzəffər sultanı od bürüdü. O, «Yandım, Allah!», - deyə qışqırdı. Onun fəryadı məscidin minarələrində, şəhərin dolanbac küçələrində əks-səda verdi. Bir an sonra yanmış insan cəsədinin kəsif qoxusu ətrafı bürüdü. Hamı burnunu

tutmuşdu. Dəmir qəfəs elə bir kürədən çıxmışdı, qıpqırmızıydı. İçindən göyə doğru burula-burula bomboz bir tüstü zolağı qalxırdı. Və sanki Müzəffərin ruhu ağrıdan qıvrıla-qıvrıla bu tüstü burulğanının içi ilə göyə çəkilirdi. Bu zülmə Allah göydən, səbəbkar Təhmasib şah isə, sarayının pəncərəsindən baxırdı.

XI fəsil

XAN ƏHMƏD ƏHVALATI

Sənə xəyanət edənə xəyanət etmə ki, sən də onun kimi olarsan.

Həzrəti Məhəmməd Səlləllahu

əleyhi və alihi vəsələm

Piye-pişənin hakimi Xan Əhməd Piye-pəsənin hakimi Əmirə Dibaca - Müzəffərə od vurularaq qətlə yetirilməsini eşidəndə əti çimçəşə də, onun ölkəsinin azyaşlı oğlu Sultan Həsənə bağışlanmasını eşidəndə çox şad oldu. Öz-özünə: «Allah şahımıza uzun ömür versin, çörək itirməyən kişidi», - dedi.

Şah Təhmasibin Xan Əhmədə, onun nəslinə sonsuz rəğbəti vardı. Çünki bir vaxtlar müridlər balaca İsmayılı - onun gələcək atasını Gilana qaçırtmışdılar. O zaman bu Xan Əhmədin əmiləri Karkiyə Əli Seyid Haşım, atası Sultan Həsən gələcəyin şahını hər cür bəladan qorumuşdular. Hətta bir dəfə Karkiyə Əli balaca İsmayılı həsir səbətə qoyub qalın yarpaqlı bir ağacın budağından asmışdı. Sultan Yaqubun adamlarının qabağına çıxaraq «Qurana» and içmişdi.

- Bu «Quran» haqqı, Şeyx Heydərin oğlu İsmayıl Gilan torpağında yoxdur!

Gələnlər də onun içdiyi anda, ağsaqqal, ağzıdualı Karkiyə Əliyə inanıb çıxıb getmişdilər.

Şah Təhmasib bu nəslin fədakarlığını heç vaxt unutmurdu. Axı, o zaman bu adamların heç ağıllarına da gəlməzdi ki, hər gecə bir evdə gizlətdikləri bu uşaq bir

neçə ildən sonra Təbrizdə şah taxtına oturacaq. Sadəcə, ona Şeyx Cüneydin nəvəsi, Şeyx Heydərin oğlu, bu nəslin gələcək mürşidi kimi baxmışdılar. Piye-pişənin hakimi Sultan Həsən rəhmətə gedəndə onun oğlu Xan Əhməd bir yaşındaydı. Şah bu südəmər uşağı Piye-pişənin hakimi təyin etmişdi. Təhmasib şah onu həddi-büluğa çatana kimi baş verə biləcək hər cür fitnə-fəsaddan qorumuşdu. Xan Əhməd ərgən yaşına çatanda Neyney adlı bir qızla evlənmişdi və bu izdivacdan bir oğlan uşağı olmuşdu. Xan Əhməd oğluna Sultan Cəng adını qoymuşdu, amma Şah Təhmasib buna etiraz eləmişdi: - A kişi, - demişdi, - gəl bu uşağa sənin rəhmətlik dədən Sultan Həsənin adını qoyaq. Xan Əhməd də buna etiraz eləməmişdi. Amma Xan Əhməd birləşmiş Gilanın sahibi olandan sonra qudurdu. İnsanın da qudurmağı ələ düşməz. Xan Əhməd bütün Gilan ərazisində hökmü keçən vali olmuşdu. Artıq şah-zad tanımaq istəmirdi. Şah keçmiş duz-çörəyin, onun atasının, əmilərinin xatirəsini əziz tutub Xan Əhmədi tutduğu yoldan çəkindirmək istəyirdi. Dilli-dilavər adamlar göndərib öyüd-nəsihət verirdi, ancaq kor tutduğunu buraxmırdı. Xan Əhməd Gilanın mövqeyinin möhkəmliyinə, ərazinin meşələrlə, cəngəlliklərlə əhatə olunmasına arxayın olub, itaət etməkdən boyun qaçırırdı. Şah onun bu cahilliyinə, keçmişin xatirinə, yenə dözdü. Yanına elçi göndərdi və yazdığı fərmanı ona çatdırmasını tapşırdı. Elçi Gilana gəlib şahın fərmanını Xan Əhmədə verdi. Xan Əhməd şahın fərmanını alıb səssizcə oxudu. Şah yazırdı: «Bütün bu qəbahətli və utanmaz hərəkətlərinə baxmayaraq, irsi mülkin olan Piye-pişə Gilanının sənin ixtiyarında qalmasına icazə veririk. Piye-pəs vilayəti isə, oğulluğum Cəmşid xana aiddir. Sən oraya müdaxilə etmə və bir-birinizlə ata-oğul kimi rəftar ediniz».

Sultan Əhməd istehza ilə dedi:

- Şah nəyə görə mənim oğlum Sultan Həsənə bağışladığı Piye-pəsəni dəmir qəfəsə salıb yandırdığı Müzəffər sultanın nəvəsi Cəmşidə bağışlayır?

- Bəs nə etsin, xan həzrətləri. Babasını öz günahı üzündən yandırdı, bacısı Xanış bəyimi gözüyaşlı qoydu, indi də bu yolla onun könlünü almaq istəyir.

- Konlünü alıb də. Ərinin ili çıxan kimi Şah Nemətulla Yəzdiyə ərə verib.

- Bu məsələ bizlik deyildir. Sən gəl fitnə-fəsad daşlarını ətəyindən tök. Allah eləməsin, amma yaddan çıxartma ki, Müzəffər sultanın başına gələn sənin də başına gələ bilər.

- Hərzə-hərzə danışma, mən onun üçün Müzəffər sultan deyiləm.

Elçi söz güləşdirməyin yersiz olduğunu görüb yerindən qalxdı:

- Məsləhət sənindi. Amma yaxşı olar bir düşünəsən.

- Məsləhətinə görə sağ ol.

Elçi eşiyə çıxıb atına mindi.

* * *

Elçinin gətirdiyi xəbər şahı cin atına mindirdi. 975 (1567)-ci il idi. Şah Məsum bəy Səfəvinin başçılığı ilə Gilana - Xan Əhmədin üstünə qoşun göndərdi. Bu səfərdə Mustafa mirzəylə yanaşı Allahqulu sultan Aycəkoğlu da vardı. Qoşun yetişib Piye-pişə vilayətini mühasirəyə alanda Xan Əhməd Deyləman yaylağında quzu kababı yeyirdi. Vilayətinin şah qoşunu tərəfindən mühasirəyə alındığını eşidəndə Lahicana gedib piyada və süvarilərini səfərbər elədi, dar bir dərəyə çəkilib şah qoşununu gözlədi. Amma şah qoşunu onun qüvvəsini elə ilk həmlədə pərən-pərən saldı. Xan Əhməd başılovlu Əşkur tərəfə qaçdı. Başının dəstəsi ilə meşənin dərinliyinə çəkildi. Payızın ilk ayı olduğundan dağlarda, meşələrdə gün keçirmək Xan Əhməd üçün elə də çətin deyildi. Amma Məsum bəy Səfəvinin tapşırığı ilə Allahqulu sultan Aycəkoğlu bir dəstə qorçu ilə onu qarabaqara izləməkdəydi. Bu qaç-qov düz üç ay çəkdi. Və qışın buz nəfəsi Xan Əhmədin yaxasından girib kürəyində dolaşdı. Günlər keçdikcə meşədə yaşamaq Xan Əhməd üçün ölümə bərabər oldu, amma ayrı əlacı yoxdu. Allahqulu sultanın adamları da onu izləməkdən usanmırdılar. Bir gecə sübhə yaxın Xan Əhməd hiss etdi ki, başının üstünü kəsdiriblər, gizləndiyi yerdən çıxıb özünü bir çalaya atdı, ancaq xilas ola bilmədi, qorçular onun üstünə atılıb əl-qolunu bağladılar. Onu Allahqulu sultan Aycəkoğlunun yanına apardılar. Allahqulu sultan da Xan Əhmədi Məsum bəy Səfəvinin yanına, o da əsiri Şah Təhmasibin hüzuruna göndərdi. Şah yenə onun əmilərinin, atasının xatirinə əlini qana batırmadı, amma onu Qəhqəhə qalasına saldırdı ki, başqalarına da dərs olsun.

Təhmasib şah hər kəsin xidmətini qiymətləndirən adamdı. O, Məsum bəy Səfəvini saraya dəvət eləyib ona vəzirlik verdi, Allahqulu sultan Aycəkoğlunu Lahican əyalətinin hakimi seçdi. Lakin bir müddət sonra o da yolunu azdı. Adamlar ondan rəncidə oldular. Allahqulu sultan Aycəkoğlu başını əlləri arasına alıb etdiyi səhvləri düşünəndə artıq gec idi. Şah onu Lahicanın hakimliyindən azad etdi və heç onunla üz-üzə gəlmək də istəmədi: «Ey Allahqulu sultan, - dedilər, - şah buyurdu ki, dünənki şücaətinə görə sağ ol, biz də bunu qiymətləndirdik, amma sən camaatı öz hərəkətlərinlə bizdən narazı saldın, indi azadsan, get evində ürəyin istəyən sayaq yaşa».

Allahqulu sultan Aycəkoğlu başılovlu Qəzvinə, şahın sarayına gəldi. Amma həmişə üzünə taybatay açılan qapılar bu dəfə bərk-bərk bağlandı. Allahqulu sultan çaşıb qaldı. Başa düşdü ki, şah onu bağışlamasa, heç bir hörmət-izzət sahibi olmayacaq. Ona görə də evinə getmədi, dövlətxananın qapısı ağzında elçi daşının üstə oturub bağışlanacağı günü gözlədi. Günlər keçir, şah isə onu bağışlamırdı. Allahqulu sultan da evinə getmirdi. Arvad-uşağı çay-çörəyini gətirib dövlətxananın qabağında ona verirdi. Onu dilə tutub evə aparmaq müşkül məsələydi. Artıq şəhərdə Allahqulu sultanın dövlətxananın qarşısında Allahın daşı, kəsəyi, ağacı olmağının səbəbini hamı bilirdi. Onun bu halına acıyanlar da vardı. Amma şahın qorxusundan kimin həddi nəydi ona özgə bir yol göstərsin?! Sənə göstərilən yolla getməmisən, canın çıxsın, cəzanı çək. Allahqulu sultan da cəzasını şərəflə çəkirdi.

İşin tərsliyindən, havalar da get-gedə soyuyurdu. Nə şah rəhmə gəlib onu bağışlayırdı, nə də Allahqulu sultan dövlətxanın qabağından çəkilirdi. Gah qar, gah yağış yağırdı. Üşüyürdü, islanırdı, amma uca boylu, çatma qaraqaşlı, başıçalmalı Allahqulu sultan oturduğu yerdən tərpənmirdi ki, tərpənmirdi. Mübarək ramazan ayı girəndə seyidlər, üləmalar şahla bayramlaşmağa gedəndə Allah xatirinə Allahqulu sultan Aycəkoğlunun günahlarından keçməsini ondan xahiş etdilər: - «Yazıq üç aydı ev üzünə həsrətdi», - dedilər.

Şah gülümsəyib:

- Allahqulu cəzasını özü seçib, keçmiş olsun!

Bu üç ayda Allahqulu sultanın saç-saqqalına əl dəyməmişdi. Buna görə də çalmasının altından görünən pırtlaşıq saçı, uzanıb sinəsinə düşmüş, çallaşmış saqqalı hər kəsin diqqətini cəlb edirdi.

Seyidlər, üləmalar saraydan çıxıb dövlətxananın qabağında, yağışın altında dimdik dayanmış Allahqulu sultana yaxınlaşdılar:

- Gözlərin aydın, Allahqulu sultan, şah həzrətləri səni bağışladı, get evinə. Bayram günü bizimlə gedərsən şahın hüzuruna üzrxahlığa.

Allahqulu sultan baş əydi:

- Allah sizdən razı olsun, - dedi və onlardan ayrılıb evinə getdi.

* * *

… Bayram günü deyilən vaxtda Allahqulu sultan Aycəkoğlu da şahı təbrik etmək üçün dövlətxanaya gəldi. Bu dəfə həmişəki kimi qapılar onun üzünə taybatay açıldı. O, saraya daxil olub şahın hüzuruna getdi, qarşısında səcdə edib:

- Şah sağ olsun, qul xətasız, ağa kərəmsiz olmaz, - dedi: - Günahlarıma görə məni bağışlayın.

Şah əli ilə ona qalxmağı işarə elədi:

- Allahqulu sultan, amandasan. Sən sufiməzhəb bir kişisən, çaşmasaydın, yüksələcəkdin. Sən ucalmağı yox, enməyi seçdin. Yaxşı ki, üç ay dövlətxananın qabağında hər məşəqqətə dözüb sufiliyini göstərdin. Get, balalarının üstündə ol!

Allahqulu sultan Aycəkoğlu bu qısa mükalimədən sonra başa düşdü ki, şahın mübarək qəlbində daha ona yer yoxdu. Heç bir söz demədi, təzim edib otaqdan çıxdı.

XII fəsil

QARDAŞ XƏYANƏTİ

Cahil və nadan dostdan ağıllı düşmən yaxşıdır.

Fateh ƏmirTeymur

Şah yağışın, qarın altında heykəl kimi donub qalmış Allahqulu sultan Aycəkoğlunu bir daha gözü önünə gətirib: «Mənim sevgim ona nə qədərdisə, yəqin ki, onun da mənə məhəbbəti, sədaqəti o qədərdi, - düşündü. - Bəlkə onun yerinə mən də olsam, Heydər mirzənin tərəfini saxlayardım. Axı, mən onu bağışlasam da, ona layiq olduğu bir iş tapşırmadım. Daha bu Aycəkoğlu niyə mənim yolumda özünü fəda etməlidi axı?.. Oy, oy, Allahın mənə bağışladığı bir ömrü qeylü-qalsız yaşamağa da imkan vemirlər. Bunlar mənə bir köynək yaddı, bəs özümünkü, hamıdan çox istədiyim doğmaca qardaşım Əlqas mirzə də mənə xəyanət etmədimi? Şirvanşahlar sülaləsinə son qoyub onu Şirvanın naibi etdim, o isə, heç bir səbəb olmadan üzümə ağ oldu. Üstünə qoşun yeridib həddini bildirmək istədim, qorxusundan arvadı Xanbəyim xanımla oğlu Əhməd mirzəni yanıma üzrxahlığa göndərdi. Dedim,

noolar, əziz qardaşımdı, yəqin şeytan yoldan çıxarıb. Bir neçə hörmətli adamı Xanbəyimlə Şirvana yola saldım. Dedim bu adamların yanında Əlqas mirzə «Quran»a and içib tövbə eləsin. And içdi, inandım. Ona inanıb gavurlara dərs vermək üçün Gürcüstana hücum etdim, Əlqas mirzə də fürsəti fövtə verməyib Şirvanda məscidlərdə adına xütbə oxudub sikkə kəsdirdi, padşahlıq eşqinə düşdü. Daha bundan sonra onu bağışlamaq olardımı? Mən Gürcüstan səfərindən sonra qoşun göndərib onu cəzalandırmaq istədim. Əlqas mirzə İstanbula, düşmənim Sultan Süleymanın yanına qaçdı. Yanıb-yaxıldım. Doğrudanmı qardaş qarındaşdır? Axı mən ona bir yamanlıq eləməmişdim. Onu özümə arxa-dayaq bilirdim. Amma o, hərəkətləri ilə qəlbimdə hər şeyi alt-üst elədi. Buna da dözdüm. O isə özgə qapısında da sakit oturmadı, Sultan Süleymana şirin vədlər verib üstümüzə qaldırdı.

Ağlı o qədər çaşdı ki, götürüb mənə məktub yazdı, ərz elədi ki, bəs, biləsən, Sultan Süleyman məni oğulluğa götürüb. O, atamın bütün mülkünü mənə bağışlayıb. Cavabında yazdım ki, mülk nə mənim, nə sənin, nə də möhtərəm Sultanındır. Mülk Allahındır, hər kəsə istəsə, verər.

Bir dəfə də yazdı ki, bəs, Sultan Süleyman ona çoxlu at, daş-qaşla bəzədilmiş əşyalar, qumaş libaslar, qatır və dəvədən başqa üç yüz min əşrəfi bağışlamışdır. Mən də ona yazdım ki, ey bədbəxt qardaşım, bütün bunlar sənə bir fayda verməyəcəkdir. Çünki dini dünya malına satmısan. O daş-qaşdan məndə səndə olandan qat-qat artıqdır. Amma mən gərək sənin kimi əbləh olam ki, var-dövlətə, mal-mülkə uyub, onlarla qürur duyam. Mən varlığına daim qürurlandığım və qürurlanacağım şeyi daxilimdə, ürəyimin dərin guşəsində nəqş etmişəm.

Sultan Süleyman Əlqas mirzəyə qoşulub yenə üstümüzə qoşun çəkdi. Mənə belə məzmunda bir məktub yazmışdı. «Sənin rəhmətlik və cənnətlik atan Şah İsmayıl mənim atam Sultan Səlim Yavuzla müharibə etdi. Sən də şücaət iddiasındasansa, gəl vuruşaq. Müharibə etmək istəmirsənsə, şücaət iddiasında da olma». Onun məktubunu belə cavablandırdım:

«Bütün varlıqlardan yüksək olan, şəni uca böyük Allah «Quran»da buyurur ki, kafirlərlə cihad və qəzada özünüzü ölümə verməyin. Bir halda ki, Allah bizə kafirlərlə müharibədə belə təhlükəyə düşməyi qadağan edir, mən iki müsəlman ordusu arasında müharibəyə necə fitva verim. Sayca sənin on adam müqabilində bir adam olmayan ordumu döyüşə apararaq bu müsəlmanları nə üçün təhlükəyə salım. Mənim atam sənin atanla müharibə edən gün Durmuş xan və başqa əmirlər, bəlkə də onun bütün qoşunu sərxoş idilər. Onlar gecəni səhərə qədər şərab içmiş, səhər tezdən isə vuruşmağa başlamışdılar. Bu çox ağılsız və yaramaz bir hərəkət

idi. O vaxtdan indiyə qədər Çaldıran müharibəsindən söhbət düşəndə mən həmişə Durmuş xana lənət oxuyuram ki, atam həzrət Şah İsmayılı aldadıb, müharibəyə sövq etdi.

Bir də, adı böyük olan Allah buyurmuşdur ki, bir müsəlman iki kafirlə vuruşmasın. Bəs biz, təxmini hesabla, bir nəfərimizin müqabilində on nəfərdən artıq qüvvə olduğu halda nə edək?! Şəni uca olan böyük Allahın əmrinin əksinə hərəkət etmək özünü bilə-bilə oda vurmaqdır. Ancaq divanə və məst adamlar sərfəsiz müharibəyə əl atır, ağılsızlıq və cəhalət qüruruna qapılaraq özlərini ölüm və fəlakət uçurumuna salarlar. Allaha şükür olsun ki, mənim ixtiyarımda olan qoşun şərab və bütün başqa haram işlərdən tövbə etmişdir. Mənim məmləkətimdə qumarxana, fahişəxana, şəriətcə icazə verilməyən başqa fitnə-fəsad ocaqları ləğv edilmişdir.

Nəsə, Allahın köməkliyi ilə bu dəfə də Sultan Süleymanın hücumunu dəf elədik. O, İstanbulda olanda, istəsəydim, mən onun şəhərlərinin çoxunu yandırardım. Amma bunu etmədim, əlsiz-ayaqsızları düşündüm. Ancaq gözünün qabağında baş verənlər mənim qardaşımı qəflətdən ayıltmadı. Yenə orda-burda fəsadlar törətdi. Oğlum İsmayıl mirzəyə qoşun verib üstünə göndərdim… Heyf səndən, İsmayıl, axı sən hər şeyə layiq bir oğlandın… Sən Qəhqəhə qalasında ömür çürüdəsi cavan deyildin axı… Eh, içim özümü yandırır, çölüm özgələri. Deyirlər, əşi, şahdı, bu boyda məmləkətin sahibidi, nə dərdi var? Bundan da böyük dərd varmı ki, doğmaca qardaşın, sevimli oğlun sənə qarşı çıxa?! Nəsə, lənət şeytana. Bu Əlqas mirzə o qədər həddini aşdı, lap insanlıqdan çıxdı. Həmədana gəlib qardaşımız Bəhmən mirzənin ev-eşiyini ələ keçirdi, arvad-uşağını özü ilə apardı, Qumu, Rey vilayətini talayıb-çapdı. O qədər yolunu çaşdı ki, onu saraya yanına çağıran Sultan Süleymanı da eşitmədi. Sultan da onu ələ keçirmək üçün qoşun göndərdi. Əlqas mirzə kiçik bir dəstə ilə Ərdana qaçdı. Mən də Bəhram mirzəni, Şahqulu xəlifə Möhürdarı, İbrahim Zülqədəri iyirmi min qoşunla Ərdana göndərdim. Əlqas mirzə məğlub oldu. Surxab Ərdəlanın yanına qaçdı. Surxabdan tələb etdim ki, onu hüzuruma göndərsin. Əlqas mirzə xahiş edir ki, bacımızın əri Şah Nemətulla gəlib onu mənim hüzuruma gətirsin. Bunu da qəsdən fikirləşmişdi, elə bilmişdi ki, İmam Əlinin nəslindən olan Şah Nemətullaya görə, onu bağışlayaram. Şah Nemətulla gedib onu mənim hüzuruma gətirdi. Bilmirdim neyləyəm, ona hansı cəzanı verəm. Atam, anam gəlib dururdu gözlərim önündə. Axırda üzümü ona tutub dedim:

- Ey mənim məhəbbətsiz qardaşım! Mən sənə nə pislik etmişəm ki, ata nəslindən üz çevirdin, özünü qüdrət zirvəsindən rəzalət və alçaqlıq quyusuna atdın, düşmənə qoşuldun, bu qədər fitnə - fəsad törətdin, qan tökülməsinə bais oldun? Cəhənnəmə gedən özünə yoldaş axtarar. Sən bilirsənmi Şirvanda nə qədər ailəni başsız

qoymusan?! Sənə mirzəlik eləyən şair Xəzanini də yolundan sapdırdın. İndi o, Sultan Süleymanın sarayında «Şahnamə» yazır. Axı sənin nəyin çatmırdı?

Doğmaca qardaşım qarşımda susurdu. Qardaşlıq hissi iradəmə üstün gəldi. Əlimi onun qanına batırmaq istəmədim. Bağışladım. Amma axşam söhbət yasovulu Kor Şahəli bəy qulağıma pıçıldadı ki, qızılbaşlar bir belə qan tökmüş, xəyanət yolunu tutmuş Əlqas mirzəni bağışladığınız üçün hökmünüzdən narazılıq edirlər. Mən də onların haqlı olduqlarını dərk edib naçar qaldım. Qızılbaşları, sadiq sufiləri razı salmaq naminə doğmaca qardaşım Əlqas mirzəni oğlu sultan Əhməd mirzəylə bir yerdə Qəhqəhə qalasına saldırdım… Sonra da doğmaca oğlum İsmayıl mirzəni… İndi də bir dəstə adam istəyir ki, Heydər mirzəni də onun ardınca göndərim… Ah, doğmalar, doğmalar, mən sizdən nələr çəkmədim, hələ nələr də çəkəcəm. Şükür ki, Sultan Süleyman axırda düşmənçilikdən əl çəkib sülh bağlamağa razı oldu, doğmalarım isə mənə kəc baxdılar. Günahım, olmaya-olmaya… Nə isə, rəhmətlik Məhəmməd Füzuli demişkən:

Dərda ki, dəmi dəm urmadım rahətdən

Qurtulmadım ənduhü qəmü möhnətdən.

XIII FƏSİL

XƏLVƏTXANADAN GƏLƏN VAR

Hər kimin varsa bir şirin dili,

Tük ilə çəkər dalınca fili.

Sədi Şirazi

Bir axşam əl-ayaq çəkiləndən sonra söhbət yasovulu Kor Şahəli bəy Rumlu yanına gəlib sarayda, şəhərdə, çöldə-bayırda olan söz-söhbətlərdən, əcaib-qəraib işlərdən,

axırda isə şahın uşaqlıq dostu Əmiraslan bəydən danışmışdı. Şah da uşaqlıq dostu ilə maraqlanmışdı:

- Çoxdandı o binəvadan xəbərim yoxdu, indi hardadı?

- Çiyninə xirqə salıb İranı-Turanı dolaşıb qayıdıb vətənə, deyir həqiqət, ədalət axtarıram. Bu günlərdə xəlvətə çəkilibmiş, düz qırx gün meşənin içində, xan çinarın koğuşunda, xəlvətdə qalıb.

Təhmasib şah:

- Şahəli bəy, onu tap gətir yanıma, - dedi.

Kor Şahəli bəy dedi:

- Şah sağ olsun, Əmiraslan bəy sizin uşaqlıq dostunuz olsa da, hüzurunuzda oturması məqbuldurmu?!

- Əlbəttə məqbuldur. O, idrak sahibi, dünya malında gözü olmayan, Allahına tapınmış bir abiddir. Onunla söhbət etmək mənə çox xoş olardı.

Kor Şahəli bəy narahat oldu:

- Cəsarət edirəm, şahım, o, hüzurunuza gəlməyə bilər.

- Niyə?!

- Deyir, Allahdan başqa kimsəni tanımıram.

Şah ürəkdən güldü:

- Doğru buyurur, - deyib gülüşünə ara verdi.

Kor Şahəli bəy elə bil bu sözdən diksindi:

- Onun bu fikri təhlükəlidir, şahım.

- Niyə?

- Sabah hamı onun kimi düşünsə, ölkədə hərc-mərclik baş alıb gedər.

- Əksinə, Şahəli, ölkədə hamı onun kimi dünya malına susamasa, məmləkətə qarovulçu gərək olmaz. Qurd quzuyla otlar. Sən ona de ki, uşaqlıq dostun Təhmasib mirzə səni gözləyir. Sənlə dərdləşmək istəyir.

- Yaxşı, deyərəm, şah sağ olsun, - deyə Kor Şahəli bəy ayağa qalxıb otaqdan çıxdı.

* * *

Səhəri gün şah uşaqlıq dostu Əmiraslan bəylə üz-üzə əyləşmişdi. Şah Kor Şahəli bəyə də demişdi ki, getmə, otur qulas as, gör dünyada necə insanlar var.

Əmiraslan bəyin çiynində qara xirqə, başında ağappaq humayun ağından çalma, belində sadə bir qayış vardı, saqqalı büsbütün ağarmışdı, qara çatma qaşları da yavaş-yavaş ağarmaqdaydı.

Şah uşaqlıq dostunu ayaqdan-başacan munis nəzərlərlə süzüb:

- Əmiraslan bəy, səni heç unutmamışam. Nə edim, səni çox işə dəvət etsəm də, qəbul etmədin, - dedi. -Doğrusu, boyun qaçırmağında bir səbəb də görmürdüm.

- Mən isə görürdüm.

- Nəydi gördüyün?

- Aramızdakı məsafə.

- Bu məsafə eləmi böyükdü?

- Hüdudsuzdu.

- Bu hüdudsuzluq nədən ibarətdi?

- Sən ucsuz-bucaqsız bir məmləkətin şahısan. Sözünün qabağına söz çıxaran yoxdu, səni yerdə Allahın kölgəsi zənn edirlər.

- Bəs sən elə görmürsənmi?

- Xeyr, mən səni uşaqlıq dostum Təhmasib mirzə kimi görürəm. Səndə də günah yoxdu. Sənin xəttatlığa, nəqqaşlığa çox böyük marağın vardı. Məşhur xəttatlar, nəqqaşlar sənə təlim verməyi özlərinə şərəf bilirdilər. Sən on bir yaşına qədəm qoyanda bizi ayırdılar. O zaman şahlığın nə olduğunu bilməsən belə, şahzadə olduğun üçün başına tac qoyub şahlıq taxtına oturtdular. Amma sən hərdən şah olduğunu unudub qoşulurdun bizə. Uşaqdın axı. Sən də bizim kimi eşşəyə minib çapırdın. İşləri sənin lələn, bir də vəzirin Qazi Cahan Qəzvini aparırdı. Şairlərdən biri hətta dilini dinc saxlamayıb sənə, vəzirinə işarə ilə yazmışdı:

Nə gözəl tərəqqi etdilər bişək,

Katib, nəqqaş, qəzvinli, bir də eşşək.

Gülüşdülür.

- Hə, möhtərəm şah, beləcə, yolumuz ayrıldı. Mən isə ağlım kəsəndən hər gün Allaha doğru gedirəm.

- Məgər mən Allaha doğru getmirəm?

- Yox. Əlbəttə, sən Allahını tanıyırsan, amma Allaha qovuşmursan. Sən istəsən belə, bunu edə bilməzsən.

- Nə üçün? Məgər mən namaz qılıb, oruc tutmuram?

- O qədər namaz qılıb, oruc tutanımız var ki, məgər hamısı Allahladı? Qapısındakı çəpər dibində yumurtlayan toyuğundan belə keçməyənlər var… Bağışla, mətləbdən uzaq düşdüm. Sən mənim kimi Allaha qovuşmaq üçün qırx gün xəlvətdə qala bilməzsən.

- Allaha qovuşmaq üçün hökmən xəlvətdə qalmaq lazımdır, Əmiraslan bəy?

- Bu da bir sınaqdı, mənim əziz uşaqlıq dostum. Sən mənə deyə bilməzsən ki, görmə, eşitmə. Deyə bilərsən ey, amma bilirsən ki, mümkün olmayan işdi. Allahın izni ilə məmləkətdə baş verən hər bir şeyi görürük və eşidirik. Ancaq iş burasındadır ki, mən xəlvətə çəkiləndə nə eşidir, nə də görürdüm. Mən yepyekə bir yalana qırmızı don geyindirib Qəzvinin küçələrini gəzdirən mütrüf dəstəsindən, şərdən, böhtandan, ikiayaqlı yırtıcılardan, var-dövlətə görə doğma qardaşına qənim kəsilənlərin ucbatından xəlvətə getmişdim. Orada hər şeyi unutmuşdum. Başımdakı səsləri, yaxşı-pis bütün xatirələri qovub çıxartmışdım. Mən ancaq Allahı eşidirdim, hökmdar, Allahı! Mən qırxıncı günü Allaha qovuşmuşdum. İnanırsan?! Əziz uşaqlıq dostum, bil ki, sənin bu böyük məmləkətində bircə nəfər xoşbəxt insan var.

- Kimdir o?

- Mənəm, hökmdar. Allahdan başqa heç kəsi tanımayan, kimsəyə baş əyməyən mən fəqir.

- Sən ölümdəndəmi qorxmursan?

- Xeyr, qorxmuram. Çünki itiriləsi heç nəyim yoxdu. Mən qarnımı doyurmaq üçün yemək dalınca düşmürəm. Mən mənəviyyat acıyam. Məni ancaq Həllac Mənsur,

Şeyx Nizami, Əfzələddin Xaqani, Xoca Nəsrəddinlər doyura bilər. Ona görə də ölərəmsə, Allaha qovuşacağıma əminəm.

- Dediklərində həqiqət var, Əmiraslan bəy.

- Ancaq, hökmdar, söylədiyinizdə bir şübhə də var.

- Şübhə hər şeyin anasıdır, Əmiraslan bəy.

- Mənim gəldiyim qənaətə şübhə ilə baxmağa hacət yoxdur.

- Niyə?

- Çünki mən bütün ömrüm boyu özümü hər cür çirkabdan qoruya-qoruya, təmizlənə-təmizlənə, hər cür heyvani hislərdən uzaq duraraq, Allahıma doğru yol gəlmişəm. Mənim həyatımda şübhə doğuracaq nəsə yoxdur.

- Qırx gün doğmalarından, əzizlərindən uzaqda, kimsəni eşitmədən, duymadan yaşamaq çətin olmadımı sənə?

- Əlbəttə, çətin idi. Allaha sidq ürəklə yaxın olmağın bundan özgə bir çarəsini tapa bilmədim.

- Sevinirəm ki, məmləkətimizdə sənin kimi əqidə sahibləri var.

- Mən də şadam ki, mənim uşaqlıq dostum həmişə kamilliyə can atır.

- Təşəkkür. Gəlişindən məmnun oldum.

- Sağ ol, mən də.

- Heç olmasa bir axşam, hər şeyə bəli deyən, nəyinsə, nələrinsə təmənnasında bulunan, vəzifə umacağında, var-dövlət sorağında olan insanlardan uzaq oldum. Əziz uşaqlıq dostum, sənin heç nəyə təmənnan yoxdur. Mən bunu bilirəm, amma hər halda, şah qonağısan, Allahını sevən, həm də Allahının qonağını sevər. Ürəyin istəyən bir şeydə, izin ver, yardımçın olum.

Əmiraslan bəy xəfifcə gülümsədi:

- Sənin ulu baban Fateh Əmir Teymurdan nə təmənna umdu ki, mən də səndən umam.

- Babam Əmir Teymurdan Osmanlı əsirlərinin azad olunmasını istədi. Sən nə istərsən?

Əmiraslan bəy:

- Mən sənin canının sağlığını istərəm. Bir də, heç vaxt haqqı nahaqqa verməməyi, - dedi və ayağa qalxdı. - Di icazə ver, mən gedim.

Şah da qalxdı:

- Allah amanında. Tapşırım səni ötürsünlər.

- Sağ ol. Məndə oğurlanası nə var ki, məni ötürsünlər?

Şah onun əyin-başına baxıb:

- Doğru deyirsən, - dedi, - sən abidsən, səninlə kimin nə işi…

* * *

Əmraslan bəy getdikdən sonra şah üzünü hələ də yerindən tərpənməyən, bayaqdan bəri qımıldanmayan Kor Şahəli bəy Rumluya tutdu:

- Ağlın nə kəsdi mənim uşaqlıq dostumdan?

- Hamıdan ağıllı, müdrik, kamil olduğuna görə hamıdan bədbəxtdi.

- Şahəli, ağzından qıfıl götürüb bu barədə onun fikrini sorsaydın, o da bizi bədbəxt sayardı.

- Nə deyim, doğrusunu Tanrı bilir. Kim bilir, bəlkə, bədbəxtlik xoşbəxtliyin gözlə görünməyən açarıdır.

Şah bir qədər dalğın:

- Ola bilər, - dedi. - Bu dünyada hər kəsin çiynində ilahi payı olan bir yük var. Birininki çox, birininki az. Bu gözlə baxsaq, şah kimi mənim yüküm məmləkətim boydadır.

Kor Şahəli bəy Rumlu qayğılandı:

- Elə deməyin, şah sağ olsun, Allaha şükür, bu boyda məmləkətin sahibisiniz.

- İnsan böyüdükcə dərdi də böyüyür, Şahəli.

- Qurban olum, Allaha min şükür, sağalmısınız, daha sizin nə dərdiniz var?

Təhmasib şah ahəstəcə başını tərpətdi. Amma Şahəli başa düşmədi ki, şah başı ilə onun dediklərini təsdiq edir, yoxsa inkar. Şah cavab gözləyən Şahəlini intizarda çox saxlamadı:

- Şahəli, miskinlərin yaxşı bir məsəli var: «Örkən nə bilir qayış nə çəkir». Mənim indiki halımı rəhmətlik Məhəmməd Füzuli Bağdadi bir qəzəlində çox gözəl ifadə edib:

Dust bipərva, fələk birəhm, dövran bisükun,

Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.

- Şah sağ olsun, sizin belə bədbin düşünməyinizə əsas yoxdur. Dostlarınızın, sevincinizin, dərdinizin şəriki ürəyiniz istəyən qədərdi. Allaha min şükür, düşmənlərinizi də yerlərində oturtmusunuz. Oğlanlarınızın hərəsi bir vilayətin sahibi, qızlarınız xoşbəxt, daha nə qüssə, nə qəm… Xırda-para kəm-kəsir var, onları da, inşallah, yoluna qoyarsınız.

- Gördünmü! Xəstələnən kimi məni artıq ölmüş zənn etdilər. Ətrafımdakılar, doğmalarım iki cəbhəyə bölündülər.

- Hökmdar, əndişəyə hacət yoxdur, bunun da çarəsi var.

- Qorxuram sən də çarəni asıb-kəsməkdə görəsən. İsmayıl mirzəni zindana saldım, deyirsən indi də Heydər mirzəni zindana atım?

- Xeyr. O, tərbiyəli bir şahzadədi, siz onun üstünə getməyin, öz xəcaləti özünə bəs olacaq. Tərəfdarlarına gələndə … - Kor Şahəli duruxdu.

- Nə oldu? Oxunu atıb yayını gizlətmə, - şah gözünü söhbət yasovuluna zillədi.

- Şah sağ olsun, heç nə gizlətmirəm. Şahzadənin tərəfini saxlayan əmirlərin hərəsini bir bəhanə ilə saraydan, saray ətrafından kənarlaşdırın, dövlət adından onlara iş tapşırın, bu iş də qansız ötüşsün. Heydər mirzə də əlinizin altında qalsın.

- Xub! Çox pakizə. Dediklərinizi həyata keçirdim. Bəs şahsevənlərlə necə rəftar edim? Guya onlar öz şahlarını canlarından artıq sevirlər?! Xeyr, bəlkə onlar Heydər mirzənin tərəfdarlarından daha kəmfürsətdirlər. Onlara gələcək firəvanlıqları üçün təminat lazımdı. İşdi, birdən mən ölsəm, İsmayıl mirzəni

oturtsunlar taxtımda, sonra onu uşaq gəlinciyi kimi əllərində oynatsınlar, istədiklərini onun əliylə həyata keçirsinlər. Şahsevənlərin məqsədi bu…

Kor Şahəli uyuşan ayağını altından çıxarıb o birini qoydu:

- Şah sağ olsun, çoxdan ürəyimdə bir söz var, dilimə gətirməyə cəsarətim çatmır.

- Buyur söylə, axı sən mənim söhbət yasovulumsan. Səni yaxşı tanıdığımdan kimsəyə demədiyim gizli niyyətimi də sənə deyirəm. Ona görə də ürəyində gizli sözün qalmasın.

- Bəndənizə göstərdiyiniz sayğıya görə təşəkkür edirəm… Demək istədiyim söz budur ki, vəliəhdiniz məlum olsa da, rəsmi elan etmədiyinizdən, şahzadələr arasında da, sarayda da, əmirlər içində də bir çaşqınlıq var.

- Doğru deyirsən, Şahəli, - şah bir-bir barmaqlarının quluncunu sındırdı. - Mən səndən savayı bu barədə kimsəyə bir söz deməmişəm. Bu çox şəxsi söhbətdi. Səndən nə gizli, bu haqda çox götür-qoy eləmişəm. Bilirsən, böyük oğlum Məhəmməd gözdən mayıfdı. Əslində, vəliəhdlik də onun halal haqqıdı.

- Şah sağ olsun, bəs mane olan nədi?

- İncə bir mətləb. Məhəmməd hakimiyyətə gəlsə, ad onun, dad özgənin olacaq. Məmləkəti o yox, arvadı Xeyrənnisə idarə edəcək.

- Şah sağ olsun, dünya işığına həsrət qalan bir kimsəyə, əgər uşaqları balacadırsa, zövcəsindən yaxın kim ola bilər?

- Doğrudu, amma qadının əlində hakimiyyət olarsa, çox böyük fəsadlar törədə bilər. Qadınlarda intiqam hissi kişilərdəkindən qat-qat çoxdu. Xeyrənnisə xanım dörd şahzadə anasıdı, buna görə o Məhdi-Ülyadı, özü də çox hökmran qadındı. Mənim baş hərəmim Sultanım bəyim onun çatışan, çatışmayan xislətindən məni agah edibdi.

- Bəs, İsmayıl mirzə…

- Vaxtında o, mənim sağ əlim idi. Onu düşmənlərimin üstünə çox göndərmişəm, o da həmişə sınaqdan üzü ağ çıxıb. Amma onu da yoldan çıxardılar. İndi o, on yeddi ildi Qəhqəhə qalasındadır. Məmləkətin əhvalından o qədər də hali deyil. Bir də, bu on yeddi ildə Allah bilir onun ürəyində nə qədər kin, nifrət toplanıb. O şah olsa, yadında saxla, doğmalarından da keçməyəcək.

- Onda üçüncü oğlunuz Heydər mirzəni vəliəhd seçin.

- Heydər mirzə bacarıqlı cavandı, ürəyi təmizdi, amma hələ dövlət siyasətində piyadadı. Qoymazlar işləməyə. Bizim xanədanımız tayfalar üzərində qurulub, hər tayfanın başında da mənəm-mənəm söyləyən bir əmir dayanıb. Vay o günə maşanı uzadıb birinin ocağından bir köz götürəsən, onda görərsən nə mərəkə qopur. Atalar belə yerdə yaxşı deyib, yuxarı baxıram bığ, aşağı baxıram saqqal.

- Nədən iki ildi özünüzə bir vəzir seçmirsiniz?

- Bəzi adamların əməllərindən iyrəndim. Şahlığım dövründə on iki vəzirim olub. İlk vəzirim Xacə Cəlaləddin Məhəmməd Keçəçi olub. Təbrizdən idi. Atamın vaxtından iş başındaydı. O, atam Şah İsmayılın ilk vəziri Əmir Zəkəriyyə Keçəçi Təbrizinin nəslindən idi. Ağıllı, dövlət işlərinə can yandıran bir kişiydi, Allah rəhmət eləsin.

Şahqulu bəy yerindən qalxındı:

- Allah rəhmət eləsin.

- Vəzirlərimdən razı olduğum da olub, olmadıqlarım da. Cəza verdiklərim də olub, işdən qovduqlarım da. Birinə isə dünyanın ən ağır cəzasını verdim.

- Mir İnayətulla Xuzani İsfəhanini deyirsiniz?

- Bəli.

- Şah sağ olsun, amma onun günahı nə idi, heç kəs bilmədi.

- Açılası günahdı ki, açaydıq? - şah köksünü ötürdü, - doğru deyirlər ki, qulaq gündə bir söz eşitməsə, kar olar. Amma bir gün Mir İnayətulla Xuzani barədə eşitdiklərimdən az qaldım havalanam. Sən demə, bu haramzada sarayın pişxidmətlərindən olan Basliq adlı bir oğlanla eşqbazlıq edirmiş. Sən onda mənim söhbət yasovulum deyildin. Nəsə, bunu eşitdim, amma inanmadım. Elə bildim vəzirimə şər atırlar. Ağzıbütövün birinə tapşırdım ki, onu izləsin. Bir neçə gündən sonra yanıma gəlib dedi ki, şah sağ olsun, deyilənlər düz imiş, vəzir pişxidmət Basliqlə eşqbazlıq edir. Mir İnayətulla Xuzanini çağırtdırdım yanıma:

- A kişi, - dedim, - sən sufi qazanında bişmiş, Nəcəfdə, Bağdadda oxumuş bir adamsan, oğlan xeylağı ilə eşqbazlıq etmək sənə yaraşarmı? Özü də sarayda, mənim qulağımın dibində. Bilmirsənmi şəriyyətlə tutduğun bu iş haramdı. Vəzir nə desə yaxşıdı?

Kor Şahəli bəy maraqlandı:

- Yəqin deyib ki, peşman olmuşam.

- Yox, Şahəli, yox, peşman-zad olmamışdı. Əksinə, dil-dil ötürdü. Şah sağ olsun, - dedi, - o oğlanla təkcə eşqbazlıq eləmirəm, onunla həm də könül dostuyuq.

Dedim o necə olur? Cavab verdi ki, evə gedirəm peşman oluram. Mən İbn Sinadan, Xoca Nəsrəddindən, Ərəstundan, Əflatundan, Mənsur Həllacdan, Şeyx Nizamidən danışıram, arvadım da qır-qızıldan, toyuq-cücədən. Ona görə də özümə söhbətim tutan tay axtarırdım.

- Söhbətin axırda eşqbazlıqla qurtardı, eləmi? - dedim.

- Bəli, elədir! - dedi.

Dedim:

- Ey İnayətulla, sən vəzirlik adına ləkə gətirməsən, dövlətxanaya əxlaqsızlıq damğasını vurmusan. Sənin bu İslama zidd eşqbazlığının qabağını almasaq, sabah Təbrizin küçələrində qulağı sırğalı, boynu zəncirli, gözü sürməli, qaşı vəsməli kişi «arvadlar» dolaşar. Səni Həsən paşa məscidinin minarəsindən asdırıb yandıracam. Söz verirəm, səni qəbiristanlıqda sevimli Basliqinin yanında dəfn etdirəcəm. Mir İnəyətulla Xuzani İsfəhani özünü mərdana apardı:

- Hər cəzaya layiqəm, - dedi.

Mən də onu Həsən paşa məscidinin minarəsindən asdırdığım dəmir qəfəsə saldırıb yandırtdım. Mənə söylədilər ki, o, yanmazdan öncə Heyrani Həmədaninin bu beytini oxuyub:

Bəla məhəlləsində ev tutdum, mənim qapım od aldı,

Bəla küçəsində ev tutan hər bir kəsi od tutacaqdır.

Həyatımda iki adama bu cəzanı rəva bilmişəm: Müzəffər və vəzirim Mir İnəyətulla Xuzaniyə. Nə gizlədim, hərdən onların fəryadları qulağıma gəlir, ancaq mənim başqa yolum yoxdu. Mən bütün bunları qızılbaşların qanı bahasına qurulmuş Səfəvilər xanədanının sabahı naminə eləmişəm, Şahəli.

Kor Şahəli bəy:

- Düz eləmisiniz, şah sağ olsun, cəzasızlıq olarsa, dövlət dağılar, - dedi.

- Elədir, mən vəzirim Məsum bəy Səfəvidən çox razıydım. O da oğlu ilə ziyarətə gedərkən yolda quldurlar tərəfindən qətlə yetirildi. Onun ölümü məni çox sarsıtdı. Bir neçə il yerinə kimsəni təyin etmədim. Sonra Mir Seyid Hüseyn Fərəhani ilə Xoca Cəmaləddin Əli Təbrizini vəzir təyin elədim. Bir il sonra gördüm yox, bunlar bu vəzirliyə layiq deyillər. İşdən çıxartdım. Səbəblərini isə sən də yaxşı bilirsən. Onlardan sonra vəzir götürmədim. Eh, əzizim Şahəli, gözünün qabağında ömrüm qovğada - üsyan yatırmaqda, yolunu azanları, üstümüzə qoşun çəkənləri yerində oturtmaqda keçdi. Mən Allahımdan çox razıyam. Ürəyim Yaradanımla düz olduğundan, ən müşkül işlərim sonda sahmana düşüb. Sən bilirsən ki, mənim çox yaxşı yaddaşım var. Hər bir hadisə təfsilatıyla yadımdadı.

- Elədi, şah sağ olsun. Belə kəskin yaddaş sahibi olmağınız da Allahın sizə lütfüdür.

- Bəli, bəli… Allahımdan çox razıyam. Əlli iki ildi şah taxtında oturmuşam, hər bir hadisə, bütün baş verənlər yadımdadı. Üç min qorçunu, üç min yasavulu adbaad tanıyıram. Kimi nə zaman mülazim götürmüşəm, hansı ildə xan seçmişəm günüynən, iliynən yadımdadı. Sən də şahidi olmusan, o qədər şeir əzbər bilirəm ki, bir gün gecə-gündüz şeir desəm, bir bəndi belə təkrar etmərəm.

Şahəlinin fərəhdən gözləri doldu:

- Allah sizi qorusun, şahım. Allah ancaq sevdiyi bəndələrə belə fitri istedad bəxş eləyir. Şahidiyəm ki, siz nə qədər təfsir, hədis, kəlam bilrsiniz. Həmişə heyran olmuşam, demişəm görən, şah bütün bunları necə yadında saxlayır.

Şah da duyğulandı:

- Kaş bütün bildiklərimi pərvanələrimə* yazdıraydım.

- İndi də gec deyil, hökmdar.

- Yaxşı ki, Rum elçiləriylə söhbətimi pərvanələr qələmə alıblar, üstündə işləyib dəftərxanaya vermişəm, qoy məndən övladlarıma yadigar olsun. - Bir qədər susub davam etdi. - Mən yuxuya da çox inanmışam. Həmişə də yuxum çin olub. Yaxşı yadımdadı. 957-ci ilin kəramətli rəcəb ayının 27-si -- cümə axşamı günü (1550) yuxuda gördüm ki, bir Ay göyün ortasında durubdur. Eyni zamanda başqa bir Ay da Şərq tərəfdən, digəri isə Qərb tərəfdən görünür. Qərb tərəfdən görünən Ay çox böyük, Şərq tərəfdən görünən isə kiçik idi. Bir nəfər nurani şəxs dayanıb mənə deyirdi ki, Qərbdəki Ay Sultan Süleyman, Şərqdəki Ay özbək Übeyd və ortadakı Ay sənsən. Baxıb gördüm ki, əvvəlcə Şərq tərəfdəki Ay göyün ortasına çatdıqda

qopub düşdü və yerə batıb yox oldu. Ondan sonra Qərbdəki Ay bu qayda ilə yerə düşüb batdı. Göyün ortasındakı Ay isə havada olan bir kağız parçası kimi yavaş-yavaş aşağı enərək Qəzvində tikdirdiyim Şahnişin eyvanında - mənim yatdığım yerə düşdü. Mənim yerimə bir xalça, onun üstündən də bir döşək salınmışdı. Həqiqətən yuxum çin oldu. Übeyd xanı məğlub edib məmləkətdən qovduq, Sultan Süleymanla isə sülh bağladıq. Bax, ömrüm belə keçdi.

Şahəli dedi:

- Şah sağ olsun, ömrün zinəti də elə budur da.

Şah:

- Bəlkə da haqlısan, - dedi və bir qədər düşüncədən sonra. - Gecdir, duraq dincələk, görək sabah üzümüzə hansı xəbərlərlə açılacaq.

Kor Şahəli yerindən qalxdı. Xudahafizləşib getdi. Şah da yataq otağına çəkildi.

XIV FƏSİL

QƏFİL GÖRÜŞ

Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi.

Nizami Gəncəvi

P ərixan bəyim səksəkə içindəydi. Anası şahın yanından xeyir xəbərlə qayıtmamışdı. Söylədiyinə görə, şahın nə qərara gəldiyi onun üçün tam aydın olmamışdı.

- Qızım, bilirsən ki, atanın sirrindən fələk də baş açmaz. Heç onu qınamıram da. Onun ayağı biləni, bizim başımız bilməz. Heydər mirzəni də yamanlamadı, - bir qədər susub əlavə etdi, - Ay Pərixan, axı sənin siyasətlə nə işin? Atanın yanında söz sahibisən, sarayda hörmət-izzətin, yetim-yesirə əl tutursan, sənə daha nə lazımdı, qızım?

Pərixan bəyim demək istədi ki, mənə hakimiyyət lazımdı. Hakimiyyət!.. Amma demədi.

- Mənə atamın sağlığı, - dedi. - Bir də o üzlərini mürdəşir yumuşları görmək istəmirəm.

- Qızım, gəl sən məni eşit, siyasətdən uzaq dur. Siyasət atına minəni tez çəkib yerə salırlar. O ki qaldı qadın ola…

Pərixan bəyim güldü:

- Gərək sən məni oğlan doğaydın, ay ana.

- Qız, oğlan, nə fərqi, hər ikisi Allahın payıdı. Ana olmaqdan müqəddəs nə var?! Peyğəmbər əfəndimiz nahaqdan ha deməyib: «Cənnət anaların ayaqları altındadı». Sən gəl daşı ətəyindən tök, payızda toyunu eləyək…

- Darıxma, ay ana. Tələsmə bircə… Toy eləyib gəlin köçməyə, kiminsə arvadı olmağa nə var ki… - Ağlından dilinə gətirmədiyi bir fikir ildırım sürətilə keçdi: «Arxası üstə uzan, beşcə dəqiqə sonra ol arvad. Bəs sonra?» Onu ən çox bu sonrası düşündürürdü. «Oldun arvad, oldun ana, sonra nə olsun? Bir kişinin halalından başqa sən kimsən? Hökmün nəyə çatır? Nə edə bilərsən? Başında dolaşan fikirlərini, içində cücərən düşüncə toxumlarını səpməyə münbit torpaq tapacaqsanmı? Yox! Anan, xalaların sənə Qurani-kərimdən məsəl çəkəcəklər: «Qadın tarladır, kişi əkinçi. Qoy ərin bu tarlada istədiyi kimi əkib-becərsin». Bir an özünü arxası üstə, nişanlısı Bədiüzzamanı üstündə təsəvvür elədi. Pörtdüyünü hiss edib diksindi. «Allahım, doğrudanmı, məni analıq hissindən məhrum etmisən? Mən nişanlı ola-ola evimizdə qızmı qalacam? Axı şəriətimizdə qız qalmaq da günahdır. Bilmirəm, bu hakimiyyət eşqi haradan gəlib düşüb mənim başıma?»

- Yenə nə fikirləşirsən? - Anasının səsi onu xəyaldan ayırdı.

- Elə şey haqda fikirləşirəm ki, sən artıq o barədə fikirləşmirsən, ana.

- O nədi elə?

- Bağışla, ana, deyə bilməyəcəyəm.

- Vallah, başdan - ayağa müəmmasan… Sən sarıdan yaman nigaranam, Pərixan.

- Tələş etmə, ay ana. Eşitməmisən: «Aslanın erkəyi, dişisi olmaz». Gəl səni öpüm, çox sağ ol ki, sözümü yerə salmayıb atamla sarayda baş verənlər barədə danışmısan, - deyə Pərixan bəyim anasının qızıl cıqqalı alnından öpdü.

- Şahla səninlə qardaşının xatiri üçün danışdım. Amma bu danışığın bir nəticəsi olacaq, olmayacaq, bilmirəm.

- Olacaq, ana. Hökmən olacaq! Söz adamın ürəyində torpağa atılan toxumdan daha tez cücərir. İnanıram ki, sənin sözlərin atamın qəlbində yamyaşıl ağaca dönüb. Nəticəsini, inşaallah görərsən. Get rahat ol, mən də yatıram.

Anası gedəndən sonra Pərixan bəyim yatağına girsə də, gözlərinə yuxu getmədi. Fikirlər üstünə qoşun çəkmişdi. Bu fikir selinin qabağında duruş gətirmək çox çətin idi. Hərdən bu selin içindən Bədiüzzamanın surəti boylanırdı. Pərixan bəyim xəyalında doğan bu surətə - gələcək ərinin şəklinə güzgüdən baxırmış kimi baxırdı. Baxırdı, amma qəlbində heç bir tərpəniş, əndişə, həyəcan hiss etmirdi: «İlahi, doğrudanmı mənim qəlbim belə boş qalacaq. Niyə məni sevgidən, eşqdən mərhum etmisən, ey Tanrım? Axı çölün quşu, heyvanı da tayını tapmağa can atır. Bəlkə günah məndə yox, bəxtimə çıxan, məni görəndə özünü itirən Bədiüzzamandadı?! Hə, hə, bütün günahlar ondadı. O, mənim qəlbimi fəth edə bilmir. Qalalar, ölkələr almağa nə var, qüdrətin çatırsa, qadın-qız qəlbini fəth elə. Qız deyirəm ey sənə, bir kişi baxışından gün vurmuş sırsıra kimi əriyən qız yox. Dağ kimi vüqarı, başında ağıl-kamalı olanı».

Fikirləri ilə baş-başa qalan Pərixan bəyim darıxıb həyətə düşdü. Onun otağının qapısı bağa açılırdı. Bura, doğrudan da, cənnət idi, hər cür meyvə ağacları, çoxlu qızılgül kolları vardı. Hərəmxananın qadınları yaz, yay, payızda ən xoş dəqiqələrini bu bağda keçirirdilər.

Pərixan bəyimi qızılgül qoxusu vurdu. Qızılgülün xoş ətri elə bil gecənin üstünə çilənmişdi. Pərixan bəyim yaxınlaşıb qızılgül ağacının budağını əydi, pardaxlanmış güllərdən birinin ətrini sinəsinə çəkdi.

- Sən iylədiyin bu qızılgüldən də qəşəngsən, Pərixan.

Pərixan bəyim sükutu pozan səsdən diksinib döndü və ona elə gəldi ki, nişanlısı Bədiüzzaman qızılgül kolunun içindən çıxdı. Bu qəfil gəlişdən yanaqları qızardı:

- Sənsən?! - dedi.- Məni qorxutdun.

Bədiüzzamanın həyəcandan səsi titrədi:

- Bağışla, evdə qərar tutmayıb yanına gəldim.

Pərixan bəyim nazlandı. Ərgənlik taxtında əyləşmiş bu xanım ay işığında daha da gözəl görünürdü. Baftalı köynəyinin yaxasından müşk-ənbər qoxusu gəlirdi. Oğlanın gözlərindəki parıltı Pərixan bəyimi üşəndirdi. Sövq-təbii bu parıltının gəncin gözlərində hansı hislərdən doğduğunu açıqca sezdi.

- Gündüz vaxt tapmırsan, bəy, gecə niyə gəlirsən? - soruşdu.

- Gündüz min bir göz baxır… Sənin xəbərin yoxdu, Pərixan, mən hər gecə səni görməyə gəlirəm. Hər gecə, hər gecə… Yalnız bu gecə səni görmək mənə qismət oldu.

- Əmioğlum olmasan, səni gecə vaxtı bağa buraxmazlar.

Bədiüzzaman xəfifcə gülümsədi:

- Axı, hamı bilir ki, sən mənim nişanlımsan, - yaxınlaşıb qızın şümşad əllərindən yapışdı və aparıb ürəyinin üstünə qoydu. - Görürsən necə döyünür…

Pərixan bəyim əlini yavaşca çəkərək:

- Döyünməsə, yaşamazsan, - dedi.

Qızın ahəngdar səsi Bədiüzzamanın qulaqlarında əks-səda verdi, süzülüb bütün varlığına axdı. Oğlan qəflətən Pərixan bəyimi qucaqlayıb bağrına basmaqdan özünü güclə saxladı. Daha doğrusu, Pərixan bəyimin xanım-xatın ədası, təmkini oğlanın qabarmış sinəsindən geri itələdi. Bədiüzzaman vücudunu saran ehtirasdan boğulurmuş kimi:

- Pərixan, gəl bu yaxında toyumuzu eləyək, - dedi.

- Tələsmə…

- Nəyi gözləyirik? Qarışıq zəmanədi, şah məni tez-tez orda-burda baş verən ixtişaşları yatırtmağa göndərir. Nə bilmək olar başıma nə gələr. Vaxtında evlənək, oğul-uşaq sahibi olaq.

Pərixan bəyimin qaşları çatıldı:

- Bədiüzzaman, gəl toy eləməyə tələsməyək.

- Axı nə üçün? Səbəb nədi?

- Heç özüm də bilmirəm. Elə bilirəm nəsə olacaq.

- Adamlar yerlərində sakit otursa, heç nə olası deyil, Pərixan. Bütün bu xoşagələn, gəlməyən işlərin baiskarı insanlardı. Hamı elə bil özünə dərd axtarır. - Bir qədər sözünə ara verib əlavə etdi, - mən səni toydan və məndən qaçıran səbəbi bilirəm.

- Nədi? - Pərixan bəyim maraqlandı.

- Gərək mənim əmim, məmləkətimizin şahı səni lap əvvəldən dövlət işlərinə yaxın buraxmayaydı.

- Niyə?!

- Sən atana müşavirlik elədikcə hökm verməyə, qərar çıxarmağa vərdiş elədin. Bu saat, bəlkə də, sən mənə nişanlın gözü ilə yox, tabeliyin altında olan bir adam kimi baxırsan.

Pərixan bəyim ürəkdən güldü:

- Mənə bənd olandan filosof olmusan.

- Mən ürəyimin sözünü deyirəm, Pərixan, qorxuram sənin hakimiyyətə, hökmranlığa məhəbbətin nigahımıza mane ola.

Pərixan bəyim susub qulaq asırdı. Qəribə də olsa, dayaz zənn etdiyi Bədiüzzaman onun qəlbini çulğamış iki bir-birinə zidd fikri oxumuşdu. O, kişi ehtirasının alovunda yanmaqdan açıqca qorxurdu, ona görə də oğlanı yaxına buraxmırdı. Bilirdi ki, nişanlısını azacıq yaxına buraxsa, onun qüvvətli əlləri incə belinə dolansa, dodaqları öpüş görməyən dodaqlarına toxunsa hakimiyyətə əlvida deyib gərdəyin arxasına keçəcək. Bu isə hər zaman mümkündü, indilik isə hakimiyyət! Ancaq hakimiyyət! Əgər Bədiüzzaman dünyaya ancaq ehtirasının gözü ilə baxıb sınağa dözməsə, heç, yox, dözsə, bu hakimiyyətdən ən böyük pay elə ona çatacaq. Bu cür düşüncələr içində Bədiüzzamana dedi:

- Gecdi, gedək.

Bədiüzzaman nəsə demək istədi. Pərixan bəyim əlini oğlanın dodaqları üstünə qoydu:

- Sus. Elə mətləblər var ki, onu danışmazlar. - Oğlanı sındırmamaq üçün başlarının üstündəki Ayı ona göstərib dedi: - Bizdən çox-çox əvvəl yaşayanlardan biri yaxşı deyib:

Əzizim qəlbiləndi,

Ay doğdu qəlbiləndi.

Nəyə desən and içim,

Bu qəlb o qəlb iləndi.

Gecən xeyrə qalsın.

- Xeyrə qarşı.

Pərixan Bədiüzzamandan ayrılıb hərəmxana dairəsinə keçdi. Oğlan bir xeyli onun ardınca baxıb, ağacların arasında gözdən itdi.

XV FƏSİL

QURBAĞA GÖLÜNƏ ATILAN DAŞ

Səbr etməklə kişi zindandan çıxar,

Səbr ilə açılar bağlı qapılar.

Nizami Gəncəvi

Şah tam sağalmışdı. Həkim Əbu Nəsir sevincini gizlədə bilmirdi. Baxmayaraq ki, qəlbən Heydər mirzənin tərəfdarıydı, amma şahın sağalması üçün əlindən gələni eləmişdi. Şah da onun zəhmətini layiqincə qiymətləndirmişdi. Şah hələ də xəstə olduğu zaman iki tirəyə bölünmüş qüvvələri intizarda saxlayırdı. Sarayında oturub kəhrəba təsbehini çevirə-çevirə hər kəsin hərəkətini, ağzından çıxmış sözlərini ayrı-ayrılıqda vərə-vürd eləmişdi.

Şah hər bir işi vaxtında görməyi sevirdi. Xəstəliyi ucbatından görüləsi işləri çoxdu. Sabah yığılıb qalan bəzi işləri sahmana salacaq, sonra Heydər mirzənin tərəfdarlarının, hamısı olmasa da, bəziləri ilə görüşüb onlara yerlərini göstərəcəkdi…

Şah özünü kifayət qədər gümrah hiss eləyirdi və bir azdan hamama getməyə hazırlaşırdı. Təmizliyi çox sevirdi. Hətta bu məsələdə ifrat dərəcədə vasvası idi. Həmişə deyirdi ki, gərək adamdan gül qoxusu gəlsin…

Pəncərənin önünə gəlib öz əli ilə saldırdığı bağın tamaşasına durdu. Yadına atasının «Dəhhamə»si düşdü:

Qış getdi, yenə bahar gəldi,

Gül bitdüvü laləzar gəldi.

Quşlar qamsu fəğanə düşdü,

Eşq odu yenə bu canə düşdü.

Çöldə qopan hay-küy onu xəyaldan ayırdı. Hüseynqulu Xüləfa başının dəstəsi ilə hərəkətə keçmişdi. Axı, şahsevənliklərini sübut etməliydilər. Dövlətxananın önündə qılınc, nizə, balta, yay-oxla silahlanmış minlərlə sufi toplanmışdı.

Hüseynqulu Xüləfanın bəlağətli nitqi, tərəfdarlarının təbliğatı işini görmüşdü. İlk bəhanələri bu oldu ki, biz xəstəlikdən təzəcə durmuş mürşidi-kamilimizi - şahımızı Heydər mirzənin tərəfdarına, gürcü əsilli Zal bəyə etibar eləyə bilmərik. Ondan xəta əskik deyil. Zal bəyin adamları da vuruşmağa hazır dayanmışdılar.

Bu zaman Hüseyn bəy Yüzbaşı da başının dəstəsi ilə dövlətxananın qabağına gəldi. Ustaclıların əmirini görəndə Hüseynqulu Xüləfanın dişi bağırsağını kəsdi.

- Ey Hüseyn bəy Yüzbaşı, sən şahzadə Mustafanı da yolundan çıxartmısan! Gördün, Allah sənin murazını necə gözündə qoydu, istəyirdin Heydər mirzəni taxta çıxardasan. İndi de görüm, nə üzlə dövlətxanaya gəlmisən?

Hüseyn bəy Yüzbaşı təmkinli addımlarla Çehelsütun eyvanına qalxdı. Sonra Mustafa mirzə, Allahqulu sultan Aycəkoğlu, Piri bəy Qoçulu, Murad xan Süfrəçibaşı, Məhəmməd bəy Qoyunçuoğlu, lap arxada İsgəndər bəy Çehelsütun eyvanına çıxıb Hüseyn bəy Yüzbaşının yanında dayandılar.

Hüseyn bəy Yüzbaşı ilə söhbətdən sonra gecə-gündüz gördüklərini yazan İsgəndər bəy ilk dəfəydi əli qılınclı, oxlu-kamanlı, baltalı-yabalı belə böyük bir kütlənin qabağında dayanıb onları seyr edirdi. Hər şeyi olduğu kimi yadında saxlamağa çalışırdı. Artıq nəinki hadisələrin mahiyyəti, hadisəni törədənlərin xisləti də ona aydın idi.

Tərəflər qarşı-qarşıyaydı. Nəyin və kimin naminə ölməyə və yaxud öldürməyə atıldıqlarının fərqinə varmadan səs-səsə vermişdilər.

Hüseyn bəy Yüzbaşı ondan ehtiyatlanırdı ki, Hüseynqulu Xüləfanın öyrədilmiş adamları qəflətən silaha əl ata və qan tökülə. O, buna yol verməmək üçün üzünü şişman gövdəli Hüseynqulu Xüləfaya tutdu:

- Bura bax, ey Hüseynqulu Xüləfa, sən axı dövlətin xüləfasısan, səni özünün mürşidi bilən çoxlu sufi var. Sözdə özünü şahsevən kimi aparırsan, əməldə yox.

Deyir, avazın yaxşı gəlir, oxuduğun «Quran» olsa. Sən əsl məramını qızılbaşlardan gizlədirsən, onların belinə yaraq qurşayıb şah sarayının qabağına gətirmisən. Axı, sən niyə qızılbaşlar arasına nifaq salırsan. Sənin Zal bəylə nə işin var? Yəni sən onu mürşidimizdən, padşahımızdan daha yaxşı tanıyırsan?!

Hüseynqulu Xüləfa camaatın arasından səsini qaldırdı:

- Bura bax, sən o şah eyvanından bizə nə moizə oxuyursan? Səni qızılbaşlara kim vəkil seçib?

- Səni seçənlər məni də seçib. Allaha həmd və şükür olsun ki, padşahımızın, mürşidimizin, vəlinemətimizin qiymətli başı salamatdı. Ey Xüləfa, bizim və sizin nə həddimiz var ki, dövlətxananın qabağına yığışıb şahımızın gözü qarşısında bu cür özbaşına hərəkətlər edək?!

Sual cavabsız qaldı.

Bu zaman Kor Şahəli bəy camaatın içindən ayrılıb şahın sarayına girdi. Onu həm şahsevənlər, həm də Heydər mirzə tərəfdarları gördülər və başa düşdülər ki, burada baş verənlər bitcə-bitcə şaha çatdırılacaq və şah baş verənlərə özünə xas cavab verəcəkdir. Doğrudan da, çox çəkmədi şahın fərraşı Çehelsütun eyvanında göründü və hər kəsin eşidə biləcəyi səslə Zal bəyi səslədi:

- Zal bəy, şah sizi gözləyir, Cəfərabad məhəlləsindəki hamama gedəcək.

Elə bil qurbağa gölünə daş atdılar, hamı səsini kəsdi. Hüseynqulu Xüləfa bu sözləri eşidəndən sonra sivişib aradan çıxdı.

XVI F Ə S İ L

ÇEHELSÜTUN EYVANINDA ŞƏNLİK

Hər ümidsiz işdə xeyli ümid var,

Qaranlıq gecədən ağ səhər doğar.

Nizami Gəncəvi

N eçə gün idi nökər-qaravaş Səadətabad bağında, bağın içindəki imarətlərdə təmizlik, abadlıq işləri aparırdılar. Şah cümə günü sağalması münasibəti ilə doğmalarını başına yığıb şadyanalıq etmək fikrindəydi.

Şah Təhmasib Səadətabad bağını Qəzvini məmləkətin paytaxtı elan etməzdən çox-çox qabaq -- 1545-ci ildə saldırmışdı. Onda bura Qonaqabad adlanırdı və sahibi də Mirzə Əşrəf adlı varlı-hallı bir kişiydi. Şah Mirzə Əşrəflə sövdələşib bu yeri ondan almışdı. Şah böyük bir bağ saldırmış və adını da Səadətabad qoymuşdu. Bağın tən ortasında yay-qış suyu əskik olmayan arx çəkilmişdi. Arxın hər iki tərəfində sırayla əkilmiş xan çinarlar göz oxşayırdı. Səadətabadın mərkəzində hündür imarətlər, kaşı və müxtəlif əlvan naxışlarla bəzədilmiş saraylar, beş yüzdən çox adam tutan eyvanlar, münşilərin, nəqqaşların, xəttatların, pərvanələrin işləməsi üçün hər cür şəraiti olan kitabxana, dəftərxana tikilmişdi. Bunlardan başqa, Həştbehişt, Nəciyyə və Şah məscidləri də inşa edilmişdi.

Şah 1555-ci ildə Təbrizdən Səadətabad bağındakı imarətə köçüb Qəzvini məmləkətin paytaxtı elan etdi. Bu münasibətlə şəhərdə görünməmiş atəşfəşanlıq, toy büsatı yaşandı. Qonşu ölkələrdən şaha təbrik məktubları, bahalı hədiyyələr gəldi. Bünövrəsi neçə il qabaq qoyulmuş Dövlətxananın inşası başa çatdı. Şah dünyaca məşhur Çehelsütun eyvanındakı bəzi təsvirləri öz əliylə çəkdi. Dövlətxananın Çehelsütun eyvanındakı kitabələrin yazılmasını məşhur xəttat Hüseyn Hərəviyə tapşırdı. İmarətin bürcündə quş heykəli ucaldılmışdı. Bu heykəl sülh və xoşbəxtlik rəmzi idi. Səadətabad bağının yeganə, amma çox böyük və hündür bir darvazası vardı. Bağa giriş yalnız bu darvazadan idi…

Cümə günü Çehelsütun eyvanına ipəküzlü döşəkçələr, qotazlı mütəkkələr düzülmüş, ortaya uzun, çox uzun süfrə salınmışdı. Eyvanın aşağı tərəfində çalıb-oxumaq, rəqs etmək üçün yer ayrılmışdı. Şah çox götür-qoydan sonra külfətini, yaxında olan qohum-əqrəbasını, simsarlarını Çehelsütun eyvanına dəvət edib onlarla üz-üzə oturtmaq fikrinə düşmüşdü. Gün batanda artıq hamı eyvandaydı. Qulluqçular gümüş şamdanlardakı şamları yandırmışdılar. Burada Gilandan gəlmiş məşhur Aşıq Zeytundan, sarayın zurnaçısı Həsəndən, nağaraçı Hüseyn Bəlyanidən, şöhrəti məmləkəti dolaşan xanəndələr Hafiz Əhməd və Hafiz Lələ Təbrizidən, onları müşayiət edən tar-tənbur ustadı Şahsuvardan və kamança çalmaqda tayı-bərabəri olmayan Məsumdan başqa yad adam yoxdu. Əslində, onlar da yad deyildilər, sənətləri ilə hər kəsin doğması ola bilmişdilər. Ustad Həsənlə, ustad Hüseyn saray musiqiçiləri idilər, onlar başqa məclisdə çalıb-çağıra bilməzdilər. Hətta şah bir kərə gedib özgə məclisində zurna çaldığına görə ustad Həsəni məhbəsə saldırmışdı. Hafiz Əhmədlə Hafiz Lələ Təbrizi də bir vaxt şah sarayının xanəndələri olmuşdular. Amma onların avazı, səsləri o qədər məlahətli, əfsunedici

idi ki, şah bundan narahat olmağa başlamış, qorxmuşdu ki, sahzadələr onların ifasına aludə olub heç bir işlə məşğul olmazlar. Çarəni xanəndələri sərbəst buraxmaqda görmüşdü. Əslində, verdiyi bu qərar heç də ürəyincə olmamışdı, amma gözəl səsin, musiqinin insan qəlbini necə fəth etdiyini, baş qatdığını yaxşı bilirdi. Bu gün çoxdan bəri səsləri Çehelsütun eyvanında eşidilməyən Hafiz Əhmədlə. Hafiz Lələ Təbrizinin səsinə qulaq asmağa mənəvi bir ehtiyac duymuşdu. Onların gəlişindən hər kəs məmnun idi…

Şahın baxışları bir-bir məclisdəkilərin üzündə gəzirdi. Sanki onların qəlblərindən keçənləri gözlərindən oxumaq istəyirdi. Axı, göz qəlbin aynasıdı -- deyirlər. O, bu aynada hər şeyi olduğu kimi görmək istəyirdi. Bura toplaşanların hər biri onun üçün əzizdi. Lap başda, sağ tərəfində sevimli arvadı, iki şahzadə anası Sultanım bəyim oturmuşdu, ondan sonra digər şahzadələrin analarıəyləşmişdilər. Bu qadınların hər biri şahın birinci zövcəsi Sultanım bəyimə sayğı ilə yanaşırdı. Onlardan sonra şahın qızları oturmuşdular. Əvvəl şahın böyük qızı Gövhər bəyim əyləşmişdi. Şah onu doğma qardaşı Bəhmən mirzənin oğlu, sarayın eşikağası İbrahim mirzəyə ərə vermişdi. Onların yeganə qızı da babasının məclisindəydi. Şah kürəkənlərindən İbrahim mirzəni daha çox istəyirdi. Çünki İbrahim mirzə adi adamlardan deyildli; şair, alim, sazbənd, xəttat, ilahiyyat və dünyəvi elmlərə aşiyan, mərifət və kamal sahibiydi. Onun Cahi təxəllüsü ilə yazdığı seirləri dillər əzbəriydi. Saz çalıb - oxumaqda da ustadlardan geri qalmırdı. Şah onunla bir məclisdə olanda darıxmırdı, əksinə, xoş anlar yaşayırdı. Şah özü də yeri gələndə şeirlər yazırdı və söhbətlərində şah beytlər söyləməyi çox sevirdi.

Gövhər xanımın yanında əyləşən Pərixan bəyimin də əmisi oğlu İbrahim mirzəyə və bacısına xüsusi məhəbbəti vardı. Gövhər xanımla onu bacılıq hissindən çox rəfiqəlik, dostluq telləri bağlayırdı. Pərixan bəyimin yeganə getdiyi yer bacısının evi idi. İbrahim mirzənin hikmətli söhbətlərini dinləməkdən doymazdı. Saatlarla əmisi oğlunun zəngin kitabxanasında oturub mahir xəttatlar tərəfindən üzü köçürülmüş qədim kitabları, təzkirələri oxuyardı. Bacısı ilə əyləşib İbrahim mirzənin saz çalıb-oxumasına qulaq asar, «Gövhər sultan, əziz bacım, Allah sənə bu xoşbəxtliyi çox görməsin. İbrahim mirzə kimi incə qəlbli, zərif təbli, kamil bir insanın məhbubu olduğuna görə xoşbəxtsən» - deyərdi Pərixan bəyim.

Gövhər bəyim də taleyindən çox məmnun olduğunu söyləyərdi:

- Hə, bacı, doğrudan da, İbrahim mirzəylə xoşbəxtəm. O, hər kəsə bənzəmir. Mən onsuz bircə gün də yaşaya bilmərəm.

- Siz bir-birinizə çox yaraşırsınız. Sevginiz qayım-qədim olsun, - deyə Pərixan bəyim bacısını qucaqlayıb üzündən öpərdi.

Gövhər bəyim Pərixan bəyimin əlindən yapışıb sürməli gözlərindən bəxtiyarlıq yağdıra-yağdıra deyərdi:

- Bacı qurban, bilirsən İbrahim nə qədər qəzəl, qəsidə, müxəmməs yazıb?! Həm türkcə, həm də farsca. Lap rəhmətlik babamız Şah İsmayıla çəkib. Mən də onun xəttatı olmuşam, o yazır, mən də üzünü köçürürəm. Özünün xəttatları var, amma bu işə özüm maraqlıyam.

Pərixan bəyim şaqraq gülüşlə:

- Ay sənin canınacan, kişinin sirrindən agah olmaq istəyirsən də. İstəyirsən biləsən, görəsən sənə nə yazıb. Axı kişilər qadınlarını üzlərinə tərifləməyi sevmirlər. Düz deyirəm?

- Hə, bacı qurban, düz deyirsən. Mənim könüllü xəttatlığımda dediklərinin hər ikisi var. Allah onu mənə və qızılbaşlara çox görməsin.

- Amin! Onun bəstələdiyi nəğmələri sevməyən varmı? Allah bədnəzərdən saxlasın.

- Amin, bacı qurban, amin…

Pərixan bəyim bu gün çox şad görünürdü. Bunu hətta kəhrəba rəngli rübəndinin arxasından cilvələnən çöhrəsindən də görmək olurdu. Onun nişanlısı, Sistandakı Nimzun vilayətinin valisi Bədiüzzaman da məclisdəydi və oğrun-oğrun Pərixan bəyimə baxırdı. Pərixan bəyimdən sonra Xədicə bəyim oturmuşdu. O, Piye-pəsəsin hakimi Cəmşid xanın arvadıydı. Ondan sonra əyləşən şahın həmişə Anaxanım deyə əzizlədiyi Zeynəb bəyim idi. Ağıllı-kamallı bu xanım hələ nişanlanmamışdı. Şahın Məryəm bəyim, Fatimə bəyim, Şəhrəbanu bəyim, Xanıs bəyim adlı qızları isə, ər evlərində haqqa qovuşmuşdular.

Məclisdə şahın oğlanlarından Heydər mirzə, Süleyman mirzə, Mustafa mirzə, İmamqulu mirzə, Əhməd mirzə öz yerlərini tutmuşdular.

Şah xəstə yatarkən sarayda baş verənləri unutmaq istəsə də, bu məclisi keçirməklə, həm də qanından, iliyindən gəlmiş övladlarına, doğmalarına ibrət dərsi vermək istəyirdi. Əlbəttə, açıb- ağartmamaq, üzə vurmamaq şərtilə. Deyir, sən ağacını götür, suçlu suçluluğunu bildirəcək.

Al-əlvan geyinmiş kənizlər, əllərində göz oxşayan çini boşqablar, şərbət dolu kuzələr, su bardaqları, içəri girdilər. Gətirdiklərini səliqə ilə süfrəyə düzüb çəkildilər. Sonra aşpazlar iri məcməyilərdə aş, gümüşü kasalarda aşqarası, əridilmiş yağ, çörək, nazik yuxa, camış qatığı, motal pendiri gətirdilər. Süfrəyə

birinci şah əlini uzatdı: - Bismillah, - deyib yuxa götürdü, arasına motal pendiri qoyub ləzzətlə yeməyə başladı. Ondan sonra hamı «bismillah» deyib çörək kəsdi. Olduqca könülaçan bir gecəydi. Sərin meh əsir və güllərin ətrini Çehelsütun eyvanına səpirdi. Gecəni səhər eləmək üçün budaqdan - budağa qonan quşlar civildəşirdilər…

Şah gözaltı baxdı ki, daha yeyən yoxdu, dodaqaltı süfrə duası oxudu:

- Ya Allah, süfrəmizi ruzili, məmləkətimizi qada-bəladan hifz elə. Biz yedik doyduq, ya Rəbbim, cəmi aclar doysun!

Hamı bir ağızdan «Amin» dedi. Nökərlər süfrədəki qab-qacağı yığışdırdılar. Kənizlər çiyinlərində dəsmal, aftafa-ləyənlə məclisə gəldilər. Şah başda olmaqla hamı ağzını yaxalayıb əllərini yudu. Sonra ortaya hilli-mixəkli çay, çərəz gətirdilər.

Şah söhbət etməyə ilmə axtarırdı. Bu vaxt İsaq-Musaq quşunun kədərli səsi eşidildi. Şah dedi:

- Gör Allahın quşa çevirdiyi bu iki qardaş itirdiklərini neçə ildi axtarırlar?! Bir qulaq asın.

Doğrudan da, adama elə gəlirdi ki, quşlar: - İsaq, Musaq, tapdın?! Yox! - deyə bir-birini haraylayır.

Şah dedi ki, amma insanlarda Allahın quşu qədər etibar yoxdu. Hamı bir-birinin üzünə baxdı: «Yoxsa indi şah onları etibarsızlıqda suçlayıb qınayacaq, tənbeh edəcəkdi?!».

Ancaq şah susub, indi görürmüş kimi, Çehelsütun eyvanının divarlarını bəzəyən rəsmlərə baxırdı. Xeyli sükutdan sonra şah dedi:

- Bu Çehelsütun sarayında kimlər qonağımız olmayıb: Osmanlı, Portəgiz, Venesiya, Moskva səfirləri… Çar İvan Qroznı mənə yüz top, beş yüz tüfəng göndərmişdi. Bu gavur məmləkətdən olanlar mənim əlimlə Sultan Süleymanı aradan götürmək istəyirdilər.

İbrahim mirzə:

- Şah sağ olsun, - dedi, - Allah Sultan Süleymanı bu xaçpərəstlərə bir bəla göndərmişdi. O, günbatana doğru geniş əraziləri tutmuşdu. Xaçpərəstlər sizin şəxsinizdə Osmanlılara qarşı güclü müttəfiq axtarırdılar.

Şah uzun əlini sarıyanız sifətinə xüsusi bir yaraşıq verən ağappaq saqqalına, qalın dodaqları üstündə çatma qaş kimi sallanan bığına çəkdi. Qövsvari qaşları altında həmişə donuq görünən gözləri parıldadı:

- Doğru deyirsən, qardaşoğlu, - dedi, - bu xristian əhli ilanı Seyid Əhməd əli ilə tutmağı sevir. Hiylə və məkrdə onlara çatan olmaz. Özləri əzilməkdən qorxub bizi qabağa vermək istəyirlər. Sultan Süleyman dörd dəfə məmləkətimizə hücum eləsə, əyalətlərimizi viran qoysa da, mən müsəlman ölkəsinə qoşun yeritməyi şənimə sığışdırmadım. İstəmədim aramızda yaranmış sülh pozulsun.

- Çox uzaqgörənlik etmisiniz, - İbrahim mirzə dedi. - Xeyri də, şəri də insan törədir, əmi.

Şah gülümsəyərək:

- Elədir, qardaşoğlu, - dedi. - Meşə çaqqalsız olmaz. Yolunu azanlar, atasına asi düşənlər bizdə də olub, Osmanlılarda da. Qardaşlarım Əlqas mirzəylə Sam mirzə mənə arxa çevirib Sultan Süleymanın yanına qaçmışdılar, bundan çox pərt olmuşdum. Əməlləri mənə yaman yer eləmişdi. Allah bu haqsızlığı götürmədi, gün gəldi, Sultan Süleymanın oğlu şahzadə Bəyazid on min qoşunla mənim yanıma qaçdı. O, üç il bizim məmləkətdə əmin-amanlıqda yaşadı. Sultan Süleyman onu qaytarmağımızı tələb edirdi. Mən çalışırdım ata ilə oğulu barışdırım. Bəyazid isə mənə təklif edirdi ki, sultanın üstünə qoşun çəkim. Mən ona etiraz edib dedim ki, atanla bağladığım sülhü sənə görə poza bilmərəm. Qərəz, çox yazışmalardan, get-gəldən sonra Sultan Süleyman Xosrov paşanı böyük bir elçi heyəti ilə yanıma göndərib şahzadə Bəyazidi geri istədi. Gördüm onu verməsəm, sülh pozulacaq. Əlacsız qalıb razılaşdım. Elçilər onun ölüm fərmanı ilə gəlmişdilər, onu dörd oğlu ilə bir yerdə öldürüb, meyitlərini dəvələrin belinə aşırıb apardılar. Mən bu barədə təzkirəmdə də yazmışam.

- Heyif ondan, gözəl şair idi, - İbrahim mirzə dedi.

- Elə atası Sultan Süleymanın da yaxşı təbi vardı. Bəyazid bağışlanması üçün atasına yeddi bənddən ibarət belə bir şeir yazıb göndərmişdi:

Ey sərasər aləmə Sultan Süleyman baba,

Təndə canım, canımın içində cananım baba,

Bəyazidinə qıyarmısan, benim canım baba,

Bigünaham, haqq bilir, dövlətli sultanım baba.

… Tutalım iki əlim başdan-başa qanda ola,

Bu misaldır söylənir kim, qul günah etsə nola,

Bəyazidin suçunu bağışla, qıyma bu qula,

Bigünaham, haqq bilir, dövlətli sultanım baba.

Sultan Süleyman da oğluna cavabında belə yazmışdı:

Ey dəmadəm məzhəri-tüğyanü-üsyanım oğul,

Taxmıyan boynuna hərgiz tək fərmanım oğul,

Bən qıyarmıydım sana, ey Bəyazid xanım oğul,

Bigünaham demə, bari tövbə qıl, canım oğul.

… Tutalım iki əlim başdan-başa qanda ola;

Çünki istiğfar edərsən, biz də əfv etmək nola,

Bəyazidin suçunu bağışlarım, gəlsən yola.

Bigünaham demə, bari tövbə qıl, canım oğul.

Amma Sultan Süleyman belə yazsa da, oğlunun qətlinə fərman verdi.

İbrahim mirzə coşqunluqla:

- Əmi, maşallah, mən həmişə sizin yaddaşınıza heyran oluram, - dedi.

Şah məmnunluqla:

- Buna görə Allahımdan çox razıyam. Hətta otuz il bundan qabaq gördüyüm yuxular da günüynən, saatıynan yadımdadı. Bu keyfiyyət həm də qandan gəlir, qardaşoğlu, - dedi. - Ulu babamız Şeyx Səfinin təzkirəsi, kəlamları məlum, mənim atam, sizin babanız Şah İsmayıl Xətainin şeirləri dünyaca məşhurdu. Analıqlarım Həyat xanımla Cahan xanımın da şair təbi olub. Bir gün Cahan xanım günüsü Həyat xanıma belə bir beyt söyləyib:

To padişahe-cahani cahan ze dəst məne*,

Ke padişahe-cəhanra bekar ayəd.

Həyat xanım da günüsünə dərhal belə bir cavab verib:

Tərke-cəme-cahan bekan ta əz həyat bər xori**,

Hər ke cəme-cahan konəd ke, ze həyat bər xori.

Bədbəxt qardaşım Sam mirzə şeir və qəsidələr yazırdı. Böyük oğlum Məhəmməd mirzənin də şairliyi var. Sən özün də farsca, türkcə gözəl şeirlər yazırsan, - bir qədər sükutdan sonra. - Biçarə İsmayıl mirzənin də təbi var. Keçən il həyatı barədə mənə bir qəsidə yazıb göndərmişdi. Oxuyanda göz yaşımı saxlayammadım… Pərixan bəyimin də gözəl təbi var. Mənə oxumağa verməsə də, eşitmişəm ki, İsmayıl mirzə barədə bir mənzumə yazıb. Elədirmi, qızım? - Şah üzünü Pərixan bəyimə tutub soruşdu.

Pərixan bəyim ədəblə baş əydi.

- Elədir, mehriban atam. O, məhbəsə düşəndə mən yeniyetmə yaşındaydım. Onun qəhrəmanlığından bu gün də əfsanələr danışırlar. Halbuki o, zindana düşəndə iyirmi dörd yaşındaydı.

Şahın qaşları çatıldı. O, istədi - istəmədi, bu İsmayıl mirzə əhvalatı hər zaman ortadaydı.

Şah:

- Pərixan, qızım, İsmayıl mirzə ağlının ucbatından məhbəsə düşüb, - dedi. - Qoy orada bir az qalsın, ağlı başına gəlsin.

Pərixan bəyim kəfənini boynuna doladı:

- Mənim əziz şah atam, məhbəs hər adamı ağıllandırmır, bəlkə də əksinə… İsmayıl mirzə illərdi bizdən ayrı düşüb, zindandadı, indi onu bağışlamaq olmazmı?

Hamı susub bu mükaliməyə qulaq asırdı. Bu zaman Sultanım bəyimin ürəyi şiddətlə döyünürdü, bu söhbətin nə ilə bitəcəyini gözləyirdi. Heydər mirzə də adının xəyanətdə hallanacağından ehtiyatlanıb susmuşdu. Bədiüzzaman nişanlısının şahın qəzəbinə gələcəyindən ehtiyat edirdi. Bacılar səksəkədə, şahın xanımları nigaranlıq içindəydi. Onların arasında İsmayıl mirzənin azadlığa çıxmasını istəyənlər də, istəməyənlər də vardı. Hamı, o cümlədən, Sultanım bəyim də yaxşı bilirdi ki, Heydər mirzənin anası, Əlixan bəyin bacısı istəməzlər ki, İsmayıl mirzə azadlığa çıxsın. Şah ağıl-kamalına görə həmişə hörmət etdiyi, müşavirələrinə belə dəvət etdiyi qızına dərhal cavab vermədi. İsmayıl mirzə gözləri önündə durmuşdu. Atalıq hissi ilə hakimlik hissi qəlbində üz-üzə gəlmişdi. Ata - «bağışla», - deyirdi. Şah - «bağışlamaq olmaz», - hökmünü. Fikirləşirdi ki, İsmayıl mirzədə hakimiyyətə hərislik var. Azadlığa çıxsa, məmləkətdə qarışıqlıq olacaq.

Nəhayət, şah dilləndi:

- Səhvini başa düşməyəni Allah da bağışlamır. Mən hər kəsdən vəfa, etibar görmək istəyirəm. Rəhmətlik atam Şah İsmayıl bu xüsusda yaxşı deyib:

Ey könül, sidq ilə hər kim şah ilə yoldaş ola.

Üz gərək döndərməyə hər necə kim yol daş ola.

Yolu gər daş ola, gər yay ola, gər oxü qılınc,

Mürşidə dönənin mənidə ismi laş ola.

Pərixan bəyim istədi şaha deyə ki, sənin yerinə göz dikənin biri də budur ey, gözünun qabağında ciddi sifət alıb. O, ilk dəfə görürmüş kimi Heydər mirzəyə diqqətlə nəzər saldı. Fikirləşdi ki, bu ortaboylu, yaraşıqlı oğlan, gözəl natiq, mahir at çapan olsa da, lazım gəlsə qılıncını siyirib döyüşə atılan cəngavər ola bilməz. O, olsa-olsa, müharibə barədə nağıllara qulaq asmağa qadirdi. Bu zəriflikdə oğlandan şah olarmı? Şah babam deyib ki:

Mənəm Sultan Xətai Heydər oğlu,

Mənim yolumda qovğa gərəkdir.

Bir gürcü qızının qarnından çıxanın yolunda kim qovğa edər?!

Pərixan bəyim ürəyindən keçənləri şaha söyləmədi. Çünki Heydər mirzə də onu İsmayıl mirzəni Qəhqəhə qalasından çıxarıb şah taxtına oturtmaq cəhdinə görə ittiham edə bilərdi. Bir də ki, xəstəlikdən təzəcə durmuş atasının qanını qaraltmaq istəmədi. Fikrini başqa cür tamamladı:

- Əziz atam, - dedi, - biz kimik ki, sənin əmrindən kənara çıxaq. Ancaq mənim şah babam belə buyurub axı:

Xətai hal çağında,

Hər könül alçağında.

Yüz min Kəbə yaxmaqdır,

Bir könül al çağında.

Şah gözlərini Pərixan bəyimdən çəkmədən dedi:

- Pərixan, qızılbaşlar ona görə döyüşlərdə qələbələr qazanıblar ki, həmişə, hər yerdə mürşidi-pirlərinə sözsüz itaət ediblər. Atam bu xüsusda da öz sözünü deyibdir:

Mürid oldur ola əhl- iradət,

Hər işdən var da pirdən icazət.

Sənin qardaşın İsmayıl müridlik yolunu tutmadı. Qəhrəman oğlumun zindanda yatması mənə də xoş deyil. Amma bu yolu o özü seçib.

Pərixan bəyim daha atası ilə söz güləşdirmədi. Deyəmmədi ki, qəhrəman at belində olar, qəhrəmanın qol-qanadını sındırmaq üçün zindana atmazlar. O, içində çağlayan etirazını güclə boğdu. Pərixan bəyimin susduğunu görüb Sultanım bəyim məclisdəki gərginliyi aradan götürmək üçün dedi:

- Hökmdar, bəlkə sazandalara söz verəsən?! Cavanlar da darıxmasınlar.

Şah yanında oturmuş xanımını gözüdolusu süzdü:

- Buyursunlar, Sultanım. Deyirəm, xanəndələrimiz «Şur» oxusunlar, qulaq asaq.

Şahsuvar tarını, Məsum kamançasını «Şur» üstə köklədi. «Şur»un «mayə»sini Hafiz Əhməd başladı:

Mənə badi-səba ol sərvi-gülrüxdən xəbər verməz,

Açılmaz qönçeyi-bəxtim, ümidim nəxli bər vermə.

Töküb göz yaşını sənsiz hələkin istərəm, amma,

Əcəl peykinə seyli-əşk girdabi-güzər verməz.

Hafiz Əhməd şöbədən - şöbəyə adladıqca coşur, məclisdəkilər də dünyanın min bir qayğısından uzaqlaşıb könül rahatlığı tapırdılar. Xanəndə xoş avazı ilə sanki dərələrdən, təpələrdən, ormanlardan keçərək məclisdəkilərə bələdçilik edirdi. O, zil şöbələri Hafiz Lələ Təbriziyə saxlamışdı. Hafiz Lələ Hafiz Əhmədin ağzından avazı alaraq elə bir ustalıqla «Nişibi-fəraz» şöbəsinə keçdi ki, hamı əl çaldı. Şah, «Əhsən!», - dedi. Xanəndə Məhəmməd Füzulidən oxuyurdu:

Könlümdə min qəmin vardır ki, pünhan eyləmək olmaz,

Bu həm bir qəm ki, el tənindən əfqan eyləmək olmaz.

Nə müşkül dərd olursa bulunur aləmdə dərmanı,

Nə müşkül dərd imiş eşqin ki, dərman eyləmək olmaz.

Hafiz Lələ cəh-cəhli zəngulələrlə muğamı tamamlayıb «əyaq» verəndə alqış qopdu. Hamı bir anda kimliyini, məmləkətdə mövqeyini, yerini unutmuşdu. Xanəndələr muğamın təkrarsız avazında onları dinləyənlərin könlünü fəth edib kamillik mərtəbəsinə qaldırmışdılar. Bu an hər kəs ölüb-öldürmək, kiminsə azadlığını əlindən alıb zindana atmaq kimi düşüncələrdən çox-çox uzaq idi.

İbrahim mirzə bayaqdan qəlbində xanəndələrə qoşulub səssizcə oxuyurdu. Şah ömrünün tamaşasına durmuşdu. Sultanım bəyim xəyalən Qəhqəhə qalasında, oğlu İsmayıl mirzəylə üz-üzə oturmuşdu. Pərixan bəyim baxışlarını Bədiüzzamanın odlu baxışlarından yayındırıb Məhəmməd Füzulinin indicə oxunan qəzəllərinə

nəzirə yazmaq barədə düşünürdü. Heydər mirzə elə bil ağzına su almışdı, şahlıq fikrinə tez düşdüyü və niyyətinin şaha agah olduğu üçün hələ də nigarançılıq içində çırpınırdı.

İbrahim mirzə şahın kefini duru görüb ürəyindən keçənləri söylədi:

- Şah sağ olsun, bu Füzuli qəzəlləri məni həmişə heyran eləyir. Nə qədər incə zövqlu şair olub. Heyif, onu görmək mənə qismət olmadı.

- Allah rəhmət eləsin. Yazdığı əşarlar həmişə diridir. «Bəngü badə»sini də mürşidi-pirimiz Şah İsmayıla həsr edib.

Ol ki, başlar zamanda bəzmi-fərağ,

Padşahlar başından eylər əyaq.

- Bunun açması necədi, hökmdar?

- Açması budur ki, mürşidimizlə özbəklərin padşahı Şeybani xanın arasında müharibə olmuşdu. Atam Şeybani xanı məğlub edib öldürdükdən sonra qafa tasını qızıla tutdurmuşdu. Bu qafa onun piyaləsi olmuşdu. Şair bu hadisəyə işarə vurur.

İbrahim mirzə coşqunluqla dedi:

- Onda olan bənzətmə, onda olan bəlağət kimdə var?!

Degil bihudə gər yağsa fələkdən başıma daşlar,

Binasın tişeyi-ahimlə viran etdigimdəndir.

Şah da etiraf etdi:

- Gözəldi.

- Əmi, bağışlayın məni, Bağdad bizdə olanda gərək onun qədrini biləydik. - Qəsdən «biləydiniz» demədi.

- Doğru buyurursan, amma dövlət işinə başımız qarışdığından, o boyda kişini unutmuşuq. Lap açığı, Füzuli bizim sarayda çalışan şair Heyrətiyə göndərdiyi bir qəsidədə bostanımıza daş atmış, saraydan uzaq durmasıyla fəxr etmişdi.

- Əmi, Füzuli hər cür hörmətə layiqdi. O, azad ruhlu bir insan olub. Qəfəs ona yaddı.

- Qardaşoğlu, mən sarayı heç vaxt qəfəsə çevirməmişəm. Məhəmməd Füzulini həmişə rəhmətlə yad edirəm. Amma nə gizlədim, o yazanda ki:

Tökdükcə qanımı oxun ol asitan içər,

Bir yerdəyəm əsir ki, torpağı qan içər, -

mənim xətrimə dəyirdi. Elə bilirdim ki, məmləkətimdə tökülən qanların baiskarı mənəm. Tək olan Allah şahiddir ki, mən nahaqdan bir insanın da burnunun qanamasını istəməmişəm.

- Əmi, onun sözlərindən incimək günahdır. Biz gəldi-gedərik, Füzuli sözü yaşayandı. Füzuli Sultan Süleymanın onun üçün kəsdiyi doqquz ağcanı* ala bilməyəndə də dilini saxlaya bilməyib: «Salam verdim, rüşvət deyildir - deyə almadılar», - deyib.

Şah dedi:

- İbrahim mirzə, görürəm, Füzulini özündən də çox istəyirsən.

- Bəli, elədi. Mən Füzulini oxuyanda özümdə olmuram.

- Yaxşı, qalx ayağa, sazını götür, Aşıq Zeytunu çək meydana.

İbrahim mirzə yerindən qalxıb sazını götürdü, Aşıq Zeytunun qarşısında durub:

- Aşıq, buyur, meydan sənindi, - dedi.

Aşıq Zeytun sazını köynəyindən çıxarıb «Baş sarıtel» üstə köklədi. Başladı Aşıq Qurbanidən oxumağa:

Ay ağalar, ay qazılar,

Yar yaman aldatdı məni.

Əl atdım yarın dəstinə,

Yar kənara atdı məni.

Tor qurdum çeşmin gölünə,

Qurbanam sonam telinə.

Düşdüm dilbilməz əlinə,

Aldı, ucuz satdı məni.

Qurbanidi mənim adım,

Adəm atadı bünyadım,

Şeş atdım, çahar oynadım,

Axır, fələk uddu məni.

İbrahim mirzə Aşıq Zeytunun cavabında mələhətli səslə oxumağa başladı:

Durub dolanım başına,

Aşiqindən küsən dilbər!

Gözlərini dik gözümə,

Nə mən dinim, nə sən, dilbər!

Mina qəddin zəbərcəddi,

Nə desən, cana minnətdi.

El köçüb, otaq xəlvətdi,

Gəlsən alam busən, dilbər!

İbrahim mirzə sezilməz tərzdə arvadı Gövhər xanıma işarə ilə qoşmanın ardını oxudu:

İtirmişəm maralımı,

Bir sinəsi yaralımı,

Gündüz səbr-qərarımı,

Gecə yuxum kəsən dilbər!

Qurbani özünə bəydi,

Yar həsrəti qəddin əydi,

Nə dedim, xətrinə dəydi,

Bu mən, dilbər, bu sən, dilbər!

Alqış qopdu. Aşıq Zeytunla İbrahim mirzə keçib yerlərində əyləşdilər. İndi də zurnaçı Həsənlə nağaraçalan Hüseyn meydana girdilər. Həsənin zurnada xüsusi bir məharətlə çaldığı «Tərəkəmə» sümükləri cümbüşə gətirmişdi. Şah şahzadələrə üzünü tutub: - Oynayın! - dedi. - Qalxın! Qalxın!

Şahzadələr qalxıb əvvəl üz-üzə, sonra qol-qola girib oynaya-oynaya dövrə vurdular.

Şah övladlarını bu cür qol-qola, yan-yanaşı görəndə sevincindən gözləri doldu.

* * *

Həmin gecənin səhəri şah sarayda ustaclı tayfasının nüfuzunu zəiflətmək üçün Heydər mirzənin tərəfini saxlayan əmirlərindən bir neçəsini saraydan uzaqlaşdırmaq fikrinə düşdü. Əvvəl Murad xan Süfrəçibaşını çağırtdırdı. Hal-əhvaldan sonra:

- Murad xan, - dedi, - sabah qoşun götürüb Mazandarana gedirsən. Üzümüzə ağ olan bir dəstə Kəcur qalasına sığınıb, bizi tanımaq istəmirlər. Get o qalanı fəth elə.

Murad xan Süfrəçibaşı:

- Baş üstə, şah sağ olsun. «Sağ olsun, başqa cür də cəzalandıra bilərdi» -- düşündü.

- Çox pakizə, gedə bilərsən. Allah amanında.

- Sağ olun, - deyib Murad xan Süfrəçibaşı arxa-arxaya gedib qapıdan çıxdı. «Atalar yaxşı deyib ki, tələsən təndirə düşər. Biz tələsib Heydər mirzəni şah taxtına oturtmaq fikrinə düşməsəydik, indi şah məni gedər-gəlməzə göndərməzdi».

Şah Piri bəy Qoçulunu da yanına çağırtdırıb:

- Bu gündən Reyin hakimisən. Sabah yola çıx, Reyə get. Elə işlə ki, camaat bizdən rəncidə olmasın, - dedi.

Piri bəy Qoçulu Allahına şükür eləyib şahın ona uzatdığı fərmanı alıb getdi.

Allahqulu sultan Aycəkoğlunun bir dəfə özü-özünə cəza verdiyini xatırlayıb ona toxunmadı. Amma Həsən bəyin oğlu Hüseyn bəy Yüzbaşını saraydan uzaqlaşdırmaq istədi. Şah, Həsən bəy və onun oğlu Hüseyn bəyin Səfəvilər dövləti yolunda göstərdikləri xidmətləri yaxşı bilirdi.

Hüseyn bəy şahın onu nə səbəbə yanına çağırtdırdığını dərhal anladı. Şah onu gülərüzlə qarşıladı, kefini soruşdu. Hüseyn bəy də razılığını bildirib Allahın köməkliyi ilə sağaldığı, məmləkətin işlərini sahmana salmağa başladığı üçün şaha gözaydınlığı verdi. Bir qədər ordan-burdan danışandan sonra şah dedi ki, bəs Rum (Türkiyə) sultanı II Sultan Səlim Allah rəhmətinə gedib, çox fikirləşdim, səndən layiqli birisini tapa bilmədim. Məsləhətdi ki, sən Rum elinə gedib Sultan Səlimin oğlu Sultan Murada başsağlığı verəsən, həm də bir elçi kimi onun cülusunu təbrik eləyəsən.

Şahın təklifi Hüseyn bəyin heç cür ürəyindən deyildi. Saraydan uzaqlaşsa, rəqiblərinə bəri başdan uduzmuş olacaqdı. Sonra, Allah bilir, ustaclıların, onun özünün taleyi necə olacaqdı. Artıq ustaclı Murad xan Süfrəçibaşıyla Piri bəy Qoçulunun əhvalatından da xəbərdardı. Ona görə də ürəyində Allahını çağırıb belə bir bəhanə uydurdu:

- Əşrəfin mübarək zatının sağlamlığı üçün nəzir demişdim ki, səkkizinci imamın ziyarəti üçün Məşhədə gedərəm. Ömrümün sabahına ehtimadım az olduğu üçün mənə ziyarət rüsxəti verməyinizi arzu edərdim.

Şah düşündü ki, o, həyatda ola-ola bu Hüseyn bəy Yüzbaşı neyləyə bilər?! Yel qayadan nə aparar?!

- Yaxşı, Hüseyn bəy, sən ziyarətə gedərsən. Sənin əvəzinə Çuxursəd hakimi Məhəmməd xan Toxmağı göndərərik, - dedi.

Hüseyn bəy Yüzbaşı ikiqat oldu:

- Əlahəzrət, Allah sizdən razı olsun. İcazə verin, mürəxxəs olum.

Şah əlini qapıya sarı tuşladı:

- Xoş getdin.

* * *

… Şah o gündən sonra düz iki il ağrı-acı bilmədən, kefi kök, damağı çağ məmləkəti idarə elədi.

İki ildən sonra isə başına bu bəla gəldi. Adi bir ehtiyatsızlıqdan ölüm yatağına düşdü.

XVII FƏSİL

ÖMRÜN SON GECƏSİ

Ölüm gəlməmiş ölümə hazırlaş.

Yusif Balasaqunlu

984-cü siçan ilinin səfər ayının 13-ü (13 may 1576) axşamı şahın halı pisləşdi. Buna baxmayaraq o, hələ də əcəlinin yetişdiyinə inanmırdı, yaşamağa ümidliydi. Uzaqdan, çox uzaqdan qulağına səs gəlirdi və get-gedə bu səs yaxınlaşırdı, sanki dağlar da əks-səda verirdi: Pirim, mürşidim, sadağa olduğum! Pirim, mürşidim, sadağa olduğum! Şah, Allah! Şah, Allah! - deyə ordu onu qarşılayırdı. Yüz minlik

bir ordunun eyni bir avaz, eyni bir ahənglə, qılıncları qalxanlara döyə-döyə hayqırdığı bu sözlərdən, həqiqətən, yer-göy titrəyirdi. Əstəğfürullah, ordu onu yer üzünün Allahı eləmişdi. «Şah, Allah! Şah, Allah!» deyə-deyə onu buna inandırmışdılar. Sözü təzəcə sönmüş ocaq kimi eşəndə görürdü ki, deyilənlərdə həqiqət var. Şah məmləkətin, deməli, həm də ölkənin sakinlərinin Allahıydı. «Quran»da deyilir ki, Allah bağışlayandı, bəs yer üzünün Allahı necə, bağışlayandımı? Bağışlaya bilirmi ona müxalif olanları, sözünün qabağında əks söz deyənləri? Of, of… yer üzünün Allahı olmaqdan imtina etmək nə müşkül iş imiş?! Mümkün olmayanları bircə sözünlə sənin üçün mümkün eləyənlərdən, bu işvəli-qəmzəli həyat səhnəsindən, bu Allahlıq iddiasından əl çək görüm, çəkə bilirsənmi? Xəlvətə, kimsənin səni görə bilməyəcəyi bir guşəyə çəkilib, göydəki Allahınla baş-başa qalmağı bacararsanmı?..

Bayaqkı möhtəşəm səs bir az da yaxınlaşdı. Aha, deyəsən bu səs heç də uzaqdan gəlmir, öz içindən, yaddaşından gəlir. Hə, hə, elədir ki, var, bax, bu qışqıran onun carçısı deyilmi:

Heydərü Səfdərdi bizim pirimiz,

Qırxınıza taydı bizim birimiz!

Yüz min qızılbaş - sərkərdələr, vəkillər, vəzirlər, darğalar, yasavullar, qorçular, çərxçilər, ox-kaman alayı, topçular bölüyü bir avazla, eyni coşqunluq, eyni ahənglə təkrar edirdi:

Heydərü Səfdərdi bizim pirimiz,

Qırxınıza taydı bizim birimiz!

Bu inam, bu etiqad, bu həvəs, bu eşq idi onları qələbədən-qələbəyə aparan. İndi, bu xəstə çağında bütün bunlar keçmişdə qalmışdı, yaşanmış günlərin əks-sədasıydı. Bu anlarda şah payız vaxtı ağacın budağında qalmış sonuncu yarpağa bənzəyirdi, bir meh bəs idi ki, budağından qopub düşsün. Acı-acı düşündü ki, dünənə qədər onu görəndə «Şah, Allah! Şah, Allah!» deyə bağırışanlar sabah da bu sözləri

başqası üçün deyəcəklər. Hətta sənin sevdiklərin, səni sevənlər də canlarını qorumaq üçün onlara qoşulacaqlar: «Şah, Allah! Şah, Allah!».

Bu mənzərəni təsəvvür eləmək belə, ağır idi. Doğrudanmı, şah taxtdan düşəndən sonra bir əkinçi qədər də hörməti olmur?! At belində, qışın şaxtasında, yayın istisində düşmənlə, üzüdönük nanəciblərlə vuruşmalarda keçən bir ömrün sonu beləmi olur?! Nə ağrılı sonluq… Nə böyük dəhşətdi unudulmaq… Nə böyük fəlakət olar sabah haqqını dansalar, səni bir heç sansalar… Kaş ayaqyalın, başıaçıq, çaylarda balıq tutduğu günlər olaydı. Balıq tutmağı çox sevərdi. Axar suda ömür sürdüyünə görə… İnsan ömrü də elə balıq kimidi, nə vaxtsa əlindən sürüşüb düşür yerə. Çabalayır, çabalayır, sonra canını tapşırır… Hə, belə-belə işlər, Şah Təhmasib, istər əkinçi ol, istər şah, çalış, ölmə, öldünsə, hər şey sənin üçün qurtardı. Çalış, ölmə… Çalış ölmə…

Ancaq bu cür fikirləşsə də, əcəlinin çatdığını heç ağlına da gətirmirdi. Heç kəs də cəsarət edib deyə bilmirdi ki, qibleyi-aləm, vəsiyyətini elə, vəsiyyət yüngüllükdü. Yox, şahın vəsiyyət etmək heç ağlına da gəlmirdi. Amma Heydər mirzə hamıdan çox bu vəsiyyəti şahın öz dilindən, bax bu Şahnişin* evvanında, qardaş-bacılarının, anasının, analıqlarının, eşikağası İbrahim mirzənin, həkimin yanında eşitmək istəyirdi. Çünki fürsət idi, hamı burdaydı. Onu hamıdan artıq şah görmək istəyən anası, onu görməyə gözü olan və olmayan analıqları, bacıları, qardaşları, əmisi oğlu İbrahim mirzə, həkim Əbu Nəsir. Hamısının da üz-gözündən kədər yağırdı.

Sultanım bəyim göz yaşlarını yaylığının ucuyla qurulayıb əlini şahın geniş alnına qoydu, hərarəti çox idi. Şah bu təmasdan diksinən kimi oldu, göz qapaqlarını güclə qaldırıb başı üstə dayanmış Sultanım bəyimə baxdı. «Sən də qocalarmışsan, Sultanım! Görəsən, həyat niyə belə amansızdı, Sultanım? Tanrı bizə verdiklərini bir-bir geri alır, Sultanım. Kaş o günlər, gərdək dalında məni gözlədiyin o aylı gecə olaydı, Sultanım! Ürəyimdə sənə deyiləsi nə qədər xoş sözlərim var, Sultanım. Heç vaxt sənə söyləmədiyim, həmişə ürəyimdə gəzdirdiyim sözlər…»

Sultanım da ürəyində danışırdı. Deyirdi ki, əcəl nə tez qapının ağzını kəsdirdi, hökmdar?! Qəlbimin sultanı, məni yalqız qoyub hara gedirsən? Sənsiz bu məmləkətin halı necə olacaq, hökmdar?! Qəhqəhə qalasına saldırdığın tifilimizin başına nələr gələcək, görəsən? Onun üzünü bir də görmək, qolumu boynuna dolamaq mənə qismət olacaqmı?! Bu dərd məni odsuz-ocaqsız yandıracaq, hökmdar.

Ürəyinin səsini hökmdar eşitmədiyi üçün sualları cavabsız qalmış Sultanım bəyim titrək səslə soruşdu:

- İndi halın necədi, hökmdar?

- Yaxşıyam, - qəsdən belə deyirdi, əslində, isə halı yaxşı deyildi. - Qorxmayın, sağalıb qalxacam ayağa.

- Allah qoysa, hökmdar. Səndə nə var ki, tezliklə sağalıb ayaca duracaqsan.

Şah köksünü ötürdü:

- Taleyimiz böyük Yaradanımızın əlindədi, o nə buyursa, o da olacaqdır. Füzuli yaxşı deyib:

Tövqi-zənciri-cünun daireyi-dövlətdir,

Nə rəva kim, məni ondan çıxara zəfi-tənim.

Şair doğru buyurubmu, İbrahim mirzə?

- Əlbəttə, əmi,- İbrahim mirzə əyilib şahın əlini öpdü: - Siz hər zaman Allah adamı olmusunuz, Yaradanımız sizi qoruyar, hökmdar.

- Yaxşısını Allah bilir, qaçan da Allahı çağırır, qovan da.

Araya ağır sükut çökdü. Xəstənin bu ağır halında, ölümlə çarpışdığı bir məqamda ona təsəlli vermək çox çətin idi. «Hökmdar, bilirsənmi, ömrünün son gecəsidi. Bu gecə ömrün tükənir. Özünə vəliəhd seçməmisən. Səbəbini özün yaxşı bilirsən. Səndən sonra nələr olacaq, bir Allah bilir», - deməyə kimsə ürək eləmirdi. Daha doğrusu, şahı son nəfəsdə incitməyə qıymırdılar.

- Bu gecə sarayın keşiyini kimlər çəkir? - gözlənilmədən şah onlardan soruşdu.

Heydər mirzə dərhal cavab verdi:

- Rumlular, əfşarlar, qacarlar, bayatlar, bir də varsaq tayfalarından olan qorçular. - «Yəqin sui-qəsd olacağından ehtiyatlanır».

- Rəisləri kimdi?

- Hərəmxana yüzbaşısı Vəli bəy Əfşar. - «Üzünü mürdəşir yusun. Alçağın biridi. Üzümə gülür, amma arxada ayağımın altını qazıyır».

- Sabah kimin növbəsidi?

- Hüseyn bəy Yüzbaşının rəisliyi ilə ustaclı, gürcü qorçularının. «Hüseyn bəy etibarlı kişidi. Ümidim ancaq onadı… Şah görən bu sorğu-sualı nə məqsədlə eləyir? Son nəfəsində də hakimiyyəti əlindən vermək istəmir. Bircə Allah ürəyinə rəhm salaydı, vəsiyyətnamə yazaydı… »

- Özümü yaxşı hiss edirəm. Gedin dincəlin, səhərə az qalıb. Heydər mirzəylə həkim Əbu Nəsir mənim yanımda, Şahnişində qalsınlar. Birdən onlara ehtiyacım olar.

Sultanım bəyim ərini tək qoymaq istəmirdi. Pərixan bəyim Heydər mirzənin şahın yanında qalmağından əməlli-başlı dilxor olmuşdu. Ehtiyat edirdi ki, birdən şah vəsiyyətnamə yazıb Heydər mirzəni özünün vəliəhdi seçər. Nə desən olardı. Hər kəs qəlbindəki niyyətinə görə şahdan ayrılmaq istəmirdi. Şah isə belə ağır çağında da onların qayğısına qalırdı. Onların əzab çəkməsinə, yuxusuz qalmalarına qıymırdı. Şahzadələrin, qızlarının nə yaşları vardı ki… Bütün atalar kimi, onun da nəzərində övladları hələ uşaq idilər.

Şahın bir sözünü iki eləmək olmazdı. Hamı otaqdan çıxdı. Sultanım bəyim Əbu Nasirə yanaşdı:

- Həkim, ağlın nə kəsir?!

- Ümid ancaq Allaha qalıb, Sultanım bəyim.

Gövhər bəyim İbrahim mirzənin qolundan yapışıb hönkürdü. Pərixan bəyim yaxın gəlib bacısını qucaqladı. Şahzadələr yerlərində donub qalmışdılar.

İbrahim mirzə dedi:

- Gecdir, gəlin gedək. Bir şey olsa, Heydər mirzə bizi xəbərdar edər.

Bu sözdən sonra Heydər mirzə ilə həkim Əbu Nasirdən başqa hamı öz otağına çəkildi.

XVIII FƏSİL

BİR GÜNÜN ŞAHI

Ölüm var ki, həyat qədər dəyərli,

Həyat var ki, ölümdən də zəhərli.

G ecə keçirdi. Kimsənin gözünə yuxu getmirdi. Gürcü qızı kənizlərdən birini Heydər mirzənin yanına göndərdi ki, ona sözü var. Heydər mirzə anasının yanına gəldi. Qadın həyəcanlıydı.

- Eşidirəm, ana.

Qadın oğlunun əlindən tutdu:

- Nəbadə saraydan kənara çıxasan. O qədər bizi istəməyənlər var ki… Atanın halı getdikcə pisləşir, axır saatlarını yaşayır.

- Allah bilən məsləhətdi.

- Bəli, oğlum, taleyimiz Tanrının əlindədi. Amma biz də ayıq olmalıyıq. Sən atanın varisisən. Atanın səndən böyük oğlanlarının biri Heratda, digəri zindandadır. Padşahımız dünyasını dəyişəndə taxt-tac sənə çatır.

- Ana, sən elə danışırsan ki… «Elə bil atam artıq ölüb».

- «Bəli, sənin xəbərin yoxdu, oğlum, atan artıq ölüb». Gec-tez hamımız öləcəyik. Atan son nəfəsini alıb həyatdan köçərkən vaxt itirmə, tacını başına qoy, qılıncını belinə bağla, möhür üzüyünü barmağına tax, sonra Çehelsütun eyvanına qalx, hökmdarlıq xalçası üzərinə çıxıb cülus et.

- Ana…

- Nə deyirəm, ona qulas as. İşdi, sənin cülusuna qarşı çıxıb qiyam qaldıranlar olarsa, xəzinənin, cəbbəxananın açarları səndədi. On dörd ildi atan qorçuların məvacibini verməyib, aç xəzinəni, qorçuları, yüzbaşıları, mühafizəçiləri ələ al. Al bunu, atanın adından kənizlərdən birisinə vəsiyyətnamə yazdırmışam. Atanın barmağından möhür üzüyünü çıxaranda möhürlərsən. Bax, unutma dediklərimi.

- Sonra bu yalan ortaya çıxsa…

- Sən şah olandan sonra çox yalanlar həqiqət olacaq. Durma, tərpən. Atan dünyasını dəyişən kimi Pərixan bəyimi otaq dustağı elə. Sənin eşikdə olan tərəfdarların gəlib çıxmayana qədər Pərixan dişarı çıxmamalıdır. Eşitdinmi? «Sən hakimiyyətə gəlsən, gürcülər də ağ günə çıxar. Axı sən mənim döşümdən süd əmmisən».

- Eşitdim, ana. «Səni mən heç belə bilməzdim. Elə bilirdim ki, mütinin, fağırın birisən».

- Haydı, get atanın yanına. Allah sənə yar olsun.

Heydər mirzə atasının yanına tələsdi. Şahın nəfəsi artıq boğazındaydı, xırıldayırdı. Həkim mütəkkəyə söykənib yuxuya getmişdi.

Can verən adamın yanında oturub onun ölüm anını müşahidə etmək Heydər mirzə üçün çox ağır idi. Amma başqa yolu yox idi, taxt-tac sahibi olmaq istəyirsənsə, zəhmət çək döz!

Anasının yazdırdığı vəsiyyətnaməni ürəyində oxudu. Anasının diqtəsi ilə yazılmış bu vəsiyyətnaməyə görə, o, Səfəvilər xanədanının vəliəhdi idi. Şahlıq sözsüz ona çatırdı.

Şamdandakı şamlar əriyib tükənmişdi. Son şölələri titrəşirdi. Artıq səhər açılırdı. Boz sərçələr ağacların budaqlarına doluşub civildəşirdilər. Hardasa axan suyun şırıltısı gəlirdi.

Heydər mirzə yaxınlaşıb Əbu Nasiri oyatdı:

- Bax gör hökmdarın vəziyyəti necədi?

Əbu Nasir xəstəyə yaxınlaşıb nəbzini tutdu:

- Son nəfəsidi… «Heydər mirzə deyəsən tələsir».

- «Bu da şah atamın sonu». - Durub geniş eyvana çıxdı. Şərqdə üfüq qızarmağa başlamışdı. Tala-tala ağ buludlar açıq-çəhrayı rəng alırdı. Nəhayət, günəş üfüqdən boylandı.

Bir azdan hamı yuxudan oyanacaqdı. Bircə qaravul vaxtı çatsaydı, tərəfdarları saraya toplaşardı. Səhərin təmiz havasını ciyərlərinə çəkib gərnəşdi. Əlləri ilə qabarıq sinəsinə döyəcləyib xəstənin yanına qayıtdı. O içəri girəndə şah bərkdən ufuldadı: «Vay canım».

Heydər mirzə əlini xəstənin alnına qoydu.

- Ata…

- Hava nə soyuqdu… İndicə atamı yuxuda gördüm. Məni aparmağa gəlib. Deyir, darıxıram sənin üçün. Vay canım…

Həkimlə Heydər mirzənin baxışları toqquşdu.

Şah dərindən bir ah çəkdi. Bu onun son nəfəsiydi. Hər kəsin ömrünün sonunda çəkəcəyi ah. «Necə ah eyləməyim, ah, yanıbdır ciyərim».

Həkim tələsmədən cibindən balaca bir güzgü çıxarıb şahın dodaqlarına yaxınlaşdırdı. Sonra güzgüyə baxıb dedi:

- Allah rəhmət eləsin.

Heydər mirzə içini çəkdi. Dolmuşdu. Fəryad qoparmaq, ağlamaq istəyirdi, amma bacarmırdı. Daxilindəki bu ikilikdən baş açammadı. Şah olmaq hara, fəryad hara? Anasının verdiyi məsləhətlər yadına düşdü, tələsdi.

- Həkim, məni qınama.

- Səni nə üçün qınayıram, Heydər bəy?

Heydər mirzə cavab vermədi, əyilib atasının o uşaq olanda daim başına sığal çəkən əlini əllərinin içinə aldı, bu əl hələ də istiydi. Heydər mirzə atasının üstü tüklü əllərini dodaqlarına aparıb öpdü: «Bağışla, ata, məni bağışla, başqa yolum yoxdur».

Möhür üzüyü ustufca şahın barmağından çıxarıb öz barmağına taxdı və ayağa qalxdı. Vəsiyyətnamayə möhür basıb şahın qılıncını belinə bağladı, tacını başına qoydu.

Həkim Əbu Nəsir dizi üstə çöküb hələ hakimiyyət xalçası üstünə çıxıb cülus eləməmiş cavan şahın ətəyindən öpdü.

- Taxtında qayım-qədim olasan, hökmdar.

- Çox sağ ol. Saraydakılara xəbər elə. Qorçular, o Vəli bəy Əfşardı - nədi, hələ onlar şahın öldüyünü bilməsinlər.

Həkim Əbu Nəsir otaqdan çıxdı və çıxdığı ilə də sarayda aləm bir-birinə dəydi. Şahın arvadları, kənizləri, sarayda olan qızları qapqara geyimdə gəlib şahın meyitini «mühasirəyə» aldılar və hönkürə-hönkürə ağlamağa başladılar. Heydər mirzənin ikiyaşlı qızının heyrətdən gözləri böyümüşdü. Bir an özünə havadar axtardı və qəflətən atasını görüb yanına qaçdı. Qadınlar başına şahlıq tacını qoymuş Heydər mirzəni bu qiyafədə ilk dəfə idi görürdülər. Heydər mirzənin anasından başqa hamı birdən içini çəkdi: «Boy….». Göz yaşları yanaqlarda qurudu. Pərixan bəyimin qanı sifətinə vurdu və ancaq qadına yaraşan bir hərəkətlə çölə atıldı. Heydər mirzə dərhal onun ardınca çıxıb qarşısını kəsdi, heç bir söz demədən, bir göz qırpımında onu yaxınlıqdakı boş otağa salıb qapını qıfılladı.

Əlli üç il altı ay iyirmi altı gün Səfəvilər dövlətinin taxtında oturmuş I Şah Təhmasibin meyiti ortalıqda qalmışdı. Ətrafda baş verənlərdən xəbərsiz halda üzü qibləyə uzanmışdı. Üstünə ağ yelənli qara kəlağayı salınmışdı. «Şah, Allah! Şah, Allah!» sədaları daha eşidilmirdi.

Qadınların şaxsey-vaxseyi otaqdan dişarıya çıxaraq ətrafa yayılırdı. Şahın ölüm xəbərini heç olmasa bircə gün gizli saxlaya bilmədilər. Hökmdarın ölüm xəbəri qanadlanıb saraydan uçdu. Qara xəbər çatar-çatmaz tərəflər hərəkətə keçdilər. Bu işdə marağı olan hər kəs tələsirdi. Heydər mirzə tərəfdarları Hüseyn bəy Yüzbaşının, İsmayıl mirzənin heyranları Hüseynqulu Xüləfanın evinə toplaşdılar.

Şahzadə Heydər mirzə şahın vəsiyyətnaməsini çalmasının bir küncünə qoyub Çehelsütun eyvanına çıxdı. Ora toplaşan yüzbaşıların, qorçuların, saray xidmətçilərinin qarşısında çalmasının küncündən vəsiyyətnaməni çıxarıb təntənə ilə avazla oxudu. «Şah» vəsiyyətnamədə bütün şahzadələrin, əmirlərin, sufilərin Heydər mirzəyə itaət etmələrini əmr etmişdi. Beləcə, Heydər mirzə hökmdar xalçasının üstə çıxıb cülus etdi.

Çehelsütun eyvanına toplaşıb Heydər mirzənin hakimiyyət xalçasının üstünə çıxıb cülus etməsini seyr edənlərin içini şübhə əqrəbləri gəmirməkdə idi.

«Vəsiyyətnamə»ni özü yazdırıb, özü də möhürləyib».

«Sən bir buna bax, atasının meyiti ortalıqda qalıb, şahlıq tacını qoyub başına».

«Əşi, bizim üçün nə fərqi var. Cavan şahzadədi. Özü də mehriban oğlandı. Ondan ədalətli şah olar».

«O şah olsa, gürcülər sarayda at oynadacaq!»

Heydər mirzə ilk olaraq hərəmxana yüzbaşısı Vəli bəy Əfşarı yanına çağırtdırdı. Vəli bəy şahzadənin hüzuruna gəlib baş əydi. Heydər mirzə onu sınayıcı nəzərlərlə süzüb dedi:

- Vəli bəy, səni Kirmana hakim, həm də qoçubaşı təyin edəcəm. Get sarayı mühafizə edən qorçulara söylə ki, qapıları açıb, mənim mülazimlərimi içəri buraxsınlar.

Vəli bəy Əfşar baş əyib getdi. Az sonra qayıdıb Heydər mirzəyə dedi ki, qorçular qapını açmırlar.

- Niyə? Əmr elə, getsinlər.

- Əmrimi eşitmirlər.

- Bu nə cürətdi?

- Qorçular deyirlər ki, (əslində, özü deyirdi) padşahımız rəhmətə gedib, qızılbaş tayfaları da iki firqəyə bölünüblər. Biz heç bir firqəyə qoşulmuruq. Biz son nəfəsimizə qədər dövlətxananı, padşahın namusu olan hərəmxananı qoruyacağıq.

Qəzəbdən ağbəniz Heydər mirzənin sifəti bir az da ağardı. «Axı, siz kimsiniz? Haranın itisiniz?» demək istədi, amma bunu söyləmək indi ziyanına olacağını düşünüb sözünü dəyişdi:

- Vəli bəy, axı onlar kimdilər ki, səni eşitmirlər?

- Padşahın qorçularıdırlar, «hökmdar», mən atanız mərhum şahın sadiq qullarına zor göstərib hökm edə bilmərəm. Biz, hər iki tərəfin arasında birlik, barışıq yaranmayınca, heç kimin dövlətxanaya girib-çıxmasına icazə verməyəcəyik!

Gürcü qızı pərdə arxasından oğlu ilə hərəmxana yüzbaşısı Vəli bəy Əfşarın söhbətinə qulaq asırdı. Ürəyində qardaşı Əlixan bəy Gürcünün ünvanına söyüb-söylənirdi: «Hansı cəhənnəmdə itib qalmısan, Əlixan. Sən doğulan günə daş yağaydı, bəs hanı sənin adamların?»

Heydər mirzə qarşısında yalançı itaətkarlıqla dayanmış Vəli bəy Əfşarı gizli bir ikrahla süzməkdəydi. O, bütün çılpaqlığı ilə başa düşdü ki, bütün bu söhbətlərin arxasında çox məkrli bir oyun gizlənib. Fikirləşdi ki, sarayda qalmaqla - şahın tacını tez-tələsik başına qoyub, qılıncını belinə bağlasa da, əmri eşidilməyən köməksiz, arxasız adicə bir Allah bəndəsinə çevrilib. Əslində, özü də bilmədən - işin sonunu düşünmədən saray adlı «qəfəsə» girmişdi. Başa düşdü ki, yalnız başa tac, belə qılınc bağlamaqla hakimiyyətə sahib olmaq olmaz, necə ki, olmamışdı. Vəli bəy Əfşarla söhbətdən anladı ki, hökmü keçmir… Tərəfdarlarından da bir xəbər yoxdu. Onların bayırda nə iş gördüklərindən, nə kimi tədbir tökdüklərindən tam xəbərsiz idi. Ona görə də qəfəsə salınmış şir kimi çırpınırdı. Sonuncu dəfə qarşısında durmuş Vəli bəy Əfşara əmr etdi:

- Gedin qorçulara deyin, qapıları açsınlar!

- Hökmdar, qapılar açılmayacaq!

Heydər mirzə qılıncını siyirdi! Vəli by Əfşar bu an siyrilmiş qılıncın bir zərbəsi ilə başının tağından qopub şahzadənin ayaqları altına necə dığırlandığını «gördü». Çünki ömrü boyu şahı eşitməyənin kəlləsini qoparmışdılar. Amma belə olmadı, Heydər mirzə qılıncını öz qarnına soxmaq istədi.

- Bir halda ki sözüm keçmir, ölsəm yaxşıdı!

- Dayan! - Anası pərdə arxasından çıxıb oğlunun ayaqlarını qucaqladı. - Özünə qıyma, oğlum, səbr elə.

- Şərəfsiz yaşamaqdansa, ölmək yaxşıdı.

- Sən heç bir şərəfsiz iş tutmamısan, Heydər. Amma heyif ki, şərəfsizlərin əhatəsindəsən.

Bu sözləri eşidən Vəli bəy Əfşar onları tərk edib qorçuların yanına getdi.

* * *

Heydər mirzənin tərəfdarları arasında da tələş yaşanırdı. Hüseyn bəy Yüzbaşı hamıdan çox narahat idi. O, üzünü şahzadə Mustafa mirzəyə (Şah sağalandan bir müddət sonra onu Mustafa mirzənin lələsi seçmişdi), Məsum bəy Səfəvinin oğlu Sədrəddin xana, Heydər mirzənin dayısı Əlixan bəy Gürcüyə, Allahqulu sultan Aycəkoğluna, eşikağası, şahın kürəkəni İbrahim mirzəyə, Seyid bəy Kəmunəyə tutub dedi:

- Biz tələsməliyik.

Sədrəddin xan qapqara saqqalına sığal çəkib:

- Hüseyn bəy, məsəldi, deyərlər, tələsən təndirə düşər. Gəlin səbr eləyək. Bu gecə keşik növbəsi ustaclılarındır. Axşamı gözləyək.

Allahqulu sultan Aycəkoğlu:

- Axşamı gözləmək olmaz! Bir də ki, bizim yaraq qurşayaraq şahın dövlətxanası üzərinə getməyimiz sufilikdən, mərhum padşahımıza sədaqətdən uzaqdı.

İbrahim mirzə soruşdu:

- Bəs təklifin nədi?

- Təklifim budur ki, nə qədər ki, Hüseynqulu Xüləfanın bütün tərəfdarları başına toplaşmayıb, onun üstünə gedək, ətrafında olanları oradan perik salaq. Biz onları yerlərində oturtsaq, dövlətxananın qapıları üzümüzə açılacaq.

Yoldaşları Aycəkoğlunun bu təklifi ilə razılaşmadılar. Aycəkoğlunun dediyi kimi olsaydı… Şeytana papış tikən, ağıllı, hiyləgər Hüseynqulu Xüləfanın də ən çox qorxduğu, ehtiyat elədiyi elə bu qəfil «hücum» məsələsiydi. Elə bil Aycəkoğlunun, ondan çox-çox uzaq məsafədə yaşayan Hüseyn bəy Yüzbaşının evində indicə söylədiklərini kasası tüklü qulaqlarıyla eşitmişdi. Ovunun üstünə atılmağa hazır olan pələng kimi yerindən sıçradı. Heydər mirzə tərəfdarları yekun bir qərara gəlməmiş Hüseyn bəy Yüzbaşının evinə elçi göndərdi. Elçi söylədi ki, Hüseynqulu Xüləfa belə məsləhət bilir ki, ikitirəlikdən əl çəkək, əvvəlcə əynimizə qəm libasını geyinək, şahımızın mübarək cəsədini yuyub kəfənə tutaq, hökmdarın yas mərasimini verək, sonra oturaq məsləhətləşək. Gəlin bu işə dinimizin və səltənətimizin mənafeyindən yanaşaq. Dinin və dövlətin mühafizəsini bu iki şahzadədən - Heydər mirzə ilə İsmayıl mirzədən hansı yaxşı qoruyarsa, hansı layiqdirsə, onu da özümüzə şah seçərik.

Elçini Hüseynqulu Xüləfanın yanına bir «torba» həqarət dolu sözlərlə yola saldılar. Hüseynqulu Xüləfa təklifinin qəbul edilməyəcəyini əvvəlcədən bilirdi. Sadəcə, bu cür tədbirlərlə vaxt qazanmaq istəyirdi. O, elçisini təlimatlandırıb Hüseyn bəy Yüzbaşının evinə göndərəndə, onun tapşırığı ilə başqa bir atlı da qan-tər içində özünü şəhərə çatdırıb gur səslə deyirdi:

- Ay camaat, gözünüz aydın olsun, İsmayıl mirzə Qəhqəhə qalasından çıxıb, yəqin axşam paytaxta çatacaq.

Bu xəbərdən sonra böyük bir kütlə Hüseynqulu Xüləfanın evinə doğru axışdı. Bir saatdan sonra onun evinin qarşısında böyük bir qələbəlik vardı.

XIX FƏSİL

PƏRİXAN BƏYİMİN HİYLƏSİ

Cinayətdən sonra tövbənin xeyri yoxdur.

Sədi Şirazi

P ərixan bəyim qapısı bağlı otaqda tək-tənha oturub sarayda atasının ölməyi ilə bir gecənin içində baş vermiş bu olaylardan xəbərsiz, Qəhqəhə qalasında öz məhbus həyatını yaşayan İsmayıl mirzəni düşünürdü. Fikirləşirdi ki, Heydər mirzə çox yox,

tək bircə gün şahlıq taxtını əlində saxlaya bilsə, İsmayıl mirzənin Qəhqəhə qalasından çıxmağı qaldı qiyamətə. O isə, nəyin bahasına olursa-olsun qiyamət gününü gözləmək istəmirdi.

Pərixan bəyim şah taxtına ancaq İsmayıl mirzəni layiq bilirdi. Qəlbinin lap dərinliyində osmanlılarla müharibədə igidliklər göstərmiş İsmayıl mirzəyə xüsusi rəğbəti, vurğunluğu vardı. Onu hər cəhətdən bütün şahzadələrdən üstün tuturdu. Hər yoldan ötən, şah oğlu olsa belə, şahlığa layiq ola bilməz, - deyirdi. İsmayıl mirzə onun nəzərində misilsiz bir qəhrəmandı. Onun belə düşünməyə əsası və haqqı da vardı. Axı, bu İsmayıl mirzə on dörd yaşından əlində qılınc, hərb meydanına atılmışdı. Hələ onda Pərixan bəyim anasının bətnində idi. O, bu dünyaya bir il sonra (1548) gələcəkdi. Sonralar biləcəkdi ki, atası Şah Təhmasib ona xəyanət eləmiş qardaşı Əlqas mirzənin yerinə on dörd yaşlı İsmayıl mirzəni Şirvanın hakimi təyin etmişdi. Qacar tayfasından olan Göyçə sultan da onun lələsiydi və İsmayıl mirzənin bir sərkərdə, dövlət adamı kimi yetişməsində çox əmək sərf eləmişdi. İsmayıl mirzə şücaətdə, fərasətdə babası Şah İsmayıla çəkmişdi. O da on dörd yaşında olanda Şirvanşahlar sülaləsindən olan Burhanla vuruşub ona qalib gəlmişdi. Daha sonra İsmayıl mirzə I Sultan Süleymanın ordusu ilə vuruşmada özünü qəhrəman sərkərdə kimi tanıtmışdı. İsmayıl mirzə Qarsı üç gün mühasirədə saxlayıb, Osman Çələbinin qoşununa qalib gəlmişdi. Əmisi Bəhmən mirzəylə çiyin-çiyinə Bayburt ərazisində osmanlılarla döyüşmüşdü. O, 1552-ci ildə qızılbaşları Ərzurumun Osmanlı hakimi, özündənrazı, lovğa İsgəndər paşanın üzərinə yeridib, sonra qəsdən geri çəkilmiş, bu yolla rəqibini qalasından kənara çıxmağa həvəsləndirmişdi. Beləcə, İsmayıl mirzə İsgəndər paşanın qaladan çıxmış qoşunlarını mühasirəyə alıb darmadağın etmişdi. İsmayıl mirzə bu döyüşdə İsgəndər paşanın qardaşı Ramazan bəyi, Sultan Süleymanın qullarından Məhəmməd qullarağasını, Mərəş, Malatay, Trabzon hakimlərini, Rasin və kürd əmirlərini, sancaq* bəylərini əsir almışdı. Osmanlılar bu gəncin sürətli və cəsarətli həmlələrindən özlərini itirmişdilər. Onun qəhrəmanlığını, şücaətini «Dəli İsmayıl» ayaması ilə etiraf etmişdilər.

El arasında İsmayıl mirzə haqqında rəvayətlər dolaşırdı. Onun adı gələndə qızılbaşlar ordusunda canlanma yaranırdı, adı ilə öyünürdülər. Söyləyirdilər ki, bir axşam altı yüz yeniçər İsmayıl mirzənin qərargahına gələrək onun tərəfinə keçdiklərini söyləyirlər. Elə ki onların başçıları İsmayıl mirzənin çadırına girir, gözlənilmədən qılınclarını siyirib şahzadənin üstünə atılırlar. İsmayıl mirzə bu qəfil həmlənin qarşısını qılıncının və qolunun gücü ilə alır. Xəyanət niyyətilə gəlmiş yeniçərlər qılıncdan keçirilir.

Bax, belə bir qəhrəman şah atanın qəzəbinə gəlmişdi. Nə idi bu qəzəbin səbəbi? İsmayıl mirzə nə günah işlətmişdi? Pərixan bəyim günlərlə bu barədə düşünmüşdü, işin içində olan əyanlardan soruşub öyrənmişdi. Qələbə eşqi ilə alovlanan İsmayıl mirzə Osmanlılarla Səfəvilər arasında bağlanmış Amasya sülh (29 may 1555-ci il) sazişinin şərtlərini heç cür qəbul edə bilmirdi. Bu sülhün şərtlərinə görə, Səfəvi dövləti Qərbi Gürcüstan vilayətini, Bağdadı itirmişdi.

Şah İsmayı mirzəni qardaşı Məhəmmədin yerinə Herata hakim göndərmişdi. Bu uzun yolda onu Əli sultan Təkəli müşayiət edirdi. Şah Təhmasib Əli sultana gizlində məktub verib tapşırmışdı ki, onu Məhəmməd mirzənin lələsi, Heratın əmir-əl-ümərası Məhəmməd xan Təkəliyə çatdırsın. Məktubda göstərilmişdi ki, İsmayıl mirzə hər bir işdə ancaq və ancaq əmirin razılığı ilə hərəkət edə bilər.

Əli sultan şahın əmrinə əməl etməmiş, məktubun məzmunu ilə İsmayıl mirzəni elə yoldaca tanış eləmişdi. Əli sultan Herata çatanda Məhəmməd xan Təkəliyə belə söyləmişdi: «Şah əmr edib ki, siz hər bir işdə şahzadəyə tabesiniz, nə buyursa, o da olmalıdır».

İsmayıl mirzə Məhəmməd xan Təkəlini dövlət işlərindən uzaqlaşdırdı və şahın razılığını almadan vilayətlərin hakimlərinə məktub yazıb, onlardan dərhal qoşun toplamağı, Amasya sülh sazişini pozub, Osmanlı vilayətlərinə yürüşə başlamağı tələb etdi.

Məhəmməd xan Təkəli görüb-eşitdiklərini, İsmayıl mirzənin əməllərini bircə-bircə yazıb şaha göndərdi. Qəzvində həmin gecə şahın gözünə yuxu getmədi. Çünki bu məsələdə şəxsi-qərəzlik yoxdu, şahzadənin vilayət hakimlərinə göndərdiyi məktublar onun əlindəydi. Bu məktublar açıqca şah atanın iradəsi əleyhinə idi. Şah səhər tezdən qorçubaşı Sevindik bəy Əfşarı Herata göndərdi ki, İsmayıl mirzəni vəzifəsindən kənar etsin.

İsmayıl mirzə beləcə Heratın hakimliyindən uzaqlaşdırılıb Qəhqəhə qalasına atıldı, Əli sultan isə, bu yolda canından keçdi.

Pərixan bəyim heç kəsə deməsə də, atasının İsmayıl mirzəni Qəhqəhə qalasına saldırmaqda həm də şahzadədən ehtiyat etdiyini düşünürdü: «Deməli, atam həm də İsmayıl mirzənin hakimiyyət ehtirasından qorxub. Görəsən, zindan həyatı onu dəyişməyib ki? Mənim onun barəsində yazdığım «Zendaniyi-qəleye-Qəhqəhe» mənzuməmdən xəbəri varmı? Yox, nə yolla olur-olsun, İsmayıl mirzəni zindandan xilas etməliyik! Yaxşı, çox yaxşı, bəs nə yolla?»

Bu yerdə atasının dövlət müşavirələrindən birində təsadüflərin insan həyatında gözlənilməz dəyişikliklər etdiyi barədə söylədiyi əhvalat yadına düşdü. Bir

padşahın imarətinin qabağında bir nalbənd yaşayırmış. Onun əxlaqlı, gözəl bir arvadı varmış. Amma bu qadının baş-gözü açıq olarmış. Bir dəfə padşah onu görəndə soruşur ki, bu qadın kimdi? Deyirlər, nalbəndin arvadıdı. Padşah deyir:

- Ə, nalbənd qələt eləyir. Bu saat gedin ona deyin, arvadı boşasın, onu alıram.

Vəzirlərdən biri yalvarır:

- Padşah sağ olsun, bizi xalqın içində biabır eləməyin. Belə iş görməyin, o, nalbəndin kəbinli arvadıdı.

O biri vəzir isə deyir:

- Padşah sağ olsun, o qadını mən sənə alaram.

Gəlir nalbəndin yanına, deyir:

- Ölkə hakiminin qəlbinə toxunmaq olmaz. Arvadını boşa, padşah alsın.

Nalbənd deyir:

- A kişi, sən nə danışırsan, mən heç vaxt arvadımı boşamaram.

Arvad da öz növbəsində deyir ki, mən heç zaman padşaha ərə getmərəm.

Qansız, insafsız vəzirin biri padşaha məsləhət verir:

- Qibleyi-aləm sağ olsun, gündə əlli adamın boynunu vurdurursan. Nalbəndə əmr elə ki, sabaha qədər bu qədər at üçün nal kəs, səhər müharibəyə gedirik. Əgər səhər tezdən nallar hazır olmasa, boynunu vurduracam.

Padşah razılaşır.

Padşahın əmrini eşidən nalbənd arvadına deyir:

- Ayrılıq aşı bişir, mənə ölüm qərarı kəsildi.

Arvad deyir:

- A kişi, ruhdan düşmə, qalx ayağa, mən də kömək eləyim nalları kəsək.

Kişi deyir:

- Yox, bir belə nalı bir gecəyə kəsib qurtarmaq olmaz. Ümidim tək olan Allahadır. Heç bir çəkic də vurmayacağam.

Səhərə yaxın qapı döyülür. Arvad deyir ki, əşi, səni çağırırlar. Nalbənd deyir:

- Arvad, sənə yaxşı olmuşam, pis olmuşam, halal elə.

Qadın deyir:

- A kişi, zəhər içərəm, kimsəyə təslim olmaram. Dünyadan imansız getmə.

Nalbənd durub qapını açır, dörd nəfər sadə adam girir içəri. Onlardan biri nalbəndə deyir:

- Qardaş, nal lazım olmadı. Bu gecə padşah ölüb. Onun tabutu üçün beş-altı mismar düzəlt ver, aparaq.

Onun üçun deyir ey:

Ey mıxı mismar eyləyən kişi,

Ey sayılı borcdan qurtaran kişi.

… Qapı açıldı. Qabaqda anası, ardınca gürcü qızı, sonra Heydər mirzə içəri girdi. Anası boynunu qucaqladı:

- Qızım, özünü şərdən-böhtandan qoru. Sənin üçün kimin şah olmasının nə fərqi?

Pərixan bəyim nə düşündüsə:

- Doğru buyurursan, ana, - dedi, - mən ağılsızlıq etmişəm.

O, bir anda şahlıq tacını başında gəzdirən Heydər mirzəyə tərəf atılıb onun ayaqlarını öpdü. Sonra Heydər mirzənin anasına tərəf dönərək: - Şahid ol, bəyim, əlahəzrəti taxta çıxdığına görə təbrik etmək və onun mübarək ayaqlarını öpməkdə heç kəs məni qabaqlamadı, - dedi.

Heydər mizə sarayda nüfuz sahibi olan qürurlu Pərixan bəyimdən bu «mütiliyi» qətiyyən gözləmirdi, ona görə də:

- Bacı, sənin sədaqətinə tamam inanmağım üçün «Quran»a and iç! - dedi.

Pərixan dərhal kitab dolabına doğru gedib əlinə ilk keçən kitabı götürüb qardaşının hüzurunda dayandı:

- Sənin şahlığını qəbul edir, sənə itaət edirəm. - Əlini kitabın üstünə qoydu: - Bu «Quran»a and içirəm, sənə heç zaman xəyanət etməyəcəyəm. -- Ürəyində isə başqa söz deyirdi: - «Sən Heydər mirzəni qəhrəman İsmayıl mirzənin haqqını tapdalamağa qoymayacağam». - İnandın, qardaş?!

- İnandım!

- Onda, icazə ver evimə gedim.

- Niyə gedirsən?

- Qardaşım şahzadə Süleymanı, dayım Şamxal sultanı muştuluqlamaq istəyirəm.

- Bacı axı onlar İsmayıl Mirzənin tərəfindədirlər.

- Mən sənə itaət etdim, inşallah, onlar da edərlər. İcazə ver, onları da saraya gətirim, sənin xidmətində dursunlar.

- Oldu, əziz bacım, gözləyirəm, get qardaşın Süleymanla, Şamxal dayını gətir mənim yanıma.

Pərixan bəyim baş əyib otaqdın çıxdı. Daha doğrusu, qanadlanıb uçdu. «Uduzdun, Heydər mirzə, uduzdun! Sənin şahlığın bitdi! Mən sənin ayaqlarından Qəhqəhə qalasında yatan qəhrəman İsmayıl mirzənin xətri üçün öpdüm».

Tələsirdi, çox tələsirdi, əsrə bərabər saatlardan qurtulmuşdu, indi hər şeyi dayısı Şamxal sultana çatdırmalıydı. O, tələsik hərəmxana bağından At meydanına aparan gizli qapını öz açarı ilə açaraq dayısının yanına qaçdı. Qaçarkən yaylığının sürüşərək çiyinlərinə düşdüyünü, bir cüt xurmayı hörüyünün kürəyində ilan kimi qıvrılıb açıldığını, sinəsini qabardan döşlərinin necə incə bir ahənglə silkələnməsinin fərqində deyildi. Onu ancaq illərlə xəyalında əzizlədiyi, igidliyi, şəxsiyyəti ilə öyündüyü, güvəndiyi İsmayıl mirzənin sağ-salamat zindandan çıxıb şahlıq taxtında oturması düşündürürdü. Hər gün ünsiyyətdə olduğu, əməlisaleh, rəhimdil, ədalətli, mehriban Heydər mirzə qətiyyən düşündürmürdü. Heç elə bil onu görmürdü. Xoşbəxtlik də belədi, bəzən o, bizə əl altında olacaq qədər yaxın olur, amma biz onu görmürük. Xoşbəxtliyimizi gedib çox-çox uzaqlarda axtarırıq.

Pərixan bəyim dayısı Şamxal sultan Çərkəzi tapıb hərəmxana bağçasının açarını ona verdi. Şamxal sultan hərəmxana bağçasının açarlarını əlində görəndə gözləri parıldadı. Pərixan bəyim dayısının gözlərindəki bu parıltıdan diksindi. O, Heydər mirzənin öldürülməsini istəmirdi, sadəcə, onu şahlıq taxtına layiq bilmirdi. Amma indi dayısının gözlərindəki o parıltıdan sümükləri eyməndi. Bir anlıq bilmədi neyləsin, dayısı Şamxal sultan bircə dəfə fit verdi, dərhal üç yüz çərkəz hazır oldu.

Şamxal sultan qabaqda, çərkəzlərdən ibarət qorçuları ardınca, hərəmxana bağçasına keçdilər.

Pərixan bəyim iki yol ayrıcında qaldı. Gedənlərin arxasınca xeyli baxandan sonra evinə döndü.

* * *

Günün axırıydı. Hüseyn bəy Yüzbaşı və tərəfdarları başa düşdülər ki, Hüseynqulu Xüləfa onları aldadıb. İsmayıl mirzədən bir xəbər yoxdu. Onun gəlməsi söhbəti boş bir xülyadı. Hüseyn bəy Yüzbaşı tərəfdarlarına dedi ki, gedək dövlətxananın keşiyini təhvil alaq. Hamısı atlandı, şahzadə Mustafa mirzə də onlarla idi. Yolda Allahqulu sultan Aycəkoğlu onun sözünü eşidib Hüseynqulu Xüləfanın üstünə getmədiklərini bəhanə gətirərək onlardan ayrıldı.

Hüseyn bəy Yüzbaşı başının dəstəsi ilə dövlət xəzinəsinin arxa tərəfindən keçən yolla irəliləyirdi. Çünki əsas yol tutulmuşdu. Xəzinənin keşikçiləri onları qarətə gələnlərə oxşadıb güllə-ox yağışına tutdular. Hüseyn bəy Yüzbaşı qışqıra-qışqıra dedi ki, bizim sizinlə heç bir şərikli malımız yoxdur. Keşik çəkməyə gedirik. Bəsdirin, saxlayın bu güllə-ox yağdırmağı…

Hüseyn bəy Yüzbaşının dəstəsi dövlətxanaya çatanda qapıları bağlı gördülər. Onlar tələşlə qapıları döysələr də, açan olmadı. Hüseyn bəy Yüzbaşı başa düşdü ki, gecikiblər. İçindən ağrı keçdi: «Gərək Aycəkoğlunu eşidəydik, bu qazdan ayıq Hüseynqulu Xüləfanı o dünyaya göndərsəydik, indi qapılar üzümüzə bağlanmazdı».

Onlar aramsız olaraq qapıları döyürdülər, sanki dövlətxanada ins-cins yoxdu, qapılar onların üzünə bəlkə də həmişəlik qapanmışdı.

Hüseyn bəy Yüzbaşı dostlarına söylədi ki, biz çox ləngimişik, qorxuram Hüseynqulu Xüləfa tərəfdarlarını xiyaban yolu ilə aparıb At meydanından hərəmxana bağçasına keçirsin. Yəqin ondan ötrü heç bir müqəddəs dəyər qalmayıb.

Hüseyn bəy Yüzbaşı yanılmamışdı. Doğrudan da, Hüseynqulu Xüləfa tərəfdarlarını At meydanından hərəmxana bağçasına keçirərək Şamxal sultanın adamlarıyla birləşdirmişdi. Bu iki birləşmiş dəstənin yarısı bağçada qalmışdı, yarısı isə artıq hərəmxana dairəsinə adlamışdı. Lap öndə tosqun Hüseynqulu Xüləfa,

yanağından qan daman Şamxal sultan, onların ardınca Süleyman mirzə, Əli bəy Şamlı, Cəmşid bəy Çərkəz, Vəlixan bəy Rumlu irəliləyirdilər. Sanki böyük bir qoşunun üstə gedirdilər. Siyrilmiş qılınclar günəşin şəfəqləri altında bərq vururdu, ox-yayını çiyninə salanlar, əlitüfəngli olanlar da vardı. Elə bil ov dalınca gedirdilər. Bu «ovun» canlı insan olduğunu, dünənə qədər görəndə «Şah, Allah» deyə qarşısında ikiqat olduqları Şah Təhmasibin oğlu olduğunu, sanki, unutmuşdular. Başlarını soxmadıqları dəlmə-deşik yoxdu…

Heydər mirzə heç vaxt inanmazdı ki, şahın təbəələri nə zamansa hərəmxana otaqlarına soxula bilərlər. Amma yanılmışdı, sağlığında şahın ayaqlarını öpənlər onun hərəmxanasında eşələmədikləri künc-bucaq qalmamışdı. Hamı Heydər mirzəni axtarırdı.

Xanımlar, kənizlər hürkmüş göyərçinlər kimi otaqdan-otağa qaçırdılar. Xanımlar Heydər mirzəni qana susamış bu kütlənin qabağına çıxmağa qoymurdular. Onlar çox gözəl bilirdilər ki, bu həngamə ancaq Heydər mirzəyə görədir. Hiyləgərlərin fitnəsiylə ortaya atılan adamların başlarında ağıl deyilən şey qalmamışdı, onlar Heydər mirzənin «qətlinə fərman» vermişdilər. Guya Heydər mirzə ölən kimi hər şey düzələcəkdi. Axı, Şah Təhmasibin üçüncü oğlu Heydər mirzə niyə, nə üçün, kimə və nəyə görə ölməli idi, heç kəs bu sualı özünə vermirdi.

Dövlətxanada aləm bir-birinə qarışmışdı. Hüseyn bəy Yüzbaşının dəstəsi hələ də içəri keçə bilməmişdi. Ancaq Zal bəylə Əlixan bəy Gürcü bir neçə silahdaşlarıyla hərəmxana bağçasına adlaya bilmişdilər.

* * *

… Dayısı Şamxal sultanın yanına qaçan, hərəmxana bağçasının açarını ona verən Pərixan bəyim evdə qərar tuta bilmədi. Ona elə gəldi ki, dövlətxanada boynu vurulmuş zavallı Heydər mirzənin qanı hərəmxana bağçasından At meydanına, oradan da onun evinə axır. Axan bu qan kəsmək bilmirdi. Pərixan bəyim, doğrudan da, qana batmış kimi zərif ayaqlarına baxdı və qorxmuş halda özünü çölə atdı. O, indi də dövlətxanaya tərəf qaçırdı. Qaçırdı ki, baş verəcək fəlakətin qarşısını alsın. Dayısının gözlərindəki o parıltının, alışıb - yanan intiqam odunun üstünə su səpməliydi. Pərixan bəyim demirdi ki, Heydər mirzə şah olsun, yox, qətiyyən, ancaq ona qıymasınlar, eybi yoxdur, lap tutub zindana atsınlar, amma öldürməsinlər.

Pərixan bəyim böyük bir məmləkətin şahzadəsi, sevilib-seçilən bir xanımı olduğunu unudub dövlətxanaya doğru qaçırdı.

… Heydər bəy ölümün artıq lap yaxınlıqda olduğunu hiss edirdi. Gənc idi, təcrübəsiz idi, birinci dəfəydi belə bir oyuna düşmüşdü, nə edəcəyini bilmirdi. Bu anda ona arxa duracaq beliqılınclı bir kişi də yoxdu, həkim Əbu Nəsir səs-küyü eşidən kimi harasa yox olmuşdu. Yazıq Heydər mirzə qadınların əhatəsində qalmışdı. Bu qadınlardan biri anası, beşi isə analığıydı. Ögey bacısı Gövhər bəyim də onlarlaydı. Yerdə qalanları kənizlər, qaravaşlar, xadimələr idi. Bu qadınların heç biri bu sarayın hərəmxanasına öz istəyi ilə gəlməmişdi. Gürcü qızı deyilən doğma anası gürcü əyanlarından birinin qızıydı. Anası atasının xanımı Sultanım bəyimin ilk günüsü idi. İnsafən Sultanım bəyim onun anasına qarşı kin bəsləməmişdi. Sultanımın sevmədiyi günülərindən biri Pərixan bəyimin anası idi. Heç xoşu gəlmirdi ondan. Bu qadın Dağıstan hakiminin qızıydı. Şahzadə Süleyman da bu qadından doğulmuşdu. Heydər mirzənin anasından başqa, şahın xanımlarından daha ikisi gürcü əsilliydi. Bunun səbəbi şahın bir neçə dəfə Gürcüstana yürüş etməsiylə bağlı idi. Yerdə qalan xanımlar, kənizlər, qaravaşlar şaha hədiyyə olunmuşdular. Onların getməyə başqa bir yerləri də yoxdu. Bütün ömürlərini saray hərəmxanasına bağlamışdılar. Bu qadınlar birinci dəfəydi ki, sarayda belə bir ixtişaşla qarşılaşmışdılar. Amansız insan seli onlara doğru gəlirdi. Gələn bu sel Heydər mirzəyə görəydi. Bu sel onu qadınların əlindən alıb aparacaqdı. Gürcü qızı son çarəyə əl atdı. Bir göz qırpımında oğlunu çadraya bükdü. Heydər mirzə özünə yaraşdırmadığı çadradan xilas olunmağa çalışdısa da, qadınlar ona mane oldular. Sultanım bəyim şəfqətlə dedi:

- Başqa yol yoxdu, şahzadə! Bu gözüqızmışların əlindən qurtarmağın ayrı çarəsi yoxdur!

- Bəs mənim şərəfim?!

Anası oğluna bozardı:

- Şahın meyitinin üstündən adlayıb onun oğlunu doğramağa hazır olan bu ikiayaqlı cəlladlar şərəfli, iyirmi iki yaşlı şahzadə qana susamış insan sürüsündən gizlənmək üçün başına çadra örtəndə şərəfsiz olur?!

Hirs-hikkəsindən şahzadənin gözlərində yaş parladı: «Allahım, bu şərəfsizliyi sən mənə yox, körpə qızıma bağışla».

Azğınlaşmış kütlə artıq eyvana soxulmuşdu. Qadınlar bir-birinə qısılıb qabaqda gedirdilər. Onlar bu selin qabağından qaçıb xilas olmaq istəyirdilər. Doğrudu, onlara toxunan yoxdu, amma Heydər mirzə aralarındaydı. Xanımlar şahzadəni

ölümün pəncəsindən xilas etmək istəyirdilər. Kütlənin qabağında gələn Hüseynqulu Xüləfa, Vəlixan bəy Rumlu, Şamxal sultan Çərkəz, onun qulamı Cəmşid bəy Çərkəz, şahzadə Süleyman, Əli bəy Şamlı ovunu itirmiş qartal kimi vurnuxurdular: «Hansı deşiyə girdi bu «şah qoduq?».

Birdən Əli bəy Şamlı qatarlaşıb gedən qadınlar arasında onların yerişilə uyuşmayan ayaqları sezdi:

- Budur bizim «şahımız», əyninə arvad paltarı geyinib qoşulub arvadlara. Ey Səfəvilər nəslinin adını batıran murdar, gəl bura! - deyib yerində donmuş Heydər mirzənin başından çadranı çəkib yerə atdı. Gürcü qızı oğlunu xilas etməyə atılanda Vəlixan bəy Rumlu onu geri itələdi. Heydər mirzə ona bozardı:

- Murdar, əlini çək!

Şahzadə Süleymanın qulamı Cəmşid bəy Çərkəz Vəlixan bəy Rumluya köməyə gəldi, Heydər mirzəni çəkib qadınlardan araladılar. Hər iki cəllad gözlərini Hüseynqulu Xüləfa ilə Şamxal sultana zillədi: «Ağalar nə buyurur?» Onlardan səs çıxmadı, amma hiyləgər baxışları ilə «vur boynunu» işarəsini verdilər. Gürcü qızı özündən getmişdi. Heydər mirzənin iki yaşlı qızı qorxusundan sarısını udmuşdu, anası onun gözlərini əli ilə örtmüşdü ki, atasının ölüm səhnəsini görməsin. Bu vaxt hər iki cəlladın qılıncı göydə parladı.

- Dayan! - Sultanım bəyim hayqırdı. Ancaq gec idi, Heydər mirzənin başı yerdəydi. Sultanım bəyim qadınlardan ayrılıb Şamxal sultanın qarşısında dayandı və var gücü ilə onun ətli sifətinə bir şapalaq vurdu:

- Şərəfsiz! Sən bu gün qəbrini öz əlinlə qazdın. - Sonra üzünü Hüseynqulu Xüləfaya tutdu: - Dövlətxananın xüləfasına bax. Gör kimlərin ümidinə qalmışıq. Qalx ayağa, hökmdar! Gör bunların murdar şərəfini! Gör sarayında nə qədər gödən yırtan canavar bəsləyirmişsən!

Bu hərəkəti heç kəs gözləmirdi. Yenicə içəri girən Pərixan bəyim eyvanın sütununa söykənib donmuşdu: «Heydər mirzə, biz sənin ölümünün baiskarıyıq. Allah bizi bağışlamayacaq!»

Zal bəyin səsi gəldi: «Heydər şah, hardasan?»

Kütlə yenidən coşdu. Vəlixan bəy Rumlu şahzadənin kəsilmiş başını yerdən qaldırıb Zal bəylə Əlixan bəy Gürcünün qarşısına atdı:

- Alın, bu da sizin şahınız!

Sütuna söykənmiş Pərixan bəyim kənara sıçradı. Ona elə gəldi ki, Heydər mirzənin kəsilmiş başı onun qucağına düşdü. «Bismillah!» deyib çökdü.

XX FƏSİL

QİYAMƏT GÜNÜ

Göstərən saətdə dövrani fələk bir inqilab,

Həm özü fani olur, həm ləşkəri, həm kişvəri.

Məhəmməd Füzuli

Şahzadə Heydər mirzənin cənazəsini götürüb atasının meyitinin yanına qoydular. Sarayda baş vermiş qanlı olaydan artıq bütün şəhər halı idi. Bayaqdan Hüseyn bəy Yüzbaşının dəstəsinin üzünə bağlanmış dövlətxana qapıları taybatay açıq idi. Hərəmxana yüzbaşısı Vəli bəy Əfşar heç bir şey olmamış kimi qaşlarını oynada-oynada qəlyanını tüstülədirdi. O, «Biz son nəfəsimizə qədər dövlətxananı, padşahın namusu olan hərəmxananı qoruyacağıq» əhdini ayaqlar altına atmışdı. Çox keçmədi əmirlər Cehelsütun eyvanına toplaşdılar. Hüseynqulu Xüləfa, Şamxal sultan Çərkəz, şahzadə Süleyman, Vəlixan bəy Rumlu, Cəmşid bəy Çərkəz oturub məşvərət eləyirdilər. Heydər mirzə tərəfdarlarından eşikağası İbrahim mirzə əmirlərin yanına gələndə hamı hörmətlə baş əydi. Az sonra Aycəkoğlu da gəlib əmirlərin yanında əyləşdi, ancaq ona əhəmiyyət verən olmadı.

Əmirlərdən çox adam gözə dəymirdi. Hər zaman əmirlər sırasında mötəbər mövqe tutan şahzadə Mustafa mirzə, onun lələsi Hüseyn bəy Yüzbaşı yoxdular bu yığnaqda. Bir-iki günün içində yollar haçalanmışdı. Əmirlər dövlətxanaya toplaşanda Hüseyn bəy Yüzbaşı bu münaqişədə uduzduğunu dərk elədi. Başına topladığı ustaclılar tayfasından yaralananlar, ondan ayrılıb evinə gedənlər vardı. Hüseyn bəy Yüzbaşı fürsət var ikən şahzadə Mustafa mirzəni və tərəfdarlarını götürüb gözdən-könüldən uzaq bir yerə çəkilmişdi.

Əmirlər heç nə olmamış kimi sakit halda oturmuşdular. Nə şahın, nə indicə qanını tökdükləri Heydər mirzənin dəfni barədə danışan yox idi. Təkcə İbrahim mirzənin ürəyindən qara qanlar axırdı. Ancaq bu kəmfürsət adamların yanında məcburən özünü onlara yaxın adam kimi aparırdı. Bilirdi ki, bir azdan fırtına qopacaq.

Doğrudan da, çox keçmədi şəhərdə əsl qiyamət günü başladı. İllərlə ürəklərə yığılmış kin-küdurət qəfil başlamış leysan yağışa bənzəyirdi. Göy guruldayır, şimşəklər çaxır, sel-su qarşısına çıxan hər nə varsa süpürüb aparırdı. Artıq bu selin qarşısını almaq mümkün deyildi. Hər kəs intiqam atına minib şəhərdə dördnala çapırdı. İnsanlar elə bil qana susamışdılar. Neştərləməyə, qarnını cırıb yerə tökməyə, boynunu vurmağa adam axtarırdılar. Cəza verənlərlə «günahkarlar» istənilən qədər idi. Əvvəl həkim Əbu Nəsiri axtardılar. Vəli xan Əfşar Hüseynqulu Xüləfaya, Şamxal sultana çuğulluq eləmişdi ki, həkim Əbu Nəsir gecə sarayda qalmışdı. Çox gözəl, bəs hanı bizim bu həkimimiz? Ora boylandılar, bura boylandılar, siçovul kimi bir deşikdən girib, o biri deşikdən çıxdılar. Nəhayət, onu şahın meyiti olan otaqda buxarının içində tapdılar. Rumlulardan iki pəzəvəng onun ayaqlarından yapışıb buxarıdan çıxartdı. Yazıq həkimin üst-başı, üz-gözü yaman gündəydi. Onu görən kimi Hüseynqulu Xüləfa ayağa qalxdı (o, artıq özünü qalib gəlmiş sərkərdə kimi aparırdı):

- Ə, vələdüzzina, bu gecə sarayda niyə qalmışdın?

- Mən sarayda şahın əmrilə qalmışdım.

Bəli, tökülən qanlara baiskar tapılmalıydı. Hüseynqulu Xüləfa da belə işlərin, yəni şər atıb , ev yıxmağın ustasıydı.

- Biz belə hesab edirik ki, sən nürənin tərkibinə zəhər qatmısan. Ona görə də şahın bədəni yara səpmişdi, - gözlərini bərəldə-bərəldə dedi:

- Mən heç vaxt belə bir iş tutmamışam. Allah özü şahiddir ki, heç bir günahım yoxdur.

- Bəs niyə gedib buxarıya girmisən, hə? Çünki xainsən! Xain xoflu olar!

- Bəs nə edəydim?! Şahın oğluna qıyanlar mənə qıymazdılarmı?

Vəlixan bəy Rumlu söhbətə qarışdı:

- Hüseynqulu Xüləfa, bununla söz güləşdirməyə vaxtımız yoxdur. Heydər mirzə buyurub, bu da şahı zəhərləyib.

- Yalandı! Böhtandı! - az qaldı Əbu Nəsirin gözləri yuvasından pırtlayıb yerə düşsün. - Adamın Allahı olar!

Vəlixan bəy qılıncını sıyırmağı ilə həkimin qarnına yortmağı bir oldu:

- Çərənləmə! Şahı sən zəhərləmisən, haramzada.

Həkim ağrıdan bağırıb Vəlixan bəy Rumlunun ünvanına ədəbsiz bir söyüş söydü və lombasıyla qatilinin üzünə tüpürdü, müvazinətini saxlaya bilməyib, Vəlixan bəy Rumlunun ayaqları altına yıxıldı. Qatili qılıncını onun çalmasıyla silib üstündən adladı:

- Hər kəs cəzasını almalıdı.

Şamxal sultan yanındakı çərkəzlərə dedi ki, gedin Zal bəylə Əlixan bəyi tapın gətirin bura.

Hüseynqulu Xüləfa elə bil yuxudan ayıldı:

- Görün o Hüseyn bəy Yüzbaşı hardadı! Çox hərzə-hədyan danışırdı.

Allahqulu sultan Aycəkoğlu fikirləşdi ki, bu xəmir hələ çox su aparacaq. «Yaxşı, sağ olun» deyib hıqqıldayaraq qalxdı. Bir günün içində elə bil beli ikiqat olmuşdu, qəddini düz saxlaya bilmirdi. Hüseynqulu Xüləfaya nəzər saldı: «Məni eşitmədilər, əgər vaxtında eşitsəydilər, bu hiyləgər köstəbək indi şah sarayında meydan sulamazdı. Yazıq şahzadənin başı bədənindən üzülməzdi». Dərindən bir ah çəkdi və çalmasını düzəldib asta-asta dövlətxanadan çıxıb evinə yollanda. Onu saraya gələndə necə biganəliklə qarşılamışdılarsa, gedəndə də eyni etinasızlıqla yola saldılar. Daha doğrusu, heç onu adam yerinə də qoymadılar. Onun arxasınca Hüseynqulu Xüləfa ilə Şamxal sultan mənalı-mənalı baxışdılar. Hüseynqulu Xüləfa uzun təsbehini şaqqıldadaraq:

- Bu Allahqulu sultanda da üz var ha, özünü elə aparır, guya İsmayıl mirzənin yolunda canını fəda eləyər.

Şamxal sultan bığlarına tumar çəkərək:

- Hardan, qanımızı tökməyə hazırdı. Əlacı yoxdu. Qılınc qurşayıb dövlətxanaya üstümüzə gəlməyib deyə, özünü İsmayıl mirzənin tərəfdarı sayır, - dedi.

Hüseynqulu Xüləfa gözlərini qıydı:

- Deyirsən yəni indi onun qanı halal deyil? - Hüseynqulu Xüləfa Aycəkoğlunun onu aradan götürmək təklifini eşitmişdi.

- Məmləkətin xüləfası buyurandan sonra, əlbəttə, halaldı.

Çox adamın dərdi tərpənmişdi, köhnə yaraların qərtməyi qopmuşdu. «Qaşınıram, qanım çıxır, qaşınmıram canım» məsəli yada düşmüşdü. Heratda təkəli Qazan

xanın qiyamını yatıranlardan biri də Allahqulu sultan Aycəkoğlu olmuşdu. Başda Allahqulu sultan olmaqla, ustaclı tayfası yolunu azmış təkəli tayfasına toy tutmuşdu. Rəhmətlik şah da təkəlilərin qiyamını yatırtdıqdan sonra onlardan olan əmirləri saraydan uzaqlaşdırmışdı. İndi təkəlilərin əlinə fürsət düşmüşdü. Onlar Heydər mirzə tərəfdarları olan ustaclılara divan tutmaq fikrində idilər. Təkəlilərdən biri Hüseynqulu Xüləfanın yanına gəlib, bu Aycəkoğlunun dərsini vermək fikrində olduqlarını söylədi. Hüseynqulu Xüləfa ona göstərilən ehtiramın bolluğundan sərməst olmuşdu. Gözlərindən gülə-gülə:

- Qanı halaldı! - dedi. - «Qanana bir işarə də bəsdi. Mal kimi nə oturub üzümə baxırsan, fitvasını verdim də, get işini bitir.»

… Yüz nəfər təkəli atlanıb Allahqulu sultan Aycəkoğlunun üstünə getdilər. Aycəkoğlu qırx nəfərlə atlanıb onların qarşısını çıxdı:

- Hələ Aycəkoğlu ölməyib ha, mənim, əhli-əyalımın üstünə qoşun çəksinlər.

- Aycəkoğlu, qisas qiyamətə qalmaz deyiblər, Heratda qanımızı tökmüşdün, indi də biz sənin qanını tökəcəyik.

- Ay haramzada, şah məni Herata sizin qiyamınızı yatırmağa göndərmişdi. Sən olsan, getməzdinmi? Yer üzünün Allahının sözünü yerə salmaq sənə beləmi asan gəlir?

- Bizim şahımız da bizi sənin üstünə göndərib, haramzada, - şit-şit güldü.

- Kimdi sizin şahınız?

- Hüseynqulu Xüləfa!

- Adı gülüm olanın, başına külüm olar.

- Hərzə-hərzə danışma!

Allahqulu sultan Aycəkoğlu qılıncını tovlayıb onunla deyişənin başına vurdu. Rəqibinin qanı üstünə fışqırdı. At şahə qalxıb üstündəki yaralını yerə çırpdı. Döyüş başladı. Allahqulu sultan Aycəkoğlu bilirdi ki, qırx nəfərlə yüz nəfərin qarşısında sonadək tab gətirmək olmaz. Amma geriyə yol yoxdu, namusu, ləyaqəti yolunda son nəfəsədək çarpışacaqdı…

Bir saatdan sonra qırx nəfərdən iyirmi dördünün meyiti yerdəydi. Allahqulu sultan Aycəkoğlu da onların arasında. Qılıncının dəstəyindən bərk-bərk yapışmışdı. Sanki döyüşə atılmağa hazırlaşırdı.

* * *

Təkəlilər Allahqulu sultan Aycəkoğlunun meyitinin üstündən keçərək onun evini alt-üst elədilər. Allahqulu sultan Aycəkoğlunun illərlə yığdığı var-dövlət bir saatın içində tar-mar olundu. Artıq təkcə Allahqulu sultan Aycəkoğlunun evində deyil, şəhərin hər yerində qarət baş alıb gedirdi. Heydər mirzə tərəfdarlarının evləri bir-bir yağmalanmaqdaydı. Zal bəy Gürcü ilə Əlixan bəy Gürcünün evləri xarabalığa çevrilmişdi, özləri isə ayaqyalın, başıaçıq atdöşü edilərək dövlətxanaya gətirilmişdilər. Onları doğma vətənlərindən çox-çox uzaqda - Qəzvində Hüseynqulu Xüləfayla Şamxal sultan Çərkəzin, Vəlixan bəy Rumlunun gözləri qabağında sorğusuz-sualsız doğradılar. Amma ürəkləri hələ də soyumamışdı. Onlara Hüseyn bəy Yüzbaşı lazımdı. Hüseyn bəy Yüzbaşı ilə şahzadə Mustafa mirzə isə yağlı əppəyə dönmüşdülər, onları «gördüm» deyən yoxdu. Hüseynqulu Xüləfa bundan çox dilxor olmuşdu.

* * *

Hüseyn bəy Yüzbaşı ilə şahzadə Mustafa mirzə və tərəfdarları şəhərdən çıxanda artıq axşam düşmüşdü. Hər şey o qədər sürətli və gözlənilməz baş vermişdi ki, danışmağa belə maraqları qalmamışdı. Ancaq atların fınxırtısı və ayaq səsləri eşidilirdi. Hüseyn bəy Yüzbaşı qəlbində özünü asıb-kəsməklə məşğuldu. Niyə gec tərpəndi, nə üçün vaxtında tədbir görmədi, onlarda bu arxayınlıq nədən yaranmışdı? Olan olub, keçən keçmişdi. Artıq çox gec idi, fürsəti əldən vermişdilər. Hüseyn bəy Yüzbaşı bu saat şəhərdə nələr baş verdiyini çox yaxşı təsəvvür edirdi. Barı bu burulğandan İsgəndər bəy salamat çıxaydı. Allah qorusun, tariximizi yazır… Yəqin başımıza gələn bu müsibətləri də qələmə alar. Oxuyub bilərlər; başımız nə bəlalar çəkib.

Şahzadə Mustafa mirzə də dinib-danışmırdı. O, qardaşı Heydər mirzənin taleyinin bir gecənin içində belə gözlənilməz acı sonluqla başa çatacağını gözləmirdi. Mustafa mirzə baş verənlərdən çox sarsılmışdı.

Bir məsələyə görə də qəlbinin lap dərinliyində incimişdi. Fikirləşirdi ki, ən əvvəl, gərək Heydər mirzəyə qıymayaydılar, bir halda ki, onu əbədi susdurmuşdular, əmirlər şahzadə olaraq onu şah taxtına oturda bilərdilər. Ancaq bunu etmədilər, ona

sayğı göstərmədilər. Məhz bu sayğısızlıq onun qəlbini məngənə kimi sıxırdı: «Bilmirəm bu adamlar İsmayıl mirzədə nə görüblər. Mələkdi - nədi? Zindanda olsa da, bəxti varmış. Onu sevənlər, şah taxtına layiq bilənlər gör nə qədərdi. Amma heç kəs fikirləşmir ki, görən İsmayıl mirzə bu illər ərzində dəyişməyib ki? Zindana qəhrəman kimi girib, qatil kimi də çıxmaq olar. Bu saat onun başına zindanda nə gəldiyini doğru-düzgün bilən də yoxdur. Bəlkə bizə doğma olan, Qəhqəhə qalasının rəisi Xəlifə Ənsar Qaradağlı şahın ölüm xəbərini eşidib İsmayıl mirzənin çoxdan işini bitirib? Doğrusunu Allah bilir… Yazıq Heydər mirzə, hiylədən, məkrdən uzaq qardaşım, körpə balan yetim qaldı. Allah, Allah, nə qədər hiyləgər, paxıl, ikiüzlü adamlar varmış ətrafımızda. Biz fikirləşənəcən onlar atlanıb çayı keçdilər».

Başqa bir vaxt olsaydı, bəlkə də, belə bir bahar gecəsində yol getməkdən, atların ayaqları altından pırıltıyla qalxıb uçan bildirçinlərdən, ora-bura dazıyan siçovulların ciyiltisindən, qorxaq dovşanların qaçışından, tülkü-çaqqal vaqqıltısından zövq alardılar. Amma indi nigaranlıqla elə yüklənmişdilər ki, heç nəyin fərqində deyildilər. Təki namərd əllərə keçməsinlər. Təki ucuz ölümə tuş gəlməsinlər! Atalar nə yaxşı deyib: «Fələk məni bağa bağban eylədi, axırda əsirgədi bağı da məndən».

Çöllüklə gedirdilər. Başları üstündəki Ayın işığı öləzimişdi, ulduzlar bir-bir sönürdü, şərq tərəfdə göy üzü qızılı rəng almaqdaydı. Artıq səhər açılırdı. Onlar heç vaxt indiki qədər açılan səhərin fərqində olmamışdılar. Gecə bir yerdə at qovan bu adamlar, sanki bir-birini indi görürdülər. Hamısının sifətində bir xof, gərginlik vardı, yuxusuzluq da bir yandan. Siyasət meydanına atıldıqlarından, isti yataqdan, qarın dolusu çörəkdən olmuşdular.

Elə bil səhərin açılmasını gözləyirdilər. Yol gəldikləri vaxtı bir dəfə də bu barədə düşünməmişdilər: «Biz hara gedirik?»

Onlar hara getdiklərini, doğrudan da, bilmirdilər. Onlar Qəzvinin küçələrindən, dövlətxanadan, Hüseynqulu Xüləfanın, Şamxal sultan Çərkəzin, Vəlixan bəy Rumlunun ölüm torundan xilas olmaq üçün qaçmışdılar.

- Biz indi hara gedirik? - Hüseyn bəy Yüzbaşının qardaşı soruşdu.

Şahzadə Mustafa mirzə:

- Kim istəyirsə, mənimlə bayat tayfasına gedə bilər. Mən onların içərisində çox yaşamışam. Onlar mənim mülazimlərimdilər. Bizi ələ verməzlər.

Hüseyn bəy Yüzbaşı ona etiraz etmədi, ancaq söylədi ki, bayat tayfasından ehtiyat edir. Şahzadə soruşdu ki, yaxşı, bəs sən hara gedəcəksən? Hüseyn bəy də Luristana getmək istədiyini söylədi. Atdan düşüb cilovu qardaşına verdi:

- Qardaş, mən gərək qiyafəmi dəyişəm, məni tanıya bilərlər. Sən isə şahzadənin yanında qal, hər zaman onun qulluğunda dur. İnsan gərək ən çətin anda da kəsdiyi duz-çörəyi itirməsin. Yaxşı, salamat qalın.

Hüseyn bəy Yüzbaşı yoldaşlarından ayrılıb Luristana tərəf yol aldı. Xeyli aralanandan sonra qayıdıb geri boylandı, dostları görünmürdü. Ancaq havada atların ayaqlarından qalxan toz dumanı qalmışdı. Ömrü boyu at belində olan, hər kəsdən hörmət-izzət görməyə, bir-birindən xoş günlər yaşamağa adət etmiş Hüseyn bəy Yüzbaşı üçün düşdüyü indiki vəziyyətlə barışmaq elə də asan deyildi. Artıq piyada yeriməyə adət etməmiş ayaqları sözünə baxmırdı. Bir yandan da ona aclıq, susuzluz güc gəlirdi. Daha dözə bilmirdi. Luristana - ümid məskəninə isə hələ çox vardı. Bir az getmiş alaçığa rast gəldi. Yolda hər ehtimala qarşı paltarını dəyişib, başına çoban papağı qoymuşdu. Tanınacağından ehtiyat edirdi. Alaçığa çathaçatda bir atlının çaparaq gəldiyini gördü: «Bu kimdi?!»

Alaçığın yanındakı payaya bağlanmış çoban iti özünü dağıdırdı. At ayaqlarının və itin səsinə alaçıqdan iki cavan çıxdı. Birisi itə təpindi, digəri atlının qabağına qaçıb atın cilovundan yapışdı:

- Xoş gəlmisən, ağa.

- Xoş günün olsun.

Hüseyn bəy Yüzbaşı yolun ortasında donub qalmışdı. Bilmirdi geri qayıtsın, yoxsa irəli getsin. Tərs kimi, qılıncını da götürməmişdi. İstəmişdi ki, görənlər onu yurdsuz-yuvasız, yoldan keçənin biri bilsin. Luristana çatandan sonra hər işi qaydasına düşəcəkdi. Hər halda, belə düşünürdü. Əgər, əlbəttə, Luristandakı dostları etibarsız çıxmasalar.

«Ağa» deyilən şəxs aşırılıb atından düşdü. Yolun ortasında çaşıb qalmış adama yaxınlaşdı, ona diqqətlə baxıb şaqqanaq çəkib güldü:

- Hüseyn bəy, bu nə halət, bu nə qiyafə? Olmaya çobanlıq eləyirsən?

Hüseyn bəy Yüzbaşı yalan danışmağın mənasız olduğunu anladı.

- Zəmanənin üzü qara olsun, bircə günün içində hakimi cani, bəyi çoban eləyir.

- Arxayın ol, mən nə çobana, nə caniyə toxunmuram. Mənə Xoca Fərrux deyərlər. Eşitmisən?

- Haçansa səni Hacı Veyis bəy Bayatın yanında görmüşəm.

- Düz tapmısan, mən Hacı Veyis bəyin adamıyam. İncimə, səni İsmayıl mirzə Qəzvinə gələnədək qonaq saxlayacam.

- A kişi, məni yolumdan eləmə, qoy varım gedim. Bilirsən ki, İsmayıl mirzə Qəhqəhə qalasında dustaqdır.

- Atasının ölümü ilə Allah qapısını açıb. Özün de, sabah gəlib şah olanda məndən soruşmaz ki, ay Xoca Fərrux, məni şah görmək istəməyən o Hüseyn bəy Yüzbaşını niyə tutub saxlamadın? Hə, nə cavab verərəm?

Hüseyn bəyin nitqi batdı, qorxudan yox, bu dünyada heç bir sirrin gizli qalmamasından.

- Doğru buyurursan, qardaş, - dedi. - Yaxşı deyiblər ki, yerin də qulağı var. Axır ki bu gün yerin qulağını öz gözümlə gördüm.

XXI FƏSİL

PƏRİXAN BƏYİM HAKİMİYYƏT BAŞINDA

Of, mənim başıma bəla başım…

Aydın Məmmədov

İ brahim mirzə əmirlərdən ayrılıb Pərixan bəyimin yanına getdi. Məmləkəti başsız qoymaq olmazdı. İyirmi yaşlı Mustafa mirzəni əmirlər heç yada da salmamışdılar. İyirmi bir yaşlı Süleyman mirzə qanlı olaylarda iştirak etmişdi, İmamqulu mirzə, Əli mirzə on dörd, Əhməd mirzə isə on üç yaşında idilər. Və bu şahzadələrin şah taxtına oturması barədə heç danışan da yoxdu. Gözlər Qəhqəhə qalasından çıxıb gələcək İsmayıl mirzəyə dikilmişdi. Heç onun böyük qardaşı, gözdən mayıf Xorasan hakimi Məhəmməd mirzə də yada düşmürdü.

Pərixan bəyim pərişan idi. Bir günün içində baş verənlər onu sarsıtmışdı. Bayaqdan dizlərini qucaqlayıb oturmuşdu. Ölçüyə, çəkiyə gəlməyən ağır, çox ağır bir yükün

altındaydı. Gözlə görünməyən bu yükün ağırlığı bütün əzalarına çökmüşdü. Canında qəfil sarsıntıdan, gözlənilməz olayların ağırlığından doğan süstlük vardı. Olub-olmuşları, sabah baş verə biləcək hadisələri hələ də sona qədər cözüb qurtara bilməmişdi. Hər şey bir göz qırpımında olmuşdu. Qəlbinin lap dərinliyində Heydər mirzənin faciəli ölümündə özünü təqsirkar sanırdı. Bəla burasında idi ki, Heydər mirzənin ölümü ilə hələ heç nə öz həllini tapmamışdı. Əksinə, insanlar yurd-yuvasından perik düşmüş, öldürülmüş, həbsxanalara atılmışdılar. Hüseynqulu Xüləfanın könlündən keçirdi ki, Heydər mirzənin lələsi Sədrəddin xan Şeyxvənd də qətl olunsun. Nə yaxşı ki, bu barədə onun da rəyini soruşmuşdular. O, isə qəti etiraz etmişdi: «Siz nə danışırsınız, onun atası Məsum bəy Şeyxvənd Səfəvi - Osmanlı müharibələrində şücaət göstərmiş, şahın ən sadiq vəzirlərindən olmuşdur. Deyirsiniz indi biz onun oğlunu öldürək? Yox, olmaz, hələlik dustaq edilsin, İsmayıl mirzə taxta çıxandan sonra cəzasını özü müəyyənləşdirər». Beləcə, Sədrəddin xan Pərixan bəyimin köməyi ilə qılıncdan qurtarıb zindana atılmışdı.

Nökər İbrahim mirzənin gəldiyini söylədi:

- Qoy gəlsin.

İbrahim mirzə tələşlə içəri girdi. Pərixan bəyim İbrahim mirzəyə yer göstərdi:

- Nə yaxşı gəldin, - dedi, - lap ürəyim sıxılır.

- Sıxılar da. Bizim əzizimiz, məmləkətin şahının meyiti ortada qalıb. Bu az imiş kimi, Heydər mirzəni də qətlə yetirdilər. Dəfn mərasimi barədə fikirləşmək lazımdır.

- Üləmalara, seyidlərə xəbər verin. Dəfn mərasimini sabah həyata keçirək. Heydər Çabuq Türkmanı Qəhqəhə qalasına İsmayıl mirzəni gətirməyə göndərək. Elə ki onlar qaladan sağ-salamat çıxdılar, sən də nazir (naziri-beyutat) Mirzə Salmanla səltənət və padşahlıq əşyalarını götürüb onu qarşılayarsınız.

İbrahim mirzə ürəyindən keçənləri, istəməsə belə, dilinə gətirməyə məcbur oldu:

- Sən o qədər bu İsmayıl mirzəyə böyük ümidlər bəsləyirsən, sanki bir mələkdir, Qəhqəhə qalasından uçub gələcək, bütün müşküllərə son verəcəkdir.

- İsmayıl mirzə zindana atılanda iyirmi dörd yaşlı bir qəhrəmandı. Arzum budur həbsdən də qəhrəman kimi çıxsın. Mən həmişə Qəhqəhə kimi zindanda onun nahaqdan yatdığını düşünmüşəm. İndi istəyirəm onun halal haqqı özünə qaytarılsın.

- Allah ümidlərini doğrultsun. O, hələ zindandan azadlığa çıxmamış, yolunda nə qədər qanlar tökülüb. Nə gizlədim, qorxuram bu xəmir hələ çox su aparsın.

- Olmuşlardan mən də rəncidəyəm. Sabah nə olacaq, nələr baş verəcək, onu ancaq Tanrı bilər.

- Pərixan bəyim, yəqin şəhərdə nələr baş verdiyindən xəbəriniz var. Məhəllələrdə, küçələrdə küçəbəndlər qurulub, məmləkətdə əsl qiyam baş verib. Adamlar evlərindən çölə çıxmağa cürət etmirlər, oğurluq, qarət baş alıb gedir. Dükan-bazar bağlı…

Pərixan bəyim yerindən qalxdı, qara örpəyini alnına sürüşdürərək:

- Biz bu hərc-mərcliyə son qoymalıyıq, İbrahim mirzə. Babalarımızın, atam Şah Təhmasibin, sənin atan Bəhram mirzənin Səfəvilər dövlətinin yaranması, ərazisinin genişlənməsi yolunda nə əziyyətlər çəkdiklərini, necə böyük itkilər verdiklərini unutmamalıyıq.

- Doğru buyurursan, Pərixan bəyim.

- Mənim adımdan carçılara əmr elə məhəllələrdə car çəksinlər, küçəbəndlər yığışdırılsın, asayişi pozan hər bir kəs yerindəcə cəzalandırılsın, dükan-bazarlar açılsın. Biz İsmayıl mirzə gələnə kimi məmləkətdə qayda-qanun yaratmalıyıq. İlk işimiz sabah şahın təziyəsini adına layiq keçirmək, camaatı came məscidinə toplayıb səltənət və padşahlıq xütbəsini İsmayıl mirzənin adına oxutdurmaqdır.

- Məsləhətim budur ki, dövlətxanaya gəlin, müvəqqəti də olsa hakimiyyəti əlinizə alın.

- Bacararammı? - Pərixan bəyim sınayıcı nəzərlərlə İbrahim mirzəyə baxdı.

- Bacararsınız, aslanın erkəyi, dişisi olmaz. Heyif ki, şəriətimizə görə, qadınların şah taxtında oturması caiz sayılmır.

- Nə etmək, biz də şəriətin qanunundan kənara çıxmaq fikrində deyilik. Ancaq İsmayıl mirzə gəlib taxtında oturana qədər ölkəni başsız qoymaq olmaz.

- Doğrudur. Sağlığında rəhmətlik atanızın ən etibarlı və ağıllı müşaviri sayılırdınız.

- Etimadına görə sağ ol, əmioğlu, indi xahiş edirəm vaxt itirmədən çatışmazlıqları aradan götürək.

İbrahim mirzə işləri yoluna qoyacağına söz verib getdi. Pərixan bəyim dövlətxanaya getməyə hazırlaşdı.

* * *

Səhəri gün tezdən üləmalar, şeyxlər, şahzadələr, əmirlər dövlətxanaya gəldilər. Hərəmxana bağçasında Şah Təhmasiblə oğlu Heydər mirzənin meyitlərini yumaq üçün daldalanacaq düzəltmişdilər. Meyitləri bahalı xalçalara bükərək Hərəmxana bağçasına - yuyat yerinə apardılar. Şahın arvadları, qızları, gəlinləri qapqara libasda idilər. Qara rübənd altından ancaq gözləri görünürdü. Onlar ağı deyib ağlaşırdılar.

Meyitləri yuyub kəfənləmək, meyit namazına durmaq mərasimi xeyli çəkdi. Şahın cənazəsini tabuta qoydular. Şahzadələr tabutu çiyinlərinə qaldırıb apardılar. Cənazə dövlətxanadakı Şirvan evinə qoyuldu. Şahın cənazəsi burada amanat idi, sonra onu Məşhədə aparıb imam Rzanın məqbərəsində dəfn edəcəkdilər.

İndi də hamı Heydər mirzənin cənazəsi ətrafına toplaşmışdı. Onu sevənlər də, sevməyənlər də, cəlladları Vəlixan bəy Rumlu, Cəmşid bəy Çərkəz, şahzadənin ölüm fitvasını verən Hüseynqulu Xüləfa, Şamxal sultan Çərkəz, Əli bəy Şamlu da utanıb-eləmədən meyitin ətrafında dairə vurub dayanmışdılar. Onların sifətlərində yalançı, taxma bir kədər vardı. İbrahim mirzə əl atıb onların üzündəki bu «taxma kədəri» qoparıb atmaq, onların içində gizlənmiş əsl sifətlərini dartıb oradan çıxartmaq istəyirdi. Ancaq indilikdə bu mümkün deyildi, cəlladlar mələk donundaydılar. Özlərini əsl söz sahibi, xanədanın sütunlarından sanırdılar. Öz məkirli niyyətlərinə görə axıtdıqları qanlara da hüquqi don geydirib Qəzvinin küçələrinə çıxarmışdılar. Ay camaat, ay el, ay oba, hər şey İsmayıl mirzənin halal haqqını özünə qaytarmaq naminə baş verib.

İbrahim mirzənin ürəyinin lap dərinliyində belə bir inam vardı ki, o, bu «qəhrəmanlarla» bir yerdə, çiyin-çiyinə eyni yolu getməyəcək. Onların yolları haradasa ayrılacaq. Heç nədən başı bədənindən qoparılmış şahzadə Heydər mirzənin ahı tutacaq onları. «Tutacaq, tutacaq, hökmən tutacaq!»

Axund «Allah rəhmət eləsin!» deyəndən sonra şahzadələr Heydər mirzənin cənazəsini çiyinlərinə qaldırdılar. İbrahim mirzə də çiynini bu yükün altına verənlərin sırasındaydı. Lap öndə ülamələr, seyxlər, arxada isə əmirlər, dövlətxana, dəftərxana işçiləri, qadınlar gəlirdilər. Heydər mirzənin cəsədini İmam Hüseyn

məscidinin həyətində dəfn edib came məscidinə gəldilər. Burada adam əlindən tərpənmək olmurdu. Buna baxmayaraq, camaat üləmalara, şeyxlərə, şahın ailə üzvlərinə, hörmətli əmirlərə içəri keçmək üçün yol verdilər. Axund minbərə çıxanda hamı susdu. Axund dedi ki, məmləkətimizə ağır itki üz verib. Vəlinemətimiz, Şahənşah Təhmasib Səfəvi dünyasını dəyişib, indi o haqq, biz nahaq dünyadayıq. Anlaşılmazlıq ucbatından şahın sevimli oğlu şahzadə Heydər mirzə də qətlə yetirilib. Allah rəhmət eləsin. İndi mən səltənət və padşahlıq xütbəsini hamımızın istəklisi, qəhrəman, cəsur sərkərdə, mərhum şahımızın vəliəhdi İsmayıl mirzənin adına oxuyuram.

Hamı sakitcə dayanıb xütbəni dinlədi. Beləcə, babasının adını daşıyan Qəhqəhə qalasının dustağı İsmayıl mirzə II Şah İsmayıl olaraq tarixə düşdü.

Axund minbərdən düşüb öz yerini xətibə verdi. Xətib gözəl səslə Şah Təhmasibin şərəfinə mərsiyə oxumağa başladı. Onun uca və məlahətli səslə oxuduğu:

- Şəhər möhnət və qəmlə doludur, ey Şəhriyar, hardasan? - harayı ürəklərə od saldı.

XXII FƏSİL

ZİNDANDAN AZADLIĞA

Ruh cəfaya dözəcək,

Bəlkə bədən dözmədi.

Asif Ata

Q əzvindən Qəhqəhə qalasına doğru «Ölüm» adlı bir «quş» - xəbər uçurdu. Gözlə görünməyən, qanadsız, nəfəssiz, ruhsuz, amma hər zaman dipdiri bir quş! Bu gözlə görünməyən, nəfəssiz, ruhsuz «Ölüm» xəbəri kiminə sarsıntı, fəlakət, kiminə müjdəydi. Bu «Ölüm» quşunu tutub qəfəsə salmaq, başını üzüb atmaq mümkün deyildi. O, qapısı bağlı otaq, uca barılar, əlisilahlı keşikçilər, süvari qorçular, əliqanlı cəlladlar, şeytana papış tikən Hüseynqulu Xüləfalar tanımırdı. Bu, bütün sədləri aşan «Ölüm» adlı xəbər idi. Səfəvilər şahının dünyasını dəyişməsi, Heydər mirzənin öldürülməsi xəbəri, Pərixan bəyimin əmri ilə onu Qəzvinə gətirməyə gedən Heydər Çapuq Türkmandan daha tez uca hasarları aşaraq, Qəhqəhə qalasında İsmayıl mirzəyə yetişmişdi. Amma İsmayıl mirzə heç halını da

pozmamışdı. Eşitdiyi «Ölüm» xəbərinə də çox da inanmamışdı, onu sınamaq, nələr düşündüyünü bilmək üçün qəsdən uydurulmuş söz-söhbət sanmışdı. Amma bir xeyli and-amandan sonra bu xəbərin səhihliyinə şübhəsi qalmamışdı.

Atasının və qardaşı Heydər mirzənin haqqa qovuşmalarını çox sakit qarşıladı. Qarayanız üzündə nə sevinc, nə də qəm işartısı vardı. Belə təəssürat yaranırdı ki, bu xəbər onun üçün qətiyyən gözlənilməz olmayıb.

Zindan həyatı məğrur və sərt təbiətli İsmayıl mirzəni bir az da güzəştsiz, amansız eləmişdi. Allahın yox, şah atasının hökmü ilə on doqquz il altı ay iyirmi bir gün idi ki, bu Qəhqəhə qalasında dustaq həyatı yaşayırdı. O, burada aylarını, illərini yox, bir-birinə bənzəyən günlərini saymışdı - 7 min 138 gün! 7 min 138 gün eyni mənzərəni, ancaq oradan görünən göy üzünü seyr etmişdi. Fərəhi səhər üfüqdən boylanan günəş, gecələr göy üzünə səpələnmiş parlaq ulduzlar olmuşdu. İlin fəsillərini - baharını, yayını, payızını, qışını bu qalanın içində yaşamışdı. Baharın gəlişini havasından bilmişdi. Havadan bağlarda çiçək açmış ağacların, yamyaşıl otun ətri gələndə bilirdi ki, yurda bahar gəlib. Saatlarla oturub zindanın divarlarında yuva quran haçaquyruq qaranquşlara tamaşa edərdi. O, hərdən zindan qoynuna sığınan qaranquşların taleyini düşünür, fikirləşirdi ki, zindanda dünyaya gələn zindanı özünə vətən sayar. Amma heç vaxt zindandan Vətən olmaz. Ancaq elə ki, qaranquşlar bala çıxarırdılar, hardan olsa yem gətirib balalarını yedirib böyüdürdülər, sonra qanadları üstə alıb onlara uçmaq öyrədirdilər, İsmayıl mirzənin rəng-ruhu açılırdı. Çünki qaranquşlar gəldikləri kimi də uçub gedirdilər. İsmayıl mirzə dəstəylə uçub gedən quşların arxasınca sonsuz kədərlə baxardı. Axı, bu dustaqxana həyatını başqa cür necə yaşaya bilərdi. Şah onu bura saldıranda deməmişdi ki, əziz oğlum İsmayıl mirzə, sən beş il, səkkiz il zindanda qalacaqsan. Onu nigaranlıq içində qoymuşdu. O da içində hikkə, qəzəb bəsləyə-bəsləyə cikkildəyən quşlara, vızıldaşan arılara, ora-bura qaçıb bir deşikdən girib başqasından çıxan siçovullara, möhtəşəm bir nizamla, qeyi-adi həmrəyliklə yuvalarına dən daşıyan qapqara qarışqalara baxa-baxa günlərini başa vururdu. Bəzən oturub şeir yazırdı. Zindanın içində ədalət axtardığından, özünə Adili təxəllüsü götürmüşdü. Şeir yazanda başqa ovqatda olurdu, özündə, ruhunda qəribə bir ikilik görürdü. Xasiyyətinə qətiyyən uyuşmayan həlimlik, mərhəmət, şəfqət hissləri köçürdü qəlbinə. Şeir yazan günlərində daha gümrah və coşğun olurdu.

Allah, nə yaxşı, insana xəyal adlı gözəgörünməz bir nemət verib. O da xəyalının qanadlarında çox sevdiklərini «qalaya gətirib» onlarla üzbəüz oturur, dərdləşirdi. Ən çox bura gələndə, daha doğrusu, dustaq ediləndə xanımının qucağında qoyub gəldiyi körpə qızıyla danışırdı. Gənc arvadını xatırlayanda odsuz-ocaqsız yanırdı. Ömrünün ən qaynar çağını qala divarları arasında keçirməyə məhkum olunmuşdu.

Nə var, nə var, Osmanlılarla bağlanmış sülh müqaviləsindən narazı olmuşdu, itirilmiş torpaqları, vilayətləri geri qaytarmaq fikrinə düşmüşdü. Məgər onun düşünməyə, başqa cür fikirləşməyə, hərəkət etməyə haqqı yoxdurmu? Əlbəttə, var! Sadəcə, əmirlər, lap elə doğma atası Şah Təhmasib bu dəliqanlı şahzadədən qorxdular! Ay aman, birdən İsmayıl mirzə atasını taxtından salıb padşah olar… Vay-vay, itirərik hər şeyimizi… Gəlin var-dövlətimizi, vəzifəmizi, nüfuzumuzu itirməkdənsə, onu itirək. Şahzadə biz deyəni demir, əl-ayağımıza dolaşır, qoy, onu nə gözümüz görsün, nə də könlümüz bulansın. Qoy, bu yolunu azmış şahzadə gedib o Qəhqəhə qalasında yatıb ağıllansın. Guya insan ancaq zindanda ağıllana bilər. Bunlar hamısı ipə-sapa yatmayanlar haqqında düşünülmüş tələdir.

İsmayıl mirzənin şah oğlu olduğunu qalada hər kəs bilirdi. Ancaq dustaq dustaqdı. Daim göz altında, qapılar üzünə bağlı. Burada başqa dustaqlardan çox, ondan qorxurdular. Şah oğludu, məmləkət boyda ad-sanı var, Allah eləməmiş, birdən nə yollasa zindandan çıxar, başına adam toplayar, qiyam qaldırar, şahlıq fikrinə düşər… Haray bəri başdan, üstündə göz olun, göz olun… Toxunmayın, həndəvərinə də getməyin, amma göz qoyun! Zindan da qəfəs kimidir, qoyun bu qəfəsin içində ürəyi istəyən qədər vurnuxsun. Amma bir an belə gözdən qoymayın! Ax, onu daim öz kölgəsi kimi izləyən gözlər! Bu göz sahibləri, deyəsən, ondan özgə heç kəsi görmürdülər. Əvvəl-əvvəl onlara ürəyində yazığı gəlirdi. Doğan günəşə, açılan səhərlərə, aylı-ulduzlu gecələrə, huşu başdan alan gözəllərə, anasının bəyaz saçlarına, atasınını günəşdən yanıb qaralmış sifətinə dikiləsi gözlər ancaq ona zillənmişdi. Bu gözlər yalnız onun şəklini çəkirdi. Bu donuq, heç nə ifadə etməyən, ancaq miskinlik yağan gözlərin aynasında onun əksindən başqa özgə heç nə yoxdu. «Amandı, birdən qaçar, xəta törədər. Ehtiyatlı olun!»

İsmayıl mirzə onların nə düşündüklərini çox yaxşı bilirdi. Ona görə də onlara qarşı ürəyindəki rəhm, mərhəmət hissini təəssüf qarışıq nifrət əvəzləmişdi: «Axı, siz niyə beləsiniz, nə olsun ki, sizə bərk-bərk tapşırıblar ki, İsmayıl mirzəni gözdən qoymayın. Özünüzə yazığınız gəlmir?» Amma hərdən özünə də acıyırdı. Zindana düşdükdən sonra özünü şübhəli hesab etdiyi çox şeydən qoruyurdu.. Miskin adamların sui-qəsdindən ehtiyatlanırdı. Yatanda sərvaxt yatırdı, daha doğrusu, gözüaçıq. Kənardan baxana elə gəlirdi ki, gözü açıqdı, baxır, amma əslində yuxulayırdı, gözləri görə - görə yatırdı. Bu cür yatmağa vərdiş etmək üçün xeyli güc, vaxt sərf etmişdi. Ehtiyatı əldən vermək istəmirdi! Deyir, başına gələn başmaqçı olar. Əmiləri Əlqas mirzəylə Sam mirzəni bu Qəhqəhə qalasında qətlə yetirməmişdilərmi? Şaiyə gəzirdi ki, onların hər ikisini atası Şah Təhmasib qətlə yetirtdirib. Şah isə bunu iftira hesab edirdi. Deyirdi ki, atası Şah İsmayıl ona vəsiyyət eləyib deyib ki, günahları olsa belə, heç vaxt qardaşlarına qıyma. O da

atasının vəsiyyətinə əməl eləyib. Günahları olduğuna görə, zindana saldırıb, amma əlini onların qanına batırmayıb. Qaladakı düşmənləri onları aradan götürüblər. Şah Təhmasib onları cəzalandırıb.

İsmayıl mirzə ən çox ortaboylu, tökməbədənli Sam mirzənin ölümünə heyifsilənirdi. Axı, Sam mirzə gözəl xəttat, rəssam, şair idi. Elə şairliyə həvəs də onda Sam mirzənin məclislərində şairlərin beyitləşməsini dinləyəndən sonra yaranmışdı. Heyif ki, Sam mirzə Sultan Süleyman Azərbaycana hücum eləyəndə Şamlu tayfasından olan lələsinin təhriki ilə qardaşı Şah Təhmasibə qarşı çıxmışdı. Guya Sultan Süleyman həzrətləri Sam mirzəni Təhmasib şahın yerinə Səfəvilər dövlətinin hökmdarı kimi tanımış, ona «Oğlum» demişdir. «Dostları» beləcə, Sam mirzəni çaşdırmışdılar. Sonralar Sam mirzə tutduğu bu işdən peşmançılıq çəksə də, Şah Təhmasib onun xəyanətini bağışlaya bilmirdi. Buna görə də onu yüksəltməmişdi. Ona Ərdəbilin hakimliyini, Səfəvilər məqbərəsinə nəzarəti tapşırmışdı. İllər sonra isə Qəhqəhə qalasına atdırmışdı.

O, əmisi Bəhram mirzəni daha çox sevirdi; atası ilə doğma qardaş olduğu üçün yox, sədaqətinə, mehribanlığına, bir də məclis əhli olduğuna görə. Bəhmən mirzə vaxt tapan kimi evində məclis qurardı. Xanəndə, aşıq çağırtdırıb çalıb-oxutdurardı. O özü də saz, tənbur çalıb-oxumaqdan çəkinməzdi. Bəhram mirzə ən çox «Xətai» mahnıları oxuyardı. Bu «Xətai» mahnılarını Şah İsmayıl, oğlanları Şah Təhmasiblə Bəhram mirzə düzüb qoşmuşdular. Qəhrəmanlıq ruhunda bəstələnmiş bu mahnılar hamısı «Xətai» adı ilə oxunurdu. Qızılbaşların döyüş yolundan, şücaətlərindən bəhs eləyən bu mahnıları sufilər çox sevirdilər. Bu məclislərdə Bəhram mirzənin oğlu İbrahim mirzənin mahnıları da oxunurdu. İsmayıl mirzə əmisi evindəki bu şənliklərdə ömrünün ən xoş, unudulmaz anlarını yaşayardı.

Əmisi Bəhram mirzənin ölüm xəbəri İsmayıl mirzəyə Qəhqəhə qalasında çatmışdı. Onun vəfatından çox kədərlənmişdi. Çox istərdi ki, onun dəfn məclisində iştirak eləsin, əmisinin cənazəsi son mənzilə onun çiynində getsin, lakin dustaq olduğu üçün bu mümkün deyildi…

Ədalət naminə, şah hərdən onun qayğısına da qalırdı. Ancaq çox vaxt o, atasının bu qayğısını ona göstərilən mərhəmət hesab edir, acı istehza və qəzəblə qarşılayırdı.

Bir kərə atası qalaya, onun yanına beş kəniz göndərmişdi. Şah qala rəisinə xəbər göndərmişdi ki, kənizləri ötürsün İsmayıl mirzənin yanına, onu əyləndirsinlər. Amma İsmayıl mirzə atasının ona göstərdiyi bu iltifatdan bərk qəzəblənmişdi. «Sən bir buna bax, başımı yarıb, ətəyimə qoz tökür».

Cavan, sağlam bir kişinin qadınsız uca qala divarları arasında yaşaması cəhənnəm odunda yanmaq kimi bir şey idi. Yəqin hərəmxana arvadlarının, kənizlərin, gürcü, çərkəz cariyələrinin əhatəsində həyat sürən şah oğlunun məhbəsdə qadınsız necə əzab çəkdiyini təsəvvür eləmişdi. Əks təqdirdə, qalaya kənizlər göndərməzdi. Doğrudan da, İsmayıl mirzə gecələr çox zaman ehtirasının odunda alışıb-yanırdı. Onun odunun üstünə su tökən yoxdu. Zərif, yumşaq qadın bədəninin təmasına həsrət qalmışdı. Hərdən qeybdən onu qadın saçının, bədəninin qoxusu vururdu. Bu anlarda qanı qaynayır, gicgahlarındakı damarlar şiddətlə vururdu. Heyrət eləyirdi ki, onu şirin, sirli bir aləmə səsləyən bu qoxu necə də olduğu kimi ruhuna köçüb. Nə yaxşı bu xoş qoxunu, sinəsində gəzən şümşad barmaqların təmasını, bu barmaqlardan bədəninə hopmuş istiliyi unutmayıb. Belə anlarda ona elə gəlirdi ki, yanında qadın olsa, onun ehtirasının odunda yanıb kül olar.

Amma atasının göndərdiyi kənizləri görəndə damarlarında qanı dondu. «Gör mənim könlümü nəylə almaq istəyir, kişilərin ən zərif yerindən yapışır. Doğrudanmı şah atam məni belə aciz, nəfsinin qulu zənn edir? Mənə azadlıq vermək əvəzinə, başımı qatmağa kəniz göndərir. Mən azadlıqda olsaydım, indi neçə uşaq sahibiydim. Qızımı özüm boya-başa çatdırardım. Amma özü, maşallah, məni zindana salandan sonra neçə oğul-qız əkib. Mən bura düşəndə Heydər mirzənin iki, Mustafa mirzənin bir yaşı vardı. Məndən sonra böyüyüblər, evləniblər, uşaqları var. Amma Mahmud mirzə, İmanqulu mirzə, Əli mirzə, Əhməd mirzə mən zindana düşəndən sonra anadan olublar. Maşallah, şahımız vaxtını pis keçirməyib. İndi mənə də rəhmi gəlib. Yanıma kəniz göndərib ki, mən də zindanda uşaq əkib-becərəm».

İsmayıl mirzə qalanın rəisinin yanında kənizləri gətirən qorçulara:

- Bu zavallıları saraya qaytarın, onlara mənim ehtiyacım yoxdur! Atama söyləyin ki, kənizləri nökərlərimə layiq bilmədim, yoxsa onlara bağışlayardım, - dedi və çıxıb getdi.

… Amma bir dəfə şahın göndərdiyi məktub onu kövrəltmişdi. Bu barədə düşünəndə həmişə təəccüb eləyirdi. Axı, necə olmuşdu ki, ürəyi yuxalmış, gözləri nəmlənmişdi. Şah nəvəsinin, onun qızının balaca əlinin şəklini olduğu kimi məktubun sonuna çəkib ona göndərmişdi. «Əlin» üstündə bənövşəyi ləkə vardı. Mürəkkəb ləkəsi idi. Başa düşdü ki, bu ləkə atasının göz yaşından yaranıb. İstər-istəməz qızının «əlini» dodaqlarına apardı, bir neçə dəfə qoxlayıb öpdü. Onun da yanağından bir gilə göz yaşı süzülüb balaca «əlin» üstünə düşdü.

Çox sinirlənmişdi. Birinci dəfə idi ki, belə kövrəlirdi. Yadına uşaqlığı, atası ilə balıq tutmağa getdikləri günlər düşdü. Bir dəfə Mərənddən Marağaya getməliydilər. Onda onun on yaşı olardı. Gördüyü hər şey ona nağıl kimi gəlirdi. Onlar ordu ilə bir yerdə hərəkət edirdilər. Yolboyu kəndlərin yaxınlığında düşərgə salıb bir neçə gün dincəlir, sonra yollarına davam edirdilər. Nökərlər, qaravaşlar gecənin yarısı havanın sərin çağında məşəlləri yandırıb dəvələri, qatırları yükləyirdilər. İsmayıl mirzə üçün belə gecələrin əvəzi yoxdu. O, məşəllərin işığında dəvələrin, atların, qatırların, qoyun-quzunun par-par parıldayan gözlərinə baxmaqdan doymurdı. Bu dəvələrə, qatırlara içərisi pal-partarla, yorğan-döşəklə, xalçalarla, gəbələrlə, cecimlərlə dolu məfrəşlər, çadırlar, keçələr, un, arpa, düyü, yağ dolu tuluqlar, çuvallar, su səhəngləri, mətbəx avadanlığı yüklənmişdi. Atların başından içi arpayla dolu torbalar salınardı. İlahi, nə qədər mal-qara, qoyun-quzu olardı! Köç yola çıxmağa hazır olanda nökərlər şaha xəbər verdilər. Atası çadırından çıxanda qaçıb onun yanına getdi. «Şah! Şah! Allah, Allah» sədaları ətrafı titrətdi. Şah əlini onun başına çəkdi: «Deyəsən köçməkdən xoşun gəlir». «Hə, ata, çox xoşum gəlir».

Nəhayət, şah atlandı. On nəfət şatır* gəlib şahın qaşqa, ayaqları səkil atının qabağına düşdü. Şahın ardınca bayraqdarlar gəlirdilər. Onlar ələm adlandırdıqları nizənin ucuna enli qırmızı parça bağlamışdılar, nizənin ucundakı dəmir lövhəyə «Əli vəli Allah, la illah illa Allah» sözləri yazılmışdı. Bayraqdarların ardınca dörd min süvari, beş min tüfəngçi, iki yüz zərbzən, nağaraçı gəlirdi. Bu süvarilərin başlarındakı on iki qırmızı zolaqlı parçadan tikilmiş heydəri papaqları kənardan çox gözəl və möhtəşəm görünürdü. Sanki göz işlədikcə uzanan əlvan, laləli bir çəmənliyi süvarilər başları üzərinə alıb aparırdılar. Qorçuların bellərində qılınc, kəmərlərində kiçik xəncər, sol qollarında qalxan, kürəklərində tüfəng vardı. Lap arxada şahın bacısı Məhinbanu, hərəmləri, qızları, sonra kənizlər, cariyələr, arxalarınca isə, hərəmxananın eşikağası olan yaşlı kişilər gəlirdilər. Şah ailəsinin qadınları başlarına yeləni qızıl sapla tikilmiş ağappaq yaylıq bağlamış, ətəkləri gen olan tumanlarının altından al qırmızı şalvar geyinmişdilər. İncə bellərinə dolanan qızıl kəmərlər məşəllərin işığında parıldayırdı. Bu cür geyim onların kişilər kimi at çapmalarına mane olmurdu. Atlarını mahmızladıqca topuqlarındakı xalxalların ahəngdar cingiltisi ətrafa yayılırdı.

İsmayıl mirzənin anası Sultanım bəyimlə bibisi Məhinbanu xanım atlarını öndə sürürdülər. Bu da onların şah sarayında, hərəm dairəsində xüsusi hörmət sahibi olmalarının əlaməti idi. Bacısı Məhinbanu xanıma şahın xüsusi rəğbəti vardı. Hər barədə onunla məsləhətləşirdi. Bu xanımın möminliyi, paklığı Şah Təhmasibi heyran eitmişdi. Məhinbanu xanım vaxtını ibadətdə keçirir, dini kitablar oxuyurdu.

Şah onu on ikinci İmam Mehdi əl-Müntəzirə nişanladığını söyləyirdi. Bu səbəbdən də bacısını ərə vermirdi. Doğrusu, heç Məhinbanunun da birisinə ərə getmək niyyəti yoxdu. Şah İmam Mehdi əl-Müntəzir üçün nalları gah gümüş, gah qızıldan, yəhəri tünd-qırmızı məxmərdən olan ağappaq bir at saxlayırdı. Bu ağ at gələcəkdə zühur edəcək imama məxsus olduğundan, atların önündə gedir və tərki həmişə boş olurdu.

Lakin Məhinbanuya on ikinci imama ərə getmək nəsib olmadı. O, hicri 969 (1562) - cu ildə haqqın dərgahına qovuşdu.

Şahın qəribəliklərindən, yuxuya, möcüzələrə dərin inamından doğan bu kimi işlər yeniyetmə İsmayıl mirzəni çox duyğulandırardı. Atasının döyüş vaxtı düşmənlə vuruşmağa cəsarəti çatmayan qorçulara verdiyi cəza da onun çox xoşuna gəlirdi. Şah qoşun başçılarına tapşırmışdı ki, döyüşdən yayınan qorçuları eşşəyin belində tərsinə oturdub dövlətxanaya yollasınlar. İsmayıl mirzə Təbrizin küçələrində eşşəyin belində tərsinə oturdulmuş qorçuları çox görmüşdü. Şahın fərraşları onları Təbrizin məhlələrində gəzdirib tənbeh edərdilər. Axı, camaat igidiynən, qorxağını tanımalıydı…

Nə isə, istirahət edə-edə bir neçə gün yol gedib Marağa dağlarının ətəklərində düşərgə saldılar. Bir gün dincələndən sonra əmiləri Bəhram mirzəylə Sam mirzə atasının yanına gəlib ova getmək üçün ondan izn istədilər. Onların hər ikisi şahinlərlə ova getməyi çox sevirdilər. İsmayıli mirzə atasına dedi ki, o da əmiləri ilə ova getmək istəyir. Amma şah ona icazə vermədi, dedi ki, sabah səhər tezdən sənin balıq ovuna gedərik. Dağlarda çoxlu xırda göllər var. Şah tapşırdı ki, şahzadə gecə onun alaçığında yatsın. İsmayıl başa düşdü ki, atası onu gözündən uzaq qoymaq istəmir. Hətta balıq ovuna da onun xətrinə gedir.

Səhər tezdən şah onu yuxudan oyatdı: «Qalx, isti düşməmiş gedək». İsmayıl mirzə gözünü açanda atasını al-qırmızı köynəkdə, geniş balaqlı qısa salvarda gördü, başına da sadə heydəri papaq qoymuşdu. Atası bu geyimdə çox yaraşıqlı görünürdü. İsmayıl mirzə yerindən qalxdı, şah nökəri içəri çağırdı. O, əlində eynən şahın geyindiyi kimi köynək, şalvar və papaqla içəri girdi. İsmayıl mirzə bu paltarları geyinəndə özünü çox xoşbəxt sanmışdı. Alaçıqdan çıxdılar, onları otuz balıqçı gözləyirdi. Balıqçıların başçısı Hüseyn bəy Çəpni şahın qarşısına yeriyib təzim elədi və balıq ovu üçün hər şeyin hazır olduğunu söylədi. Atlandılar. İsmayıl mirzə atını atası ilə yanaşı sürürdü. Hiss eləyirdi ki, atası onun boy-buxununa baxıb fərəhlənir.

Dağlara yaxınlaşdıqca sərin meh gəlirdi. Bu xoş havadan vəcdə gələn şah duyğulanmışdı ya nə idisə, atına qamçı göstərdi. At götürüldü. İsmayıl mirzə,

balıqçılar şaha çatmaq üçün atlarını qamçıladılar. Elə bil uca dağlar onlara gəl-gəl deyirdi. Şah yoxuşa çatıb atın cilovunu dartdı. Onlar da şaha çatıb dayandılar.

Dağlara qalxan balıqçılar ikibir, üçbir bölünüb, xırda göllərin ətrafında düşərgə saldılar. Göllərdə, doğurdan da, çoxlu balıq vardı. O da atasına qoşulub suya qarmaq atmışdı. Saatlarla oturub suya baxmaq, qarmağına düşən balıqları çəkib sudan çıxartmaq, doğrudan da, əsl istirahət idi.

… Fikirləşdi ki, o da on doqquz il altı ay iyirmi bir gün bundan qabaq sudan çıxarılıb yerə atılmış balıq kimi idi. İntəhası, balıq susuz yaşaya bilmir, amma insan yaşamaq üçün hər əzaba dözür. İsmayıl mirzə daha Qəhqəhə qalasında qala bilməzdi. Bir yol tapıb buradan çıxmalıydı. O, əvvəl-əvvəl atasının xəstə yatarkən onu qorumağa göndərdiyi qorçularla dil tapmalıydı. Vaxtilə şahın onu qorumaq istəyini də qərəzlə qarşılamışdı: «Məni nəyin naminə, nə üçün qoruyursan? Mən zindanda kimə lazımam? Mən sənin vəliəhdinəmsə, bəs niyə zindandayam? Deyiləmsə, niyə məndən nigaran qalmısan? Hə, yəqin sən elə şeylər bilirsən ki, onu mən bilmirəm. Bəlkə, qalanın rəisi Xəlifə Ənsardan ehtiyatlanırsan? Ola bilər. Hər şey ola bilər!». Amma o, bu qalada qaldığı dövrdə Xəlifə Ənsardan elə bir pislik görməmişdi. O, sadəcə, öz vəzifəsini yerinə yetirirdi. O, indi bilmirdi ki, Xəlifə Ənsar şahın ölüm xəbərini eşidib, ya yox. Xəlifə Ənsar sübh tezdən ova getmişdi. Bu ovaçıxma qəsdən idimi, yoxsa təsadüf, bax, İsmayıl Mirzə bunu bilmirdi. Aldığı xəbərin doğruluğuna şübhə etmədiyi andan bu on doqquz ildə zorla ipə-sapa yatırtdığı çılğın ruhu onu yerindən elədi. Onu qoruyan qorçuları inandırdı ki, şah da, qardaşı Heydər mirzə də ölüblər. Saraydan onu aparmağa gələcəklər. O, şah olacaq və o zaman onların xidmətini unutmayacaq: «Ancaq mənim tərəfdarlarım qalanın ətrafına toplaşanacan özümüzü qorumalıyıq. Məni öldürmək fikrinə düşənlər, qardaşım Mustafa mirzəni, ya bir başqasını şah taxtında oturtmaq istəyənlər də tapılar. İndi qalanın rəisi Xəlifə Ənsar ova gedib, onun mülazimlərini bir-bir yanımıza çağıracam, siz də əl-ayaqlarını bağlayıb hücrələrə salarsınız. Qalanın da qapılarını bərk-bərk bağlayın. İçəri heç kəs girməməlidir!».

İsmayıl mirzə tələsirdi, çox tələsirdi. Elə bil İsgəndər paşayla döyüş ərəfəsindəydi. Allah qoysa, bu qaladan xilas olar. Səfəvilər taxtında oturar, onda onun kim olduğunu görərlər. II Şah İsmayıl olacaq, II Şah İsmayıl!.. Babasının ruhunu şad edəcək!

Xəlifə Ənsarın mülazimlərini bəhanələrlə bir-bir yanına çağırtdırıb əl-qollarını bağlatdırdı. Günorta üstü artıq qala İsmayıl mirzənin əlindəydi. Səkkiz qorçunun hərəsini qalanın bir tərəfinə keşikçi qoymuşdu, özü də mülazimlərin yarağını götürüb silahlanmışdı. 7 min 138 gün idi ki, əlinə qılınc almırdı. Əlinə qılınc

alanda ruhunda qəribə bir oyanış hiss elədi. damarlarında ömürləri at belində döyüşlərdə keçmiş əcdadlarının qanı qaynadı…

Xəlifə Ənsar hələ ovda ikən şahın öz əcəli ilə dünyasını dəyişdiyini, Heydər mirzənin qətlə yetirildiyini eşitdi. O, vaxt itirmədən qalaya qayıtdı. Qapılar onun da üzünə bağlanmışdı. Xəlifə Ənsar İsmayıl mirzənin kimliyini, nəyə qadir olduğunu hər kəsdən yaxşı bilirdi. İsmayıl mirzənin Qəhqəhə qalasını ələ keçirdiyini eşidən hər kəs tələş içindəydi. Xüsusən Heydər mirzəni taxta oturtmaq istəyənlər, o cümlədən ustaclı tayfasından olan əmirlər. Onlardan bəziləri qalanın ətrafına gəlmişdilər. Təzə şahın qarşısında günahlarını yumaq istəyirdilər.

Xəlifə Ənsar qala qapısının ağzında dayanıb yalvarırdı, öz vəzifəsini yerinə yetirmək üçün içəri buraxılmasını xahiş edirdi. Amma İsmayıl mirzə ona nə «hə», nə də «yox» cavabı verirdi. Xəlifə Ənsarın dərdi təkcə İsmayıl dərdi deyildi, bura toplaşanlar bilmirdilər ki, Səfəvilər dövlətinin xəzinəsi də bu qalada saxlanılır. Amma şah oğlu İsmayıl mirzənin xəzinə məsələsindən hali olduğunu bilirdi. Və hətta bu xəzinəyə görə bir ara İsmayıl mirzənin başı ağrımışdı. Doğrudu, onda Qəhqəhə qalasının rəisi Xəlifə Ənsar Qarabağlı deyildi, Həbib bəy Ustaclı idi. Amma o zaman uzaqgörənlik eləməyib bir xətaya yol vermişdi.

Hicri 979 (1571) - cu ildə Qəhqəhə qalasından qızıl-gümüş külçələr oğurlandı. Qala rəisi Həbib bəy Ustaclı (Ax, yenə ustaclı! Külçələrin yoxa çıxmasında şahzadəni günahlandırdı. «İsmayıl mirzədən başqa bu işi görməyə kimsənin cəsarəti çatmaz» deyirdi. İsmayıl mirzə isə Həbib bəy Ustaclının çənəsinin altına girib ona bozarmışdı: «Mənə qara yaxma, Həbib bəy, öz qızının işidi».

Şah bu işi araşdırmaq üçün Hüseynqulu Xüləfa Rumlunu, Qum hakimi Vəli Xəlifə Şamlını, ustaclıların əmiri Pirə Məhəmməd xanı və indi qala qapısının ağzında durub İsmayıl mirzəyə dil tökən Qaradağ hakimi Xəlifə Ənsarı Qəhqəhə qalasına göndərdi. Allahın bildiklərini bəndələr bilməz. Hüseynqulu Xüləfa Rumluyla Vəli xəlifə Şamlı, Pirə Məhəmməd xan İsmayıl mirzəni bu «oğurluq» işində təqsirsiz bilib, İsmayıl mirzəni müdafiə etdilər. Xəlifə Ənsar isə, qala rəisi Həbib bəyi haqlı sandı. Məsələ mübahisəli oldu. Hər tərəf özünü daha ədalətli və haqlı sanırdı. Bu mübahisə Qəzvində şahın hüzurunda da davam etdi. Heç nə sübut olunmadı, əsl oğru üzə çıxmadı. Beləcə, gümüş-qızıl külçəsinə görə qızılbaş tayfaları arasına düşmənçilik toxumu səpildi və zaman keçdikcə bu toxum cücərib ətrafı qapsadı.

İsmayıl mirzə üç gün, üç gecə Qəhqəhə qalasına heç kəsi buraxmadı. Bu üç gün, üç gecə ərzində İsmayıl mirzənin adı yenə dildə-ağızda dolaşmağa başlamışdı. Azərbaycanın hər yerindən camaat dəstə-dəstə qalaya axışırdı. İsmayıl mirzə yuxusuz, gərgin gecələr keçirsə də, özünü gümrah hiss eləyirdi. Üç gündən sonra

səhər-səhər qalanın mağzalından baxanda ətrafda nəhəng bir izdiham gördü. Elə bu vaxt qalanın içindəki söyüd ağacının gövdəsinə bir ox sancıldı. İsmayıl mirzə tez düşüb oxu dartıb çıxardı. Oxa məktub sarınmışdı. Açıb oxudu: «Əlahəzrət, Pərixan bəyimin əmri ilə səni Qəzvinə aparmağa gəlmişik. Ordu çöldə alaçıqlar qurub sizin təşrif buyurmağınızı gözləyir! Hörmətlə, Heydər sultan Çabuq».

Məktubu cibinə qoydu. Çölə atılmağın, azadlığa qovuşmağın vaxtı çatmışdı. Qorçuları yanına çağırdı:

- Qaladan çıxırıq, dostlar, qapıları açın!

İsmayıl mirzə üzünə açılmış qapıdan ağır addımlarla çıxdı. Düz yeddi min yüz otuz səkkiz gün bundan qabaq bu qalaya dustaq olaraq salınmışdı, indi 19 il 6 ay 21 gündən sonra oranı şah kimi tərk edirdi: «Sənə inanmayan kafirdi, İlahi», - dodaqaltı pıçıldadı.

Kütlə onu «Şah! Şah! Allah, Allah!» deyə-deyə Heydər sultan Çabuqun alaçığına qədər müşayiət etdi. İsgəndər bəy də Qəzvində Heydər sultanın dəstəsinə qoşulub Qəhqəhə qalasına gəlmişdi. O, bütün baş verənləri öz gözü ilə görüb yazmaq istəyirdi. İsgəndər bəy adını çox eşitdiyi İsmayıl mirzəni ilk dəfə idi yaxından görürdü. Uca boylu, qədd-qamətli, yerişindən, sifətindən məğrurluq, qətiyyət yağan İsmayıl mirzə ona olduqca xoş təsir bağışladı.

Heydər sultan Çabuq qabaqda, qorçular arxada Qəhqəhə qalasından şah kimi çıxmış «dustağın» qarşısına yeriyərək diz çökdülər. Sonra Heydər sultan Çabuq hələ taxta çıxmamış şahı içərisi əlvan keçələr, xalçalarla döşənmiş alaçığa dəvət etdi.

İsmayıl mirzə alaçıqda çox qalmağa qərarı tutmadı. Heydər sultan Qəzvində baş vermiş olaylardan atüstü söhbət saldı. Bacısı Pərixan bəyimin, Hüseynqulu Xüləfanın onun şah taxtında oturması üçün göstərdikləri xidmətləri haqqında eşitdi, sonra əlini dizinə vurub: «Xub. Çox gözəl! Zindanda oturmaqdan yorulmuşdum, indi də burda oturmaqdan sıxıldım, - dedi. - Çıxaq eşiyə, görək qızılbaşlar neyləyir, nə düşünürlər».

O, çadırdan çıxanda cilovdar dərhal almagözlü, yalmanı hörüklü, gümüş sinəbəndli, qızıl yəhərli qara kəhəri onun qarşısına çəkdi. On doqquz il altı ay iyirmi bir gün idi at minmirdi. Halbuki atı canı qədər sevirdi. Cilovdarın köməyini gözləmədən cəld atın belinə qalxdı. İzdiham yenə «Şah! Şah!», deyə uğuldadı. İsmayıl mirzə atın üstündə daha da qədd-qamətli, məğrur və qürurlu görünürdü. Camaatın içində pıçapıç başladı: «Babası Şah İsmayıldı ki durub. Torpağı sanı yaşasın!»

Hələ qan tökülməmişdi. Amma İsmayıl mirzənin pişvazına gələnlərin arasında qan tökülməsini, kiminsə gözlərinə mil çəkilməsini, başların bədəndən ayrılmasını görmək istəyənlər vardı. İnsan xisləti belədi, sevdiklərini at belində, sevmədiklərini dar ağacında görmək istəyir. Hələ ki dar ağacları qurulmamışdı, cəlladlar gözə görünmürdülər, gözə çəkmək üçün manqallarda millər qızdırılmırdı. Yaxın, uzaq kəndlərdən, şəhərlərdən İsmayıl mirzəni ziyarətə gələnlər elə bil nə isə qeyri-adi bir hadisə, möcüzə gözləyirdilər. Kütlə artıq darıxırdı, baxmağa tamaşa istəyir, canlı qurban tələb eləyirdi. Qurban da uzaqda deyildi, elə kütlənin arasındaydı. Sadəcə, onu nişan vermək lazımdı. Nəhayət, ilk qurban tapıldı - Qəhqəhə qalasının rəisi Xəlifə Ənsar! Bir dəstə siyirməqılınc adam ona doğru şığıdı. Xəlifə Ənsar belə bir hücumu gözlədiyindən, bir göz qırpımında özünü İsmayıl mirzənin atının ayaqları altına atdı. Əliqılınclılar əldən çıxmış «ovu» göstərib bağırışdılar:

- Şah sağ olsun, bax, bu Xəlifə Ənsar sizə qarşı hörmətsizlik etdiyinə görə ölməlidir!

İsmayıl mirzə əvvəl-əvvəl dağ başında qərar tutmuş Qəhqəhə qalasına baxdı, sonra əlini havaya qaldırdı. O dəqiqə bağırışan ağızlara sanki möhür vuruldu.

Xəlifə Ənsar İsmayıl mirzənin atının gümüş pulcuqlarla bəzədilmiş cilovundan yapışıb dedi:

- Hökmdar, sizin qarşınızda təqsirkaram və hər bir cəzaya layiqəm. Əgər hökmdar mənim qətlə yetirilməyimə razıdırsa, onda göstəriş versin, bu hökmü onun mülazimləri yerinə yetirsinlər, qanıma yerikləyənlər yox… Hökmdar, iltifat göstərin, mən bu xəcalətdən, başıaşağılıqdan qurtulum!

İsmayıl mirzə gözlərini tamaşa axtaran, qurbanını parçalamağa hazır olan kütləyə dikdi:

- Camaat, mən qalada dustaq olanda əhd eləmişdim ki, bir gün düşmənlərin tələsindən qurtarsam, tale üzümə gülsə, heç kimdən intiqam almayacağam.

İsmayıl mirzənin atının cilovundan bər-bərk yapışmış Qəhqəhə qalasının rəisi dünənki dustağının son sözünü gözləyirdi. Həyatı o sözdən asılıydı.

- Ey Xəlifə Ənsar, sən xidmətkarlıq, nökərlik borcunu yerinə yetirib, öz vəlinemətin olan atam Şah Təhmasibin əmrinə riayət edib məni həbsxanada saxlamısan, istəklərimə məhəl qoymamısan.

Bu yerdə hamı İsmayıl mirzənin elə indicə Xəlifə Ənsarın qətlinə fərman verəcəyini gözləyirdi. Elə atın cilovundan yapışmış Xəlifə Ənsar da. Ancaq İsmayıl mirzə hələ qətl məsələsinin üstünə gəlmədi:

- Ey Xəlifə Ənsar (qısa, amma ilə bərabər bir sükut, hamı nigarançılıq içində), yaxşı nökər sənin kimi olmalıdır! Sən, sənə tapşırılan işi yerinə yetirərkən heç kimi, hətta mənim kimi şah oğluna da etina etməmisən və düz eləmisən. Sən azadsan! Əmirlərim sırasında ən layiqli yerlərdən biri sənindi. Qəhqəhə qalasının rəisi də sənsən.

İzdiham yenə dalğalandı: «Şah! Şah!» Bayaqdan Xəlifə Ənsarı şaqqalamağa, başını bədənindən üzüb içinə saman təpməyə hazır olanlar mısmırıq sallayıb geri çəkildilər.

Yox, kütlə əliboş dağılışmaq, şad xəbərlə evlərə dönmək istəmirdi. Ona günlərlə çözələməyə hadisə gərək idi. Əgər hadisə yoxdursa, onu törətmək lazım idi. Bunun üçün hələ Qəzvinə gedib Çehelsütun eyvanında şahlıq xalçasının üstünə çıxıb cülus eləməmiş İsmayıl mirzənin qafasını kin-küdurətlə doldurmaq gərək idi. Yada salınası o qədər könül bulandıran işdəklər vardı ki. Ocağı körükləməyə də istənilən qədər ətəklər…

- Bəs, ustaclı tayfası? Hanı onların əmri Hüseyn bəy Yüzbaşı? Hardadı o süfrəçi Murad xan Ustaclı? - deyə kimsə bağırdı.

- Əşi, bu ustaclı «qəhrəmanları», Allah bili, başlarını hansı deşiyə soxublar.

Kimsə dedi ki, Murad xan Ustaclını şah Kəcur qalasını tutmağa göndərmişdi. Şahın ölüm xəbərini eşidən kimi Lahicana - Pirə Məhəmməd xan Ustaclının yanın gedib.

İsmayıl mirzə Pirə Məhəmməd xan adını eşidəndə barmağını dişlədi. Bu haman Pirə Məhəmməd xan idi ki, «qızıl-gümüş külçəsi» əhvalatında İsmayıl mirzənin tərəfini saxlamışdı. Bəs onda Heydər mirzə tərəfdarı süfrəçi Murad xan Ustaclının Pirə Məhəmməd xanın yanında nə işi var? İsmayıl mirzə hiss etdi ki, içi bulandı, şübhə şüuruna hakim kəsildi.

Kütlə içindən kimsə bağırdı:

- Eybi yox, onlar burda yoxdular, amma başqa ustaclılar burdadı. İndi onların dərsini verərik.

Yenə kütlə dalğalandı, ağızlar köpükləndi, sinələr körükləndi və ələ keçən bir ustaclı ayaqlar altına alınıb palçıq kimi tapdalandı. Yerdə qalan ustaclılar atlarını Ərdəbilə sarı çapdılar. Ölümdən qurtulub Şeyx Səfi məqbərəsinə sığınsaydılar, adətə görə, onlara zaval yoxdu. İsmayıl mirzə əcdadlarının ruhuna pənah gətirmiş

bu adamlara toxunmayacaqdı. Yaxşı ki, ustaclaları təqib eləyən olmadı. Ərdəbilə isə neçə ağac* yol vardı.

… Nəhayət coşmuş, qana susayan kütlə təpiklər altında canını tapşırmış ustaclıdan əl çəkib, heç nə olmamış kimi dağılışdı.

XXIII FƏSİL

YOLLARA DİKİLİ GÖZLƏR

Ya təbib adını tərk eylə, təbabət etmə,

Ya mənim dərdimi tap, gör niyə tüğyan elədim.

Xürşidbanu Natəvan

P ərixan bəyimin gözləri yolda, qulağı səsdəydi. Neçə gün idi nigaranlıq içində çırpınırdı. Qorxurdu ki, Heydər mirzənin tərəfdarları İsmayıl mirzəni aradan götürər. Bu neçə gündə Qəzvin də qaynar qazana dönmüşdü. Belə gedərsə, məmləkət ayrı-ayrı qızılbaş tayfa başçılarının əli ilə parçalanacaq. Oturub İsmayıl mirzənin Qəhqəhə qalasından qayıdacağı, cülus edəcəyi günü gözləmək təhlükəliydi. Sonra hər dəqiqə məcrasından çıxıb qarşısına çıxanı yaxıb-yandıracaq insan selinin qarşısını almaq olmazdı. Pərixan bəyim özünü toparlayıb saraya yaxın sultanları, əmirləri, üləmaları Çehelsütun eyvanına yığıb Ağsaqqallar şurası yaratdı. «Ölkəni başçız qoymaq olmaz» - dedi. Əmirlər onun qərarını alqışladılar və hər işdə onunla həmrəy olacaqlarına söz verdilər. Pərixan elə oradaca Ağsaqqallar şurasının razılığı ilə şəhərə ordu yeritdi. Axşamtərəfi qorçubaşı dövlətxanaya - Pərixan bəyimin hüzuruna şad xəbərlə gəldi. Şəhərdə şərə-şür işlər törədənlərin, ipə-sapa yatmayanların qarşısı alınmış, sabitlik bərpa olunmuşdu. Pərixan bəyim qorçubaşına göstəriş verdi ki, təkəli tayfasının əmirləri İsmayıl mirzəni qarşılamaq üçün yola düşsünlər. Qorçubaşı təzim edib əmri yerinə yetirməyə getdi. O, təkəli əmirlərini paytaxtdan uzaqlaşdırmaqla bu tayfanı, bir növ, başsız qoymaq istəyirdi.

Çox qısa vaxtda Pərixan bəyim hakimiyyəti tamamilə əlinə ala bildi. Artıq onun əmrindən çıxmağa bir nəfər də olsun cürət etmirdi, elə bil hamının əlini, ağzını bağlamışdılar. Əmirlər, sultanlar Pərixan bəyimin cəsarətindən, ağlından, dərin

zəkasından ağızdolusu danışırdılar. Dövlətxanada yalnız Hüseynqulu Xüləfa özünü haqq-sayı olan adam kimi aparırdı. Pərixan bəyimin Xüləfanın təkəbbürlü davranışından xoşlanmasa da, hələlik ona bir söz demirdi. İsmayıl mirzənin gəlişini gözləyirdi. Artıq qasidlər ona müjdə gətirmişdilər. İsmayıl mirzə Qəhqəhə qalasından sağ-salamat çıxmışdı. O, bu xəbəri eşidəndə çox sevindi: «Kərəminə şükür, Xudaya, - dedi. - Səfəvilər xanədanı xilas olacaq!»

Pərixan bəyimin uçmağa qanadı yoxdu. Nəhayət, illərlə xəyalında canlandırıb yaşatdığı, qürur duyduğu Osmanlı-Səfəvi müharibəsinin qəhrəmanını yaxından görəcək, onunla ünsiyyətdə, məsləhət-məşvərətdə bir yerdə olacaqdı. Pərixan bəyim nədənsə İsmayıl mirzəyə hər şeyə qadir, əqidəsi yolunda canından keçməyə hazır kaml bir insan kimi baxırdı. «Qoy gəlib şahlıq taxtına otursun, haqqı-ədaləti bərpa eləsin, tayfalar arasında baş verən bu ixtilaflara son qoysun. (Arzuları içdən gəldiyindən düşündükcə lap gözləri dolurdu). Gəl, İsmayıl, tez gəl, qardaşım! Gəl, əllərində təbil çala-çala şahın qarşısında gedən, Allahın, şahın ünvanına mədhlər söyləyəndən sonra «Səd hezar lənət bər Ömər, Osman, Əbu Bəkr» deyə xəlifələrə lənət oxuyan təbərrayiləri* yerində oturt. Axı, lənət oxuduğumuz bu Ömər, Osman, Əbu Bəkr də Peyğəmbər salavatullahın silahdaşları olmayıblarmı?! İndi biz şiyə məzhəbik deyə, onlara lənətlərmi yağdırmalıyıq? Axı, niyə sünni məzhəbinə xidmət edənlər küçəboyu lənət oxuya-oxuya gedən təbərrəyləri görəndə qulaqlarını tutub evlərinə qaçmalıdırlar? İsmayıl, qardaşım, mənim ümidim, sənə o qədər deyiləsi sözüm var. Mən səni altmış minlik yox, yüz minlik süvarinin önündə görmək istəyirəm. Babamız Şah İsmayıl kimi cəsur, qorxmaz qardaşım. İtirilmiş torpaqlarımızın geri qaytarılması yolunda döyüşlərinin şahidi olaram, inşaallah! Əlbəttə, məmləkətin min bir dərdi var, hamısını bir gündə həll etmək olmaz. Bu işlər tədricən həll olunmalıdır. Bir də, unutma, şahlıq taxtına sahibliyin üçün çalışmış kəslərin hamısı ilə yol yoldaşı olmaq olmaz. Onların hərəsi bir niyyətlə atlanmışdılar. Heç vaxt şah ola bilməyənlər özlərini, var-dövlətlərini qorumaq üçün haqqı çatan ya çatmayan birini şah seçirlər. Sonra «Öndə sən dur, arxanda biz» deyirlər. Bir düşün. On min sufi rumlunun başında duran, bir göz işarəsi ilə qardaşın Heydər mirzənin boynunu vurdurub ayaqlar altına atdıran Hüseynqulu Xüləfa ilə haracan getmək olar? O, səndən daha böyük vəzifə, mənsəb umacaq. İstədiklərini ona versən, xalqın gözündən düşərsən, verməsən, bil ki, gürzənin quyruğunu basmısan. İnşaallah, ondan qurtulmağın yolunu özün taparsan. Adamların xisləti belədir, bir şeyi əldə eləmək üçün birləşər, səs-səsə, əl-ələ verər, elə ki birinin mənafeyinə bir balaca toxundun, düşmənə çevrilərlər».

Nökərin qəfil gəlişi Pərixan bəyimi düşüncədən ayırdı. Sorğu dolu baxışlarını nökərə zillədi:

- Xeyirdirmi?

- Xeyirdi, bəyim. Bədiüzzaman mirzə yanınıza gəlmək istəyir.

- Gəlsin.

Bədiüzzaman bir qədər pörtmüş halda içəri girdi. Bir an özünü necə aparmağı barədə düşündü. Pərixan bəyim onun nişanlısı olsa da, hal-hazırda məmləkət onun hökmü altındaydı.

Pərixan bəyim yerindən qalxıb ona sarı gəldi.

- Niyə donub qalmısan, keç otur.

Bədiüzzaman göstərilən yerdə əyləşdi:

- Düzü, bilmirəm sənə necə müraciət edim. Hökmdar deyim, yoxsa nişanlım.

- Adımla çağırsan yetər.

- Pərixan bəyim, istəsən də, istəməsən də səndə hökmdar ədası var.

- Bəlkə sənə belə gəlir.

- Yox, belədir ki var. Səsinin ahəngində də hökmranlıq hiss olunur.

Pərixan bəyimin qaşları çatıldı:

- Bədiüzzaman, sən bunları mənə demək üçünmü gəlmisən?

- Yox, mən səni aparmağa gəlmişəm.

- Hara?

- Sistana, axı mən oranın valisiyəm.

- Bilirəm.

- Bilirəm, bilirsən. Neçə vaxtdır Qəzvindəyəm. Vilayəti başsız qoymaq olmaz, getməliyəm. Amma səni də özümlə aparmaq istəyirəm. Bəsdir daha, bir belə də nişanlı qalmaq olarmı? Gedək toyumuzu eləyək.

Pərixan bəyim tutqun səslə:

- Şah atamızın qırxı heç çıxmayıb, Bədiüzzaman, toy nədi?

- Pərixan, mən səni siyasətin içindən dartıb çıxarmaq istəyirəm. Siyasət dibi görünməyən bataqlıqdı, ora düşən çıxa bilmir.

- Nə siyasət, mən ki şah deyiləm?!

- Doğrudu, amma bir gün dözməyəcəksən, şahlıq taxtına gedən yolunu təmizlədiyin İsmayıl mirzəyə nəsə deyəcəksən. Dediklərin bəzən ona xoş gələcək, bəzən yox. Olacaqsınız düşmən.

Pərixan ürəkdən güldü:

- Maşallah, lap münəccimlik eləyirsən.

- Düşündüyüm kimi olmasını istəməzdim. Amma belə olacağını da göz altına al.

- Xoşum gəldi, yolumda fədakarlıq eləyirsən.

- Bəs nişanlım deyilsən?

Pərixan bəyim qəşəng dodaqlarını büzdü:

- Olmaz belə nişanlılıqdan.

Bədiüzzamanın qanı sifətinə vurdu:

- Buna şübhənmi var, Pərixan? Biz ki, necə ildi nişanlıyıq.

- Mən ki sənin ilkin deyiləm (Bədiüzzaman bu sözləri gözləmirdi). Arvadın var, iki qız, bir oğul atasısan. İndi deyirsən, mən uşaqlarının anasının üstünə günü gedim. O yazığın da günü qara olsun, gecələr yorğanını başına çəkib ağlasın.

- Niyə ağlayır… Bəyzadələrdən hansı biri təknigahlıdı, Pərixan?

- Doğmaca qardaşın İbrahim mirzə.

Bədiüzzaman bu söhbətdən çaşıb qalmışdı.

- Ürəyin doluymuş ki, Pərixan.

- Əlbəttə, ürəyim doludu. Siz kişilər biz qadınların ürəyi ilə hesablaşırsınız bəyəm?

- Nədir axı sənin ürəyindəki?

- Ürək süfrə ha deyil, açıb göstərəsən. Onu bir baxışdan oxuyurlar.

- Sən şairəsən, söz ustasısan, mən isə qılınc adamı.

- Mən sənlə söz güləşdirmirəm, Bədüzzaman, qəlbimdən keçənləri söyləyirəm.

- Doğrusu, söylədiklərin qüruruma toxunur. Mən ki səni özümə zorla nişanlamamışam.

- Doğrudu. Atam məsləhət bildi, mən də rəhmətliyin sözünü yerə salmadım.

- İndi vəlinemətimiz dünyasını dəyişib deyə fikrindən dönürsən?

- Mən əhdə vəfasız adam deyiləm, Bədiüzzaman. Amma şüursuz da deyiləm. Bəzən oturub baş verənləri götür-qoy eləyirəm, hadisələrin incəliyinə varıram, ortaya min bir sual çıxır. Yadına sal, sənin atan, mənin əmim rəhmətlik Bəhram mirzə bir dəfə də olsun qardaşı Şah Təhmasibə qarşı çıxmadı. Çünki bir atadan, bir anadan olmuşdular. Amma atabir, ana ayrı qardaşları Əlqas mirzəylə Şam mirzə xəyanət yolunu tutdular.

- Sən günahı atabir, ana ayrı olmaqdamı görürsən?

- Bəli.

- Amma başqa bir mətləb də var. Şahzadələr bir yerdə böyümür, ata-ana məhəbbəti az görürlər. Hələ tifil ikən hərəsi bir məmləkətin hakimi olsalar da, həddi-büluğa çatanacan lələsinin, dayələrin tərbiyəsi ilə böyüyürlər. Bir-birindən uzaq düşmüş şahzadələr arasında qardaş məhəbbəti az olur. Buna görə də hər biri taxt-tac sahibi olmaq istəyir, bir-birinə düşmən kəsilir.

- Razıyam sənin lə, hakimiyyətə hərislik insanın bəsirət gözünü kor eləyir. Amma mən yenə də başlıca bəlanı çoxnigahlıqda görürəm. Biz atanı əsas götürüb, körpəsini doqquz ay qarnında gəzdirən, ona süd verən, beşiyi başında layla deyən, əzizləyən ananı heçə sayırıq. Şah sarayında ayrı-ayrı analardan olan şahzadələr ona görə bir-birini sevmir. Məhəmməd mirzəylə İsmayıl mirzənin anası Sultanım bəyim türk qızı, Heydər mirzənin anası isə gürcü qızı. Sən mənə deyə bilərsənmi ki, gürcü qızı İslamı qəbul etdiyinə, şahın arvadı olduğuna görə bütün varlığıyla türk, müsəlman olub? Əsla ola bilməz! Qan özünü göstərməlidir. Bu qan bir günün yox, min illərin qanıdır. Mən də Heydər mirzəni sevmirdim (sükut). Onun ölümündə mən də təqsirkaram. Yəqin Tanrım bir gün buna görə cəzamı verəcək (sükut). Özümə min kərə sual verirdim, axı, bu Heydər mirzə sənə neyləyib, niyə onu sevmirsən? Bu barədə çox düşündüm. Bəlanı bu çoxnigahlılıqda gördüm. Bax, buna görə də ailə qurmağa can atmıram.

- Ömrün boyu subaymı qalacaqsan?

- Bilmirəm. Mən ögey ana olmağı, görünür, bacarmayacam.

- Axı oğul-uşaq sahibi olmalısan, sonra gec olar. Təkliyin nə boyda əzab olduğunu başa düşürsən?

- Başa düşürəm. Amma heç cür bu çoxnigahlılığı qəbul edə bilmirəm.

- Bu adət ki, peyğəmbərimizdən qalıb.

- Nə olar. O dövrdə kişilərin çoxu müharibələrdə həlak olmuşdu. Peyğəmbər salavatullah dul qalmış qadınların taleyini düşünüb çıxış yolunu çoxarvadlılıqda görmüşdü. Amma indi zaman dəyişib.

- Pərixan, bu çoxnigahlılıq tək bizim başımızda görükməyib ha. Bineyi-qədimdən belədi. Şahlarımız da özgə qızlarıyla siyasət, nə bilim, sülh naminə evləniblər.

- Doğrudur, amma nə desən, bəraəti yoxdur. Bəlanın bir çoxu çoxnigahlılıqdadır. Bir də bizim kişilər qadının necə gözəgörünməz bir qüvvə olduğunu görmürlər. Sən nə yollasa onu alıb gərdək dalına sala bilərsən, bədəninə, bağışla məni, sahib çıxa bilərsən, amma ürəyindəkilərə, beynindən keçənlərə sahib ola bilməzsən.

- Razıyam. Amma bir şeyi bilmək istəyirəm. Sən də İsmayıl mirzəylə bir anadan doğulmamısan, amma taxtda oturması üçün fədakarlıq eləyirsən, bunun səbəbi nədir?

- Mən ona Osmanlı-Səfəvi müharibəsinin qəhrəmanı, məmləkətimizin xilaskarı kimi baxıram. Mən vətənin birliyini, məmləkətin uzunömürlü olmağını ailə qurmaqdan üstün tuturam. Bir nəfər qızın nigaha girməməsi faciə deyil, amma məmləkət başsız qalarsa, fəlakət olar.

- İsmayıl mirzənin hər müşkülə çarə tapacağına, sənin arzularını həyata keçirəcəyinə belə inanırsan?

- Hə, nədənsə çarəni onun Səfəvilər xanədanının taxtında oturmasında görürəm.

- Nə olar, amma onun on doqquz ildən çox dustaq olduğunu heç vaxt unutma.

- Səndən nə gizlədim, məni qorxudan da elə budur. Mən də ürəyimin dərinliyində onun Qəhqəhə qalasına mələk kimi girib, oradan Əzrail kimi çıxmasından ehtiyatlanıram.

Bədiüzzaman dərindən köks ötürdü:

- Nə deyim, Allah eləsin, axırı yaxşı olsun. Rəhmətlik şahın yeri görünür.

- Əlbəttə. Əlli dörd il məmləkəti idarə etmək hər kişinin işi deyil.

- Elədir. (Sükut.) İcazə ver mən gedim. Sənin məramını bildim. Təəssüflənirəm, amma bir xanımın qəlbinə hökm etməyə haqqım yoxdur.

- Bədiüzzaman (sükut), sən hər cür hörmətə layiq insansan. Ancaq məni başa düş, hələ toy əhvalında deyiləm.

Bədiüzzaman açıqca istehza ilə:

- Yaşın çatmır?

- Yaş söhbəti deyil. Bundan da önəmli işlər var. Bir də, sənə dedim, kiminsə günüsü olmağı ağlıma sığışdıra bilmirəm. Mən şərikli heç nəyi sevmirəm.

- Nəsə, məsləhət özünündür. Mən gedirəm Sistana, nə vaxt ehtiyac olsa, xəbər göndər, dərhal yanında olaram.

- Allah səndən razı olsun.

XXIV FƏSİL

ÇEHELSÜTUN EYVANINA GEDƏN YOL

Bir başı ucaltmaq istəsə dövran,

Kəməndə düşəcək boyun ucaldan.

Nizami Gəncəvi

İ smayıl mirzə üç gün - üç gecə Qəhqəhə qalasının ətəyində qurulmuş alaçıqla qaldı. Heydər sultan Çabuq İsmayıl mirzənin daim yanında idi. İsmayıl mirzə qorçuların arasında qayğılı-qayğılı gəzən İsgəndər bəyi göstərib onun kimliyini soruşdu. Hydər sultan Çabuq İsgəndər bəyin türkmən tayfasından olduğunu, şah dəftərxanasında mühasibat kitablarını yazdığını, siyaq elminin gözəl bilicisi, həm də çox tərbiyəli, nəzakətli bir cavan olduğunu söylədi. «Bu cavan həm də zəmanəmizin tarixini yazır» - deməyi də unutmadı. İsmayıl mirzə də, «İnşallah, bizim tariximizi də yazar» - deyərək uzaqdan-uzağa İsgərdər bəyi sınayıcı nəzərlərlə süzdü…

Günəş dağların arxasına çəkilmişdi. Şəfəqləri isə üfüqdən asılı qalmışdı. Bir azdan axşam düşəcək, əl-ayaq çöl-bayırdan yığışacaq, hər kəs bir küncə çəkiləcəkdi.

Elə ki axşam düşürdü, İsmayıl mirzə tək qalırdı, Qəhqəhə qalasında keçirdiyi yeddi min yüz otuz səkkiz gün bir-bir gəlib xəyalından keçirdi. İndi də gecənin bir aləmində Pirə Məhəmməd xan Ustaclı gəlib yadına düşmüşdü. «Qızıl-gümüş

külçəsi» əhvalatında şahın Qəhqəhə qalasına göndərdiyi adamlardan ona ən çox nəzakət və həssaslıqla yanaşan Pirə Məhəmməd xan Ustaclı olmuşdu. Hətta qulağına çatmışdı ki, düşmənləri Pirə Məhəmməd xanın ona göstərdiyi iltifatın arxasında gizli bir ittifaq görmüş, bu barədə şahı da xəbərdar etmişdilər. Amma şah müdriklik göstərib deyilənlərə əhəmiyyət verməmişdi. İndi İsmayıl mirzənin qəlbində Pirə Məhəmməd xan Ustaclı sarıdan bir nigaranlıq vardı. Heydər sultan Çabuq ona Qəzvində baş verənlərdən, təkəlilərin Heydər mirzə tərəfdarları olan ustaclı tayfasının adlı-sanlı əmirlərindən Allahqulu sultan Aycəkoğlunu, Piri bəy və Pirə Məhəmməd xanın oğlu Əlixan bəyi qılıncdan keçirdiklərini söyləmişdi. İsmayıl mirzə Pirə bəy Məhəmməd xan Ustaclının oğlunun intiqamını almaq fikrinə düşəcəyindən ehtiyat edirdi. Onun belə düşünməyə əsası da vardı. Heydər mirzənin silahdaşı Murad xan Süfrəçi şahın və Heydər mirzənin ölüm xəbərini eşidən kimi Kəcur qalasının ətəyində yerləşdirdiyi qoşunu götürüb Lahicana getmiş, Allahqulu sultan Aycəkoğlundan sonra oranın hakimi olmuş həmtayfası Pirə Məhəmməd xana qoşulmuşdu. Qorxurdu ki, Murad xan Süfrəçi onu yoldan çıxara. Bir tərəfdən də, on dörd yaşlı ögey qardaşı İmamqulu mirzə Lahicanın valisi, Pirə Məhəmməd xan Ustaclı isə onun lələsiydi. İsmayıl mirzə fikirləşirdi ki, onların hər birinin ürəyində ona qarşı kin-küdurət yarana bilər. Bu hadisələrin gedişatında Murad bəy saraydan uzaqlaşdırılmış, Pirə Məhəmməd xanın oğlu, İmamqulu mirzənin dayısı Zal bəy Gürcü qətlə yetirilmişdilər. Pirə Məhəmməd xanla Murad xan İmamqulu mirzəni əldə bayraq eləyər, təkəlilərdən ziyan görmüş ustaclılar onların başına toplaşar, Gilanın - Lahicanın təbii qalalarına sığınıb ona qarşı qiyam qaldıra bilərdilər. İsmayıl mirzə ilk növbədə, bunun qarşısını almalıydı. Gecikmək olmazdı. Nə qədər ki, ürəkləri intiqam alovu sarmamışdı, üstünə su tökməliydi. İlk növbədə, vaxtilə ona böyük sayğı göstərmiş Pirə Məhəmməd xan Ustaclını sınamalıydı. Elə gecə ikən dəftərxana darğası Əlixan bəy Türkmanı yanına çağırtdırdı. Əlixan bəy ürəyi əsə-əsə İsmayıl mirzənin qarşısında ikiqat olub gecənin yarısı çağırılmağının səbəbini bilmək istəyirdi. İsmayıl mirzə ürəyində darğaya deyiləsi münasib sözlər axtarırdı:

- Əlixan bəy, elə bu gecə Lahicana yola düşürsən, - dedi.

- Baş üstə.

- Hələ bir nə üçün, kimin yanına getdiyini bil, sonra baş üstə, göz üstə de.

- Baş üstə.

İsmayıl mirzənin istər-istəməz dodağı qaçdı:

- Gedirsən Pirə Məhəmməd xan Ustaclının yanına. Mənim adımdan deyirsən ki, Qəhqəhə qalasındakı əhdimizi unutmamışam. Onun ustaclı tayfası ilə bağlı bütün istəklərini yerinə yetirəcəm. Amma Kəcur qalasının fəthini yarımçıq qoyub onun yanına qaçmış o Murad xan Süfrəçi qızılbaşlar arasında fitnə-fəsada bais olub. Ona görə də onun hər iki gözünü çıxarıb qoysun ovcuna. Bundan sonra qardaşım İmamqulu mirzəni də götürüb Zəncan çəməninə gəlsin. Sabah tezdən Ərdəbilə gedirəm. Onu Zəncan çəmənində gözləyəcəm. Gedə bilərsən.

Əlixan bəy Türkman baş əyib, arxa-arxaya gedib alaçıqdan çıxdı. İsmayıl mirzə gedib yerinə uzandı. Çadırının ətrafında onu qoruyan keşikçilər olsa belə, hələ də Qəhqəhə qalasındakı vərdişini tərgidə bilmirdi, gözləri baxa-baxa yatırdı.

Yata bilmirdi. Taleyində elə gözlənilməz dəyişiklər olmuşdu ki, hələ də ona yuxu kimi gəlirdi. Ağlına da gəlməzdi ki, atası qəfil xəstələnib dünyasını dəyişər, dövlətxananın işlərini əlinə almış, xəzinənin, silah-sursat anbarının açarlarını cibində gəzdirən Heydər mirzə yox, Qəhqəhə qalasının məşhur dustağı şah olar. O, bütün bu baş verən gözlənilməzliklərə görə Allahına, bir də bacısı Pərixan bəyimə borcluydu. Bu qız həqiqətən onun yolunda fədakarlıq etmişdi. Fikirləşirdi ki, Pərixan bəyimin bu fədakarlığını heç vaxt unutmaq olmaz.

Çöldən at ayaqlarının tappıltısı gəldi: «Yəqin Əlixan bəy Türkmandı gedən» - fikirləşdi və dərindən nəfəs alıb sağ böyrü üstə çöndü.

* * *

İsmayıl mirzə Ərdəbildə, babalarının uyuduğu Şeyx Səfi məqbərəsində bir gün, bir gecə qaldı. O, məqbərəyə pənah gətirmiş ustaclılara da toxunmadı. İsmayıl mirzə artıq Qəzvinə, Səfəvilər xanədanının taxtında oturmağa tələsirdi. Nücum elmini yaxşı bildiyindən münəccimlərdən kimsəylə məsləhətləşmirdi. O özü hər gecə ulduzların hərəkətini müşahidə edir, cülusu üçün uğurlu gün arayırdı. Hələlik o xoş saatı müəyyənləşdirə bilməmişdi.

İsmayıl mirzə, əvvəlcədən nəzərdə tutduğu kimi, Zəncan çəməninə gələndə divanxanadan, hərəmxanadan və padşah büyütatından* ibarət dövlətxananın çadırlarını nizamla qurulan gördü. Dövlətxana çadırının üstünə padşahın zərnigar çətirini vurmuşdular. Dövlətxanaya məxsus olan çadırlar payalara bağlanmış kəndir hasarlarla əhatə olunmuşdu. Bu kəndir hasarları keçəndən sonra çadırlara girmək olardı. Qəhqəhə qalasında keçirdiyi dustaqlıq həyatı izsiz ötüşməmişdi. O,

üzə vurmasa da, azadlığa çıxdığı gündən bəri hər kəsə şübhə ilə yanaşdığını hiss eləyirdi. Ətrafındakı insanlara çox da inanmırdı. Amma onlarsız da keçinmək olmazdı. Başa düşürdü ki, adamları gözəgörünməz tellər bir-birinə möhkəm bağlayır. Atalar nahaq söyləməyib ki, şahın da ələkçiyə işi düşər.

Əmirlər, sultanlar onu təbrik etməyə, diz çöküb ətəyini öpməyə tələsirdilər. Eşikağası İbrahim mirzəylə nazir Mirzə Salman, sarayın, hərəmxananın, divanxananın məmurları İsmayıl mirzənin hüzurundaydılar, O, əmisi oğlu İbrahim mirzənin əvvəl Heydər mirzənin tərəfdarı olduğunu bilsə də, indi bunun üstünü vurmadı, ona «qardaşım» deyib mehribanlıqla qucaqladı:

- Xoş gördük, xoş gördük.

Sonra Mirzə Salmanla görüşdü. Onların diz çöküb ayaqlarını öpməsinə icazə vermədi.

İbrahim mirzənin işarəsi ilə qulamı qızıl yəhərli atı İsmayıl mirzənin hüzuruna gətirdi. İbrahim mirzə Şah Təhmasibin qılıncını, möhür üzüyünü, İsmayıl mirzəyə təqdim elədi və sonra Zəncan çəməninə möhtəşəmlik gətirən dövlətxana alaçıqlarını ona göstərərək:

- Padşahlığınız mübarək olsun, - dedi. - Səfəvilər xanədanının, babamız Şah İsmayılın, atamız Şah Təhmasibin taxtında qaim-qədim olasınız!

İsmayıl mirzə İbrahim mirzəyə təşəkkür edib ötəri də olsa şahlıq büsatını seyr etdi: «Allahın işinə bax». Elə bu zaman təpələrin arxasından on atlı çıxdı. Gələn Pirə Məhəmməd xan Ustaclıydı. O, atını yeniyetmə bir oğlanla lap qabaqda sürürdü. İsmayıl mirzə başa düşdü ki, atın üstəki cavan, o, dustaq olanda dünyaya gəlmiş şahzadə İmamqulu mirzədir.

Atlı dəstə gəlib yetişdi. Pirə Məhəmməd xan Ustaclı tez aşırılıb atdan düşdü və təzə şahın hüzuruna gedib onun ayaqlarını qucaqladı. İsmayıl mirzə onun enli çiyinlərindən yapışıb ayağa qaldırdı, «Xoş gəlmisən» dedi. Pirə Məhəmməd xan da öz növbəsində, «Xoş gününüzə gəlmişik» dedi və «Qibleyi-aləm, əmriniz yerinə yetirildi. Murad xan Süfrəçini dünya işığına həsrət qoydum. Bir də əl-ayağa dolaşmaz» müjdəsini verməyi də unutmadı.

İsmayıl mirzə əmrinin belə dərhal yerinə yetirilməsindən məmnun qaldı. On dörd yaşlı şahzadə İmamqulu mirzəni sinəsinə sıxıb, «qardaşım», deyə əzizlədi (Maşallah, yaxşı boyu var. Əgər zindanda olmasaydım, indi bundan da böyük oğlum olardı. Qırx üç yaşım var, hələ bir qız atasıyam. Sabah Səfəvilər xanədanının taxtında oturacağam, amma mənim varisim, vəliəhdim yoxdur. Ancaq

məni əvəz eləyən gör nə qədər şahzadə, əmim, bibim, bacım oğlanları var. Onlar yəqin başımı gora salamat aparmağa da qoymazlar). Ətrafdakılar bu mənzərədən xeyli duyğusal oldular. Eşikağası İbrahim mirzə bu «qucaqlaşıb-öpüşmə» səhnəsinin səmimiliyinə ürəyinin lap dərinliyində inanmırdı. İsgəndər bəy isə görüb eşitdiklərini axşam kağıza köçürmək üçün darıxırdı.

Dəstə-dəstə atlılar Zəncan çəməninə, məmləkətin yeni şahının pişvazına gəlirdilər. Bir sözlə, dövlətxanaya, təzə şaha yaxın olmaq istəyənlər hərəkətdəydilər. Onlar hər cür xidmət göstərməyə hazırdılar, təki təzə şahın gözlərində ucalsınlar. Pirə Məhəmməd xan Ustaclı əmirlər, sultanlar arasında elə şəstlə dayanmışdı ki, heç elə bil bir sifarişlə öz həmtayfası, dünənə kimi bir süfrə başında çörək kəsdiyi Murad xan Süfrəçini dünya işığına həsrət qoyan o deyildi.

Günorta naharından sonra İsmayıl mirzənin göstərişi ilə paytaxta doğru hərəkət etdilər. Böyük bir köç İsmayıl mirzənin ardınca gedirdi. İsmayıl mirzə göz işlədikcə uzanan biçənəklərə, meşələrə, yaxından, uzaqdan görünən kəndlərə, obalara baxıb fərəhlənirdi. Biçənəklərə doluşmuş bildirçin, qaratoyuq, çobanaldadan quşları at ayaqlarının tappıltısından hürküb başları üstündə dövrə vururdu, atlar kişnəyir, dəvələr manqırışır və bütün bu könüloxşayan mənzərələri, sanki, gözəgörünməz bir qüvvə xəyal «yaylığı»na büküb İsmayıl mirzənin uşaqlıq, yeniyetmələk çağlarını özünə qaytarırdı. Axşama yaxın dağlardan əsən sərin meh özü ilə yovşan, kəklikotu, yarpız qoxusu gətirirdi. Yarpız ətri gələndə bilirdilər ki, yaxınlıqda ya bulaq, ya da çay var.

İsmayıl mirzəni müşayiət eləyən köç mənzilbəmənzil irəliləyərək, böyük təntənə, əzəmət və şadlıqla uzaq məsafəni qət edib pəncşənbə günü, rəbiül-əvvəl ayının 16-da (13 iyun 1576) Qəzvinin ətəklərinə çatdı. İsmayıl mirzə yenə də gizlində özünün bildiyi üsulla fal açıb şəhərə girmədi (bəlkə də, bir başqası olsaydı dövlətxana, saray, səltənət taxtı bu qədər yaxınkən səbirsizlik edərdi), şəhərdən şimalda düşərgə salıb qəlbində tutduğu o uğurlu saatı gözləməyə başladı. Deyir, dağ Məhəmmədə sarı gəlməz, Məhəmməd dağa doğru gedər. Xalq biləndə ki, İsmayıl mirzə Qəzvinin yaxınlığında düşərgə salıb, onun görüşünə axışdı. Pərixan bəyimin doğmaca qardaşı Süleyman mirzə dayısı Şamxal sultanla, sonra on səkkiz yaşlı Mahmud mirzə, rəhmətlik Şah Təhmasibin Sultan Əhməd Bağdadi deyə əzilzədiyi on üç yaşlı Əhməd mirzə adını eşidib üzünü görmədikləri Qəhqəhə dustağının hüzuruna gəldilər. İsmayıl mirzə Süleyman mirzəni sinəsinə çəkib üzündən öpdü:

- Neçə yaşın var?

- İyirmi bir.

- Sən bir il dörd aylıq olanda mən zindana düşdüm.

- Keçmiş olsun, hökmdar.

- Amma istəsən də keçmiş keçmişdə qalmır (sükut). Sən bir yaşında olanda səni çox atıb-tutmuşam, oynatmışam (şaqqanaq çəkib güldü), hələ desən, bir dəfə də üstümə işəmisən.

Süleyman mirzənin yanaqları xəfifcə qızardı.

- Atamız səni hara göndərmişdi? - İsmayıl mirzə soruşdu.

- Vəlinemətimiz hələ tifilkən məni müqəddəs Məşhəd şəhərinə göndərmişdi. Məşhəd hakimi mənim lələm idi. Həddi-buluğa çatanda mürşidi-kamilimiz məni müəllimə tapşırdı. Mən dərslərimi başa vurandan sonra İmam Rzanın məqbərəsinin xadimbaşçısı oldum. Daha sonra mürşidimiz məni orduya gətirdi.

- Çox gözəl, - deyib şahzadə Mahmud mirzəni qucaqladı. - Mahmud mirzə, sənin neçə yaşın var?

- On səkkiz.

- Məni Qəhqəhə qalasına salanda iyirmi dörd yaşım vardı. Sən onda dünyaya hələ gəlməmişdin.

- Elədir, hökmdar.

- Evlisən?

- Bəli.

- Övladın varmı?

- Bəli, bir oğlum var, hökmdar.

- Adı nədir?

- Məhəmmədbağır.

- Adıyla böyüsün.

- Əskik olmayasınız, hökmdar.

- Bu on səkkiz ildə heç məni yad etmisənmi?

- Sarayda tez-tez sizi xatırlayırdıq, hökmdar. Sizdən danışanda şah atamızın gözləri dolardı.

İsmayıl mirzənin üzündə istehzalı təbəssüm dolaşdı:

- Amma bir dəfə də olsun vaxt tapıb yanıma gəlmədiniz!

Mahmud mirzənin başı sinəsinə əyildi. İsmayıl mirzə əlini gəncin sifətinə vurdu:

- Yaxşı, keçmiş olsun.

O, Mahmud mirzədən aralanıb yeniyetmə Əhməd mirzəni qucaqladı:

- Ay maşaallah, nə gözəl oğlansan.

- Sağ olun, hökmdar.

- Sənin neçə yaşın var, Əhməd?

- On üç yaşım var, hökmdar.

- Çox əcəb, çox gözəl. Əziz balam, sənin nə qəşəng gözlərin var?!

Əhməd mirzə utanıb başını aşağı dikdi. İsmayıl mirzə yenidən Süleyman mirzənin qarşısında durdu:

- Bu Mustafa mirzə hardadı?

- Hökmdar, Mustafa mirzə Heydər mirzə öldürüldükdən sora bayat tayfasına pənah aparıb.

- Bayat tayfasına niyə?

- Bayat tayfasının adamları onun mülazimləridirlər.

- Onun lələsi kimdir?

- Hüseyn bəy Yüzbaşı.

- Yaxşı, bəs şahzadə Əli mirzə hardadı?

- Gəncədə.

- Onun neçə yaşı var?

- On dörd.

- Ay maşallah. - (O bu «maşallahı», əslində, mərhum atasının ünvanına söyləyirdi). Eşikağası İbrahim mirzəyə müraciətlə. - Çapar göndərin, qoy şahzadə Əli Qəzvinə gəlib dövlətxanada gözümüzün qabağında yaşasın.

İbrahim mirzə baş əydi.

Düşərgəyə insan axını hələ də davam edirdi. Nəhayət, bu son günlərdə baş verən hadisələrin baiskarlarından olan Hüseynqulu Xüləfa başının mülazimləri ilə özünü təzə şahın düşərgəsinə yetirdi. Atdan düşüb şişman qarnını qabağa verib gərdənini yırğalaya-yırğalaya, təkəş-təkəş İsmayıl mirzənin qarşısına yeridi. O, İbrahim mirzənin, Mirzə Salmanın, Pirə Məhəmməd xan Ustaclının, Şamxal sultanın, Süleyman mirzənin, Mahmud mirzənin, İmanqulu mirzənin, Əhməd mirzənin əhatəsində şahanə görkəmdə ətrafı, getdikcə artan izdihamı seyr edirdi.

Hüseynqulu Xüləfa İsmayıl mirzənin qarşısında baş əyib ona «Xoş gəldin» dedi. İsmayıl mirzənin ayaqlarını öpməyə əyildi, şişman qarnı imkan vermədi və təzə şah da ilan kimi fısıldayan, köklükdən təngnəfəs olmuş Xüləfanı «ayaqöpmə» əzabından qurtarıb onun əhvali-şərifini soruşdu. Hüseynqulu Xüləfanın çöhrəsi hamamdan təzəcə çıxmış xanımların yanağı kimi qızardı. «Şükür ilahinin kərəminə, axır ki, haqq-ədalət öz yerini tapdı» - deyib salavat çevirdi.

Gülüş səsləri İsmayıl mirzənin diqqətini Hüseynqulu Xüləfadan yayındırdı. Xoca Fərrux və qorçular əynində çoban paltarı olan keçəpapaq bir nəfəri ona doğru gətirirdilər. Kütlə coşmuşdu. Keçəpapaq adama lənətlər yağdırırdılar. Hətta qılınca əl atanlar da oldu. Əgər qorçular mane olmasaydılar, keçəpapaq doğranacaqdı. İsmayıl mirzə yavaşca Hüseynqulu Xüləfadan soruşdu:

- Bu kimdir?

Xüləfa qartal caynağına oxşar balaca əlini gözü üstə günlük elədi və onlara yaxınlaşmaqda olan keçəpapaq adamı tanıyıb şaqqanaq çəkdi. İsmayıl mirzə əmirlərin, camaatın yanında özünü bu cür saymazyana aparan Hüseynqulu Xüləfaya tərs bir nəzər saldı. Gülüşü Hüseynqulu Xüləfanın üzündə dondu və o ciddi bir görkəm alıb:

- Bu keçəpapaq ustaclı əmiri Hüseyn bəy Yuzbaşıdı, - dedi. - Heydər mirzəni sizin yerinizə şah taxtına oturtmaq istəyən, Mustafa mirzənin lələsi, bax, bu haramzadadır.

Hüseyn bəy Yüzbaşı Hüseynqulu Xüləfanın son sözlərini eşitdi:

- Ey Hüsenqulu Xüləfa, - dedi, - üstümü unlu görüb adımı dəyirmançı çağırma. Sən xislətdə olan miskin adamlar şahdan ənam almaq niyyəti ilə məni adıma, şərəfimə, nəslimə yaraşmayan gülünc hala salıblar. Darıxma, hər gecənin bir sabahı var. Sən hardan bilirsən ki, sabah sənin başına nə gələcək? Bu gün məni

keçə papaqda, çoban paltarında hökmdarın hüzuruna gətirənlər, inşallah, bir gün də səni qara eşşəyin belində tərsinə oturdub, Qəzvinin küçələrində gəzdirəcəklər.

Hüseynqulu Xüləfa cin atına mindi:

- Kəs səsini, hərzə-hərzə danışma. Belə görürəm ki, sənin o iti dilin kəsilməsə (oğrunun yadına daş salırdı), çox şey danışarsan. Hardadı sənin o dil verdiyin, lələlik elədiyin Mustafa mirzə?

- Sənə nə var, sən kimsən?

Camaatın arasında dayanıb bu söz atışmasına qulaq asan İsgəndər bəy ürəyində Hüseyn bəy Yüzbaşının özünü belə mərdanə aparmasından qürur duyurdu. Allaha yalvarırdı ki, hökmdar onu bağışlasın. Elə bu vaxt İsmayıl mirzə ondan soruşdu:

- Günahını boynuna alırsanmı, Hüseyn bəy?

Hüseyn bəy əlini üzünə çəkib salavat çevirdi:

- Sübhanallah. Hökmdar, mənim kim olduğunu yaxşı bilirsən. Atanız Şah Təhmasibin hüzurunda məşvərət sahibi, qoşunumla, həyatımla ona xidmət edən, Səfəvilər xanədanın dayaqlarından biri olmuşam.

- Günahın olub, olmayıb, ondan danış.

- Padşah sağ olsun, ətrafımız günahkarlarla dolu olduğu halda, təkcə mənmi günahkar oldum?

- Belə görünür. Mənə söylədilər ki, Heydər mirzəni taxtda oturtmaq üçün dövlətxananın üstünə qoşun çəkibsən.

- Xeyr, yalan söyləyirlər, mən qızılbaşlar arasında nifaq salınmasını, qan tökülməsini heç vaxt istəməmişəm. Əgər qan tərəfdarı olsaydım, qoşun çəksəydim, bu gün Hüseynqulu Xüləfa sizin yanınızda dayanmazdı.

- Günahın var, ya yox?!

- Günahım günahsızlığımdı, hökmdar. Ey padşah, camaatın hamısı Sultan Heydər tərəfdarı olsa da, axırda sizin bəxtiniz yüksəldi. Allah-taala öz istəyini həyata keçirdi. İntiqam almaq istəsəniz, onda gərək bir aləm adamı qətlə yetirəsiniz!

Hüseynqulu Xüləfa İsmayıl mirzənin duruxduğunu görüb narahat oldu. O, Hüseyn bəy Yüzbaşının bəraət almasını heç istəmirdi. Ona görə də gözünü hökmdarın ağzına dikmişdi, sanki onun ağzından çıxan sözləri, eşidilməsin deyin, udacaqdı. İsmayıl mirzə:

- Hüseyn bəy, səni mərdliyinə bağışlayıb qətlinə fərman vermirəm, amma günahsız da bilib azad etmirəm. Səni ali divanın qorçularına tapşırıram, gəlin aparın bunu!

Qorçular gəlib Hüseyn bəy Yüzbaşının qoluna girdilər. Hüseyn bəy Yüzbaşı qətlə yetirilmədiyi üçün pərt olmuş Hüseynqulu Xüləfaya çəpəki nəzər salıb:

- Ey Xüləfa, - dedi, - çox da dünya malına bel bağlama. Eşitmisənmi gəncəli Şeyx Nizami nə deyib:

Cənnəti almaq olmaz axça ilə,

Girmək olmaz behiştə rüşvət ilə.

Adamların arasında gülüş qopdu. Hüseyn bəyi apardılar.

XXV FƏSİL

FƏRƏHLİ GÜNLƏRİN SONU

Utansın o kəs ki, ömrü puç etdi,

Dünyadan köçəndə xəcalət getdi.

Sədi Şirazi

İsmayıl mirzə başının məiyyəti ilə düşərgəsindən çıxıb atasının saldırdığı Səadətabad bağına gəldi. Səadətabad bağı, doğrudan da, öz böyüklüyü, ağac növlərinin rəngarəngliyinə görə çox möhtəşəm idi. Burada ilin hər fəslində bar verən meyvə ağaclarıyla yanaşı, nadir bəzək ağacları, gül kolları da vardı.

İsmayıl Qəhqəhə qalasına salınmazdan qabaq Qəzvinə yolu düşəndə bu bağda çox xoş anlar yaşamışdı. İndi ötən günlərinin şirin xatirələri ilə bağı dolaşırdı. Hər ağac, gül kolu, içində balıqlar üzən hovuzlar, bağın ortasından axan su arxı onu duyğulandırırdı. Ağaclara baxıb atasını xatırlayırdı. Təhmasib şah bu bağı az qala öz əli ilə salmışdı. Fikirləşdi ki, Qəhqəhə qalasından çıxmasaydı, ömru boyu bu bağı görməyəcəkdi. Bağı gəzdikcə ona elə gəlirdi ki, kimsə kölgə kimi ondan

qabaqda gedir. Kim idi, nə idi bu? Bəlkə onu qara basırdı. «Olmaya Heydər mirzənin ruhudu, bağda dolaşır?! Yazıq sağ qalsaydı, indi Səfəvilər dövlətinin hökmdarı kimi gəzirdi bu bağda. Allah şahiddir ki, mənim əlim onun qanına batmayıb. Görünür, Tanrının məsləhəti belə imiş».

İsmayıl mirzənin qəlbindən keçənlərdən xəbərsiz olan Hüseynqulu Xüləfa cibindən çıxartdığı iri yaylıqla boyun-boğazının tərini qurulayıb:

– Bura cənnətdi, hökmdar, cənnət, – dedi və onu düşüncələrdən ayırdı.

– Nə buyurdun, Xüləfa? – soruşdu.

– Deyirəm, hökmdar, bağ deyil ey, cənnətdi.

– Elədi.

– Gör bülbüllər necə cəh-cəh vurur!

İsmayıl mirzə Hüseynqulu Xüləfanın bu sözlərinə ayaq saxladı: «İlahi, insandakı bu ikilik nədəndir? Dünən Hüseyn bəy Yüzbaşı kimi mərd bir kişinin qətlini istəyən Hüseynqulu Xüləfa indi bülbüllərin cəh-cəhindən zövq alır».

İsmayıl mirzəni müşayiət edən şahzadələr, seyidlər, üləmalar, əmirlər, sultanlar hökmdarın nə deyəcəyini gözləyirdilər. İsmayıl mirzə keçirdiyi halı bir bənd şeirlə ifadə elədi:

– Şirvanlı İmadəddin Nəsimi yaxşı deyibdir:

Gör necə fəryad edər biçarə bülbül dərdilən,

Kim, onun fəryadinə əfganə gəldi daşlar.

Bilmirəm insanda bu təbiətə sonsuz məhəbbətlə, təbiətin bir parçası olan həmcinsinə nifrət hardandı? (Bu sualı içində özünə də verirdi, amma cavabını tapa bilmirdi).

Hüseynqulu Xüləfa İsmayıl mirzənin nə demək istədiyini göydə tutdu:

– Hökmdar, insan insanın rəqibidir, təbiətin yox. Bir ananın bətnindən çıxanlar da rəqibdilər. Əslində, qardaş deyil, qarındaşdı…

– Niyə?

– Bu sirri-xudadı, hökmdar. Yer üzündə yeyib-içən bütün canlılar bir-birinə rəqibdir.

– Amma, Hüseynqulu Xüləfa, heç bir canlı insan qədər şər ruhlu deyildir.

– Elədir, hökmdar. Şeyx Nizami bu xüsusda yaxşı buyurubdur:

Aslan ki, ormanda etmişdir məsgən,

Qorxaraq gizlənmiş insan şərindən.

İsmayıl mirzə başdan-ayağa Hüseynqulu Xüləfanı süzdü: «İlahi, sən bütün varlığı ilə şər olan bu Xüləfanın dilindəki hikmətə bir bax. Görünür, insan öz xislətinin fərqində deyildir».

– Ey Hüseynqulu Xüləfa, gəncəli Şeyx Nizami bir də deyib ki:

İnsanda insanlıq öləndən bəri

İtmiş insanlığın parlaq gövhəri.

Təzəcə çiçəkləmiş nar ağacının yanında ayaq saxladılar, nar çiçəyinin al-qırmızı ləçəkləri günün şəfəqləri altında daha da parlaq görünürdü. Hər ağacın başqa-başqa rəngdə çiçəkləyib, başqa biçimdə meyvə gətirməsinin özü də İlahi möcüzəsiydi.

Hökmdar susduğundan, kimsə dinib-danışmağa cəsarət etmirdi. Nəhayət, arxın üstündəki körpüdən keçib nisbətən açıqlığa çıxdılar. Buradan dövlətxananın binaları görünürdü. Hökmdarın boynunda haqq-sayı olan adam kimi yenə də hamıdan qabaq Hüseynqulu Xüləfa dilləndi:

– Hökmdar, dövlətxanaya təşrif buyurmağınızın zamanı deyilmi?

– Xüləfa, mən hələ dövlətxanaya getməyə tələsmirəm. Rəhmətlik atam Şah Təhmasib Qəzvini məmləkətin paytaxtı seçib, bu cür bağ saldırıb, bir belə saraylar tikdirib, gərək mən də ustalar çağırtdırıb təmir elətdirəm, ondan sonra bir xoş gündə cülus edərik. Cülus günü yaxından, uzaqdan bura çoxlu qonaqlar gələcək, qoy onlar Səfəvilərin əzəmət və möhtəşəmliyini görsünlər, – dedi və İsmayıl mirzə üzünü bayaqdan bir kəlmə də olsa dinib-danışmayan İbrahim mirzəyə tutdu: –

İbrahim mirzə, məmləkətin ən qabiliyyətli ustalarını çağırtdır, Çehelsütün eyvanını, dövlətxananı, hərəmxananı, divanxananı, dəftərxananı, kitabxananı könlümüzü, gözümüzü oxşayan hala gətirsinlər.

İbrahim mirzə:

– Baş üstə, – dedi, – elə bu axşam göstəriş verərəm.

Hüseynqulu Xüləfa canıyananlıq göstərdi.

– Bəs cülus gününə qədər hökmdar harada yaşamaq istəyir?

– Yer taparıq.

Hüseynqulu Xüləfa yenə də özünü atdı ortaya:

– Hökmdar, ürəyiniz istərsə, mənim mülkümdə məskunlaşın. Belə etsəniz, mənə şərəf vermiş olarsınız.

İsmayıl mirzə Hüseynqulu Xüləfanın təklifini eşidəndə fikirləşdi ki, yaxşı fürsətdir, gedim onun evində qalım, görüm bu hansı «yuvanın quşudu».

– Çox sağ ol, Xüləfa, maşallah, qonaqpərvər kişisən. Cülus gününə qədər sənin evində qalaram.

Hüseynqulu Xüləfanın iri başı çəpər basmış boranı kimi şişman qarnı üstə əyildi:

– Çox məmnun olaram, hökmdar.

İsmayıl mirzə «Çox gözəl, çox pakizə» – deyib qabağa düşdü.

* * *

Pərixan bəyim eşidəndə ki, İsmayıl mirzə sarayda bir belə malikanələri qoyub qalmaq üçün Hüseynqulu Xüləfanın mülkünü seçib, əməlli-başlı darıldı. Şəriəti, adət-ənənəni nəzərə alıb özü İsmayıl mirzənin görüşünə getməmişdi, amma Pərixan bəyimi için-için ağrıdan da bu idi ki, yolunda çox şeydən keçdiyi Qəhqəhə qalasının dünənki dustağı onu yad eləməmişdi. Elə bil Səfəvilər xanədanında, Qəzvin sarayında hökm və səlahiyyət sahibi olan Pərixan adlı bir pəri yoxdu. O, dünənki dustaqdan, haqqında mənzumə yazdığı bu Osmanlı-Səfəvi müharibəsinin qəhrəmanı İsmayıl mirzədən nələr gözləyirdi, nələr gördü. Pərixan bəyim İsmayıl

mirzədən qətiyyən belə hörmətsizlik gözləmirdi, amma gözlədiyinin tam əksi alınmışdı.

Pərixan bəyim içində sarsılsa da, zahirən özünü tox tuturdu. Və nə yaxşı ki, şahzadələr, sarayın möhtəbər əmirləri, sultanları, müşavirlər, haciblər, qorçubaşıları əvvəlki kimi ona sayğı ilə yanaşır, hər əmrini yerinə yetirir, itaət göstərirdilər.

Əslində bu məqamlarda sarayda ikihakimiyyətlik hökm sürürdü. Hakimiyyətin bir başında hələ atası Şah Təhmasibin sağlığında onun müşaviri, söz sahibi olan Pərixan bəyim, digər tərəfdə isə adına məscidlərdə xütbə oxunan, lakin hələ də cülus edəcəyi günü müəyyənləşdirməyən, məmləkətdə, dövlət işlərində nə kimi yeniliklər, dəyişikliklər edəcəyi biliməyən İsmayıl mirzə durmuşdu.

Hamı İsmayıl mirzənin cülus edəcəyi günü gözləyirdi. Pərixan bəyim də. Amma dünənki şah dustağı cülus etməyə qətiyyən tələsmirdi. O, münəccimləri yaxına buraxmır, cülus gününü özünün seçəcəyini bəyan edirdi.

* * *

Hüseynqulu Xüləfanın sevinci isə yerə-göyə sığmırdı, evi bir günün içində dövlətxanaya çevrilmişdi. Hər kəs İsmayıl mirzəni görmək üçün onun evinə gəlirdi. Şahzadələr də hər axşam İsmayıl mirzənin qonaqları sırasında lap başda otururdular. O, qonaqlarına çox mehribanlıq göstərirdi və hər kəs də bunu görürdü. Şahzadələrdən üç nəfər – böyük qardaşı, Xorasanın hakimi Məhəmməd mirzə, bayat tayfasına pənah aparmış Mustafa mirzə, bir də Gəncədə yaşayan on dörd yaşlı Əli mirzə burada yoxdular. O, Məhəmməd mirzəni heç gözləmirdi də. Ədalətə qalsa, böyük oğul kimi şahın vəliəhdi o idi. Amma gözdən mayıf olmağı bu şahzadəni arxa plana keçirmişdi. O, hələ altı yaşında olanda atası Şah Təhmasib onu Xorasan diyarının hakimi seçmişdi. Atası balaca Məhəmmədi lələsi Məhəmməd xan Şərafəddinoğlu Təkəliyə tapşırmışdı. Xoşxasiyyət, zarafatcıl, əyləncə məclislərini sevən bu şahzadə hərdən əlinə qələm alıb Fəhmi təxəllüsü ilə şeirlər də yazırdı. Onun böyük oğlu Həsən mirzə Seyfəl Hüseynin qızından dünyaya gəlmişdi. Məhəmməd mirzənin ikinci arvadı, Mazandaran valisi Mir Abdulla xanın qızı Xeyrannisadan Həmzə, Abbas mirzə, Əbutalıb mirzə və Təhmasib mirzə adlı oğlanları vardı. Bu fars qızı Xeyrannisa xanım dörd şahzadə anası olduğu üçün ona Məhdi-Ülya adı verilmişdi.

Mustafa mirzə bayat tayfasına pənah aparmışdı, on dörd yaşlı Əli mirzə Gəncədəydi və bu gün-sabah onu da Qəzvinə, İsmayıl mirzənin hüzuruna gətirəcəkdilər.

İsmayıl mirzə beşinci axşamdı Hüseynqulu Xüləfanın evində məskunlaşmışdı. Günün batabat çağıydı, ona xəbər verdilər ki, bayat tayfasının əmiri Hacı Veys sultan Mustafa mirzəni gətirib, hökmdarı görmək istəyir. İsmayıl mirzə bu xəbərdən duyğusal oldu, tez: «Buyursunlar» – dedi. Əvvəl şahzadə Mustafa mirzə, ardınca Hacı Veys sultan içəri girdi. İsmayıl mirzə böyük bir zalda baş tərəfdə oturmuşdu, onun sağ yanında şahzadələr, əmirlər, sultanlar, sol yanında Hüseynqulu Xüləfa Rumlu, ondan aşağı seyidlər, üləmalar, haciblər, qorçubaşılar əyləşmişdilər.

İsmayıl mirzə yerindən qalxıb Mustafa mirzəni qucaqladı, ona şahzadələrin yanında oturması üçün yer göstərdi. Mustafa mirzə özündən bir yaş böyük qardaşı Süleyman mirzənin yanında əyləşdi.

Hacı Veys sultan əyilib hökmdarın ayaqlarından öpdü. İsmayıl mirzə də ona iltifat göstərib əmirlər cərgəsində oturmaq üçün yer göstərdi.

İsmayıl mirzə hər şeyi gözəl bilsə də, Mustafa mirzənin öz dilindən eşitmək üçün onu sorğu-suala tutdu:

– Sənin neçə yaşın var?

Mustafa mirzə ədəblə baş əyib cavab verdi:

– İyirmi yaşım var.

– «Zindana salınmasaydım, indi sən yaşda oğlum vardı». Evlisən?

– Bəli, iki qızım var.

– Şücaət göstərmisənmi?

– Bəli, Gilanın Piye-pişə vilayətinin fəthində iştirak etmişəm. Döyüşlərdən qalib çıxdığıma görə, mərhum atamız mənə əyalət hakimi rütbəsi verərək qoşun sahibi olmağıma icazə vermişdi.

– «Aha, deməli bu, döyüş görüb, qorxudan çıxıb, üstəlik qoşun sahibidi! Onun bu cəhətini unutmaq olmaz!» Sənin lələn kim olub?

– Əvvəl ustaclı Nəzər sultan idi, o öləndən sonra Hüseyn bəy Yüzbaşı oldu.

İsmayıl mirzə:

– Çox gözəl, – dedi və bir-bir şahzadələri sınayıcı nəzərlərlə süzdü: «Allah, sən saxla, gör nə qədər rəqibim var. Səfəvilər səltənətinin taxtına gör nə qədər göz dikilib. Hələ doğma qardaşım Məhəmməd mirzə, onun oğlanları, Gəncədəki şahzadə Əli mirzə, əmim Bəhram mirzənin uşaqları – Qəndəhar vilayətinin və Zəmindvərin mütləq hakimi Hüseyn mirzə, sarayın eşikağası, Səfəvilərin şairi, bəstəkarı, sərf-nəhv, fəlsəfə, tibb, ilahiyyat, nücum (saymaqla qurtarır ki…), məntiq elmlərinə bələd, «Fərhəng-i-İbrahim» təzkirəsinin müəllifi, hörmət-izzət sahibi İbrahim mirzə (yaxşı ki, oğlu yoxdur), Pərixan bəyim kimi ağıllı-kamallı, hiyləgər bir xanımın nişanlısı Bədüzzaman mirzə (hələ bir oğlu da var). – İlahi, ətrafımda gör nə qədər gödənyırtan ac canavar var. (Sükut.) Bunlarla bacara biləcəyəmmi? Hərəsi bir vilayətin başçısı, qoşunu, tərəfdarı. Yox, bunların qarşısını vaxtında almasam, məni aradan götürərlər… Bəs mənim kimim var? Vəliəhdim yox, vur-tut Sultanbəyim adlı bir qızım var, onunla da vaxt tapıb hələ görüşə bilməmişəm».

Qabaqda yoluna qoyulası çox işlər vardı. Maneələri bir-bir aradan götürməliydi. Bu Hüseynqulu Xüləfa da, deyəsən, yavaş-yavaş çaşır. Oturuşunda, duruşunda, söz-söhbətində adamların gözü qabağında açıqca boynuma minnət qoymağa başlayıb. Onun sözünün başına ip salanda, qaladığı ocağın közünü eşəndə belə çıxırdı ki, bu Hüseynqulu Xüləfa olmasaymış, mən Qəhqəhə qalasında qalasıymışam.

İsmayıl mirzə Hüseynqulu Xüləfanın bu əndazəni aşan söz-söhbətinə son qoymaq üçün bir axşam onu sınağa çəkdi:

– Hüseynqulu Xüləfa, – dedi, – sən dünyagörmüş, ağıl-kamal sahibi olan bir kişisən. Bu neçə vaxtda fikir verirəm, sənin səviyyən bu xüləfalıq mərtəbəsini artıq ötüb keçmişdir. Mən sənə ali divanın vəkili (vəkalət-i ala) və hökmdarın naibi vəzifəsini təklif eləyirəm.

Hüseynqulu Xüləfa yaxşı bilirdi ki, sufilər onu mürşidi-kamilin xəlifəsi və naibi hesab edirlər, onun hökmünü şahın ikinci hökmü sayırlar. Buna görə təkcə Qəzvində onun arxasında on min sufi dayanır. İndi hökmdarın təklifi ilə xəlifət əl-xüləfa vəzifəsindən imtina etsə, arxasında dayanan, onun şəxsiyyətinə əzəmət və möhtəşəmlik gətirən on min sufini itirəcək.

Evinin yuxarı başında şahanə oturmuş hökmdar ondan cavab gözləyirdi. Hökmdar onu yaman yerdə tutmuşdu, qaçmağa yer yoxdu. Ona görə də dedi:

– Hökmdar, mən xəlifət əl-xüləfa vəzifəsindən imtina etmərəm. İsrar edirsinizsə, vəkillik vəzifəsi də xüləfalıq mənsəbinin üstünə gəlsin. Əks təqdirdə vəkilliyə razı deyiləm.

İsmayıl mirzənin gözləri qıyıldı, gicgahındakı damarlar qabardı:

– «Qudurasan, a qurbağa. Sən bir bunun iddiasına, təşəxxüs satmağına bax». Ağsaqqal, sözündən belə çıxır ki, sarayın xəlifət əl-xüləfası olmaq hökmdarın vəkili olmaqdan daha üstündür?

– Hökmdar, illərlə xüləfalıq etmişəm, birdən-birə vəzifəmdən imtina etmək mənə çöçün gəlir.

İsmayıl mirzə qəzəbini udub:

– Nolar, – dedi, – məsləhət sənindi.

Bununla da söhbət bitdi, amma İsmayıl mirzə Hüseynqulu Xüləfanın ədasını, arxasında duran on min sufisini, tamahının çoxluğunu unutmadı. Gecə yerinə girəndə Hüseynqulu Xüləfanın etirazını yadına salıb bir az da qəzəbləndi: «Sən bir bunun həddini aşmağına bax, qudurğanlığına bax! Dayan, sabah açılsın, mən sənə yerini göstərərəm!».

Səhəri gün rumlu əmirləri onun hüzurunda olanda üzünü onlara tutub soruşdu:

– Hörmətli əmirlər, mən sizdən eşitmək istəyirəm, sufilər və taliblər mürşidi-kamilin sözündən çıxsalar və onun göstərişinə tabe olmasalar, onda sufiliyin yoluna, Səfəviyyə şeyxlərinin qaydalarına əsasən onlara nə mükafat düşür?

İsmayıl mirzəylə Hüseynqulu Xüləfanın arasında olan söhbətdən xəbərsiz olan rumlu əmirlər dedilər:

– Hökmdar, mürşüdi-kamilin buyruğundan boyun qaçıran, ona tabe olmayan, kimliyindən asılı olmayaraq, hər kəs xəta sahibidir və rədd olunmuş bir şəxsdir.

– Cənablar, sizin hörmətli Hüseynqulu Xüləfa mənim təklif etdiyim dövlətxananın vəkili olmaq kimi şərəfli bir vəzifədən imtina etmişdir. Mənə qarşı göstərdiyi iltifatın qarşısında onu şərəfləndirmək istədim, o isə mənim sözümü yerə saldı.

Əmirlər başlarını aşağı salıb deməyə söz tapmadılar.

İsmayıl mirzə ilə əmirlər arasında olan söhbəti olduğu kimi Hüseynqulu Xüləfaya çatdırmışdılar. O, tez-tələsik geyinib-kecinib hər səhər olduğu kimi hökmdarın hüzuruna tələsdi. İsmayıl mirzədən üzrxahlıq etmək, qaranlıq mətləblərə aydınlıq

gətirmək istəyirdi. O, öz evinin – hökmdarın hal-hazırda dövlətxanaya çevirdiyi evin qapısını açıb həmişəki kimi vüqarlı və səlahiyyət sahibi kimi içəri keçmək istəyəndə yolunu kəsdilər. Hüseynqulu Xüləfa hələ nə baş verdiyini, qarşıda onu nələr gözlədiyini bilmədiyindən qəfəsə salınmış ilan kimi fısıldadı:

– Haciblər, qorçular, bu nə deməkdir, siz məni tanımırsınızmı?

Başı qapının çərçivəsini «öpən» hacib dedi:

– İçəri girmək olmaz, hörmətli Hüseynqulu Xüləfa. Bu ev sizə məxsus olsa da, hal-hazırda padşahımız bu evdə məskunlaşmışdır. Padşahın qaldığı yer isə Səfəvilər xanədanının dövlətxanası sayılır.

Hüseynqulu Xüləfanın gözləri az qaldı hədəqəsindən çıxa:

– Ay qardaş, axı mən bu dövlətxananın xəlifət əl-xüləfasıyam («Bu evin yiyəsiyəm» sözlərini isə ürəyində dedi).

– Bəli, elədir. Amma siz Hüseynqulu Xüləfa qızılbaşların mürşidi-kamili olan padşahın yanında təqsirkar və xəta sahibisiniz.

– Mən günahımın nə olduğunu mürşidi-kamilin öz dilindən eşitmək istəyirəm.

İçəri keçməyə cəhd edən Hüseynqulu Xüləfanın qarşısında «ətdən» çəpər çəkdilər:

– Olmaz!

– «İlahi, sən bir işə bax, öz evimə girmək üçün icazə istəyirəm! Dağıl, ay dünya, dağıl!» Padşahımıza söyləyin…

– Olmaz! Mürşidi-kamilimiz sizi bağışlamayıb. Sufilik davranış tərzinə görə, sizin dövlətxanaya daxil olmağınız caiz deyildir. Hüseynqulu Xüləfa, mürşidi-kamilimiz sizi hüzuruna çağırana qədər dərgahın qapısı ağzında əyləşin.

Hüseynqulu Xüləfanın başqa çıxış yolu yoxdu. Elə bir oyuna düşmüşdü ki, oradan necə və nə sayaq çıxacağını təsəvvür eləyə bilmirdi. Halı özündə deyildi. Hazırda yaşadığı mənzilə gedə də bilməzdi. Çünki haciblər qapının ağzında oturmaq üçün yerini göstərmişdilər. Öz qapısının ağzında günahkar kimi oturmaqdan başqa əlacı yoxdu. Elçi daşının üstündı oturub (bu mərmər daşın üstə oturub saatlarla onu gözləyənlər çox olmuşdu) başını əlləri arasına aldı. Hüseyn bəyYüzbaşının səsi gəldi qulaqlarına: «Səni qara eşşəyin belində tərsinə oturdub Qəzvinin küçələrində gəzdirəcəklər». Belə görünürdü ki, Hüseyn bəy Yüzbaşı ondan daha uzaqgörən imiş. Hər kəsdən hörmət-izzət görən Hüseynqulu Xüləfa öz tutduğuna mat qalmışdı. Heydər mirzənin ölümünə öz evinə girə bilməmək üçünmü fitva

vermişdi? Sən bir taleyin işinə bax, Səfəvilər xanədanında sözü ən keçərli birisi olmaq əvəzinə öz evinin astanasındakı elçi daşının üstündə oturub günahının bağışlanmasını gözləyir. Ağıllı və hiyləgər olduğundan, hökmdarın gözündən düşməyin nə demək olduğunu, bunun nə ilə bitəcəyini çox yaxşı bilirdi. Öz ehtiyatsızlığı üzündən Qəhqəhə qalasının dünənki dustağının gözündən çox tez düşmüşdü. Hökmdar on gün idi ki, onun evində qalırdı. Qazandığı hörmət-izzət bu on günün içində ayaqlar altına atılmışdı. Yəqin Heydər mirzənin qanı tutub onu. – Bu zaman Heydər mirzənin kəsik başı gözləri önündə canlandı: «Alın, bu da sizin şahın başı!». İlahi, nə dəhşətli mənzərəydi. Amma o anlarda bu dəhşətli mənzərədən zövq almışdı. Acı-acı düşündü ki, atalar yaxşı deyib, gen qaz, dərin qaz, axırda özün düşərsən.

Günortaüstü, acından qarnı quruldayanda içəridən bir nəfər yanına gəlib dedi:

– Hüseynqulu Xüləfa, padşahımız buyurdu ki, öz mənzilinizə gedəsiniz, əgər sizə deyiləsi sözü olarsa, çağırtdıracaq.

Hüseynqulu Xüləfa bu sözləri eşidəndə rahat nəfəs aldı. Hıqqınaraq ağır gövdəsini yerdən qaldırdı. «Yəqin Allah özü padşahın qəlbinə rəhm hissi salıb. Yolunda can qoymuşam, qanlar axıdılıb, heç insafdandırmı sufilərin qarşısında urvatsız olum».

Ağır addımlarla mənzilinə yollandı. Qarşısına süfrə saldılar, çay-çörək gətirdilər. Boğazından çörək keçmədi, bir-iki qurtum çay içdi. Arvadı soruşdu:

– Nə olub, nə baş verib, niyə qəm dəryasına qərq olmusan?

– Danışma, arvad, aləmə papış tikənin indi özünə papış tikiblər!

– Axı günahın nədir?

– Həddimi aşmağım.

– Sən ki aləmə ağıl verirsən, ağlını niyə unutmusan, a kişi?

– Allahım belə məsləhət bilib. Vəkilliyə razı olmayıb, padşahın qürurunu toxundum. O da məni öz evimin kandarından içəri buraxmadı.

Yazın gözəl axşamında Hüseynqulu Xüləfanın canına üşütmə düşdü. Qalxıb yatağına girdi, üstünü də qalın yorğanla basdırtdı. (Bədəninin üşüməsinə dözə bilərsən, için üşüdüsə vay halına).

Hüseynqulu Xüləfa iki gün evdən çıxmadı. Üçüncü gün İsmayıl mirzə rumlu əmirlərindən Dəli Budağı yanına çağırtdırdı:

– Bu günlərdə Hüseynqulu Xüləfanı görməmisən?

– Görmüşəm, hökmdar.

– Halı necədir, nə fikirləşir, məramı nədir?

– Halı pərişandı. Hökmünüzdən çıxdığı üçün çox peşmandı. Canının salamat qalması üçün dövlətxananın itsaxlayanı olmağa belə hazırdı.

İsmayıl mirzə gülümsədi.

– O məni rəhmdil atam Şah Təhmasiblə qarışıq saldı. Hər tərpənişində öyündüyünü gördüm. Yolumda əmək sərf edənlərin əməyini də öz ayağına yazırdı. Artıq onun Qəzvində qalması könlümü bulandırır. Amma mən onun dustaqxanadan çıxmağım üçün göstərdiyi xidmətini də əvəzsiz qoymaq istəmirəm.

Dəli Budaq Hüseynqulu Xüləfanın şahın qəzəbindən xilas olduğunu zənn edib:

– Hökmdar, Allah sizdən razı olsun, – dedi:

– Budaq kişi («Dəli» ayamasını bilərəkdən xatırlatmadı), mən bu dünyada və axirətdə savab qazansın deyə Xüləfanı Məşhədin qorçularının qorçubaşısı vəzifəsinə təyin eləyirəm. Qoy yerdə qalan ömrünü İmam Rzanın məqbərəsində xidmətdə keçirsin.

Dəli Budaq ikiqat oldu:

– Məsləhət sizindi, hökmdar.

– Budaq kişi, bu gün Hüseynqulu Xüləfanı ata mindirib paytaxtdan çıxardırsan.

– Gözüm üstə.

Dəli Budaq yerindən qalxmaq istəyəndə hökmdar gözlənilmədən başqa mətləbə keçdi:

– Darıxma, indi gedərsən. Sən doğru danışan bir kişisən, ona görə də sənə Dəli Budaq deyirlər.

– Vallah, hökmdar, hələ də bilmirəm nəyin dəlisiyəm?

– Budaq kişi, bu camaat istəsə ağıllını dəli, dəlini ağıllı eləyər. Nəsə, məramım bu deyil. De görüm əmirlərin hər gün Pərixan bəyimin hüzuruna yığışıb əmrinə müntəzir dayanmalarına camaat necə baxır?

Dəli Budaq çəkinmədən dedi:

– Hökmdar, siz Qəzvində olmayanda adamlar bu işə təbii baxırdı. Çünki başıpozuqluq olmasın deyə məmləkətin başında birisi oturmalıydı. Bilirsiniz ki, Pərixan bəyim atanızın müşaviri, məsləhət verənlərindən idi. Bu gün isə siz Qəzvində ola-ola Pərixan bəyimin özünü az qala padşah kimi aparması qızılbaşlara xoş getmir. Doğrusu, səltənətin sütunları olan əmirlər arasında xanımın evində toplaşmaq məsələsi barədə kinayəli söz-söhbətlər dolaşır.

– Pərixan bəyim nə düşünür?

– O, sizi qardaşdan çox Osmanlı-Səfəvi müharibələrinin qəhrəmanı kimi sevir. Siz Qəhqəhə qalasında olanda barənizdə yazdığı mənzumə dillər əzbəriydi, əl-əl gəzirdi. Xanım həzrətləri belə düşünür ki, sizin hakimiyyətə gəlməyinizdə müstəsna xidmətləri olub, deməli, padşahlıq işlərinə də qarışa bilər.

İsmayıl mirzənin hirsindən sifəti qapqara qaraldı: «Sən bir qudurmuşluğa bax!».

– Söylə, hər şeyi söylə, Budaq kişi.

– Hökmdar, əmirlər, sultanlar, seyidlər, üləmalar, mən bəndəniz də belə düşünürük ki, qadınların məmləkət işlərinə qarışması Səfəvilər xanədanının və padşahlığın namusuna layiq deyildir! Hökmdar, boynum qıldan nazikdir, kişilərin şah ailəsinə mənsub bir xanım şahzadə ilə oturub-durması Səfəvilər sülaləsinin ləyaqətinə yaraşmır.

– Yaxşı, bu işi yoluna qoyarıq, Budaq kişi. İndi get o, Hüseynqulu Xüləfanı paytaxtdan çıxart, bir daha gözümə görünməsin.

* * *

Hüseynqulu Xüləfa ağlamaqdan özünü güclə saxlayırdı. Dəli Budaq şahın təkliflərini bircə-bircə ona söyləmişdi. Hüseynqulu Xüləfa Məşhədin qorçubaşısı vəzifəsinin nə demək olduğunu yaxşıı bilirdi. Şah ona tamamilə etimadsızlıq göstərmişdi. Bu, təklif olunan vəzifədən çox onun boynundan asılmış qəzəb və iltifatsızlıq nişanəsiydi.

Rumlu tayfasında şahın ona rəva bildiyi vəzifənin adını eşidən kimi ondan kənar gəzdilər, hətta gecə-gündüz qapısının ağzında oturub hər əmrini canla-başla yerinə yetirən mülazimləri də Hüseynqulu Xüləfanı tərk etdilər. Hüseynqulu Xüləfa baş vermiş bu hadisələrin öləzimiş işığında keçmişinə baxanda odsuz-ocaqsız yandı. Həyatının indiki acı mənzərəsinə baxıb doğrudan-doğruya hürkdü. Dünənə qədər onu mürşidi-kamilin xəlifəsi və naibi hesab eləyən, onun hökmünü hökmdarın ikinci hökmü sananlar, can-dildən ona tabe olanlar dərhal Hüseynqulu Xüləfanı unutdular. Zaman-zaman onu ucaldanlar, bir göz qırpımında ayaqlar altına atdılar, müdafiəsinə qalxmadılar. İndi dərk elədi ki, sən demə, onun arxasında bu vaxtacan dayanan on min iqtidarsız rumlu tayfası yox, iqtidar sahibi olan Təhmasib şah imiş. İşdi, fələyin dəyirmanı tərsinə işləsə, hökmdarın işıq saçan şəhadət barmağı xeyir niyyətlə ona tuşlansa, indi onu evinin altında tək-tənha qoyanlar bir göz qırpımında onun ətrafına toplaşarlar.

Acı-acı fikirləşdi ki, belə bir miskin ikiüzlülər, aciz-avaralar əhatəsində yaşamaqdansa, qorçubaşı olub İmam Rzanın məqbərəsində xidmət etsə, yaxşıdır…

Dəli Budaq yəhərli kəhəri Hüseynqulu Xüləfanın qarşısına çəkdi:

– Hə, atlan görüm, Xüləfa.

Hüseynqulu Xüləfa fısıldayaraq qalxdı, dünənə kimi ona «bəli-bəli» deyən Dəli Budağa:

– Daha mən xüləfa deyiləm, qorçubaşıyam.

– Özü yıxılan ağlamaz, qorçubaşı. At belinə qalxmaq sənə çətindi, ayağını bəri ver, – dedi və onu atın belində oturtdu, özü də atlandı, Hüseynqulu Xüləfanın atının cilovunu əlinə alıb qabağa düşdü. Qəzvinin küçələrindən, məhəllələrindən keçdikcə Hüseynqulu Xüləfa tez-tez bərkdən: «Allah, sənə şükür! Allah, sənə şükür!», – deyirdi. Dəli Budaq ondan soruşdu ki, ay bu günkü qorçubaşı, dünənki xüləfa, nəyə şükür eləyirsən? Hüseynqulu Xüləfa cavab verdi ki, Hüseyn bəy Yüzbaşı deyən kimi də ola bilərdi.

– O necə demişdi?

– Hüseyn bəy demişdi ki, ey Xüləfa, gün gələr səni qara eşşəyin belində tərsinə oturdub Qəzvinin küçələrində gəzdirərlər. İndi ona şükür eləyirəm ki, məni qara eşşəyin belində tərsinə oturdub quyruğunu əlimə verməyiblər.

Nəhayət, Qəzvindən çıxıb, şəhərdən xeyli aralıda, tənha çinarın yanında Dəli Budaq atının cilovunu dartdı. Dəli Budaq:

– Əziz Xüləfa, incimə, – dedi, – bu şah əmridi, mən kiməm? Adicə bir buyruq qulu. Burda gözlə, gedim əşyalarını göndərim.

– Dəli ki dəli. Məni əşyalarımla bir yerdə gətirə bilməzdinmi?

– Padşah belə məsləhət bilib. Di salamat qal.

Hüseynqulu Xüləfa atdan düşüb çinarın kölgəsində oturdu. Bu cür halı heç kitablarda da oxumamışdı. Düşünməyin də mənası yoxdu. Artıq heç kəs idi, quruca adı qalmışdı. Qoşunu yox, tərəfdarları yox. Doğrudan da, ana gərək idi, dəsmal götürüb halına ağlayaydı.

Axşama yaxın Dəli Budağın göndərdiyi adam gəlib çıxdı. Əşyalarını, yaraq-əslahını bir ata yükləmişdilər. Yükü gətirən adam Hüseynqulu Xüləfaya dedi ki, Damğana getsin. Tapşırıq belədi. Onu orada Damğanın hakimi Əli xəlifə Ağcaqoyunlu gözləyir.

Hüseynqulu Xüləfa əlacsız qalıb atlandı, yüklü atın cilovunu yəhərin qaşına bağlayıb üz tutdu Damğana.

* * *

İsmayıl mirzə Hüseynqulu Xüləfanı Qəzvindən çıxartdıqdan sonra onun evini tərk elədi. Göz yaşı görməyə, ağı səsi eşitməyə nə halı, nə də hövsələsi vardı. Cəzalandırdığı Hüseynqulu Xüləfanın evində qalmağı şəninə sığışdırmadı. Səadətabada gedib xanımlarla, Pərixan bəyimlə görüşəcəkdi.

İsmayıl mirzə Hüseynqulu Xüləfanı Damğanda nə gözlədiyini yaxşı bilirdi. Çünki qərarı çıxardan da, icra etdirən də o özü idi. Dəli Budağı Hüseynqulu Xüləfanın ardınca göndərəndə, başqa bir qasidi də Damğana yola salmışdı. Fikirləşirdi ki, ilanı yaralayıb buraxmaq olmaz. Xüləfanın on min sufisi vardı, ola bilməz ki, on min adam bir gündə öz mürşidindən üz çevirsin. Əlbəttə, onun döyüşkən qorçuları yanında on min sufi elə də qorxulu qüvvə deyildi, amma haçansa baş ağrısına çevrilə bilərdi.

… Hüseynqulu Xüləfa taleyini düşünə-düşünə Damğana çatıb Əli xəlifə Ağcaqoyunlunun hüzuruna getdi. İnsafən, Əli xəlifə onu gülərüzlə qarşıladı, təsəlli verdi: «Qul xətasız, ağa kərəmsiz olmaz, – dedi, – hökmdar yəqin bir gün günahından keçər. Şahdan hökm gəlincə əziz qonağımsan».

Hüseynqulu Xüləfa gözlərini döydü:

– Qardaş, şah hökmünü verib məni Məşhədin qorçubaşısı təyin edibdi, daha nə hökm?

– Əziz, Xüləfa, şahın hökmü belədir, mən kiməm. Bəlkə səni bağışlayacaq.

– «Bağışlayan olsaydı Qəzvində bağışlayardı!» Allah bilən məsləhətdi, gözləyək, görək nə olur.

Hüseynqulu Xüləfa beş gün idi Damğanda, Əli xəlifə Ağcaqoyunlunun qonağıydı, arvad-uşağından, qohum-əqrəbasından xəbərsiz günlərini başa vururdu. Beşinci günün şər vaxtı Əli xəlifə Ağcaqoyunlunun həyətində Kor Şahəli Rumlunu görəndə dalağı sancdı. Fikir vermişdi, İsmayıl mirzə günahkarı öz doğmalarının, ya da mənsub olduğu tayfanın əmirlərinin əli ilə cəzalandırırdı. Hüseynqulu Xüləfa səbrini basa bilməyib, Kor Şahəli Rumlunun qarşısına yeridi. Şahəlinin atı köpük içindəydi.

– Xeyirdimi, Şahəli? – Hüseynqulu Xüləfa sonsuz nigarançılıq içində soruşdu.

Kor Şahəli Rumlu ləng cavab verdi:

– Xeyir deyil, möhtərəm Xüləfa.

– Öldürməyəmi gəlmisən?

– Bağışla, gözlərinə mil çəkməyə gəlmişəm.

– Şah başqa bir adam tapmırdımı göndərməyə?

– Şah kimin yanına kimi göndərdiyini çox yaxşı bilir. O qədər kor olmaya-olmaya, mənə Kor Şahəli demisən ki. Guya Şahəli desəydin, xəncərinin yaqut qaşı düşəcəkdi.

Matı-qutu qurumuş Hüseynqulu Xüləfa:

– Haqlısan, qardaş, – dedi, – kor kora kor deməsə bağrı çatlar. Buyur, işini gör, gözlərim səni görməsin.

– Sənə yaxşılıq eləyib gözlərinə qızmar mil çəkməyəcəyəm, Heydər mirzənin boynunun vurulması üçün işarə eləyən o hiyləgər gözlərini barmaqlarımla basıb çıxaracam.

Nökərlər Hüseynqulu Xüləfanın əl-qolunu bağlayıb Kor Şahəli Rumlunun qarşısında dizi üstə oturtdular. Xüləfa sonuncu dəfə batmaqda olan günəşə, qolunu

bağlayan nökərlərə, yerdə dənlənən göyərçinlərə, hoppana-hoppana ona doğru gələn çəyirtkəyə, otluqda domba gözlərini bərəldib özünə gölməçə axtaran qurbağaya, başı üstə fırlanan zərif qanadlı kəpənəklərə, gözlərini çıxarmaq üçün hazırlaşan Kor Şahəli Rumluya, onun əzabını görməmək üçün uzaqlaşmaqda olan Damğan hakimi Əli xəlifə Ağcaqoyunlunun kürəyinə baxdı. Gözü ilə gördüyü son mənzərə bunlar oldu.

Kop Şahəli əli-qolu bağlı Hüseynqulu Xüləfaya yaxınlaşdı. Onların gözləri bir-birinə tuşlandı. Kor Şahəli Rumlu Hüseynqulu Xüləfanın kin, nifrət, yalvarış, qorxu dolu baxışlarına tab gətirməyib onun arxasına keçdi. Kobud, qüvvətli barmaqlar Xüləfanın gözlərini bərk-bərk sıxdı. Xüləfa ömründə birinci dəfəydi ki, fəryad qoparırdı. Ağrıdan qıvrılan, gözlərini itirmiş Hüseynqulu Xüləfa at ayaqlarının səsindən bildi ki, gedən Kop Şahəli Rumludur. Yaddaşının aynasında xəbər gözləyən İsmayıl mirzənin surəti canlandı. Təəssüfləndi ki, gözlərini itirsə də yaddaşına köçmüş İsmayıl mirzənin əksini ömrü boyu itirə bilməyəcək. Yaddaşında daim onu kor eləyən adamla üz-üzə qalacaq.

XXVI FƏSİL

GÖRÜŞ

Ey məh, mənimlə dostlarımı düşmən eylədin,

Düşmən həm eyləməz bu işi kim, sən eylədin.

Məhəmməd Füzuli

Qəzvinin yaz səhəri Hüseynqulu Xüləfa əhvalatı ilə açılmışdı. Bircə günün içində Hüseynqulu Xüləfa hadisəsi qanad açıb məmləkəti dolaşmışdı. Qəzvində on min sufisi olan Hüseynqulu Xüləfanın başına gələnlər (gətirilənlər) hər kəsi səksəndirdi. Bu hadisə həm də Qəhqəhə qalasının dünənki dustağının əsl sifətini göstərmişdi. İsmayıl mirzə onun şahlığa gedən yolunu təmizləyənlərdən birini – Hüseynqulu Xüləfanı öz halalca evinin kandarında oturtdurubsa, Qəzvindən qovdurub, Damğanda gözlərini çıxartdırırsa, deməli, onunla qaşıq döyüşdürmək olmaz.

Hadisənin təsirindən bu gözəl yaz havasına duyulacaq qədər qorxu, xof havası da hopmuşdu. Bu insan qəlbinə, ruhuna hopan qorxu, tələş yavaş-yavaş yaz havasını unutdururdu. Heydər mirzə tərəfdarları olan şahzadələr, əmirlər, ustaclı tayfası xof içindəydilər. Canavara dedilər ki, mərifəti kimdən öyrəndin? – Gözü çıxan qardaşımdan! – dedi. Xüləfa hadisəsi İsmayıl mirzənin məmləkətə ünvansız ismarıcı idi: «Bax, həddinizi bilin ha, gəlirəm (gəlmişəm yox ha, gəlirəm!).

Hüseynqulu Xüləfanın başına gələnlər Pərixan bəyimə də çatmışdı. Əvvəl çaşıb qalmış, «ola bilməz?!» – demişdi. Amma xeyli düşündükdən, Hüseynqulu Xüləfanın hərəkətlərini götür-qoy etdikdən sonra qəlbində İsmayıl mirzənin verdiyi cəzanı doğru sanmışdı. Fikirləşmişdi ki, kimliyinin fərqi yoxdur, hər kəs öz yerini bilməlidir. Yoxsa, məmləkətdə hərki-hərkilik, özbaşınalıq hökm sürər.

Xəbər ardınca xəbər gəlirdi. Allah axırını xeyir eləsin, günortaüstü eşitdi ki, İsmayıl mirzə Hüseynqulu Xüləfanın evini tərk eləyib. (Bu xəbərə lap sevindi. Yaxşı deyildi axı, həm ev sahibinin gözünü çıxartdırasan, həm də evində mütəkkəyə dirsəklənib təsbeh çevirəsən). Şahqulu sultan Yegan Ustaclının evinə gəlib. Fikirləşdi ki, Hüseynqulu Xüləfa bir cüt gözündən olub, görəsən Şahqulu sultan nəyindən olacaq?!

Şahqulu sultanın evi onun evi ilə Şah atı meydanın arasında, axar-baxarlı bir yerdə yerləşirdi. Atası Təhmasib şahın yanında Şahqulu sultanın hörməti böyük olmuşdu. O, şahın böyük oğlu Məhəmməd mirzənin lələsi və əmirülüməraşı olmuş, şahzadə yetginlik yaşına çatana kimi Xorasanı idarə etmişdi. Hazırda isə Şahqulu sultan Heratda Məhəmməd mirzənin oğlu balaca Abbas mirzənin (gələcək şahın) lələsi, deməli, həm də Heratın hakimi idi. Lakin son günlərdə baş verənlər, ustaclılara qarşı hücumlar Şahqulu sultanı da narahat eləməyə başlamışdı.

Pərixan bəyim Heydər mirzə əhvalatından sonra məmləkətdə iş başında olan ustaclı əmirlərinə qarşı aşkar-gizli hücumların olduğunu görürdü. Bu ədalətsizliyə qarşı ancaq İsmayıl mirzə çıxa bilərdi. O isə şahlıq taxtında oturmağa tələsmirdi.

Pərixan bəyim şahın cülusu günü ətrafında çox düşündükdən sonra bu qərara gəlmişdi ki, İsmayıl mirzə qəsdən taxta çıxmağa tələsmir, bilərəkdən dövlət işinə qarışmır. İstəyir ki, məmləkət intizarda qalsın, çalxalansın, gizlində olanlar aşkara çıxsın, niyyətlər ona bəlli olsun. Cülus gününə qədər yolunun üstündəkiləri bir-bir sıradan çıxartsın.

Nökər gəlib Pərixan bəyimə söylədi ki, İsmayıl mirzə onunla və səltənətin digər hörmətli xanımları ilə görüşmək istəyir, buyurub Şahqulu sultanın evinə gəlsinlər.

Dərhal hazırlaşmağa başladı. Əyninə ən gözəl paltarını geyinib, ən bahalı boyunbağısını, üzük və sırğalarını taxdı. Atası öləndən bəri başına örtmədiyi qızılı yelənli ağ yaylığını başına örtdü. Çölə sıxanda gördü ki, səltənətin xanımları hamısı burdadı. Əksəriyyəti yasdan çıxmadıqları üçün qara geyinmişdi. İsmayıl mirzənin arvadı Səkinəsultan, qızı Sultanbəyim, anası Sultanımbəyim, şahın digər xanımları burdaydı. Heydər mirzənin anası gürcü qızının üz-gözündən qəm yağırdı. Ancaq o da İsmayıl mirzə ilə görüşmək zorundaydı. Əks təqdirdə ziyan çəkə bilərdi.

Xanımlar on nəfər əlidəyənəkli yaşlı xacələrin müşayiəti ilə Şahqulu sultanın evinə gəldilər. Təkcə doğmaları yox, ona bir köynək yad olanlar da bu görüşə xüsusi maraq göstərirdilər. Onun zindanda qaldığı on doqquz il altı ay iyirmi bir gün ərzində sarayda adı, sücaəti anılmadığı gün olmamışdı. «İgidin adını eşit, üzünü görmə» deyiblər. İndi həm də adını eşitdikləri igidin üzünü görəcəkdilər.

Keşikçilər xanımlara yol verdilər. Hamıdan qabaqda Sultanım bəyim gedirdi. O, yeddi min yüz otuz səkkiz gün üzünə həsrət qaldığı oğlu ilə axır ki, görüşəcəkdi. Nəhayət, Pərixan bəyim də öz qəhrəmanını görəcəkdi.

Keşikçilər onları böyük bir zala ötürdülər. Ancaq İsmayıl mirzə zalda yox idi. Xanımlar ora-bura boylanıb ipəküzlü ocaqqırağı döşəklər üstündə bardaş qurub oturdular. Anlar ötürdü, amma İsmayıl mirzə hələ görünmürdü. Nigaranlıq xanımları əməllicə darıxdırırdı ki, ayaq səsləri eşidildi. Bu zaman qapı açıldı və qırx üç yaşlı, uca boylu, enli kürəkli, mərdanə sifətli, saçlarına azca dən düşmüş, şəvə bığlı İsmayıl mirzə içəri girdi. Xanımlar dərhal yerlərindən qalxdılar, Sultanım bəyim qollarını açıb oğluna sarı getdi. İsmayıl mirzə körpə uşaq kimi anasının qucağına sığındı.

Sultanım bəyimin əlləri oğlunun kürəyində gəzdi:

– Can bala, çox şükür səni gördüm, dinə-imana gəldim.

İsmayıl mirzə anasının geniş, ağıllı alnından, əllərindən öpdü. O, Sultanım bəyimdən aralanıb o biri xanımlara yanaşdı. Arvadı Səkinəsultan çox dəyişmişdi, illər öz işini görmüşdü, onu xanımların, xüsusilə anasının yanında qucaqlayıb bağrına basmaqdan özünü güclə saxladı, halını soruşdu. Səkinə sultanın yanında durmuş əsmər üzlü, ucaboylu, incəbelli qıza diqqətlə baxdı, hiss elədi ki, nə üçünsə ürəyi çırpındı. Sual dolu gözləri qıza dikilib qaldı. Sultanım bəyim onu nigaranlıqdan qurtardı:

– Qızın Sultanbəyimdi ey, ağrım alım.

İsmayıl mirzə əyilib qızının üzündən öpdü. Sultanbəyim adını eşidib üzünü indi gördüyü atasını ürəyi istədiyi kimi qarşılaya bilmədi. Anlaşılmaz duyğular içindəydi. Bu illər ərzində bir damın altında yaşamadıqları üçün atası ona yad adam təsiri bağışlayırdı. Sultanbəyimdə günah yoxdu. O, hələ ata məhəbbətinin nə olduğunu bilmirdi, onları ancaq qan birləşdirirdi.

İsmayıl mirzə o biri xanımlarla da görüşdü, tanıdıqları da vardı, tanımadıqları da. Tanımadığı xanımları atası o, zindanda olanda alıb halalı eləmişdi. Üz-gözündən qəm yağan Heydər mirzənin anasına başsağlığı verdi, keçmiş olsun, dedi. Qəsdənmi, ya təsadüfdənmi hamıdan yaraşıqlı, təravətli görünən Pərixan bəyimlə lap axırda görüşdü. O zindana salınanda Pərixan bəyim səkkiz yaşındaydı. İndiki İsmayıl mirzə o zaman gördüyü gənc İsmayıl mirzə deyildi, gəncliyinin qocalığını yaşayan yaraşıqlı bir kişiydi. O, təntənəsiz:

– Xoş gördük, Pərixan! – deyib azacıq başını əyərək təzim etdi. Pərixan bəyim şahlıq taxtına yolunu açdığı, haqqında uzun illər düşündüyü, mənzumə yazdığı İsmayıl mirzədən bu soyuqluğu gözləmirdi. Əlbəttə, bu anlarda o, nəyinsə təmənnasında deyildi, amma gördüyü işlərin, keçirdiyi əzablı, yuxusuz gecələrin müqabilində xoş söz, təşəkkür eşitmək istəyirdi. O, illərlə bu göruşu gözləmişdi, amma xəyalında qurduğu büsatdan əsər-əlamət yoxdu. İçində yavaş-yavaş qövr eləyən, ləpələnən, dalğalanan, nəhayət, şahə qalxan dalğaların təkanından kinayəli bir səs çıxdı ağzından:

– Atalar doğru deyibmiş, igidin adını eşit, üzünü görmə.

İsmayıl mirzənin qaşları çatıldı:

– Niyə, üzümüz elə çirkindi?!

Sultanım bəyim də Pərixana kinayə ilə baxdı: «Bu qız görən mənim oğlumu nə hesab eləyir?»

Pərixan bəyim:

– Əksinə, gözəl üzünüzü gördüm, qəlbinizi yox, – deyə ikibaşlı danışdı.

– Pərixan, sən hökmdar ailəsinə mənsub xanımsan, yad kişilərlə görüşmək, padşahlıq işinə qarışmaq sənə yaraşmaz.

– «Aha, qara qızın dərdi varmış». Atamız Şah Təhmasibin meyiti ortalıqdaykən hakimiyyət uğrunda şahzadələr, əmirlər bir-birini didirsə, sarayda qardaşın Heydər

mirzənin başını bədənindən ayırırlarsa, sən Qəhqəhə qalasında zindandasansa, məmləkəti başsızmı qoymaq lazım idi?! Mənim padşahlıq fikrim olsaydı, İbrahim mirzəylə və Mirzə Salmanla səltənət və padşahlıq əşyalarını Qəhqəhə qalasına – sənə göndərməzdim, adına məscidlərdə xütbə oxutdurmazdım. Xəbərin varmı bu gün məmləkətdə nələr baş verir?

– Pərixan, ürəyin doluymuş ki.

– Bəli, ürəyim doludu. Bu Səfəvilər dövlətinin yaranmasında qanından keçmiş ustaclı tayfasının adlı-sanlı əmirlərini bir-bir aradan götürürlər. Buna sözün nədir? Bütün məmləkət sənin cülus edəcəyin günü gözləyir. Qəzvinin küçələrində adam əlindən tərpənmək olmur, hamı sənə görə paytaxta axışır. Əmrlər, sultanlar nigaranlıq içindədir…

– Bilirəm.

– Bəs nəyi gözləyirsən, qardaş? Bir mübarək gün seç, taxta otur, məmləkətin müşkül işlərini yoluna qoy!

– Cülus günü artıq bəllidi.

– Biz bu barədə eşitməmişik.

– Mən cülus gününü siz bura gəlməmişdən fal açıb təyin etmişəm.

– O xoşbəxt gün haçan olacaq?

– Cəmadiül-əvvəl ayının 27-də (22 avqust 1576), çaharşənbə günü. Bu gün tapşıracam carçılar car çəksinlər, qonşu məmləkətlərə də xəbər göndərsinlər.

– Mübarək olsun.

– Çox sağ ol.

Anası Sultanım bəyim oğluna:

– Taxtında qayım-qədim olasan.

– Sağ ol, ana.

– O işlər ki, atan öləndə baş verdi, heç kafər bəndəyə qismət olmasın. Bunu Allah götürməzdi, necə ki, götürmədi, meyiti soyumamış onun taxtı uğrunda boğuşdular. Atanın cənazəsi dövlətxanadakı Şirvani evində amanatdır. Atanın adına layiq ehsan ver, cənazəni oradan götür.

– Yaxşı, ana. Üzümüzə gələn cümə axşamı ehsan verib, atamın cənazəsini İmamzadaya apararıq, payızda isə müqəddəs Məşhəddə dəfn edərik.

– Allah səndən razı olsun.

İsmayıl mirzə xanımlara müraciətlə soruşdu:

– Başqa sözünüz?

Bayaqdan susub dayanmış qızı dilləndi:

– Ata, bəs biz nə vaxt bir yerdə qalacağıq?

İsmayıl mirzə gülümsədi. Başa düşdü ki, bu sözləri ona qızı desə də, arvadı Səkinə-sultanın fikridi.

– Elə bu axşamdan bir yerdə olacağıq, – dedi. – Görüş bitdi. Xanımlar onunla sağollaşıb çıxdılar. Pərixan bəyim Şahqulu sultanın evini nigarançılıq içində tərk eləyirdi. Bu görüş arzuladığı kimi olmamışdı. Sonrası necə olacaqdı, bilmirdi, ancaq bu ilk görüş onun xəyalında qurduğu büsatı alt-üst etmişdi.

XXVII FƏSİL

QƏBİRDƏN QƏBİRƏ

Dərdimi dağa desəm dağ əriyər,

Şam şölə çəkər, piltə yanar, yağ əriyər.

(naməlum)

İsmayıl mirzənin göstərişi ilə Səadətabad bağı yaxınlığında çoxlu alaçıqlar qurulmuşdu. Bu alaçıqlardan bir qədər aralıda aş bişirmək və halva çalmaq üçün mətbəxlər düzəldilmişdi. Mətbəxlərə on iki min qab-qaşıq gətirilmişdi. Hər min nəfərə xidmət edəcək adamlara nəzarət hörmətli əmirlərdən birinə tapşırılmışdı. İsmayıl mirzə atası üçün ehsan verirdi.

Şahzadələr, seyidlər, üləmalar, adlı-sanlı əmirlər, sultanlar, səltənətin vəzir-vəkili, şairlər, nəğməxanlar, nəqqaşlar, xəttatlar, dəftərxana işçiləri dövlətxanaya

toplaşmışdılar. Hamı İsmayıl mirzəni gözləyirdi ki, şahın cənazəsini dövlətxanadan çıxardıb İmamzada məqbərəsinə aparsınlar.

Nəhayət, İsmayıl mirzə Çehelsütun eyvanında göründü. Ora toplaşanlar ikiqat əyilib təzim elədilər. İsmayıl mirzə şahzadə qardaşları, seyidlər, üləmalar, dövlət adamları ilə birlikdə şahın cənazəsi qoyulmuş Şirvani otağına getdilər. Üləmalardan biri şahın tabutu başına keçib yasin oxumağa başladı. İsmayıl mirzə üləmanın sağ yanında dayanıb başını sinəsinə əymişdi. Yasin bitdikdən sonra İsmayıl mirzə, Süleyman mirzə, Mustafa mirzə, Mahmud mirzə, İmamqulu mirzə yaxınlaşıb şahın cənazəsini çiyinlərinə götürdülər. Cənazəni qabaqda İsmayıl mirzəylə Süleyman mirzə, arxada isə Mustafa mirzəylə İmamqulu mirzə aparırdı. İsmayıl mirzə içində danışa-danışa gedirdi: «Ay ata, bu on doqquz il altı ay iyirmi bir gün ərzində bir dəfə mənimlə görüşmədin. Yeddi min yüz otuz səkkiz gün sənin səsini eşitmədim, mübarək üzünü görmədim. Heç olmasa ildə bir dəfə məni qaladan çıxarıb yanına gətirtsəydin, üz-üzə oturub dərdləşsəydik, indi mənim üçün təsəlli olardı. Amma sən bunu etmədin. Düzdü, sənin də qayğıların başından aşırdı, məmləkətin min bir dərd-səri üstündəydi. Ancaq gərək vaxt tapaydın. Başa düşmürəm, ata da oğula bir belə kin bəsləyərdimi? Mən Qəhqəhə qalasının divarları arasında ac yalquzağa dönmüşdüm. Yaz gəlib ağaclar çiçəkləyəndə, quş olub uçmaq istəyirdim. Ata, ay ata, sən məni on doqquz il altı ayın baharını bahar kimi yaşamağa qoymamısan. Heyif o boş keçən günlərimə. Heyif! O günlərimdən mənə acı duyğulardan, kədərli xatirələrdən başqa nə qaldı? Heç nə! Öz aləmində məni islah elətdirirdin, ay ata. Bunun üçün on doqquz il altı ay iyirmi bir günmü gərək idi? Yəqin ki, haqqa qovuşmasaydın, mənə azadlıq nəsib olmayacaqdı! Zindanın qaranlıq küncündə insan islah olunmur, əksinə adamlıqdan çıxır. Hər kəsə, hər şeyə nifrət eləyir. Bu illər ərzində qazancım indi hər şeydən və hər kəsdən şübhələnməyim olub. Qəlbimdəki incə duyğular, zərif hislər məhv olub. Bax, mənimlə bir yerdə addımlayan, cənazənin altına girmiş bu qardaşlarımı da sevə bilmirəm. Onlar da sənin kimi bir dəfə də olsun mənimlə görüşməyə, dərdimi dinləməyə can atmayıblar. Onlar qolları üstə boynu zınqrovlu şahin, yanlarında ov tulaları at belində ova çıxanda mən hörümçəyin zindanın bir küncündə hördüyü tora baxırdım. Bu dünyaya gətirdiyin şahzadələr kənizlərlə əylənəndə mən yastığımı qucaqlayırdım. İndi mən azadlıqdayam, sənin cənazənsə mənim çiynimdə. Ölümünə sevinmirəm, amma sən nə zamansa belə bir günün gələcəyinə inanardınmı? Yox, inanmazdın. İnansaydın, mənə, cavan oğluna zərrəcə də olsa rəhm edərdin. Yəqin sən məni, öz canından, qanından yarananı sevməmisən, taxt-tacına görə doğma oğlundan qorxmusan. Bu şahzadələr də məndən qorxublar. Zindandan qurtulmağımı onlar da istəməyiblər. Fikirləşiblər ki, yolları üstündə əngəl olaram, başağrısına çevrilərəm. Eh, ata, kaş sənlə balıq ovuna getdiyimiz o

günlər olaydı. Onda səni bir ata kimi necə də ürəkdən istəyirdim. Hər səni görəndə qürur duyurdum. Sudan çıxmış o balıqlar yadındamı? Yerdə çabalaya-çabalaya ağzını açıb-yuman, sonra da canını tapşıran o rəngbərəng balıqlar!»

İbrahim mirzə ona yanaşıb çiynini cənazənin altına verdi. İsmayıl mirzə kənara çəkildi. Cilovdar dərhal kəhəri onun qarşısına gətirdi və o, atlandı. Böyük bir insan seli Şah Təhmasibin cənazəsini, yaraq və şəxsi əşyalarını İmamzadaya aparırdı. Nəhayət, İmamzadaya çatıb Şah Təhmasibin cənazəsini sənduqəyə qoyub, onu məqbərəyə yerləşdirdilər. (Bura da onun hələ son mənzili deyildi, payızda Məşhədə aparmaq üçün amanat qoyulmuşdu). Üləmalardan biri vəhşət ayəsini oxudu. Bundan sonra on iki min adam geri qayıdıb ehsan süfrəsi arxasında oturdu. Səfəvilər tarixində birinci dəfə idi ki, belə möhtəşəm təziyə keçirilib, ehsan verilirdi.

* * *

Şahqulu sultanın evində Pərixan bəyimin ona söylədikləri tez-tez yadına düşürdü. Özü ilə baş-başa qalarkən Pərixan bəyimin dediklərinin həqiqət olduğunu etiraf edirdi. Məmləkətdə, xüsusilə Qəzvində hələ də intizamsızlıq hökm sürürdü. Hamı onun cülusunu gözləyirdi. Çox götür-qoydan sonra İbrahim mirzəni yanına çağırdı, həmişəki kimi ona mehriban yanaşdı:

– Qardaş, – dedi, – sən atamın sağlığında ona oğul yerindəydin. İndi də sən həm mənim qardaşım, həm də həmsöhbətimsən. Eşikağası vəzifəsi sənə münasib deyildir, bu gündən dövlətin möhürdarısan. Həmişə yanımda olarsan, bu səltənətin işlərini yoluna qoyaq.

Sonra İsmayıl mirzə Səfəvilər dövlətinin müstövfi əl-məmaliki* olan Mirzə Şükrulla İsfəhanini dövlətin vəziri seçdi, eşikağası vəzifəsini isə Hüseynqulu sultan Şamlıya tapşırdı. Lakin bununla hələ iş bitmirdi. Cülus edəcəyi gün yaxınlaşdıqca, nigarançılığı da artırdı. O, heç də taxta çıxmağın, keçiriləcək mərasimin nigarançılığını yaşamırdı. Bu mərasimin dildə-ağızda dolaşacaq möhtəşəm səviyyədə keçəcəyinə zərrəcə şübhəsi yoxdu. Onu hakimiyyətinin sabahı narahat eləyirdi. Qəhqəhə qalasında yaşadığı o yeddi min yüz otuz səkkiz gün heç də izsiz ötüb-keçməmişdi. Şüurunda, zehnində, ruhunda iz salmışdı. Heç kəsə inanmamaq, hər kəsdən şübhələnmək ona zindandan qalma mirasdı. Rəhm hissini çoxdan qəlbindən çıxarıb dəfn eləmişdi. «Mənə rəhm olunmuşdumu, mən də kiməsə rəhm eləyim» fəlsəfəsi ilə yaşayırdı. Qardaşlarının heç biri ilə fəxr eləmirdi. Fikirləşirdi

ki, onlar hansı fövqəladə keyfiyyətlərinə görə naz-nemət içində böyüyüblər? Hansı şücaəti göstəriblər, hansı qalanı fəth ediblər? Bunların ən böyük şücaətləri ataları Şah Təhmasibin yanında mütilikləri olub. Şahın müti ilə, hər sözə ləbbeyk deyənlə nə işi vardı?! Onun iradəsindən çıxan, isə İsmayıl mirzə kimi, Qəhqəhə qalasında çürüyürdü. Heç olmasa bu müti şahzadələr bu yeddi min yüz otuz səkkiz gündə vaxt tapıb bircə kərə, tək bircə kərə ona baş çəkəydilər. Doğmalarından həssaslıq, duyarlıq uma-uma yaşadı o məşəqqətli günləri. İçinə hər gecə zərrə-zərrə nifrət yığa-yığa. Gözlə görünməyən, ölçüyə, çəkiyə gəlməyən nifrət! Ona görə də ürəyində qarşısına çıxan hər kəsi məhv etmək istəyi hər şeydən güclüydü.

Düşünürdü ki, atasının sevimli şahzadələri ondan çox səltənətin adlı-sanlı əmirlərinə, sultanlarına lazımdılar. Sabah şah xoşlarına gəlməsə, gecənin birində boğub öldürüb, yerinə onlardan birini oturtsunlar. Şah olmağa layiqdi, layiq deyil, bu məsələ elə də önəmli deyildi. Önəmlisi şahlıq taxtına oturtduqları şahzadənin onların istəklərinə cavab verməsi idi. Fikirləşirdi ki, bir belə şübhə içində, qorxa-qorxa yaşamaqdansa, şübhə yaradanları, yuxuna haram qatanları aradan götür…

Hadisələr gözlənilmədən onun xeyrinə işləyir, cəza verməyə bəhanə tapılırdı. Bir səhər Herat bəylərbəyi, balaca Abbasın lələsi Şahqulu sultan Yegan Ustaclının ölüm xəbəri gəldi. Bu müdrik ağsaqqalı Fərah hakimi Hüseyn sultan Əfşar bir dəstə tərəfdarı ilə aradan götürmüşdü. Şahqulu sultan qan tökülməməsi üçün ustaclıları silaha sarılmaqdan çəkindirmişdi. Bu da nəticəsi. Özü şəhid, ustaclı tayfası isə pərən-pərən olmuşdu. Onlar Şahqulu sultan qətlə yetiriləndən sonra Qəzvinə gəlmişdilər. Məqsədləri bu idi ki, İsmayıl mirzə ustaclılara qarşı Heydər mirzəyə görə törədilən bu basqılara son qoysun. Amma ustaclıların gözlədiyi kimi olmadı, qatillər bəlli olsa da, İsmayıl mirzə onları cəzalandırmadı, bununla da hələ şahlıq taxtında oturmamış ədalət tərəzisini əydi. Axı, Şahqulu sultanı qətlə yetirməzdən əvvəl ona ismarıc göndərmişdilər ki, bəs, ustaclı tayfası padşahın qəzəbinə tuş gəlib, xanədanda etibarlarını itirib. Ona görə də biz Herat şəhərinin sənin əlində qalmasına yol verməyəcəyik.

Belə də olmuşdu. Şahqulu sultanın iqamətgahına hücum edib onu və ətrafındakı ustaclıları öldürmüşdülər. İsmayıl mirzə də bunu bilə-bilə günahkarları cəzalandırmamışdı. Deməli, söylənilənlər şayiə deyildi, İsmayıl mirzə ustaclılara qəzəbliydi.

Belə olduqda ustaclılar bir-biri ilə ittifaq bağlayıb dövlətxananın qarşısında çadır qurub məskən saldılar. İsmayıl mirzəyə də bir ismarıc yolladılar:

– Biz mürşidi-kamilin yanında təqsir və xəta sahibləri olduğumuza görə, nə qədər ki, İsmayıl mirzə əfv fərmanı verib təqsir və xətamızı bağışlamayıbdır, dövlətxananın qabağından çəkilməyəcəyik.

Pirə Məhəmməd xan Ustaclı Heydər mirzə əhvalatında iştirak etməmişdi və İsmayıl mirzənin yanında heç bir günahı yoxdu, amma o da bu basqının qabağını almaq niyyəti ilə gedib onlara qoşuldu.

İsmayıl mirzə Çehelsütun eyvanına çıxanda Pirə Məhəmməd xanı ustaclıların arasında görəndə təəccübləndi. Axı bu yaxında onun qızıyla evlənmək fikrindəydi. Bəs bu nə ağılla gedib onlara qoşulub?

İsmayıl mirzə adam göndərib Pirə Məhəmməd xandan ustaclılara qoşulmağının səbəbini soruşdu. Pirə Məhəmməd xan cavabında söylədi ki, əslini danan haramzadadı, mən ustaclıyam, beş-on nəfər yolunu azmış xırsıza görə, səltənətin yolunda hər cür cəfalar çəkmiş bir tayfaya belə pis münasibət ürəyimi ağrıdır. Mən şahdan əfv fərmanı eşidənə qədər öz camaatımlayam!

Ustaclılar on gün dövlətxananın qabağından çəkilmədilər. Ustaclıların hərəkətlərindən hövsələsi daralmış İsmayıl mirzə güzəştə getməkdənsə, bir bəhanə ilə onları dövlətxananın qabağından dağıtmaq fikrinə düşdü. Əks təqdirdə, bu cür hallar adət halını alardı. Heydər mirzənin qətl olunduğu gecə ustaclıların atdığı ox Çehelsütün eyvanının yanındakı ağaca sancılıb qalmışdı. İsmayıl mirzə oxu oradan çıxartdırıb eşikağasına verdi ki, apar ver ustaclılara. Eşikağası ustaclıların yanına gəlib:

– Padşahımız deyir ki, dövlətxananın qabağında oturub ixlas və sufilik iddiası edirsiniz, bəs bu nə oxdur? O hansı camaatdır ki, bu oxu mürşüdi-kamilin dövlətxanasına, cənnətməkan şahın cəsədinə sarı atmışdır? – dedi.

Ustaclılar cavab verdilər:

– Biz Səfəvilər dövlətinin yarandığı ilk gündən hamımız onun xidmətində durmuşuq. Beş-on nəfər yolunu azmış ustaclıya görə biz cavabdeh deyilik.

Amma padşah əfv fikrindən uzaq idi. Eşikağası geri dönən kimi, ustaclıların üstünə bir dəstə qorçu göndərdi, çadırlarını başlarına uçurdub onları dövlətxananın məskənlərinə qədər qovdurdu. Bu, doğrudan da, rüsvayçılıq idi. Camaatından ayrılmayan, qorçu zopasıyla «mükafatlandırılıb», özünü alçaldımış, təhqir olunmuş sanan Pirə Məhəmməd xan Ustaclı az qalırdı ağlasın. O, İsmayıl mirzənin çıxardığı qərarın nəticəsini götür-qoy edib ətrafındakılara dedi ki, belə getsə bu xəmir hələ çox su aparacaq. Allah dağına baxıb qar verir.

XXVIII FƏSİL

PUÇ OLMUŞ ÜMİD

Sadəlövh könlümdən mən cana gəldim,

Cəfakeş canımdan fəğana gəldim.

Mənsiz də dünyanın işi keçərmiş,

Əcəba, nə üçün cahana gəldim?

Ömər Xəyyam

İsmayıl mirzəylə Şahqulu sultan Yeganın evindəki atüstü görüşü Pərixan bəyimin illərlə içində bəslədiyi ümidini bircə anın içində puç eləmişdi. Məmləkətin min bir müşkül işini yoluna qoymaqda padşahın həmdəmi, məsləhətçisi, müşaviri olmaq istəyi, sən demə, xəyaldan başqa bir şey deyilmiş. Azadlığa qovuşub şahlıq taxtında oturması üçün yolunda hər cür fədakarlıq göstərsə də, İsmayıl mirzə ona qarşı sayğısız davranmışdı. Bu davranışıyla da onun xanımlıq heysiyyətini – içində çiçəkləməkdə olan arzularını ayaqları altına atıb əzmişdi. Hətta, qardaşı ona yerini də göstərmişdi: «Padşahlıq işinə qarışma!». Acıdan acı bu kəlmələr hələ də qulaqlarında əks-səda verməkdəydi: «Padşahlıq işinə qarışma!». Bu o deməkdi ki, Pərixan bəyim, çəkil öz sarayına (xarabana da deyə bilərdi), get nökər-qaravaşlarına, qulluqçularına əmr ver, hərəm bağçasında gəz-dolan. Lap istəyirsənsə, toyunu da eləyək, ancaq padşahlıq işinə qarışma…

Pərixan bəyim kin-küdurətdən uzaq olmaq istəsə də, hiss eləyirdi ki, qətrə-qətrə kin yığılır içinə. İçinə yığılmış kinin get-gedə necə böyüdüyünü, zərif duyğularını necə amansızcasına məhv etdiyini o, bütün varlığıyla hiss eləyirdi. «Sənin axı nəyinə lazımdı bu hakimiyyət?», – deyə özünü qınayırdı, tənbeh edirdi. Amma İsmayıl mirzənin yolunda etdiklərini gözü önünə gətirəndə təzədən acı duyub hikkələnirdi. Yaxşılığının qabağına yamanlıq çıxmışdı. Qəhqəhə qalasının dünənki dustağı, Səfəvi-Osmanlı müharibələrinin qəhrəmanı əsl sifətini çox tez göstərmişdi. İndi bu sifət onun gözləri önündən çəkilmirdi, daim onu kölgə kimi izləyir, əsəbiləşdirib özündən çıxarırdı. «Noolar, çəkilərik kənara, qarışmarıq padşahlıq işlərinə, görək məmləkəti necə idarə edəcəksən, – deyirdi. – Sən hələ

sifətlər görməmisən. Sənlə üz-üzə gələndə daim gülümsəyən, irişən o mələk sifətlərin arxasında gizlənən əsl ifritə sifətləri. Noolar, hər biri bir batman olan sözlərini yeyə-yeyə gözləyirik. İki gündən sonra cülus edib, taxtda oturacaqsan. İşin avand olsun! Taxtında qaim-qədim olasan! Sən təki atana, babana layiq varis ol, biz də baxıb əhsən deyək».

Qəhərləndi. Gözləri nəmlənmişdi. Bu halına acığı tutdu. Doğrudanmı o, bu qədər acizdi? Bu nə haldı keçirir, kövrəlmək, duyğulanmaq nədir? Aciz olma, Pərixan, aciz olma! Səbr elə, bu dünyanın gedişatına fikir ver; örkən nə qədər uzun olsa, axırda gəlib doğanaqdan keçər.

Yerindən qalxıb pəncərəyə yaxınlaşdı. Həmişə seyr etdiyi mənzərəydi, ağaclarla, güllərlə üzbəüz dayanmışdı. Ağacların heç yarpağı da tərpənmirdi. Yayın ən isti, torpağı qovuran, adamı ütən vaxtıydı. Bir an ona elə gəldi ki, Bədiüzzaman güllərin arasından baxıb çəkildi. Səsi gəldi Bədiüzzamanın: «Pərixan, mən səni siyasətin içindən dartıb çıxartmaq istəyirəm. Siyasət dibi görünməyən bataqlıqdı, ora düşən çıxa bilmir». Sən demə, sadə, bəsit adam sandığı Bədiüzzamanın söylədiklərində böyük bir həqiqət varmış. Amma o, bu həqiqətin arxasınca gedə bilməzdi, daha doğrusu, getməzdi. Çünki onun da öz həqiqəti vardı. O, öz həqiqətinin ardınca getmək istəyirdi. Əlbəttə, şah qızıydı, üstəlik, hökmü, var-dövləti, ad-sanı, nüfuzu olsa da, öz həqiqəti-məqsədi olduğu üçün yolu maneəsiz deyildi. Padşahlıq işinə həm də öz həqiqətinə çatmaq üçün qarışırdı. Pərixan bəyim təkcə əmr vermək, qarşısında sultanların, əmirlərin, haciblərin, qorçuların, darğaların, yüzbaşıların, kələntərlərin müti dayanması üçün hakimiyyətə can atmırdı. O, üst-başından yoxsulluq yağan birisinə kömək əli uzadanda özünü daha rahat hiss edirdi. Yoxsul isə bir-iki nəfər deyildi ki, qarnını doyurub, üst-başını təzələyib yola salsın. Bu qədər məzluma səltənət sahib çıxmalıydı. Amma təkcə onlaramı? Bəs yoxsulluq girdabında çabalayan fazil, alim adamlar? Axı könüllər oxşayan bir qəzəli yüz illər boyunca yaşayan şair niyə məhrumiyyətlər içində çırpınmalıdır? Sadiq bəy Əfşar kimi dahi bir rəssam, gözəl şair, musiqiçi niyə qənaətlə dolanmalıdır? Bəs, bu təriqətlər arasındakı uçurumu kim aradan qaldıracaq? Qızılbaşlar bayrağı altında toplaşmış tayfaların içində daim oyaq olan tayfabazlığı hansı yolla çıxarıb atmalı? Ustaclılarla türkmanları kim barışdıracaq? Bütün bunları yoluna qoymağa sıyrılmış qılınclar yox, düşünən qafalar gərəkdir. – Mən kiməm? – Sən kimsən? – öcəşməsi yox.

Mən kiməm? Bir bikəsü biçarəvü bixaniman,

Taleyim aşüftə, iqbalım nigun, bəxtim yaman.

– deyən dərya təbli Füzuli niyə gözünü doqquz ağcaya dikməliydi? Ona veriləni də ala bilməmişdi biçarə. Bütün bunları doğuran səbəblərin kökünü qazıyıb üzə çıxartmalı, səbəbin səbəbinin səbəbi axtarılıb tapılmalıydı.

Pərixan bəyim özü ilə danışa-danışa yerindən qalxdı. Divarboyu düzülmüş kitab dolabına yaxınlaşıb bəyazını, mürəkkəb-qələmini götürüb əyləşdi. Lələk qələmi mürəkkəbə batırıb qəşəng xətlə yazdı: «Qesseye-porqosseye-eşqe-Pərixan xanım». Bu başlığı yazdıqdan sonra, demək olar, ətrafını, baş verənləri, hətta İsmayıl mirzəni də unutdu. Lələk qələm ağ vərəqin üstə qarışqa nizamıyla iz salırdı. Dolmuşdu, ürəyini boşaltmalıydı. İçində çağlayan, şahə qalxan hiss və duyğularını ağ vərəqlərə boşaltmağa tələsirdi. Beynindən qələminə süzülən misraların sırası get-gedə sıxlaşırdı. Tamam başqa bir haldaydı, elə bil yerlə səma arasındaydı, sözlər yağış damcıları kimi durmadan, ara vermədən qələmdən süzülüb ağ vərəqlərə tökülürdü. Əsəbləri gərilmişdi, gərginlikdən əli ağrısa da qələmi yerə qoymurdu. Elə bil yaddaşında bir-birini əvəz edən fikirləri bu dəqiqə unudacağından, itirəcəyindən ehtiyat edirdi.

Günəşin solğun şəfəqləri pəncərənin aynasında kəpənək qanadlarını çalana qədər yazdı. Bir vaxt İsmayıl mirzə haqqında da beləcə birnəfəsə yazmışdı. Elə İsmayıl mirzəni xatırladığı anda da qələmi dayandı. Bayaqdan durmadan yazdığı bu tale dastanına İsmayıl mirzəni xatırlamaqla, sanki nöqtə qoydu. İlahi bir nizamla ağ vərəqlərə köçürülmək üçün növbə gözləyən sözlər İsmayıl mirzənin sifətini görən kimi «pırr» eləyib harasa uçdular. O ilahi sözlərin, könül çırpıntılarının yerində onun – İsmayıl mirzənin turşumuş sifəti dayandı. Pərixan bəyim indi istəməsə də, gözlərini qıyıb bu sifətə baxırdı. Daha doğrusu, baxırdı ki, bu sifətin arxasındakı əsl sifəti görsün. Adının arxasında qəhrəmanlıq, şücaət, mətanət, dəyanət kimi yarlıqlar duran birisinin əsl sifətini görmək istəyirdi. Yox, bu boz sifətin qaraçuxasını yarıb keçmək, iki gün sonra şahlıq taxtında bərqərar olacaq II Şah İsmayılın ürəyindən keçənləri oxumaq, doğrudan da, çox çətin idi. Daş kimi yonulmuş bu sifətdən hələlik ancaq bunu oxuya bilirdi: «Padşahlıq işlərinə qarışma!».

Fikirləşdikcə sanki içində hava qaralır, axşam düşürdü. Bu dar vaxtda lap ürəyi sıxıldı. Dərdləşməyə, ürəyini boşaltmağa yanında bir həmdəmi də yoxdu.

… Birdən ona elə gəldi ki, otağın küncündən ona bir cüt mehriban göz baxır. Bacısı Gövhər bəyim idi. Qulağına onun mehriban səsi gəldi: «Dərdin nədi, bacın

qurban?» Gülümsəyib yerindən qalxdı: «Gövhərdən, İbrahim mirzədən özgə məni kim başa düşər?», – düşündü.

İbrahim mirzəgilin evi saraya yaxın idi. Pərixan bəyim bu boyda Qəzvində İbrahim mirzənin ailəsindən xoşbəxt ailə tanımırdı. Bu ailə sevgi-məhəbbət üstə qurulmuşdu. Pərixan bəyim bacısıgildə olduğu vaxtlarda qəlbən çox rahat olurdu. İbrahim mirzə sənətə, sənətkara qiymət verən adamdı. Kitabxanasında çalışan nəqqaşlara, xəttatlara məmləkətin eşikağası, möhürdarı kimi yox, sənət dostu kimi baxırdı. Sadəliyinə və sənətə qiymət verdiyinə görə istedad sahibləri ona hörmət-izzət göstərir, öz hamiləri kimi baxırdılar.

Pərixan bəyim içindəki kədərini biruzə vermədən bacısıgilə gəlmişdi. Gövhər bəyim nökərin: «Xanım, Pərixan bəyim gəlib» xəbərini eşidən kimi onu qarşılamağa tələsdi.

– Can bacı, nə yaxşı gəldin, – deyib onu qucaqladı. Sonra kənara çəkilib: – Sən Allah dayan, qoy bir doyunca sənə baxım, – dedi. – Bəh-bəh, ilahinin xoş saatında dünyaya gəlmisən də. Sən bundakı qaşa-gözə, boya-buxuna bax!

– Gövhər, sən Allah az təriflə.

– Boy, sözə bax ey… Ay qız, tərifə layiqsən də. Vallah, kişi olsaydım, səni götürüb qaçardım.

Pərixan bəyim sevincindən aşıb-daşan Gövhər bəyimin bəxtiyarlıq yağan üzündən öpdü:

– Əziz bacım, Şah qızını qaçırdanın gərək iki başı olsun.

– Hə, bax, bunu unutmuşdum. Gəl, gəl içəri görüm.

Qapının astanasında Gövhər bəyimin qızı xalasının qucağına sığındı.

– Xala…

– Can xala.

– «Quran»ı oxuyub başa çıxmışam.

– Haçan?

– Elə bu gün.

– Əhsən, – Pərixan bəyim boynundakı silsiləni açıb yeniyetmə qızın boynuna bağladı: – Məndən sənə yadigar olsun.

– Sağ ol, xala.

– Sən xalanın gül balasısan.

– Doğrudan?!

– Doğrudan…

Otağa keçdilər. Təzəcə oturmuşdular, nökər iri çini qabda meyvə gətirdi. Meyvə yeyə-yeyə bir az ordan-burdan danışdılar. Birdən Gövhər bəyim yerindən qalxdı:

– Bacı, İbrahim mirzənin divanını gətirim bax. Təzə tərtib edib.

Gövhər bəyim meşin cildli kitabı gətirib bacısına verdi:

– Bacı, üç min beytdi, – dedi, – dibaçəsini də özüm yazmışam.

– Mübarəkdi.

– Sağ ol.

– Ərinin sənətinə belə qiymət verdiyinə görə sən də sağ ol. Gövhər, İbrahim mirzə çox istedadlı adamdı, otuz üç yaşında bu qədər işlər görüb.

– Pərixan, Allah onun zəhmətini yerdə qoymasın, gecə-gündüz çalışır. Vaxtını boş keçirən adam deyil. Həmişə tələsir. Elə hey deyir: «Ömür vəfasızdı…» O elə deyəndə lap ürəyim sıxılır, dilim-ağzım qurusun, elə bilirəm nəsə olacaq.

Pərixan bəyim əlini səhifələrin üstündə gəzdirdi. Sanki yazılanları əlləri ilə oxuyurdu:

– Nə gözəl xətlə yazılıb. Xəttatı kimdi?

– Mir Şərəfəddin.

– Nə gözəl. Rəhmətlik atamız onu «Mir Münşi» deyə əzizləyərdi. Gilanın fəthi barədə yetmiş nüsxə fərmanı da ona yazdırmışdı.

– İbrahim də onun xətrini çox istəyir. Məşhədin hakimi olanda Mir Münşi onun vəziri olub. Oğlu Qazi Əhməd Qumi ilə Qumdan Məşhədə köçüb düz səkkiz il İbrahimin sarayında yaşayıblar.

Pərixan bəyim bacısı ilə danışsa da, fikri əlindəki divandaydı. O özü də şair idi, dərk eləyirdi ki, İbrahim mirzənin qəlbi, ruhu, duyğu-düşüncəsi əlində tutduğu bu divandadı. İnsan ölər, amma sözü ölməz. Ona görə, söz həmişə diridi, – deyiblər. Pərixan bəyim xəfifcə gülümsəyib dedi:

– Gövhər, yəqin İbrahim mirzə bu qəzəli sənin üçün yazıb.

– Hansını, bacı? Nədən bildin?

– Onu bilməyə nə var, ay qız, gör bir nə deyib sənin üçün:

Min gecədən sonra ki, sən yarla görüşdün,

Cahi, fürsətdir, gözünü ondan ayırma.

Gövhər bəyim uğundu:

– Bəs nə bilmişdin?! Mən onun ilham pərisiyəm də, Pərixan.

– Əlbəttə, mən buna heç şübhə eləmirəm. Yaxşı, əmioğlu özü hardadı?

– Günü divanxanada keçir. Deyir iş-güc çoxdu. Darıxma, möhürdarımız indi gələr.

Çöldə canlanma yarandı. Yəqin gələn vardı. Yanılmamışdılar. Az sonra İbrahim mirzə içəri girdi. Bacılar hörmət əlaməti olaraq ayağa qalxdılar. Gövhər bəyim bacısına:

– Bax, bu da bizim möhürdarımız.

– Xoş gəlmisən, Pərixan.

– Sağ ol, əmioğlu. Eşitmişəm şahın möhürdarı olmusan, mübarək olsun.

– Sağ ol, əmiqızı. Vəzifə insanı şərəfləndirmir, gərək insan vəzifəni şərəfləndirsin.

– Doğru buyurursan. Görək İsmayıl mirzə də vəzifəsini şərəfləndirə biləcəkmi?

– Yaşayarıq, görərik. Hələ ki, elə bir ciddi iş görməyib. İki gündən sonra cülus edəcək, bəlkə taxta oturandan sonra nəsə elədi. Pərixan, doğrusu, bu dünyada mənim üçün hər şeydən əziz, qiymətli kitabxanamdı. Kitablarımın əhatəsində özümü daha yaxşı hiss eləyirəm. Məmləkətin hansı guşəsində olmuşam, orada nadir kitablar aramışam. Şükürlər olsun, indi mənim kitablarımın sayı dörd mini keçib. Ərəb, fars, türkcə təzkirələr, risalələr, böyük şairlərin, alimlərin külliyyatı məndədi.

– Bu qədər kitabı oxumusan, əmioğlu?

– Demək olar ki, oxumuşam, – bir an susdu. – Guya sən oxumamısan? Sən də oxumusan da.

– Əlbəttə, mən də oxumuşam, amma sənin qədər yox. Sən dəryasan. Heyrət eləyirəm ki, bir belə müxtəlif elmləri öz zərif vücudunda nə sayaq cəmləşdirmisən?

İbrahim mirzə gözlərini qıyaraq Pərixan bəyimə baxırdı. Amma həm də ona baxmırdı. Elə bil nə isə arayırdı, əslində qarşısındakı Pərixan bəyimi burda qoyub zaman-zaman müşahidə edib yaddaşına köçürdüyü Pərixan bəyimə baxırdı. Birdən:

– Pərixan, səndə bir nəqşibəndlik görürəm, – görürəm.

– Əmioğlu, mən hara, nəqşbəndiyyə təriqəti hara. Sən bunu nədə görürsən?

– Xasiyyətində, davranışında.

– Məsələn?

– Məsələn, hər anın, hər halın qiymətini vaxtında verə bilməyində.

– Sonra?

– Hiss eləyirəm ki, Tanrı qarşısında hər zaman qəlbin oyaqdı. Qəflətdən qorunursan. Səndə həddini bilmək vardır. Çox vaxt qəlbin danışır, dilin susur.

– Nə olar, əmioğlu. Cəmaləddin əl-Qumiqiyə görə nəqşibəndiyyə təriqəti Cəbrayıl vasitəsi ilə ulu Peyğəmbərimizə ötürülmüş, o isə Əbu Bəkirə, beləcə ötürülə-ötürülə gəlib çıxıb əsrimizə. Doğrusu, mən özümü nəqşibəndi saymıram. Axı, nəqşibəndiyyə şeyxləri dövlət adamları ilə hər cür ünsiyyətdən çəkinirlər. Doğrudur, mən ömrümü Allaha ibadətə həsr etmişəm, amma bununla belə səltənət işlərinə qarışıram, siyasətdən uzaq deyiləm…

– Hər halda, gözdən-könüldən iraq gəzsələr də, hiss eləmişəm ki, nəqşibəndilərin sənə rəğbəti çoxdur.

– Bu yaxşıdı, yoxsa pis?

– Başqa-başqa təriqət sahiblərinin hüsn-rəğbətini qazanmaqdan gözəl nə var?! Deməli, sən öz əməlinlə hər kəsin fövqündəsən.

– Bu xoş sözlərə görə sağ ol, əmioğlu.

– Sən hər cür hörmətə, məhəbbətə layiqsən, əmiqızı… Durun gedək mənim çinixanama, ora mənə çox doğmadı. Orada elə bil Allaha daha yaxın oluram. Çinixanama keçən kimi ilhama gəlirəm.

Gövhər bəyim söz atdı:

– İllah da mən yanında olanda.

Gülüşdülər.

İbrahim mirzənin çinixanasında cürbəcür gözoxşayan əntiq qablar, qədim əşyalar vardı. Çinixanada İbrahim mirzənin öz əli ilə düzəltdiyi musiqi alətləri – saz, tənbur, ud, setar vardı. Mahir xəttatların, nəqqaşların əlindən çıxmış nadir kitablar da bu böyük otaqda saxlanılırdı.

Doğrudan da, bu otağın hər tərəfi insanın ruhunu oxşayırdı. Otağın hansı səmtinə üz tutsan, oradan zərif sənətkar əlindən çıxmış bir incəlik boylanırdı. Otağın döşəməsinə, tavanına, qapı-pəncərəsinə nəzər salan kimi İbrahim mirzənin əl işlərinin sehrinə düşürdün. O, doğrudan da, xatəmbəndi* yaratmaqda da mahir bir sənətkardı.

İbrahim mirzə sazını götürüb çalmağa başladı. Bir-iki hava çaldıqdan sonra Pərixan bəyim hiss elədi ki, İbrahim mirzə onların qarşısında saz çalsa da, ruhu onu tərk edib. O çalıb-oxuduqca Pərixan da özünü başqa bir aləmdə hiss edirdi.

İbrahim mirzə sazı qoyub setarı götürdü və Pərixan bəyimin heç vaxt eşitmədiyi bir nəğməni çalıb-oxumağa başladı. Bu çox ruhverici bir mahnıydı. Nəğmədə Əfşar bəylərinin sücaəti vəsf olunurdu. Mahnı Pərixan bəyimin ruhu ilə tam həmahəng idi. Mahnı sona yetəndə Pərixan bəyim:

– Əmioğlu, nə gözəl nəğmədi, – dedi. – Birinci dəfədi səndən eşidirəm.

– Mən bu «Əfşar bəyləri» nəğməsini Sadiq bəy Əfşardan öyrənmişəm. Əfşarlar musiqini çox sevirlər. «Əfşarı» muğamını da onlar yaradıblar. Çox comərddirlər. Sadiq bəy özü də qovğalarda çox şücaətlər göstərmiş adamdı.

– Sənin qoşduğun nəğmələr çoxdur. Sadiq bəy Əfşarın da varmı?

– Onun çox gözəl səsi, saqinamələri var. Sadiq bəy muğamata aşiyan bir kişidi. Ləhni də gözəldi. Ona çox qulaq asmışam. Rəssamlıqda, xəttatlıqda əvəzsiz, şairlikdə mahirdi.

Gəl-gəl, ey rahəti-canim, saqi,

Başda küfri, fəndə rəvanım, saqi.

Gəl, gəl, ey həmdəmü həmrazim, gəl,

Vey qəmi-əyyamidə dəmsazim, gəl.

Sadiq bəy Əfşarındı.

– Çox gözəl. Amma, əmioğlu, onu çox acıdil, tündxasiyyət söyləyirlər.

– Deyirlər xasiyyət də anadangəlmədi. Ancaq həmişə yox, çox zaman insanın xasiyyətini mühit, haqsızlıqlar da dəyişir. Sadiq bəy Əfşar layiq olduğu qiyməti hələ də almayıb. Onun başı bəlalar çəkib, əmiqızı. O iyirmi yaşında olanda atası rəhmətə gedib. Qardaşları var-dövləti bölüşdürəndə ona heç nə verməyiblər. Bu ədalətsiz münasibətdən inciyib dərvişlərə qoşulub. Deyir, çox oxuyan çox bilməz, çox gəzən çox bilər. O da gördüyü hər güldən bir şirə çəkib. Sən bir onun fikrinə bax: «Günəş bir ovuc palçıqla suvanmaz».

– Nə gözəl deyib... Sadiq bəy Təbrizdəndi?

– Bəli, Təbrizin Vəci məhəlləsindən. Rəhmətlik şah nəqqaşları, kitabdarları bir il idi ki, işdən azad eləmişdi. Sağ olsun, İsmayıl mirzə Sadiq bəyi kitabdarlığa qaytardı.

– Ondan çıxmayan iş, nə yaxşı?!

– Bacı, insafla desək, İsmayıl mirzə xəttatlığa, nəqqaşlığa çox məhəbbətlidi. İmarətlər onun tərhi** ilə yenidən qurulub. Kitabdarlara da xüsusi rəğbəti var. Qazi Əhməd Qumiyə də Səfəvilərin tarixindən kitab yazmağı tapşırıb.

Pərixan bəyim istehza ilə dedi:

– İnşallah, bir cild də onun şərəfinə yazar.

– Biz istəsək belə, İsmayıl mirzəni dana bilmərik.

– Mənim qətiyyən onu danmaq fikrim yoxdu. Mən ondan hər kəsə və özümə qarşı ədalətli olmasını istəyirəm, vəssəlam!

– Ondan ədalət gözləmə, əmiqızı.

– Nə üçün?

– Qəhqəhə qalası mərhəmət, şəfqət hisslərini çoxdan onun ürəyindən qovub çıxarıb.

– Qulaqlarıma inanmıram. Bu sözləri şahın möhürdarı deyir?

– Bəli, mən deyirəm! O məni daim gözləri qabağında oturtmaq üçün möhürdar edibdi, sevdiyi üçün yox. Düzünü bilmək istəsən, İsmayıl mirzə mənim Qəndəhar vilayətinin hakimi olan qardaşım Sultan Hüseyndən çəkinir, yoxsa məni bağışlamaz.

– Axı sən ona neyləmisən?

– Mən Heydər mirzənin tərəfdarı deyildimmi? Elə bilirsən unudub? Xeyr!

– Mən belə başa düşdüm ki, o, heç tərəfdarlarını da sevmir. Mənə yerimi göstərdi. Hüseynqulu Xüləfanın başına min oyun açdı.

– Darıxma, bacı, qoy cülus edib taxtında otursun, Əzrayıl olub düşəcək canımıza.

– Lap məni qorxudursan, – bayaqdan susub oturmuş Gövhər bəyim yerindən dilləndi.

– Mən ürəyimə damanları deyirəm.

Pərixan bəyim köks ötürdü:

– Sənə belə görünür?

– Hə, münəccim deyiləm, yaşayarıq, görərik. Amma ədalət naminə deyim ki, onun zəhmi qonşu məmləkətlərin hakimlərini də basıb. Sərhədlərimiz möhkəm olmaya-olmaya bu günlərdə məmləkətdən bir çəpiş də aparan yoxdu.

– Deyirsən, ondan qorxurlar?

– Bəli. Onun qəhrəmanlıqları unudulmayıb. Özü də fatehlik fikrindədi.

– Nə olar, təki fatehimiz olsun, cəlladımız yox.

– Sabah necə olacaq, kimsə deyə bilməz. İki gündən sonra İsmayıl mirzə cülus edəcək. Ondan sonra hər şey bəlli olacaq, əmiqızı.

XXIX FƏSİL

CÜLUS GÜNÜ

Əzizim minayə dəyər,

Xalın min ayə dəyər!

İl var bir günə dəyməz,

Gün var min ayə dəyər.

Qasım bəy Zakir

Hicri 984-cü il cəmadiül-əvvəl ayının 27-si (22 avqust 1576) caharşənbə günü Çehelsütun eyvanında böyük bir şadyanalıq vardı. Bu şadyanalıq nəinki məmləkətin paytaxtı Qəzvində, ölkənin hər yerində hiss olunmaqdaydı. Bu gün İsmayıl mirzə taxt-taca sədaqət andı içəcəkdi. Cülus gününü də İsmayıl mirzə özü seçmişdi. Şahzadələr, səltənətin dayağı olan vəzir, vəkil, əmirlər, sultanlar, darğalar, kələntərlər, şairlər, alimlər, üləmalar, nəqqaşlar, xoşavaz xanəndələr Çehelsütun eyvanına toplaşmışdılar. İsmayıl mirzənin göstərişi ilə atasının vaxtilə dustaq eləyib Ələmut qalasına saldırdığı Sumayın Luarsab oğlunu, Ləvənd oğlu İsəxanı, Biye-pişə hakimi Xan Əhmədi zindandan azad edərək andiçmə mərasiminə gətirmişdilər. Hindistan padşahı Nizam şahın, Luristan hakimi İbrahim xanın, Şah Rüstəm Lurun, Mazandaran hakimi Mirzə xanın, Ərəbistan (Xuzistan) hakimi Seyid Səccadın elçiləri, Portəgiz kralı Don Sebastyanın səfirləri də Çehelsütun sarayında öz yerlərini tutmuşdular.

Hamı onun intizarındaydı. İsmayıl mirzə hələ görsənmirdi. O, geyinib-kecinib eyvana çıxmağa hazırlaşanda Sultanım bəyim oğlunun yanına gəldi. Qarşısında dayanıb ona munis nəzərlərlə baxdı. Dünyaya gətirdiyinin boyu ondan nə qədər ucaydı. Bir an İsmayıl mirzənin tale yolu gözləri önündən gəlib keçdi. O, ovcunda tutduğu üzərlik topasını balaca mis kasaya atıb yandırdı. Sultanım bəyim kasanı əlinə götürüb oğluna yaxınlaşdı. İsmayıl mirzə başını aşağı əydi ki, anası üzərliyi onun başına fırlasın:

– Üzərliyim çırtlasın, yaman gözlər pırtlasın. Qadadan, bəladan, şərdən, böhtandan uzaq, taxtında qaim-qədim, ata-babana layiq olasan.

– Allah qoysa, ana.

– Sən bu gündən böyük bir məmləkətin şahı olacaqsan, oğlum. Sənə olan pislikləri unut. Ədalətli ol, haqqı nahaqqa vermə. Qəddarlıqdan, ev yıxmaqdan həmişə çəkin. Allah padşahlıq işində sənə yar olsun. Səni gözləyirlər, dur get!

İsmayıl mirzə ayağa qalxdı, anasının alnından öpüb, Çehelsütun eyvanına çıxdı. Toplaşanlar əlvan paltarda bir az da əzəmətli görünən İsmayıl mirzənin qarşısında diz çöküb təzim etdilər. Qəhqəhə qalasının dünənki dustağı şah libasında gedib atasının taxtında oturdu. Hamı ayağa qalxdı. Sonra şahzadələr, seyidlər, üləmalar, əmirlər, sultanlar, dövlət adamları şahın taxtına yaxınlaşıb paltarının ətəyini öpdülər. Qaladan çıxdığı gündən bu günə kimi İsmayıl mirzəyə bağışlanmış bütün hədiyyələri onun taxtının ətrafına yığmışdılar. Hələ də hədiyyələr verilməkdəydi. Şah bu hədiyyələrdən az qala görünməz olmuşdu.

Bir nəfər içində buxur və üzərlik yandırılmış buxurdanın zəncirindən tutub yellədə-yellədə Çehelsütun eyvanında dolaşırdı. Ətrafa buxurdandan xoş bir ətir yayılırdı.

Beləcə, tarixi bir gün yaşandı. Qəhqəhə qalasının keçmiş dustağı, Səfəvi-Osmanlı müharibələrinin qəhrəmanı İsmayıl mirzə II Şah İsmayıl olaraq Səfəvilər xanədanının sahibi oldu.

* * *

II Şah İsmayıl hələ Səfəvi taxtında oturmamışdan, yoluna qoyacağı işləri götür-qoy eləmişdi. Öncə qoşunun məvacibini vermək fikrində idi. Buna da hər cür imkan vardı və bu cür imkana görə atasına rəhmət düşürdü. Çünki atasından ona böyük miras qalmışdı. I Şah Təhmasib əlli ildən artıq (daha dəqiq söyləsək, 53 il, 6 ay, 26 gün) şahlığı dövründə dövlət xəzinəsini hər an zənginləşdirmişdi. Bu xəzinədə 900 min tümənlik nəqd pul, müxtəlif qiymətli əşyalar toplanmışdı. Beytülmalda* 380 min tümən qızıl və gümüş sikkə, hər biri 3 min misqal** olan 600 ədəd qızıl, 600 ədəd gümüş kərpic (bu qızıl külçəsindən biri İsmayıl mirzə Qəhqəhə qalasında dustaq olanda oğurlanmışdı), 800 ədəd qızıl və gümüş sərpuş (papaq), 200 xalvar*** ipək, atlas parçalardan tikilmiş 300 min dəst paltar, cəbbəxanada 30 min süvari silahı, 3 min dəvə, 3 min madyan, 200 sürü xass**** atlar vardı. Xəzinədə bu qədər var-dövlət ola-ola Şah Təhmasib on dörd il qoşunun məvacibini verməmişdi. Səbəbini bir özü, bir da Allahı bilirdi. II Şah İsmayıl qoşuna olan on dörd illik məvacib borcunu qaytardı. O, əyanları, əmirləri özünə tərəf çəkmək üçün onlara bahalı hədiyyələr, peşkəşlər verməyi də unutmadı.

II Şah İsmayıl çox düşünüb-daşınandan sonra hakimiyyəti dövründə şiəliyin təsirini azaltmaq, məmləkətində yaşayan sünniləri aşağılayan hərəkətlərin qarşısını alacağına qərar vermişdi. Osmanlılarla bağlanmış sülh sazişinin uzunömürlü olması üçün də bu, vacib idi. Bunun üçün sünnilərlə şiələr arasında barışdırıcı bir mühit yaratmaq gərək idi. Başa düşürdü ki, verdiyi qərarı bu tezliklə həyata keçirə bilməz, bu işi tədricən görmək lazım idi.

Atasının ölümü ilə çox işlər tökülüb qalmışdı. II Şah İsmayıl əhalinin artıq narazılıq etdiyini görürdü. O, bu narazılığın qarşısını almaq üçün möhürdar İbrahim mirzəyə tapşırdı ki, Məhəmməd xan Toxmaq, Mirzə Əli Qacar və ali divanın vəziri Mirzə Şükrulla ilə birlikdə işləri yoluna qoysun. Şah, Asaiş oğlu Ustaclını aciz və yoxsullara pərvanəçi seçməyi də unutmadı.

II Şah İsmayıl məmləkətin yarısının sədarətliyini seyid Mirzə Məxdum Şərifiyə, digər yarısını isə atasının zamanında qazi əsgər (orduda şəriət qanunlarını icra edən şəxs) olmuş Şah İnayətullaya tapşırdı. Onlar camaatın şəriət və haqq-hesab məsələlərini yoluna qoymalıydılar.

* * *

Günlər keçirdi. Andiçmə mərasimi arxada qalmışdı. Camaatın şəriət və haqq-hesab məsələləri ədalət divanında öz həllini tapır, hökmlərə, çıxarılmış qərarlara hökmdarın divan möhürü basılırdı. Ancaq səltənət və padşahlıq işlərinin çox hissəsi, əmirlərin, hakimlərin təyin olunması ləngiyirdi. İşlərin bu sayaq ləng getməsinin günahını II Şah İsmayıl vəziri Mirzə Şükrüllada görürdü. Yerli-yersiz onu bacarıqsızlıqda, qabiliyyətsizlikdə təqsirləndirirdi. Bununla belə onu vəzirlikdən azad eləmirdi. Niyə də eləyəydi?! Çatışmazlıqların günahını bəs kimin boynuna qoyaydı? Yazıq Mirzə Şükrüllanın gününü qara eləyib, yediyini zəhərə döndərmişdi. Ona qahmar çıxan, «zati-aliləri, ədalət də yaxşı şeydi» – deyən yoxdu. İbrahim mirzə sarayda şahın gözü qabağında oturduğundan, vəzirin hər gün danlanmasının şahidi olurdu. Gün-gündən açıqca hiss eləyirdi ki, şahın bu iradlarından, vəzirini bu cür alçaltmağından əzab çəkir. Şaha irad tuta bilmədiyindən, yavaş-yavaş qəlbi nifrətlə dolurdu.

Şah isə zahirdə ona rəğbətlə yanaşırdı. Hərdən keçmiş-keçəcəkdən, şeirdən, sənətdən, xəttatlıqdan, nəqqaşlıqdan danışırdılar. İsmayıl mirzə yeri düşəndə qəhrəmanlıqdan, fatehlikdən dəm vururdu. Bu cür söhbətlərdə İbrahim mirzə şahın necə vəcdə gəldiyini, gözlərinin necə parıldadığını görürdü. Qəlbindən keçənləri

ona söyləməsə də, II Şah İsmayılın on doqquz il altı ay iyirmi bir gün dustaq olmasını ədalətsizlik sayırdı. Dustaqxana həyatının hər an haldan-hala, fikirdən-fikrə düşən şahın qəhrəmanlıq ruhunu, arzularını necə yeyib tükətdiyini sezir və bundan əməlli-başlı əzab çəkirdi. «Axı niyə biz bu cür insanlarımızın qol-qanadını sındırırıq?! Nə üçün qədirbilməz oluruq? Paxıllıq, xəbislikmi edirik, yoxsa, sadəcə, uzaqgörən deyilik? Bu mənəm-mənəmlik, təşəxxüs, özündənrazılıq mərəzi niyə gözlərimizi tutub? Danışanda, ibadət eləyəndə alim, əmələ gələndə cahil oluruq. Bu II Şah İsmayıl, hər necə olursa-olsun, oğurlanmış gəncliyinin – on doqquz il altı ay iyirmi bir günün əvəzini çıxacaq. Hökmən! On doqquz ildə içində boğub saxladığı nəfsi, nəhayət, özünü göstərəcək. O ya fatehlik həvəsinə düşüb müharibələr edəcək, ya da görünməmiş qəddarlıqlar. İşdi, qəddarlıqlar etsə, günahkar o yox, bizik. O, doğma atasından mərhəmət görməyibsə, mərhəmətli ola bilərmi?! Yox! Hələ bir az keçsin, əyyaşlıq da eləyəcək. Bəli, dünənin dustağı, bu günün şahı boş keçən 7 min 138 gününün əvəzini hökmən çıxacaq. Cariyələrindən biri artıq boyludu. Hələ körpəsi dünyaya gəlsin, onun vəliəhd olması üçün hər şeydən keçəcək. Mən bütün bunlara görə onun yox, Heydər mirzənin şah olmasını istəyirdim. Amma o, bütün pislikləri ayaqları altına qoyub, ədalətli də ola bilər. Bunu da ancaq kamil, müdrik insanlar edə bilər».

* * *

İki ay keçdi. Hər gün vəzir Mirzə Şükürulla danlanır, İbrahim mirzə ürəyindəkiləri biruzə verməmək üçün nəzərlərini qarşısında qalaqlanmış sənədlərə dikirdi. Şahın bir gözü həmişə möhürdarındaydı: «Sən bir mənim möhürdarıma bax, özünü elə aparır, guya Heydər mirzənin tərəfdarı olmağından xəbərim yoxdu. Arzusu gözündə qaldı... Yəqin məndən zəhləsi gedir. Əlacı olsa, mənimlə bir otaqda oturmaz. Amma mən istəyirəm gözümün qabağında olsun... Xalq arasında hörməti çoxdu. Bəhram əminin bu uşaqlarından da xəta əskik deyil. Bu İbrahim mirzə saz çalıb-oxumaqda rəhmətlik atasına çəkib. Səsinin avazı adamın huşunu başından alır. Hə, gör gözlərini nə zilləyib... Allah bilir nə fikirləşir. Yəqin ilhamı gəlib, ya da nəğmə düzüb-qoşur. Məmləkətdə onun nəğmələrini oxumayan tapılmaz. Mən də zindanda darıxanda onun nəğmələrini çox zümzümə eləmişəm. Yox, doğrudan, əmioğlu qabiliyyətli adamdı. Olacaq da, mən zindanda qaranquşların yuva tikməsinə baxa-baxa günlərimi sayanda bu da sarayda oturub saz çalıb-oxuyurdu, xəttatlıq, xatəmbəndilik öyrənirdi, ən nadir kitabları mütaliə edir, elm sahibi olurdu. Atam da İbrahim mirzəni çox istəyirdi.

Şah ürəyi ilə bu cür danışanda fikir-xəyaldan bezib ayağa qalxardı. İbrahim mirzəyə də deyərdi ki, darıxır, gəl dəftərxanaya, emalatxanaya baş çəkək. İbrahim mirzə şahın sözünü çevirməz, qalxıb ona qoşulardı. İbrahim mirzə fikir vermişdi, İsmayıl mirzə kitabdarların, xəttatların, nəqqaşların yanında olanda elə bil başqalaşırdı, daha həlim, duyğulu olurdu. Saatlarla miniatürlərlə bəzədilmiş kitabları vərəqləyib baxırdı. O, belə anlarında İbrahim mirzəni bağrına basmaq istəyirdi. Hətta bir dəfə şah özü də etiraf eləmişdi:

– Qardaşım, mən burada, bu sənətkarlar arasında olanda başqa cür oluram. Hərdən özüm də əlimə fırça götürüb işləmək istəyirəm.

İbrahim mirzə cavabında demişdi:

– Şah sağ olsun.

II Şah İsmayıl onun sözünü kəsmişdi:

– Şah yox, mənə qardaşım de.

İbrahim mirzə şahın bu rəftarından duyğulanmışdı:

– Qardaş, mənə qarşı böyük lütfkarlıq göstərirsən.

– Sən hər cür hörmətə layiqsən.

– Sağ ol, qardaş.

– Bayaq nəsə demək istəyirdin.

– Demək istəyirdim ki, nəqqaşlığa, şairliyə məhəbbət bizə irsən keçib.

II Şah İsmayıl əlini onun çiyninə qoyub:

– Elədir, sən də bizim fəxrimizsən. Allahın seçilmiş bəndələrindənsən. Amma çox həlimxasiyyət, abır-həyalı adamsan. Balaca bir qüsurun var... Bir az sərt ol. Bir də, səndən çıxmayan iş, niyə təknigahlısan? Beş günlük dünyadı, sarayındakı cariyələrdən, kənizlərdən niyə özünə arvad seçmirsən?... Yoxsa, bacım Gövhər bəyimdən qorxursan?.. – deyə ürəkdən qəhqəhə çəkmişdi.

İbrahim mirzə söhbətin bu məcraya yönəlməsini istəmirdi:

– Qardaş, bu könül məsələsidi. Gövhər bəyimin üstünə günü gətirmək heç ağlıma da gəlmir. O çox incəqəlbli xanımdı.

– Yaxşı-yaxşı, az təriflə bacımı.

Sonra sənətkarlarla sağollaşıb emalatxanadan çıxmışdılar.

Bircə gün sonra isə İbrahim mirzəyə bədbəxtlik üz vermişdi. Böyük qardaşı, Qəndəharın hakimi Sultan Hüseynin ölüm xəbərini gətirmişdilər. İbrahim mirzə bu itkidən çox sarsılmışdı.

II Şah İsmayıl mərhumun yasına gəlib İbrahim mirzəyə, bacısı Gövhər bəyimə, Sultan Hüseynin oğluna başsağlığı vermişdi. «Bir gün gələn bir gün də gedəcək» – demişdi, ibrətli məsəllər çəkib onların dərdinə şərik olmuşdu. Doğrusu, şah bu hərkətləri ilə İbrahim mirzəni bir qədər çaşdırmışdı da.

Bir neçə gündən sonra dövlətxanaya gəlib şahla üzbəüz oturanda isə çaşıb qaldı. II Şah İsmayılın üz-gözündən zəhər damırdı. İbrahim mirzə əvvəl-əvvəl şahın soyuqluğunun səbəbini başa düşmədi:

– Qardaş, xeyirdimi, niyə qanıqarasan?

Şahın qaşları çatıldı:

– Sən nə qardaş-qardaş salmısan. Nə zamandan qardaş olmuşuq?!

İbrahim mirzənin qanı sifətinə vurdu:

– Bağışla, əlahəzrət.

– Məni ələ salırsan?!

– Allah eləməsin, bu boyda məmləkətin şahını ələ salmaq kimin ağlına gələr.

– Bir belə varisi olan məmləkətdə nə desən olar. Nə qədər qardaş, bacı, əmi, dayı uşaqları olar, hələ xala-bibini demirəm?!

– Şah sağ olsun, deyirsən neyləyək, qardaş-bacımızı boğub öldürək?

– Lazım gəlsə, öldürərik də.

– Daha mənim sənə sözüm yoxdu.

– Nə sözün olacaq.

İbrahim mirzə söz güləşdirməyin mənasız olduğunu görüb susdu. Şah da susub qəzəbindən fısıldayırdı. İbrahim mirzəyə elə gəldi ki, bu dəqiqə otağı tərk eləməsə, havasızlıqdan boğulacaq. Ayağa qalxdı:

– Mən gedirəm, – dedi, – deyəsən, hələ çox şeyin şahidi olacağıq.

– Əlbəttə. Amma yadında saxla, şahidin də şahidi olur.

İbrahim mirzə şahın üzünə baxmadan otaqdan çıxdı.

XXX FƏSİL

QATİLLƏ SƏCDƏDƏ

Zalım oldun zülm əkərsən tarlana,

Zalımın zülmü-şərindən tarlada üsyan bitər.

İmadəddin Nəsimi

İsmayıl mirzə ustaclıları dövlətxananın qabağından qovdurandan sonra iki ay qəsdən Pirə Məhəmməd xan Ustaclını arayıb-axtarmadı, onu nigarançılıq içində saxladı; qoy başa düşsün ki, Qəhqəhə qalasının keçmiş dustağı ilə zarafat etmək olmaz. Bu yaşa çatıb, məgər Pirə Məhəmməd xan hələ bilməyib ki, şahla bostan əkənin tağı çiynində bitər?

Çərşənbə günü şər qovuşanda Pirə Məhəmməd xanla Şamxal sultan Çərkəzi yanına çağırtdırdı. O, kimin kim olduğunu çox gözəl bilirdi. Vaxtilə Şamxal sultanın Gürcüstana olan hücumda iştirakını, cızığından çıxmış Simayunu tutub Qəzvinə, şahın hüzuruna göndərdiyini, Heydər mirzənin qətlindəki xidmətini, bir sözlə, hər şeyi bilirdi. Qarşısını almasa, sabah ondan gələ biləcək bəlaları da görürdü.

İsmayıl mirzə birbaşa mətləbə keçdi:

– Siz məni, mən də sizi çox yaxşı tanıyıram. Mənim keçmişim sizə məlumdu, sizinki də mənə. Bilmirəm məni düz başa düşəcəksiniz, yoxsa yox, varisin çoxluğu səltənətə təhlükədi! Başa düşürsünüz, təhlükə! Məni təkcə oturduğum taxt yox, Səfəvilər xanədanının sabahı narahat eləyir.

Pirə Məhəmməd xanın ürəyindən müdriklərin söylədiyi «Danış, səni görüm» kəlamı axıb keçdi. İsmayıl mirzə dedi:

– Bilirsiniz ki, Mustafa mirzə Heydər mirzə ilə dost olmuşdur. Bunu sarayda hər kəs bilir. Mustafa mirzə Heydər mirzəni şah görmək istəyirdi. Amma bu sövdə baş tutmadı. Heydər mirzəni qətlə yetirdilər. Doğrusu bir qardaş kimi mənim borcum Heydər mirzənin qətlində iştirak eləyənləri cəzalandırmaqdı (sükut). – İsmayıl mirzənin baxışları Şamxal sultana dikildi. Bu baxışlar Şamxal sultana deyirdi ki,

qatilin biri də sənsən! İstəsəm, bu saat səni çarmıxa çəkdirərəm! – Amma Qəhqəhə qalasından çıxdığım, şahlıq taxtına sahib olduğum üçün keçmiş olsun deyirəm. (Şamxal sultanın rəngi özünə gəldi). Nə gizlədim, Şamxal sultanın bacısı oğlu Süleyman mirzə mənim tərəfimdə olsa da, bilirəm ki, indi Pərixan bəyimə görə ürəyi mənimlə deyildir. Səfəviyyə nəslindən olan bir xanıma dövləti-alinin xidmətində olan əmirlərlə ünsiyyətdə olması məsləhət deyildir. Siz nə fikirdəsiniz?

– Padşahın bu qərarı yerində və ədalətlidir, – Pirə Məhəmməd xanla Şamxal sultan eyni fikirdə olduqlarını söylədilər.

– Bəs şahzadələr barədə fikriniz?

Pirə Məhəmməd xan ürəyində şahzadələrin taleyinə yanıb dedi:

– Padşah, aləm sağ olsun, əgər bu şahzadələr sarıdan mübarək könlünüz qəm-qüssəyə qərq olmuşsa, onları qalalardan birinə göndərin.

İsmayıl mirzə istehza ilə dedi:

– Mən bu şahzadələrdən əmin deyiləm, Məhəmməd xan. Mustafa mirzə ustaclı tayfasının yetirməsidir. Ona görə də Məhəmməd xan, onu sənə, Süleyman mirzəni isə doğmaca dayısı Şamxal sultana tapşırıram. İstəsəniz, onları qalada saxlayarsınız, istəsəniz bəsləyib padşah edərsiniz (Sözə bax də…)

Nə Pirə Məhəmməd xan, nə də Şamxal sultan danışmağa söz tapmadılar. Yox, deyiləsi söz vardı, amma o sözdən sonra salamat qalıb-qalmamaq sual altındaydı. Pirə Məhəmməd xana baxanda Şamxal sultanın düşdüyü vəziyyət daha acınacaqlı idi. Doğmaca bacısı oğlunun qatili olmaq ömürlük düşmənçilik, xəcalətli yaşamaq demək idi. Süleyman mirzəni öldürərsə, buna doğma bacısı, bacısı qızı, kinli Pərixan bəyim necə baxacaqdılar?! Onu başa düşəcəkdilərmi, yoxsa yaxasından yapışıb: – «Cavan bacın oğlunu qətlə yetirməkdənsə, özünü öldürəydin», – deyəcəkdilər. (Özünü öldürə də bilərdi, bəs uşaqlarının taleyi necə olsun?) Olum-ölüm adlı müdhiş bir qərarın qarşısında aciz qalmışdı: «Ya öldür, yaşa, ya da… Əlbəttə, biz səni yaşatmayacağıq». Beləcə, Şamxal sultan, oğurluq üstündə tutulmuş uşaq kimi, İsmayıl mirzəyə deməyə söz tapmırdı, dayanıb maddım-maddım onun bir əzələsi də tərpənməyən üzünə baxırdı. «Görünür, Heydər mirzənin qanı məni tutub» fikri ona hakim kəsilmişdi. Əzraili qarşısındaydı: «Bacın oğluna qıymırsansa, buyur, özünə qıy!».

İsmayıl mirzə vaxt itirmək istəmədi, qarşısındakı əmirlərin ürəyindən keçənləri təxmini də olsa gözlərindən oxuyurdu, amma geriyə çəkilmək fikri yoxdu:

– Başqa bir sözünüz yoxdur? – soruşdu.

– Xeyr!

– Elə isə gedin.

Qapıdan dabanbasma çıxdılar. Hər ikisinə bıçaq vursaydın, qan çıxmazdı.

* * *

Ertəsi gün Hacı Veys sultana göstəriş verildi ki, Mustafa mirzəni Pirə Məhəmməd xanın mənzilinə aparıb ona təhvil versin. Süleyman mirzəni isə, dayısı Şamxal sultanın evinə göndərdilər. (Daim ünsiyyətdə olduğun, özünə arxa, dayaq sandığın adamın evində qətlə yetirilməkdən də böyük faciə varmı?)

Mustafa mirzə hara, nə üçün aparıldığını dərhal başa düşdü. O, iki balaca qızını sinəsinə sıxıb ipək saçlarını doyunca qoxladı, üz-gözlərindən öpdü, öpdü… Ürəyində şükür elədi ki, nə yaxşı bunlar oğlan uşaqları deyillər, yoxsa ona görə onların da boynu vurulardı. O, boynunu burub küsgün-küsgün baxan xanımına:

– Allah əmanətində qalın, uşaqlara yaxşı bax, məndən sonra ağlayıb-sızlamayın. Allah hər şeyi görür. Salamat qalın, – deyib ipək parçaya bükülmüş «Quran»ı götürüb evdən çıxdı.

* * *

… Mustafa mirzə neçə gün idi Pirə Məhəmməd xanın evindəydi. Hər gün «Quran» oxuyur, Allaha ibadət edir, oturub cəlladını gözləyirdi, amma nədənsə qatili gəlib çıxmaq bilmirdi. O, bu nigarançılığa son qoymaq istəyirdi.

Pirə Məhəmməd xanın tutulmuş qaş-qabağından, ətrafında dolaşanların pərt, sıxıntılı davranışlarından hiss eləyirdi ki, içlərində böyüdüyü ustaclılar onu qətlə yetirməkdə çətinlik çəkirlər. Mustafa mirzə onu da başa düşürdü ki, onu öldürüb İsmayıl mirzəni «muştuluqlamasalar», ustaclı tayfasının günü qara olacaq.

Taleyi tükdən asılı olsa da amma Pirə Məhəmməd xana yazığı gəlirdi. Onun nə çəkdiyini, necə çıxılmaz bir dalana girdiyini hiss eləyirdi. Fikirləşdi ki, bir gün gec,

bir gün tez, onsuz da öləcək. Yaxşısı budur, Pirə Məhəmməd xanı bu əzabdan qurtarsın.

Bir gün Pirə Məhəmməd xan axşam namazına duranda xalçasını, canamazını götürüb onun yanında namaz qılmağa başladı. Hər ikisi dodaqaltı pıçıldayır, əyilir, qalxır, diz çökür, hərdən gözaltı bir-birinə nəzər salırdılar. Az qala eyni anda dodaqları Allahu-əkbər, sübhanallah pıçıldayırdı.

Pirə Məhəmməd xan sabah tutacağı şər işə görə Allahına yalvarırdı: «İlahi, yanımda səcdəyə durmuş bu cavanın günahı nədir? Niyə mən onun qatili olmalıyam. Bax bu cavan qəsdən gəlib yanımda namaz qılır. Utandırır məni… Qılıncsız, xəncərsiz öldürür məni. Allahım, keç günahımdan. Sən bu cavanın yerini behişt elə».

Mustafa mirzə isə diz üstə çökmüş xana nəzər salıb fikirləşirdi ki, Pirə Məhəmməd xan bu gündən oruc tutub namaz qılmasa yaxşıdı. Qana batmış əllərlə Allaha ibadət etmək olmaz.

Nəhayət, səcdədən qalxıb üz-üzə durdular. Mustafa mirzə ev sahibindən soruşdu:

– Səcdəyə durmuşduz, Tanrıdan istəyiniz nəydi?

– Tanrıdan günahımın bağışlanmasını istəyirdim.

– Günahınız varmı, əfəndim?

– Əlbəttə, möhtərəm şahzadə, hamı kimi, mən də günahsız deyiləm. Allah məni bağışlasın, birini də gözləyirəm.

– Bəs nəyi gözləyirsiniz?

– Qatil olmaq istəmirəm.

– Mən ustaclılardan çox yaxşılıqlar görmüşəm. Hüseyn bəy Yüzbaşı mənim lələm olub, indi dustaqdı, Allah qapısını açsın. Bu gecə adam göndərin məni haqqa qovuşdursun.

– Kim dedi ki, sizi bura öldürməyə gətiriblər?!

– Hər halda, bura toya gəlmədiyimi yaxşı bilirəm, xan! Bilirəm, mənə qıymırsınız, əzab çəkirsiniz, amma bilin, məni öldürməsəniz, nə qədər ki, İsmayıl mirzə həyatdadır, ustaclıların günü göy əsgiyə bükülәcəkdir. Mən ustaclıların yolunda ölməyə hazıram (sükut). Mən sizi qatilim kimi yox, doğmam kimi qucaqlamaq istəyirəm.

Pirə Məhəmməd xan Ustaclı ata məhəbbəti ilə Mustafa mirzəni qucaqladı. Çiyinlərinin qalxıb-düşməsindən şahzadə hiss etdi ki, Pirə Məhəmməd xan ağlayır. Xeyli beləcə, qucaqlaşmış halda qaldılar. Ayrılanda Pirə Məhəmməd xan Mustafa mirzədən soruşdu:

– Bir sözünüz, tapşırığınız varmı?

– Qismətim belə imiş. Ustaclılar Səfəvilər xanədanında kiçik bir zərrəcikdilər, neyləyə bilərlər. Mən ustaclı camaatından çox razıyam. Məhəmməd xan, evinizdə kəsdiyim qisməti halal eləyin.

Pirə Məhəmməd xan:

– Halal xoşunuz olsun… – dedi və xeyli sükutdan sonra: – Mən isə sizdən halallıq istəyə bilmərəm.

– Niyə?!

– Hörmətli şahzadə, bilirsiniz ki, sizin ölüm fərmanınız sarayda verilib, amma mənim evimdə qətlə yetiriləcəksiniz. Siz özünüz söyləyin, mənim kimi bir cəllada halallıq düşürmü?!

– Məhəmməd xan, qanımı sizə yox, ustaclılara halal eləyirəm. İsmayıl mirzəni isə hər gün oxuduğum «Quran»a tapşırmışam. Allah qoysa, onu ən şərəfsiz ölüm gözləyir… İndi xahiş edirəm gedin, yalqız qalmaq istəyirəm. Bu gecə hökmən adamlarınızı göndərin, həm mənim, həm də hər iki tərəfin intizarına son qoyulsun.

Pirə Məhəmməd xan başı sinəsində otaqdan çıxanda fikirləşdi ki, bu dünyada xəcalət çəkməkdən betər dərd yoxdur.

* * *

Kaş nahaq qan tökülən gecələrin səhərləri açılmayaydı! Amma qanlı gecənin səhəri açılmışdı! Bütün gecələrin qara üzünə açılmış səhərlər kimi. Günəş həmişəki kimi parlaqdı. Qoyun-quzu mələşir, atlar kişnəyir, dəvələr manqırışırdı. Ayaqları «qana batmış» ağ göyərçinlər İmamzadənin yaşıl günbəzi ətrafında dövrə vurur, Qəzvini əhatə eləyən təpələrin üstündən havaya qartal qalxır, ağaclara doluşmuş boz sərçələr civildəşir, soyuq dağ çaylarında qara, qırmızı rəngli, şəffaf pulcuqlu balıqlar qayğısız-qayğısız çayaşağı, çayyuxarı şütüyürdülər. Ancaq artıq bütün

bunların Süleyman mirzəylə Mustafa mirzəyə zərrə qədər dəxli yoxdu. (Bu günün ölüsü, min ilin ölüsü).

Hər iki şahzadənin cənazəsini mürdəşirlər dini nəğmə oxuya-oxuya yuyub kəfənləmişdilər. Bununla da şahzadələrin boğazlarındakı barmaq izləri görünməz olmuşdu. Mürdəşirlər bir-birlərinə mənalı-mənalı baxıb pıçıldaşmışdılar: «Bu barmaq izləri barədə nə dil bilsin, nə dodaq».

Şahzadələrin cənazələrini Çehelsütun eyvanında yan-yana qoymuşdular. Sağlıqlarında Süleyman mirzə İsmayıl mirzənin, Mustafa mirzə isə Heydər mirzənin tərəfdarıydı. İsmayıl mirzəyə isə onların heç biri lazım deyidi, şəriksiz hakimiyyət gərək idi.

Şahzadələr, vəzirlər, vəkil, möhürdar, eşikağası, qorçubaşı, əmirlər, nəqqaşlar, xəttatlar, kitabdarlar, dəftərxana işçiləri, bir sözlə, saraya yaxın olan hər kəs buradaydı. Hətta Pirə Məhəmməd xanla Şamxal sultan Çərkəz də. Bundan böyük faciə, bundan böyük əxlaqsızlıq olmazdı ki, qatillərin gəlib sənin cənazə namazına dura. Onlar zahirən sakit görünsələr də, ürəkləri vicdan məngənəsində sıxılırdı. Şamxal sultan Çərkəz bacısına, Pərixan bəyimə nə deyəcəkdi, bilmirdi. Belə gözükölgəli, urvatsız yaşamağa dəyərdimi? Deyirlər, nahaq qan yerdə qalmır, doğruymuş, Heydər mirzənin qətlində əli olanlar cəzadan kənarda qalmırdılar. İsmayıl mirzənin taxta çıxmağından cəmi iki ay keçmiş bu faciə baş vermişdi.

İsgəndər bəy də nəqqaşların yanında dayanmışdı, heyrət içindəydi. Bir gecədə baş verənləri, görüb-eşitdiklərini yaddaşına yazırdı.

Hamı toplaşandan sonra İsmayıl mirzə Çehelsütun eyvanında göründü. O, ağır, asta addımlarla yaxınlaşıb axundun yanında dayandı. Üz-gözündən zəhər yağırdı. Gecə gec yatmışdı. Qələmə sarılıb bir neçə şeir yazmışdı. Adili ayaması ilə yazdığı bu şeirlərdə ədalətdən, qazilikdən, sufilikdən bəhs etmişdi. Şeirlərinin birində isə zindanda keçən günlərini yad eləmişdi.

Hərəm dairəsindən ağlaşma səsi gəlirdi. İsmayıl mirzə ağı səsindən, şaxsey-vaxseydən əsəbiləşib gözünün altı ilə axunda baxdı, axund işarəni başa düşdü. Qoltuq cibindən meşin üzlü əl boyda «Quran»ı çıxarıb yasin oxumağa başladı. Yasin bitdikdən sonra cənazələri üç dəfə qaldırıb yerə qoydular. Sonra gecənin yarısı boğulub öldürülmüş şahzadələrin cənazələrini çiyinlərinə götürüb İmamzadə məqbərəsinə apardılar. Zərif çiyinlərini qardaşlarının tabutu altına vermiş şahzadələr çox çəkmədən, beləcə, özgə çiyinlərində son mənzilə yola salınacaqlarından ehtiyat edirdilər. Doğma qardaşları, Qəhqəhə qalasının dünənki dustağı Əzrayıl qiyafəsində Səfəvilər xanədanının sarayında dolaşırdı. Tabutların

altında ayaqlarını sürüyən, qəmə batmış bu şahzadələrin yeganə günahı şah övladı olmaqlarındaydı. Artıq onlar İsmayıl mirzəyə tərəf baxmağa belə qorxurdular.

XXXI FƏSİL

XOF

Zəmanədə axtarma rahatlıqdan bir əsər,

Umma ki, dünya sənin dərdinə dərman edər.

Əfzələddin Xəqani

Cülus günündən iki ay bir həftə keçmiş, soyuq payız gecəsində iki şahzadənin başqa-başqa evlərdə, amma az qala eyni vaxtda boğularaq öldürülmələri hər kəsi sarsıtmışdı. Şah övladlarını xoşbəxt sananlar indi rahat nəfəs ala bilərdilər. Bu gündən Təhmasib şahın övladlarına, qardaşı və bacısı uşaqlarına xoşbəxt demək olmazdı. Qəhqəhə qalasının dünənki dustağı doğmaca qardaşlarının əlindən bu xoşbəxtliyi almaq qərarına gəlmişdi. İsmayıl mirzənin cülusundan sonra onlar bədbəxtliyə düçar olmuşdular. Artıq bir gecənin içində ilk iki qurban verilmişdi.

II Şah İsmayıl bu iki qurbandan sonra geri çəkiləcəkdimi, yoxsa daha da irəli gedəcəkdi – heç kəs bilmirdi. Amma Mustafa mirzəylə Süleyman mirzənin ölümü ilə elə bil məmləkətin üstünə qorxu iksiri səpilmişdi. Hər kəsin qəlbində, şüurunda bir ölüm xofu vardı. Bu xof gözə görünmədən qəlbləri sarmışdı.

Qara geyinib yas saxlayan Pərixan bəyim bütün baş verənlərdə özünü təqsirkar sanırdı. Doğmalarını itirən bir adam kimi bilmirdi ki, necə hərəkət etsin. İşin qəlizliyi orasında idi ki, bu faciəni törədən də öz doğmalarıydı. Hamı şaha şikayət eləyir, şahdan kimə şikayət eləyəsən?! Pərixan bəyim sanki acizlik, çarəsizlik girdabına düşmüşdü. Düşdüyü bu bataqlıqdan çıxmaq istəyir, çabaladıqca daha da dərinə batırdı. Pərixan bəyim bu günə kimi özünü belə tənha, köməksiz, aciz hiss etməmişdi. İnad etməyib ərə getsəydi, indi ərinin sinəsinə baş qoyub dolmuş ürəyini boşaldardı. Sən demə, kişisiz qadının həyatı dağsız düzən kimiymiş. Qardaşları, qohum-əqrabaları olsa belə, qadına ən yaxın sirdaşı bir yastığa baş qoyduğu kişiymiş... Qəlbinin lap dərinliyində nişanlısı Bədiüzzamana qoşulub getmədiyinə peşman olmuşdu. Bir yerdə olsaydı, Bədiüzzaman onu hər bəladan

qoruyardı. O da ona arxa-dayaq olardı. Axı, qadın kişinin hər dəqiqə, hər zaman sezilməyən qüdrət mənbəyidir. Ancaq gec idi, olan olmuşdu, bugünkü tənhalığı ilə barışmalıydı. Bu qisməti özü seçmişdi.

… Bir saatdan sonra İbrahim mirzəgildəydi. İbrahim mirzə ilə məsləhətləşmək, gələcəkdə baş verəcək bəlaların qarşısını almaq fikrindəydi. Həmişəki şən, deyib-gülən xoşbəxt Gövhər bəyim elə bil ağzına su almışdı, dinib-danışmırdı. Yas içindəydi. Ağlamaqdan gözləri şişmiş, rəng-ruhu qaçmışdı. İbrahim mirzənin də qanı qaraydı. Pərixan bəyim dərddən üzülən İbrahim mirzəyə:

– Qardaş, – dedi, – mən çox böyük səhv etmişəm, yanılmışam, – az qaldı hönkürsün. – Yazıq Heydər mirzə…

İbrahim mirzə ona təsəlli verdi:

– Fikir eləmə, səndə təqsir yoxdur, nə biləydin belə olacaq?

– Gərək biləydim. Tutduğum işin bəraəti yoxdu. Mən gümanımda yanılmışam. Görünür, atamız Şah Təhmasib onun canındakını yaxşı bilirmiş.

– Hə, İsmayıl mirzə ipə-sapa yatmayandı... Amma zindana atılanların hamısı islah olunmur.

– İndi ki, zindanda deyil...

– Bəli, elədi. Amma ömrünün iyirmi ilə yaxını orada keçib. Yəqin olub-keçənləri unuda bilmir… İndi də hakimiyyət keçib əlinə, intiqam almaq fikrinə düşüb.

Pərixanın gözləri böyüdü:

– Doğmalarındanmı intiqam alacaq?

– Bəli. O, doğmalarından gileylidi, yadlardan yox.

– İbrahim, elə arxayın danışırsan.

– Mən onun keçirdiyi təbəddülatı başa düşürəm. Əlbəttə, onun qəddarlığına haqq qazandırmıram, amma ürəyə toxunan bir sözün, qorxunun, xofun, lap sevginin bir anın içində insanı necə qəddar bir varlığa çevirdiyini çox gözəl anlayıram. Axı onu zindana salmaqla məhəbbətdən, nəvazişdən, sevgidən iraq eləmişik.

– Axı indi böyük bir məmləkətin taleyi onun əlindədi. Ona bundan artıq nə lazımdır?

– Çox şey. Hakimi-mütləq olsa da, o da insandı. Hər kəsdən, hər şeydən şübhələnməyə vərdiş eləyib. Bu gündən Səfəvilərə özgə cəllad gərək deyil. Bizim qanı qanımızdan olan şahımız həm də cəlladımızdır. Sabah hakimiyyətə iddiası olan hər kəs Qəhqəhə qalasının dünənki dustağının düşmənidi.

– Çarə yoxdurmu?

– Çarə onun yolu ilə getməkdir.

– Öldürmək?!

– Bəli. Bunu isə biz bacarmarıq. Bütün əmirlər, sultanlar, minbaşılar, yüzbaşılar, qoşun onun əlindədir. O bizə yağıdı, onlara yox. Hər kəs müticəsinə onun əmrlərini yerinə yetirir. Mən sonuncu dəfə onunla danışmaq istəyirəm.

– Nə barədə?

– Onu tutduğu bu yoldan daşındırmaq istəyirəm.

– Heç onun sifətini də görmək istəmirəm.

– Pərixan, istəsək də, istəməsək də onu görəcəyik. Sən Gövhərlə qal, mən dövlətxanaya gedirəm.

* * *

İqamətgaha daxil olanda şahı nə üçünsə tutqun gördü. İbrahim mirzəni tutqun baxışlarla süzüb soruşdu:

– Hardasan, gün günorta olub.

İbrahim mirzə ikibaşlı cavab verdi:

– Srağa gecə baş verənləri, dünən dəfn elədiyimiz şahzadələrin taleyini düşünürdüm.

II Şah İsmayıl gözlərini qıydı, elə bil İbrahim mirzəyə iynənin ulduzundan baxırdı:

– Nə qərara gəldin?

– İstəyərdim doğmalarına qarşı ədalətli olasan.

– Bəyəm, ədalətsizəm?

– Bilmirəm, cavanlara qıyma, Allaha xoş getməz.

– Deyirsən, şahzadələri mən öldürtmüşəm?!

– Sənin icazən olmasa, şah övladlarına, II Şah İsmayılın qardaşlarına kimsə qıymazdı. Buna heç kəsin cəsarəti çatmaz.

– Nə demək istəyirsən?

– Əlahəzrət…

– Biz qardaşıq…

– Xeyr, əlahəzrət, sən II Şah İsmayılsan, mən də sənin möhürdarın. Sən gəl şahzadələri qətlə yetirməyi qəhrəmanlıq sanma. Qızılbaşlar tutduğunuz işlərdən rəncidə olarlar.

– Qəhqəhə qalasında yatdığım on doqquz il altı ay iyirmi bir gündə başa düşdüm ki, hakimiyyətin şəriki olmamalıdır.

– Arxayın ola bilərsən, heç kəs sənin taxtına göz dikməyib. Öz-özünə xoflanma. Qızılbaşlar səni Səfəvi-Osmanlı müharibələrinin qəhrəmanı kimi sevir, elə et ki, ədalətli şah kimi də seviləsən.

– Belə ədalət sevəndinsə, bir dəfə də əmin şah Təhmasibə deyəydin ki, oğlun İsmayıl mirzəni zindanda çürütmə.

– Nə bilirsən, deməmişəm. Sağlığında əmimə sən barədə çox dil tökmüşdüm, amma o, fikrindən dönmürdü.

– Çünki məndən ehtiyat eləyirdi.

– Qoy sən deyən olsun. Bəs sən nədən ehtiyat eləyirsən? Deməli, əmim də, sən də hakimiyyətin rəhnindəsən*. O, hakimiyyətinə görə oğlunu zindana saldırdı, sən də taxt-tacına görə qardaşlarını gecə yataqlarında boğdurursan. Hakimiyyət dəyişsə də, mahiyyət dəyişməyib. Doğrusunu söylə, hansınız ədalətlisiniz?

– Əlbəttə, atam şah Təhmasib məndən ədalətli, məndən rəhmdil idi. Çünki mənim kimi nahaqdan 7 min 138 gün göz dustağı olmamışdı.

– Əlahəzrət, oğul atanın səhvini təkrarmı etməlidir?

– Möhtərəm möhürdar, oğul atasına oxşayar da…

İbrahim mirzə boynundan asdığı möhürü çıxarıb ayağa qalxdı, şaha yaxınlaşıb möhürü onun qarşısındakı «Quran»ın yanına qoydu:

– Əlahəzrət, fikir vermisinizsə, ipəkqurdu toxuduğu baramanın içində qalır. Gözəl ipək parçalar o ipək qurdlarının ağır zəhmətinin nəticəsidir. İnsan da ipəkqurdu kimi öz ömrünü toxuyur. Mən səni haqqa dəvət eləyirəm, sən isə qəddarlığa can atırsan. Bilirəm, bir gün məni də öldürtdürəcəksən. Arxayın ola bilərsən, səndən bağışlanmağımı təvəqqe eləmirəm. Amma sənin həyatının necə acı bir sonluqla bitəcəyini görürəm.

– Lap münəccim kimi danışırsan.

– Görünən dağa nə bələdçi? Hər kəs öz əməlinin əsiridi. Sənin son saatını görmək üçün münəccim olmağa ehtiyac yoxdu. Əlbəttə, adın II Şah İsmayıl kimi tarixdə qalacaq. Ona heyfsilənirəm ki, qəhrəman, fateh kimi dünyadan köçməyə layiq olan sən, doğmalarına yağı kəsilmiş şah kimi öz əcəlinlə ölməyəcəksən... Hökmdar, hələ də gec deyil. Bir düşün. Hər gecənin bir hökmü var, bəlkə lənət şeytana deyəcəksən. Xudahafiz…

– Yaxşı yol, get otur evində. Mülazimlərimi göndərərəm keşiyini çəkərlər…

* * *

Gecəyarısı İsmayıl mirzə səs eşitdi. Deyəsən, saraya yad adamlar girmişdi. «Bəs bu keşikçilər, qorçular görəsən haradadırlar? Gələnlər olmaya sui-qəsdçilərdi?! Bu nə işdi belə, bir nəfər qorçu, keşikçi gözə dəymir. Qəsdimə duranlar çoxdur yəqin, yoxsa bu qədər keşikçini, qorçunu aradan götürə bilməzdilər. Bu haramzadələr tiryək çəkib – nədi, sərvaxt olmayıblar».

Peşmançılıq içindəydi. Axı özü həmişə yarıoyaq yatardı, qorçulara, keşikçilərə elə də bel bağlamazdı. Bu gecə isə adətinə xilaf çıxmışdı. Belə bərk yatmağının səbəbini gecə yatağına saldığı o qəşəng cariyədə gördü. Bu gürcü qızı yamanca hiyləgərdi. Onunla əylənir, danışır-gülür, min bir oyun çıxarır, amma ona təslim olmaq istəmirdi. Cariyənin bu şəhvani əyləncələri qarşısında get-gedə ehtirasdan dəlilik həddinə çatırdı. Cariyə isə çıxardığı min bir hoqqadan, məmləkətin şahını ora-bura qaçırtmaqdan, gah ona sarmaşıb öpüşlərə qərq etməkdən, gah da pişik balası tək sivişib əlindən çıxmağından zövq alırdı. Əlbəttə, şah ona güc göstərmək istəmirdi, bu əyləncə ona da xoş idi. Əgər zamanında uşaqlığını uşaqlara məxsus əyləncələrlə keçirməmisənsə, nə zamansa mütləq uşaqlığına qayıdacaqsan. O da

Qəhqəhə qalasında qadınsız, intim münasibətlərsiz keçən o saysız gecələrin əvəzini gəncliyinin bu qocalıq çağında mütləq çıxmalıydı; çıxmaqdaydı da. Nəhayət, siçan-pişik oyunundan bezib cariyəni bir yastıq yüngüllüyü ilə qolları üstünə alıb yatağa uzatdı. Tələsdiyindən cariyənin paltarlarını kobud şəkildə dartıb əynindən çıxartdı. Qız artıq elə bil heç nəyin fərqində deyildi, sustalmışdı, bədəni od tutub yanırdı. Ehtirasdan ürəyi şiddətlə döyünən İsmayıl mirzə də hər şeyi, hətta, böyük bir məmləkətin şahı olduğunu da unutmuşdu. Bədəni ilə cariyənin üstünü örtərək sanki gəncliyinin ilkin çağlarını yaşamaqdaydı...

Ayaq səsləri getdikcə yaxınlaşırdı. Fikirləşdi ki, yəqin ona qəsd etməyə gələnlər ustaclılardı. Hə, yəqin başçıları da Pirə Məhəmməd xan olar, gələcək qayınatası. Yəqin ondan bərk inciyib, sarayın qabağından çəkilməyib, bağışlanmalarını istəyən ustaclıları qovduranda bir neçə dəyənəyin də gələcək qayınatasına dəydiyini eşitmişdi. «Ona bu da azdı, arığın qoruqda nə işi var, vurub qılçasını da sındırsınlar».

Qapı açıldı, şamları söndürdüyündən otaq qaranlıq idi. Cariyəni isə gecəyarısı xacələr öz otağına aparmışdılar... İçəri girənlər ağappaq kəfənə bürünmüşdülər. Üz-gözləri də görsənmirdi. Asta-asta, tələsmədən ona doğru gəlirdilər. Canında qəribə bir halsızlıq var idi. Gözləmək olmazdı, ölüm qədəm-qədəm yaxınlaşırdı. ...Nəhayət, özünü toplayıb qılıncına doğru sıçradı, gec idi. Onun qollarından yapışıb geri qanırdılar, sonra çiyinlərindən basıb dizi üstdə oturtdular. Qəsdinə duranlardan biri gedib şamdandakı şamları yandırdı. Otaq elə bil nura qərq oldu. Başını qaldıranda otağın baş tərəfində İbrahim mirzəni gördü. Qəribəydi, şahlıq tacı onun başındaydı. «Tacı kim qoyub onun başına, bu nə casarətdir?»

İsmayıl mirzə yerindən qalxmaq istədi, amma güclü əllər çiyinlərindən basıb onu yerindən tərpənməyə qoymadı. Kəfənə bürünənlərə bozardı:

– Axı siz kimsiniz, məndən nə istəyirsiniz? İbrahim mirzə, axı sən mənim möhürdarımsan, bunlar məndən nə istəyirlər?

– Mən möhürdar deyiləm daha, Şaham, Şah! Bunlar isə sənin qardaşlarındı.

– Qardaşlarım?!

– Bəli, qardaşların.

Bu sözləri eşidən qardaşlar büründükləri kəfəni bir kənara atdılar. Qardaşları Mahmud mirzə, İmamqulu mirzə, Əli mirzə, Əhməd mirzə, əmisi oğlu Bədüzzaman mirzə qarşısında boy sırasıyla dayanmışdılar. Mahmud mirzənin

əlində dəstələnmiş bir yığın ip vardı. İsmayıl mirzə bu günə kimi üzünü görmədiyi, Qarabağ bəylərbəyliyində yaşayan Əli mirzəyə tutub soruşdu:

– Sən Gəncədən haçan gəlimisən, xəbərim olmayıb?

– Elə bu axşam gəlmişəm, hökmdar.

– Bəs niyə səni mənim yanıma gətirməyiblər?

– Gətirmişdilər. Hərəmxana yasovolu söylədi ki, hökmdar xəlvətxanadadır.

– Doğrudu, – dedi və qəsdinə duranların qarşısında dizi üstə otursa da, həyatının bir tükdən asılı çağında gecəyarısı lüt-üryan etdiyi cariyənin iri döşlərinin giləsinin təmasını sinəsində hiss elədi. Nə xoş anlar yaşamışdı, heyif, indi aldığı ləzzəti burnundan gətirəcəklər. Amma o, belə anların çox olacağına, boş keçən 7 min 138 günün əvəzini artıqlaması ilə çıxacağına özünə söz vermişdi: – Yaxşı, indi məndən nə istəyirsiniz? Utanmırsınız, böyük qardaşınızla, əminiz oğluyla, şahınızla, mürşidi-kamilinizlə belə rəftar eləyirsiniz?

İbrahim mirzə şahlıq tacını gözləri üstünə endirdi:

– Bəs sən utanmırsan öz doğmalarına yağı kəsilmisən?

– Bəsdirin, mən sizin şahınızam! Yolunuzu çaşsanız qızılbaşlar sizi cəzalandırarlar. – Üzünü Bədiüzzamana tutdu: – Bəs sən niyə vilayəti başsız qoyub bura gəlmisən? Səni saraya kim dəvət edib?

Bədiüzzaman əlini qılıncının qəbzəsinə apardı:

– Məni Pərixan bəyim dəvət eləyib. Xəbər göndərmişdi ki, gəl şahımızın canını al, yoxsa o bizim canımızı alacaq.

İsmayıl mirzə gözlərini bərəltdi.

– Nolar, Allah qoysa, onun da cəzasını verərəm.

– Salamat qalsan, verərsən, – İbrahim mirzə yerindən qalxdı. – Atın o kəndiri bunun boynuna.

Mahmud mirzə kəndiri İsmayıl mirzənin boynuna atdı. Mahmud mirzə İsmayıl mirzənin gözündə bir az da böyüdü. Tökməbədən Mahmud mirzənin vücüdundan güc-qüvvət yağırdı: «Boğazım onun əlinə keçsə, vay halıma».

Kəndirin bir ucundan Mahmud mirzəylə İmamqulu mirzə, digər ucundan isə Bədiüzzaman mirzəylə Əhməd mirzə yapışmışdı. Çox çalışsa da, boğazını sıxan

kəndirdən xilas ola bilmədi. Nəfəsi kəsilhakəsildəydi. Əli mirzə qardaşlarına yalvarırdı:

– Bəsdirin, qardaşımızı öldürməyin!

Amma onu eşidən yoxdu. Qulağına Pərixan bəyimin səsi gəldi:

– İsmayıl mirzə, bax doğmalarına qənim kəsilənin aqibəti belə acı sonluqla bitir! Yerin cəhənnəmdi, yolun açıq olsun…

İsmayıl mirzə yerindən dik atıldı, onu tər basmışdı. Şamdandakı şamların son şöləsi titrəşirdi. Yuxunun təsirindən hələ də özünə gələ bilməmişdi, çaşqın-çaşqın ətrafa baxırdı. Bir qurtum su içib özünə gələ bilmək üçün yerindən qalxdı. Dolaba yaxınlaşıb zəhərlənməkdən ehtiyatlanıb ağızılığını möhürlədiyi gümüşü mehtərini götürdü, möhürünü açıb su içdi.

Cariyə məsələsi yuxuda gördüyü kimiydi, amma qardaşlarının gecəyarısı saraya gəlişi, boynuna ip salıb onu boğmaları, İbrahim mirzənin «şah»lığı röya idi. Ancaq o lap uşaqlıqdan yuxuya inanırdı. Gördükləri nə zamansa cin ola bilərdi. Fikirləşdi ki, bəlkə Süleyman mirzənin dayısı Şamxal sultan, Mustafa mirzəni boğduran Pirə Məhəmməd xan, artıq ona müxalif olan Pərixan bəyim, möhürünü üstünə atmış İbrahim mirzə əlbir olub onu aradan götürmək istəyirlər. Bu dəhşətli yuxunun yozumu ancaq bu ola bilər.

Su içib yatağına uzansa da, gözlərinə yuxu getmədi.

* * *

İbrahim mirzə fikir-xəyal içində həmişəkindən tez sarayına dönmüşdü. Onun bu qəfil qayğısından, üz-gözünə çökmüş kədərin sirayətedici qəmindən Gövhər bəyimin ürəyinə nigarançılıq toxumu düşmüşdü. O, İbrahim mirzənin əllərini əllərinə alıb onun gözlərinin içinə baxdı, elə bil şabalıdı rəngli bu gözlərdə nəsə arayırdı. Ərinin əllərini dodaqlarına aparıb:

– Xeyirdirmi? – deyə soruşdu.

– İnşallah, xeyir olar.

Gövhər bəyim İbrahim mirzənin gizlətməyə çalışdığı baxışlarından başa düşdü ki, nəsə baş verib.

İbrahim mirzə nökəri çağırıb tapşırdı ki, mülazimləri, nəqqaşları, xəttatları, kənizləri həyətə toplasın.

Az sonra nökər gəlib əmri yerinə yetirdiyini söylədi. İbrahim mirzə eyvana çıxdı. Həyətə toplaşanlar intizar içində onu gözləyirdilər. İbrahim mirzə bilmirdi hardan başlasın, indi verəcəyi qərar ürəyincə olmasa da, başqa çıxış yolu da yoxdu. Xeyli sükutdan sonra dedi:

– Dostlar, xanımlar, bu gündən azadsınız. Uzun illər xidmətimdə durmusunuz, haqqınızı halal eləyin.

Yaşlı xəttat hamının əvəzindən dil-ağız elədi:

– Möhtərəm sultan, biz sizin sarayınızda ən xoş günlərimizi yaşamışıq. Sizdən, işimizdən ayrılmaq bizim üçün çox çətindi. Ancaq bir halda ki, məsləhətdi, sizi tərk etməliyik. Bu illər ərzində nə etmişiksə, halal xoşunuz olsun. Bizim isə sizdən zərrəcə incikliyimiz olmayıb. Bizə haqqınızı halal eləyin.

İbrahim mirzə:

– Nə etmişəmsə, halal xoşunuz olsun. Gedin istədiyiniz kimi yaşayın. Xoşbəxt olun, – dedi.

– Biz elə sizin xidmətinizdə çox xoşbəxt idik… – Qoca xəttat dilləndi. – Bəlkə bir günah işləmişik?

İbrahim mirzə həyətə düşüb sənətkarlara, mülazimlərinə yaxınlaşdı, əlini qoca xəttatın çiyninə qoyub:

– Sizin heç bir günahınız yoxdu. Daha mən möhürdar deyiləm, dövlətxanada başqa işim də yoxdu. Qalan ömrümü guşənişin yaşamaq istəyirəm. Sizdən ayrılmaq mənim üçün də xoş deyil, amma başqa yolum da yoxdu. Bəlkə xeyir burdadı, gəlin halallaşaq, – deyib hamıyla bir-bir əl tutub ayrıldı.

Bir anda həyat boşaldı. İbrahim mirzə halsız halda pilləkəndə oturdu. İçində qəribə bir boşluq vardı. O heç zaman öz mülazimləri, kənizləri ilə ağa kimi rəftar etməmişdi. Həmişə onların qayğısına qalmışdı. Bu fikirdə idi ki, xəttatın, nəqqaşın, alimin, şairin qayğısına qalınmasa, onlar həyatın min bir əzabına düçar olarlar. Bu incə qəlbli, zərif ruhlu insanlar hər zaman qayğıya, məhəbbətə möhtacdılar. Əlbəttə, onun belə bir qərara gəlməsinin səbəbi heç də möhürdarlıqdan imtina etməsi, dövlətxanadan uzaqlaşması deyildi. Bu hərəkəti sabaha ümidsizlikdən doğmuşdu. O, İsmayıl mirzə sarıdan nigarandı. Onun cəngindən belə asanlıqla qurtaracağına zərrəcə inamı yoxdu.

Gövhər bəyim ərinin ora-bura vurnuxmasına, boşalmış saraya baxa-baxa, köks ötürə-ötürə qalmışdı. İbrahim mirzə otaqda var-gəl etməkdən bezib ocaqqırağı döşəyin üstə oturdu. Gövhər bəyim də gəlib ürəyi ilə danışan ərinin qarşısında dizi üstə əyləşdi. İbrahim mirzənin gözlərinin içinə baxa-baxa soruşdu:

– İbrahim, söylə görüm nə baş verib? Dərdin nədi sənin?

İbrahim mirzə Gövhər bəyimin yerdə ilan kimi qıvrılan şəvə hökürlərini əlinə alıb qoxladı:

– Dərdim bizə gələn bəlanın haradan gəldiyini qanmağımdadır. Qanmasan, duymasan yaşamağa nə var…

– Başımın tacı, o bəlanın qabağını almaq olmazmı?

– Görünən bəlanın qabağını ancaq bizə bəla gətirənin qəsdinə durmaqla almaq olar.

– Bəs onda, səni saxlayan nədi?

– Tarixdə adımın sui-qəsdçi kimi qalmasını istəmirəm.

– Bəs sənə qarşı qəsd olunmasınımı gözləyəcəksən?

– Səndən nə gizlədim, tərəfdarlarımı toplayıb İsmayıl mirzəyə qarşı qiyam qaldıra bilərəm. Amma bilirəm ki, belə bir iş tutsam, məğlubiyyətim qaçılmazdı. İnsanlar hələ duza gedirlər. İsmayıl mirzəyə inananlar, ona ümid bəsləyənlər həddən artıqdı. Özümə görə adamlarımı qırğına verməyə istəmirəm. Hikkələnməyin yeri deyil.

– Gəlsənə Qəzvindən qaçaq.

– Yox, Gövhər, bunu heç ağlına da gətirmə. Şərəfsiz yaşamaqdansa, şərəflə ölmək yaxşıdı.

– Elə danışırsan, elə bil Əzrayıl qapının ağzını kəsdirib.

– Əzrayıl ancaq əcəli çatanın gözünə görünər, – güldü: – Qalx, o sazı mənə ver.

Gövhər bəyim sazı gətirib İbrahim mirzəyə verdi. İbrahim mirzə sazı kökləyib Gövhər bəyimin qəm-qüssəyə batmış çöhrəsinə zəndlə baxdı. Heç nə demədi, eləcə köks ötürdü. Sonra başı sazın üstünə əyildi, barmaqları pərdələrdə dolaşdı və saz çala-çala hər şeyi unutdu.

Gövhər bəyim dizlərini qucaqlayıb İbrahim mirzənin çalğısına qulaq asırdı. Mustafa mirzəylə Süleyman mirzənin qətlindən sonra qardaşı Şah İsmayıldan qəlbi

tamam qırılmışdı. Ona ağız açmağa, rəhm diləməyə qüruru yol vermirdi. Başa düşürdü ki, ona ağız açmağın, rica etməyin zərrəcə xeyri yoxdur.

İbrahim mirzə öz aləmindəydi. Gövhər bəyimə indi eşitdiyi saz havası tanış deyildi, heç vaxt eşitməmişdi. Hiss eləyirdi ki, İbrahim mirzə bu qəmli, adamı haldan-hala salan, gözəgörüməz qanadları üstə alıb çox-çox uzaqlara aparan bu havanı bədahətən çalır. Bəlkə də əri bir saatdan sonra indicə yaratdığı bu havanı büstübün unudacaq, təkrar çala bilməyəcəkdi.

Bu saz havası İbrahim mirzəni ürəkdən sevən, yolunda hər cəfaya dözməyə hazır olan Gövhər bəyimin ovqatı ilə də həmahəng idi. Gövhər bəyimə elə gəlirdi ki, İbrahim mirzə bu saat, bu dəm çaldığı bu saz havasında yaşayır, əl saxlasa, çalmasa, ömrü də bitəcək. Ona görə də bu çalğının sonsuzluğa qədər uzanmasını istəyirdi. İbrahim mirzə də bunu duyduğundan dayanmadan saz çalıb-oxuyurdu.

* * *

İbrahim mirzə dərdini saza pıçıldayanda Sultanım bəyim oğlu İsmayıl mirzənin sarayına, onun hüzuruna gəlmişdi. İsmayıl mirzə bu görüşü gözləmirdi. Onun bəlkə də qarşısında həya və hörmət etdiyi yeganə bir adam vardısa, o da anası Sultanım bəyim idi. Fərraş anasının gəldiyini söyləyəndə, «gəlsin» deyə yerindən qalxdı. İsmayıl mirzə hələ də gecə gördüyü yuxunun təsiri altında idi. Sultanım bəyim qapını açıb otağa girəndə tez onun qabağına gedib əvvəl əlindən, sonra isə geniş alnından öpdü. Onun əlindən tutub taxtına yaxın gətirdi.

– Xeyirdirmi, ana? – soruşdu.

Sultanım bəyimin qaşları çatıldı, deyəsən, deməyə münasib söz axtarırdı. Xeyli sükutdan sonra cavab verdi:

– Tutduğun əməllərini xeyli zamandı xeyrə calamaq istəyirəm, amma alınmır, oğlum.

– Deyirsən, yəni bir o qədər qəddaram?!

– Hə, qəddarsan! Qəddarlığın qaş-gözü olur bəyəm? Ədalətdə, mərhəmətdə zərrəcə də olsa atan Şah Təhmasibə çəkməmisən.

İsmayıl mirzə istehza ilə gülümsədi:

– Ana, atam sənin gözündə mərhəmətli olub. Doğmaca bacısının əri Əmirə Dibacı dəmir qəfəsə salıb camaatın gözləri qabağında diri-diri yandıran, qardaşları Əlqas mirzəylə Sam mirzəni zindana atdıran, məni on doqquz il altı ay iyirmi bir gün Qəhqəhə qalasında dustaq eləyən o deyildimi?

– Sən ki, bilirsən, Əmirə Dibac, qardaşları Əlqas mirzəylə Sam mirzə Vətənə xəyanət etmişdilər, bu səbəbdən cəzalandırılmışdılar. Sən də Şah atanın siyasətinin ziddinə getmişdin. Şükür ki, sən qaladan sağ-salamat çıxıb məmləkətin şahı olmusan. Sənə daha nə gərəkdi?

– Könül rahatlığı!

– Könlün rahat deyilmi, İsmayıl?

– Yox, ana, rahat deyil!

– Nə üçün?

– Qırxı keçmişəm, hələ də vəliəhdim yoxdur, hakimiyyətimin isə şəriki ürəyin istəyən qədərdi.

– Nahaqdan xoflanırsan, oğlum. Deməli, Mustafa mirzəylə Süleyman mirzəni qorxundan aradan götürmüsən?!

– Bütün məmləkət yaxşı bilir ki, mən qorxaq deyiləm!

– Yadında saxla, bəzən qəddarlıq qorxudan doğur. Sən hakimiyyətini itirməkdən qorxursan. Sən doğmalarından yox, qorxu altında saxladığın təbəələrindən qorx. Adam da doğmalarına qıyarmı?

– Şah olan kəs məmləkətin sabahı naminə hər şeydən, hətta doğmalarından da keçər. Firənglər də, Osmanlı Fateh Mehmet də səltənətini qorumaq üçün bu yolu tutmamışdılarmı?

– Allah xatirinə, belə danışma. Qorxudursan məni. Qəddarlıq heç zaman örnək ola bilməz. Sənin xəbərin varmı, mən banuyi-hərəm ola-ola hərəm dairəsində suçlu-suçlu gəzirəm?! Qətlə yetirdiyin şahzadələrin analarının gözlərinin içinə düz baxa bilmirəm.

– Çox nahaq, ana, sənin onların yanında heç bir suçun yoxdur.

– Var! Səni dünyaya mən gətirməmişəmmi? Belə çıxır ki, qəlbində mərhəmət hissi daşımayan bi qatil yetişdirmişəm. Mən öz övladımı şah paltarında görmək istəyirəm, cəllad qiyafəsində yox.

İsmayıl mirzə tutuldu.

– Mənə cəllad deyirsən, ana?!

– Bəs tutduğun bu haqsız, Allaha xoş getməyən işlərin cəlladlıq deyilmi, İsmayıl? Sən qayıt bu yoldan, Allahını unutma, inşaallah, bu gün-sabah vəliəhdin də olacaq.

– İnşallah. Amma gərək çoxdan olaydı.

– İxtiyarımız Tanrının əlindədi, nə edə bilərik?! Ürəyini sıxma, gec olsun, amma olsun… Son dəfə sənə deyirəm, qardaşlarından, əmizadələrindən əl çək.

– …

– Cavab vermirsən…

– Nə deyim?

– Söz ver. Söz ver ki, qardaşlarına, simsarlarına toxunmayacaqsan.

– Mənə xəyanət etməsələr…

– Şərt kəsmə! Taxt-tacını qan üstündə qurma, axırı yaxşı olmaz.

– Məni qorxudursan, ana?

– Qorxutmuram, amma səni xəbərdar edirəm. (Sükut.) Mən sabah Quma gedirəm.

– Xeyir ola?..

– Müqəddəslərin ziyarətində olmaq istəyirəm.

-Yaxşı yol, dualarını məndən əsirgəmə.

– Allahın kölgəsi üstündən əskik olmasın, oğlum.

İsmayıl mirzə yaxın gəlib anasını qucaqladı.

* * *

Darvaza aramsız döyüldü. Gövhər bəyim buxarının qabağında əyləşib İbrahim mirzənin «Divan»ını oxuyurdu. Dəfələrlə oxuduğu qəzəllər indi onda tam başqa

hislər oyadırdı. O, darvazanın döyüldüyünü eşidib pəncərədən çolə baxan və öz aləminə qapılmış İbrahim mirzəyə səsləndi:

– Eşidirsən, həyət qapısı döyülür. Kimdir, görəsən?

İbrahim mirzə fikirli-fikirli dedi:

– Nökəri göndər, görsün kimdir.

Gövhər bəyimin səsi tutqun çıxdı:

– Daha nökərimiz yoxdu, İbrahim…

Xanımının cavabı yaddaşında əks-səda verdi: «Daha nökərimiz yoxdu…» Çöhrəsində kədər dolaşdı, Gövhər bəyimə yaxınlaşıb:

– Hə, – dedi, – lap yadımdan çıxıb. Axı biz mülazimlərimizi azad eləmişik. İndi özüm baxaram. Nökər-qaravaşsız yaşamağın ləzzətini də yaşamalıyıq.

Həyətə düşüb darvazaya doğru getdi. Darvazanın çaxçaxı ara vermədən vurulurdu. Kim idisə, elə bil öz evinin darvazasını döyürdü. Arın-arxayın…

– Kimsən?

Qapının arxasından boğuq səs eşidildi:

– Bizik!

– Siz kimsiniz?

– Ağa, biz şahın fərmanı ilə gəlmişik.

İbrahim mirzə darvazanın kiçik qapısını açdı. On nəfər yaraqlı çərkəz darvazanın önündə dayanmışdı. İbrahim mirzənin sual dolu gözləri qabağa duran çərkəzin ifadəsiz göy gözlərinə zilləndi.

– O nə fərmandı elə?

– Qibleyi-aləm buyurub ki, sizin keşiyinizi çəkək.

İbrahim mirzə istehza ilə gülümsədi:

– Mən keşikçisiz də yaşıya bilərəm.

– Ya əmir, biz buyruq quluyuq. Şahımız belə məsləhət bilibsə, biz kimik… Axı siz səltənətin eşikağası, möhürdarı olubsunuz, şahın əmizadəsisiniz, keşiyinizdə durmaq bizə şərəfdir.

İbrahim mirzə qarşısında dil-dil ötən bu göygöz çərkəzlə söz güləşdirməyin mənasız olduğunu yəqin edib: «Buyurun keçin», – deyərək geri çəkildi. Qorçular həyətə girən kimi darvazanı bağladılar. Sarayda hərəm dairəsindən, çinixanadan, dülgər emalatxanasından başqa digər otaqların qapılarını qıfılladılar. Bir anın içində öz mülkündə dustağa çevrilmiş İbrahim mirzə çağırılmamış qonaqları sancdı:

– Şahınız fərmanda beləmi buyurub?

– Bəli, ağa.

– Zati-aliləri daha nə buyurub?

– Ancaq sizi qorumağı tapşırıb, ağa, başqa heç nə.

– Qayğıma qaldığı üçün şahımıza təşəkkür eləyirəm. Buyurun vəzifənizi icra edin, – deyib çinixanasına keçdi. Gövhər bəyimin sorğu dolu gözləri üzünə dikildi:

– Gələnlər kimlərdi?

İbrahim mirzə «qəsdimə duranlar» kəlamını qəlbində gizlədib gülümsədi:

– Şahımız qayğımıza qalıb, bizi qorumaq üçün on nəfər çərkəz göndərib.

– İbrahim, bizi kimdən qoruyurlar?

– Özlərindən.

Gövhər bəyim köks ötürdü:

– Başımıza gələn musibətə bax də…

İbrahim mirzə xanımına «ürəyini sıxma» desə də, nigarançılıq içindəydi. Artıq ölümlə göz-gözə durduğunun fərqində idi. Başa düşürdü ki, şah çərkəzləri heç də onun yanına qayğısına qalmaq niyyəti ilə göndərməyib, qaçacağından, ya da qızılbaş əmirlərini, Hüseynqulu Xüləfanın hələlik qınına çəkilmiş sufilərini ona qarşı qaldıra biləcəyindən ehtiyatlanıb göndərib. İbrahim mirzənin belə bir fikri yoxdu. O, guşənişin bir həyat keçirmək istəyirdi. amma belə görünürdü ki, onun varlığı Qəhqəhə qalasının dünənki dustağını narahat edirdi. Əks təqdirdə, ona öz evində «keşikçi» tələsi qurmazdı. İbrahim mirzə ölümü Allahın əmri kimi qəbul etməyə hazırdı, amma canı qədər sevdiklərindən – Gövhər bəyimdən, istəkli qızından bu cavan yaşında əbədi ayrılmağı, ucuz bir ölümə tuş gəlməyi qətiyyən istəmirdi. Hələ bu dünyada nə yaşamışdı?!. Ürəyində deyiləsi sözləri, yazılası mətləbləri, saza-tənbura köçürüləsi təzə-tər nəğmələri vardı.

İbrahim mirzə əllərini qoynuna qoyub oturmaq, boğulacağı, yaxud iti qılıncla doğranacağı gecəni gözləmək fikrində deyildi. Fəaliyyətsizlik, acizlik ona yad idi. Lap uşaq yaşlarından nə isə əməli bir iş görməyə vərdiş eləmişdi. İndi də nəsə bir işlə məşğul olmaq istəyirdi ki, xanımı, sevimli qızı bu qəfil peyda olmuş «qonaqlardan» xoflanmasınlar. O, Gövhər bəyimə sığınmış qızına yaxınlaşıb xurmayı saçına sığal çəkdi:

– İstəyirəm gözəl qızıma bir cürə saz düzəldim.

Qızı yerindən sıçrayıb atasının boynuna sarıldı:

– Sağ ol, ata. Mən də sənin kimi saz çalmağı öyrənəcəyəm.

– Çox gözəl, mənim göyçək balam.

Gövhər bəyimin gözləri dolmuşdu:

– İbrahim, vallah, çox qəribə adamsan, saz düzəltmək vaxtıdı?!

– Bəs nə edim, gedim keçikçilərlə nərd oynayım?

– Məni nigarançılıq üzür, sən isə sakitsən.

– Gözüm nuru, özünü ələ al, sakit ol. Biz İmam Hüseyn təlimi keçmiş qızılbaşlarıq, heç nədən çəkinməz, heç nədən qorxmarıq. Nadan adamlar dünyadan dördəlli yapışar. Bizə ömürü verən də, alan da Allahdı. Qismətimizə nə yazılıb, onu da görəcəyik.

Gövhər bəyim bir söz deməyib köks ötürdü. İbrahim mirzə emalatxanasına keçdi.

* * *

Üç gün keçmişdi. İbrahim mirzə «Qonaqların» niyyətini bilmək üçün darvazaya yaxınlaşdı, «bala» qapını açıb çölə çıxmaq istəyəndə yolunu kəsdilər:

– Hara gedirsiniz, ağa?

– Şəhərə çıxmaq istəyirəm.

– Olmaz!

– Niyə?

– Buyruq belədi, ağa.

İbrahim mirzə daha bir söz demədi. Yaxşı ki, Gövhər bəyimə eşiyə çıxmaq istədiyini deməmişdi. Həyətdə gəzinə-gəzinə fikirləşdi ki, yanılmayıb, şah qətlinə fərman verib: «Bəs niyə icra etmirlər, nəyi gözləyirlər, görəsən? Allah bilir nə kələkləri var. Görəsən, gizlində şaha əriştə kəsən, yol göstərən kimdi? Yoxsa özü-özündən xoflanıb doğmalarını bir-bir aradan götürür. Gör hakimiyyət nə qədər şirindi ey bunun üçün… – Qorçulara gizlicə nəzər saldı. – Oğrun-oğrun nə baxırlar. Elə bil bir-bir seçiblər, dünya veclərinə deyil, şüursuz, əqidəsiz buyruq qullarıdı. Ya rəbbim, bunlardan ədalət gözləməkmi olar? Görəsən bu cəlladlar məni Gövhərin, qızımın yanındamı boğub öldürəcəklər?! Məndən sonra onların halı necə olacaq?»

Xəyalına gəldi ki, gecənin bir aləmində bu göygöz çərkəzlər necə yataq otağına soxulur, yuxulu, çaşqın Gövhər bəyimin gözləri qabağında – ondan abır-həya eləmədən, sabahını, taleyini eyinlərinə almadan onu urvatsız halda çölə sürükləyib boğazına kəndir atıb boğurlar.

İbrahim mirzə ölməyə hər an hazırdı, təki arvadının, qızının heyrətdən, qorxudan böyümüş gözlərini görməyəydi, onların yeri-göyü ağladan fəryadlarını eşitməyəydi.

Yox, onları bir bəhanə ilə buradan, bu doğma ocaqdan uzaqlaşdırmalıdı. Qoy onlar saraydan gedəndən sonra nə olur-olsun, təki onların gözləri qabağında qətlə yetirilməsin.

İbrahim mirzə xanımını şübhələndirməmək üçün Gövhər bəyimə dedi ki, evdə oturmaqdan bezmirsən, uşağı da götür get Pərixangilə, gör nə var, nə yox. Eyniniz də bir az açılar.

Gövhər bəyim onu tək qoyub heç hara getməyəcəyini söylədi.

– Mən sənsiz heç hara gedən deyiləm, istəyirsən, gəl bir yerdə gedək.

– Mənim işim var, qızıma saz bağlayıram.

– Sən də saz düzəltməyə vaxt tapmısan da.

– Neyləyim, bekar dayana bilmirəm.

Bu vaxt aşağıdan zümzümə səsi gəldi. Keşikçilərdən kimsə pəsdən onun «Şah Xətai»sini oxuyurdu. İbrahim mirzənin dodağına təbəssüm qondu. «Görəsən bu keşikçi bilirmi ki, oxuduğu nəğmə mənimdir? Nəğmələrini oxuyalar, qəzəl-

qəsidəni əzbərləyələr, sonra da səni boğub öldürələr… Öldürəndən sonra vaysınacaqlar ki, heyif ondan, gözəl sənətkardı. Doğrudanmı insanın dəyəri öləndən sonra bilinir?!. Hə… həyat belədi, bəzən səni sevənlər də sağlığında qədrini bilmir, qəsdinə durur… Neçə vaxtdı Pərixan da görünmür. Görəsən başında bir qəza yoxdu?.. Bizə nə olursa, haqq olur, ölüm mələyi bizdən uzaq gəzirdi, gedib özümüz onu saraya gətirmişik. İndi də öz cəzamızı çəkirik».

… Doğru deyirlər ki, ürəkdən ürəyə yol var. Səhəri gün Pərixan bəyim İbrahim mirzəgilə gəlmişdi. Darvazanı onun üzünə mülazimlər yox qorçular açmışdı. O, üzə vurmasa da narahat olmuşdu. Çünki daim qaynayan bu həyətdə səssizlik hökm sürürdü.

– İbrahim mirzə evdə yoxdu? – deyə qorçulardan soruşdu.

– Evdədi, xanım, buyurun keçin içəri.

Pərixan bəyim nigarançılıq içində İbrahim mirzənin çinixanasına keçdi. Gövhər bəyim buxarının qabağında əyləşib qızının saçını hörürdü. O, hənirtiyə döndü və qapının ağzında dayanmış Pərixan bəyimi görəndə elə bil üstünə gün doğdu: «Sən gələn yollara qurban olum» deyib ayağa qalxdı, bacısının boynunu qucaqladı. Göz yaşları yanağını islatdı:

– Nə yaxşı gəldin, ay bacı, ay bacı… Bağrım çatlayır, vallah…

Pərixan bəyim:

– Niyə? Nə olub ki?

– Halımızı görmürsənmi? İbrahim saraydan mülazimlərini azad eləyən kimi «şahımız», – istehza ilə dedi bu kəlməni, – keşiyimizi çəkmək üçün qorçular göndərib.

– Bunun nəyi pisdi?

– Ay bacı, İbrahim kimə neyləyib? Bizə qorçu nəyə gərəkdi?.. Heç onlardan ağlım bir şey kəsmir. Özlərini çox sərbəst aparırlar, otaqların qapılarını qıfıllayıb oturublar. Bu işin axırı yaxşı görünmür.

– Özünü ələ al, Gövhər… İbrahim mirzə hanı?

– İndi gələr, qızına saz bağlayır.

Pərixan bəyim anasına sığınmış yeniyetməni elə bil indi gördü. Əyilib üzündən öpdü, saçlarına sığal çəkdi:

– Mənim gözəl qızımın kefi?

– Sağ ol, xala, yaxşıyam.

Gövhər bəyim qızına:

– Qaç, atanı çağır gəlsin, – dedi.

Pərixan bəyim nəsə demək istəyirdi ki, İbrahim mirzə içəri girdi:

– Xoş gəlmisən, Pərixan, – deyib onunla görüşdü. – Şəhərdə, dövlətxanada nə var, nə yox?

– Şəhərdə sakitlikdi. Amma gözün aydın, İsmayıl mirzə vəzirini qovub, yerinə Mirzə Salmanı götürüb.

İbrahim mirzə gülümsədi:

– Bah, axır ki, Mirzə Salman Cabiri İsfəhani arzusuna çatdı.

– Yəni elə can atırdı vəzirliyə?

– Bəli, yaxşı deyiblər ki, niyyətin hara, mənzilin ora. Axır ki, kişinin bəxti üzünə güldü.

– Deyəsən, ondan xoşun gəlmir?

– Doğrusu, ondan bir pislik görməmişəm. Bu tacik Mirzə Salman qazdan ayıq, dildən pərgarın birisidi. Özü də çevik, adamlarla dil tapandı. Bir sözlə, yaxşı tapışıblar, tədbir tökməkdə də əvəzi yoxdu.

– Nə isə, təki şərləri bizdən uzaq olsun.

– Amin, – deyə İbrahim mirzə gözlərini Pərixan bəyimin baxışlarından yayındırdı. Söhbəti başqa səmtə yönəltmək üçün soruşdu. – Şəhərdə nə var, nə yox?

– Sən bilirsən ki, ora-bura çıxan deyiləm. Amma xəbər gətirənlərim çoxdu. İsmayıl mirzə təhlükəli bir işə də girişib.

– O nə işdi elə?

– Deyirlər sünniliyə meyil edir.

– Pərixan, İsmayıl mirzə sünnilərlə şiyələr arasındakı ixtilafları aradan qaldırsa, çox yaxşı olar.

– Mən də həmişə belə düşünmüşəm. Ancaq zehniyyətə hopmuş bu məzhəb ayrılıqlarını aşkarcasına yox, ustalıqla, tədricən aradan götürmək gərəkdir. Birdən-birə şiyələrin üstünə getmək odla oynamaqdır.

İbrahim mirzə:

– Nə edək, yaşayarıq, görərik, – dedi və köks ötürdü. – Əlbəttə, yaşasaq…

Pərixan bəyim diksinən kimi oldu:

– Bu nə sözdü, İbrahim?

– Ürəyimə gələni dedim… Bəlkə, Gövhərlə qızımı da sarayına aparasan. İstəyirəm bir müddət sənin yanında qalsınlar.

– Nə olar, apararam.

Bayaqdan əlləri qoynunda onlara qulaq asan Gövhər bəyim çılğıncasına:

– Mən heç hara getmirəm, – dedi.

– Bacınla gedirsən də, Pərixan özgəsi deyil ha…

Gövhər bəyim Pərixan bəyimə sığındı:

– Pərixan mənim canım-ciyərimdi, amma mən səndən ayrılmaram. İstəyirsən, bir yerdə gedək.

– «Qoysalar gedərik». Gövhər, bəs mən sənlə getsəm, bu qorçular kimin keşiyini çəkər? Sonra şahımız eşidib inciyər ha.

– Zarafata salma, heç hara gedən deyiləm.

Pərixan bəyimə sığınmış qızcığaz İbrahim mirzənin lap ürəyindən xəbər verdi:

– Ata, icazə ver, mən xalamla gedim.

Əyilib qızının üzündən öpdü:

– Ay sağ ol, sən xalanla get. Sazını da düzəltmişəm, – deyib emalatxanaya gedib tez də qayıtdı. – Al, bu da sənin sazın.

– Çox sağ ol, ata, – qızcığaz sazı atasından aldı.

Pərixan bəyim nə fikirləşdisə, İbrahim mirzədən «Divan»ı ilə «Təzkirə»sini istədi.

– Darıxıram, oxuyub qaytararam.

İbrahim mirzə:

– Nə olar, – dedi, qalxıb dolabdan «Divanı»nı və «Təzkirə»sini götürüb Pərixan bəyimə verdi. – Qaytarmağa tələsmə, nə vaxt ürəyin istəsə, qaytararsan. «Məni məhv etsələr, barı əsərlərim məhv olmasın».

Pərixan bəyim kitabları götürdü, qızcığazın əlindən tutub çinixanadan çıxdı. Gövhər bəyim də qızının Pərixan bəyimlə getməyinə etiraz eləmədi.

İbrahim mirzə onları darvazaya qədər ötürdü. O özünü saxlaya bilməyib bir daha qızını qolları arasına aldı, saçlarını qoxladı:

– Pərixan, – dedi, – qızım, «Divan»ım, bir də «Təzkirə»m amanatı.

– Arxayın ol, İbrahim. Heç nigaran qalma. Di sağ ol.

– Yaxşı yol, tale sənə yar olsun.

– Sənə də.

Onlar darvazanın «bala» qapısından çölə çıxanda İbrahim mirzə Pərixan bəyimin mülazimlərini, qoca hərəmxana xacəsini gördü. Rahat nəfəs aldı. Amma ona elə gəldi ki, bir daha onları görməyəcək.

XXXII FƏSİL

TOY

Sənə bir toy tutaram ...

El sözü

İsmayıl mirzənin vəlihəd istəyi son həddəydi. Bu sarıdan aşkarca özünə yer tapa bilmirdi. Doğrudur, indi qəlbində bir ümid qığılcımı yanmışdı… Qəhqəhə qalasından çıxandan sonra gecələrin birində ağuşuna alıb ehtirasını söndürdüyü cariyələrdən biri ilk gecədəcə uşağa qalmışdı. Bu xəbəri eşidəndə sevinmişdi. Əlbəttə, bilmirdi ki, oğlu olacaq, ya qızı, amma hər halda ümidliydi. Onun əmri ilə dərhal xanımlıq taxtına oturdulmuş cariyə hər cür qayğı və ehtiramla əhatə olunmuşdu. Kənizlər gecə-gündüz bu xanımın pərvanəsi olmuşdular. Doğrudur, cariyənin qarnı gün-gündən böyüyüb gözə girdiyini, hərəmxanada nəvazişin,

diqqətin ona yönəldiyini görən Səkinə sultan hikkələnirdi, qısqanırdı, ancaq vəliəhd arzusunu heç kəsdən gizlətməyən, bu istəyi yolunda hər şeydən keçməyə hazır olan əri İsmayıl mirzənin qorxusundan cınqırını da çıxarmırdı. Çünki o, İsmayıl mirzəyə bir qız bəxş edəndən sonra bir kərə də olsun hamilə olmamışdı. On doqquz il altı ay iyirmi bir gün ərsiz keçən məşəqqətli gecələr elə-belə, təsirsiz ötüşməmişdi. Su gələn quyuya bir də gəlməmişdi. Artıq o özü də ikinci dəfə dünyaya övlad gətirəcəyinə ümidli deyildi. Şaha isə vəliəhd gərək idi. Şah bir neçə qadınla evlənmək, intim gecələrinin sayını artırmaq istəyirdi. O, ilk növbədə çoxdan nişanlandığı ustaclı Pirə Məhəmməd xanın qızıyla nigaha girmək fikrindəydi. İsmayıl mirzə bu toyu etməklə bir müddət əvvəl Çehilsütun sarayının qabağına toplaşıb ondan mərhəmət, iltifat gözləyən ustaclıların, həm də qorçuların onlara hücumu zamanı bir neçə dəyənək yemiş Pirə Məhəmməd xanın könlünü almaq istəyirdi. Digər tərəfdən, Pirə Məhəmməd xan qardaşı Mustafa mirzəni aradan götürməklə ona xidmət göstərmişdi. Onun qızını halalı etməklə ondan incik düşmüş bu hörmətli xanı şərəfləndirmək istəyirdi. Həm də o, bu toyu etməklə neçə vaxtı göz verib işıq vermədiyi, daim nigarançılıq, təhdid altında saxladığı, dövlət işindən uzaqlaşdırılmış, Heydər mirzənin tərəfdarı Hüseyn bəy Yüzbaşının ucbatından urvatsız hala düşmüş ustaclıları urvatlandırmaq, Səfəvilər xanədanında əzəlki layiqli yerlərində oturtmaq fikrindəydi.

Neçə gün idi ki, toya hazırlıq gedirdi. Şah tapşırmışdı ki, bu toy Səfəvilər səltənətinə, onun şahına layiq möhtəşəm bir toy olmalıdı. Toyu yola vermək üçün çoxlu iş bilən adamlar ayrılmışdı. Qonaqlar üçün beş böyük mağar qurulmuşdu. Əlbəttə, xanımlar da unudulmamışdı, onlar üçün də içərisi xalça-gəbə ilə bəzədilmiş mağarlar tikilmişdi. Əylənmələri üçün mütürüblər, çəngilər dəstəsi dəvət olunmuşdu.

Hansı mağarda kimlərin oturacağı da artıq bu işlə məşğul olan əmirlərə bəlliydi. Toy İsmayıl mirzənin münəccimliyinə rəğmən günortaya az qalmış başlamışdı. Əmirlərə demişdi ki, onun ata-babaları kimi üç gün üç gecə toy eləmək fikri yoxdu. Səltənətin min bir dərdi var.

Şahın oturduğu mağarda şahzadələr, vəzir-vəkil, bəylərbəyliklərin əmirləri, sultanlar, sərkərdələr, qazilər, axundlar, seyidlər, şairlər, nəqqaşlar, münşilər, xanəndə və sazandalar dəstəsi öz yerlərini tutmuşdular. Bu toyda – ev dustağı İbrahim mirzə və Pərixan bəyimdən, Qumda ziyarətgahda olan Sultanım bəyimdən, Xorasan hakimi Məhəmməd mirzədən başqa hamı iştirak eləyirdi.

Mağarın lap baş tərəfində taxtda oturmuş İsmayıl mirzə öz əzəmətli görünüşü və geyimi ilə hər kəsdən seçilirdi. İsgəndər bəy Münşi mağarın aşağı başında oturub

şahı və onun ətrafındakı adamları seyr edir və düşünürdü: «Rəhmətlik şah Təhmasib bu İsmayıl mirzəni Qəhqəhə qalasında dustaq etməklə fatehlik qismətini onun əlindən alıb. O, taxt-tac sahibi olsa da, hələ də vurnuxur. Nə edəcəyi, hansı yolu tutacağı bəlli deyil… İnsafən, kitabdarlara, nəqqaşlara, şairlərə, münşilərə rəğbəti çoxdu. Allah ona bir oğul payı versə, qəlbi rahatlıq tapar».

İsmayıl mirzənin nüfuzedici baxışları bir-bir məclisdəkilərin üzündə gəzirdi. Onun iti baxışları, sanki, adamın qəlbinə saplanırdı. Şahzadələr yaşlarına görə yuxarı başda oturmuşdular. Şah istəməsə belə, qardaşlarının boy-buxunlarına həsədlə baxdı. «Vaxtında oğlum olsaydı indi onların sırasında əyləşmişdi. Hələ indən belə oğlum olası, böyüyəsi… Amma bunlara bax! Bu Mahmud mirzə də ki, lap pəhləvana oxşayır…»

Şahzadələrə xeyli nəzər saldıqdan sonra növbə ilə əmirlərə, sultanlara, qazilərə, axundlara, seyidlərə, sənətkarlara baxdı. Onlar da şahın baxışların üzərlərində hiss edib təbəssüm göstərir, ehtiramla baş əyirdilər.

Birdən şahın nəzərləri ilə Şamxal sultan Çərkəzin baxışları qarşılaşdı. Şamxal sultan Çərkəz tutqun idi. Şah, Süleyman mirzəni boğduğuna görə onu da mükafatlandırmalıydı. Yoxsa onun göstərişi ilə doğmaca bacısı oğlunu aradan götürən bu Şamxal sultan Çərkəz ətrafa kin püskürər. Çərkəzlər onun bir sözünə bənddilər… Hə, bəlkə, elə bu Şamxal sultanın qızını da alsın. Şahın qayınatası olmaq onun üçün böyük şərəf olar… Baxışları Şamxal sultandan ötüb Hüseyn xan Xınıslının üzündə dayandı. «Bu kişinin də könlünü almaq gərəkdi. Onun da qızını alsam, məndən razı qalar… Bu toyu yola verim, iki-üç gündən sonra onların qızların elə bir gecədə hərəmxanaya gətirdərəm».

Onun bir gecədə iki-üç qıza sahiblənmək istəyi dünən axşam Xacə Nizamülmülkün «Siyasətnamə»sini oxuyanda yaranmışdı. Xacə yazırdı ki, bir gün xəlifə Möhtəşəm şərab məclisində oturmuşdu, qazi Yəhya bin Əksəm də orada idi. Möhtəşəm məclisdən durub o biri hücrəyə getdi. Bir az orada qaldıqdan sonra çölə çıxıb şərab məclisinə gəldi, sonra hamama gedib üç dəfə qüsl etdi, iki ürkət namaz qıldı, sonra yenə də şərab məclisinə gəldi. Qazi Yəhyaya dedi: «Bu namazı nə üçün qıldığımı bilirsənmi?» Dedi: «Yox». Dedi: «İzzət və calal sahibi Allahın əta etdiyi çoxlu nemətdən biri üçün idi». Yəhya dedi: «Əgər böyük rəy sahibi lazım bilərsə, desin, biz də şad olaq». Dedi: «Mən bu saat üç qızın bəkarətini aldım. Bunların hər üçü mənim düşmənlərimin – biri Rum padşahının, ikincisi Babəkin, üçüncüsü Maziyar Kəbrin qızı idi».

Xacənin yazdığı bu rəvayət onu vəcdə gətirmişdi. Amma bu istəyini bugünkü toydan sonraya saxlamışdı. Onun məqsədi təkcə 7 min 138 gün Qəhqəhə qalasında

qadınsız keçən günlərinin hayfını çıxmaq deyildi, sabahın vəliəhdini (onun qanını daşıyan oğulu) dünyaya gətirmək idi. O, Pirə Məhəmməd xanın, Şamxal sultan Çərkəzin, Hüseyn xan Xınıslının qızlarının ilk zifaf gecəsindəcə uşağa qalmalarını istəyirdi. Axı ola bilməz ki, əkdiyi bu qədər «tumların» birisi tutmasın...

İsmayıl mirzə hədiyyələr, bəxşişlər içində az qala görünməz olmuşdu. Xanəndələr səs-səsə vermişdilər. Aşıqlar deyişir, şairlər şahın şərəfinə gecə yazdıqları qəsidələrini söyləyirdilər. Nəhayət, zurnaçılar dəstəsi məclisə gəldi, onların çaldığı havalar hər kəsi yerindən oynatmışdı. Musiqinin gözəgörünməz əli uzanıb onların yaxasından tutub ayağa qaldırmışdı. Əmirlər, sultanlar iki-iki, dörd-dörd qol-qola, üz-üzə oynayırdılar. Çəpik, alqış səsləri ətrafda əks-səda verirdi. İsmayıl mirzə bu təntənədən, zurnadan qopan «Cəngi» havasının qəlbində yaratdığı qəhrəmanlıq ovqatından çox-çox məmnun görünürdü.

Yaddaşlardan süzülüb gələn bu havalar İsmayıl mirzənin döyüş meydanlarında at sürüb şücaət göstərdiyi anları özünə qaytarmışdı. Sanki taxtda yox, at belində oturmuşdu…

Zurnaçıların başına səpilən qızılı-gümüş sikkələr onun da ürəyincə idi. Musiqi onun sərtləşmiş qəlbinə, rəhmsiz ruhuna həlimlik, şəfqət gətirmişdi. İndi qardaşlarına munis nəzərlərlə baxmağının heç fərqində deyildi. İçini yeyən, onu qəddarlığa, amansızlığa səsləyən kin, deyəsən, onu unutmuşdu.

Şər qarışanda məşəllərin işığında Pirə Məhəmməd xan qızını evin ortasında qoyulmuş çırağın başına hərləyib alnından öpdü: – Xoşbəxt ol! – dedi. «Gəlin atlandı» havasının sədaları altında gəlini evdən çıxarıb kəcavəyə oturtdular. Mülazimlər kəcavəni çiyinlərinə qaldırıb şahın hərəmxanasına doğru irəlilədilər. Dörd yüzdən çox atlı, piyada gəlini müşayiət edirdi. Pirə Məhəmməd xan darvazanın önündə dayanıb uzun saplı çubuq qəlyanını çəkirdi.

Gecədən xeyli keçmiş İsmayıl mirzəni çal-çağırla, məşəllərin işığında hərəmxanaya gətirdilər. Onun arxasınca böyük bir izdiham gəlirdi. İzdiham hərəmxananın qarşısında dayandı. Xacələr şahı «buyur-buyurla» gəlin otağına apardılar.

O gecə ilan vuran yatdı, amma Səkinə sultanın gözlərinə yuxu getmədi. Xəyalında canlanmış mənzərələr onu odsuz-ocaqsız yandırırdı. Ərini etibarsızlıqda qınayan, zəmanənin adətinə boyun əyən Səkinə sultan üç gündən sonra ərinin görünməmiş bir hoqqa çıxaracağını heç ağlına da gətirmirdi.

* * *

«Təzə bardaq suyu sərin olar» fikrinin, sən demə, İsmayıl mirzəyə dəxli yoxmuş. Doğrudur, gecələr qızı yaşda olan bir xanımla sevişmək, həya pərdəsini atıb min bir oyundan çıxmaq ona nə qədər xoş olsa da, Səfəvilər xanədanının mütləq hakimi, qızılbaşların mürşüdi-kamili olduğunu da bir an belə olsun unutmurdu.

Gördüyü və yaxud görəcəyi hər bir işin mayasında siyasət dururdu. Hətta evlənib toy vurdurmağın özündə də onun siyasi gedişləri vardı. Təbii ki, zövqü-səfa da öz yerində.

İsmayıl mirzə el adətincə hörmətli əmirlərdən Şamxal sultan Çərkəzlə Hüseyn xan Xınıslının evinə elçi göndərib qızlarını istəmişdi. Şirindilli əmirlər keçmiş-keçəcəkdən söz salıb qız atalarına demişdi ki, Şah İsmayıl Xətainin xələfi II Şah İsmayıl daha mağar qurub toy vurdurmaq fikri yoxdur. Qibleyi-aləm deyir ki, məmləkətin şahıyam, Qəzvinin meydanlarında gündə bir mağar qurdurub toy etsəm, qızılbaşlara xoş getməz. Ancaq dövləti-alinin qarşısındakı xidmətlərinizi dəyərləndirmək üçün sizinlə qohum olmağı hər şeydən üstün tutur. Şahımız möhtərəm qızlarınız üçün qiymətli başlıqlar veməyi də unutmayıb. Sizdən yeganə istəyi budur ki, qızların hər ikisi üç gündən sonra eyni vaxtda hərəmxanaya gətirilsin. Mürşüdi-kamilimiz hərəmxanaya gündə bir qız gətirib sufilərin, imam sahiblərinin qınağına tuş gəlmək istəmir.

Şahın «məsləhətindən» nə Şamxal sultan Çərkəz, nə Hüseyn xan Xınıslı çıxmağa cəsarət etmədi. Hər ikisi elçilərə «bəçeşm» deyib şahın hökmü qarşısında baş əydi.

… Qızların hər biri üçün otaqlar ayrılmışdı və bu otaqlar incə zövqlə bəzədilmişdi. Şamxal sultan Çərkəzin qızı üçün ayrılmış otaqda hər şey – tül pərdələr, yorğar-döşək, mütəkkələr, yastıqlar firuzəyi rəngdəydi. Hüseyn xan Xınıslının qızının otağı isə qızılı rəngdə bəzədilmişdi. Tavandan çoxlu şamları olan şamdanlar asılmışdı. Otaqlarda qəribə sirli bir ovqat vardı. Otaqlardakı bu intimliyi dünyagörmüş məşşatələr hər kəsdən daha həssas duyurdular.

Axşam məşəllərin işığında beş yüzə qədər adam gəlinləri gəcavələrə oturdaraq hərəmxanaya gətirdilər. Zurna-nağara səsi uzaqlarda belə eşidilirdi.

Hərəmxananın önündə gəcavələri yerə qoydular. Yengələr, qoca xacələr hər iki xanımı gəcavədən düşürdülər. Şahın adamları onların başına qızıl pullar yağdırdı. Gəlinlərin ayaqları altında qurbanlıq toğlular kəsiləndən sonra xacələr qabağa düşdülər. Yengələr, məşşatələr qızların qoluna girib xacələrin arxasınca irəlilədilər.

Qızlar ətrafı başlarına salınmış ipək çarqatdan güclə görürdülər. Xacələr qızları öz otaqlarına aparıb dişarı çıxdılar. Yengələr isə qızların yanında qaldılar.

Gecədən xeyli keçmiş İsmayıl mirzə Şamxal sultan Çərkəzin qızının otağına gəldi. Yengə qızın qolunu ehmalca sıxdı və tez otaqdan çıxdı. Qız ayağa qalxdı, ona yaxınlaşan şahın qarşısında təzim edib paltarının ətəyindən öpdü. İsmayıl mirzə qızın zərif çinlərindən yapışıb ayağa qaldırdı, firuzəyi çarqatını başından götürüb, duvağını açdı. Qarşısında ömründə bir dəfə də olsun üzünü görmədiyi bir gözəl dayanmışdı. Qızın başındakı sünbül naxışlı cıqqası, sinəsindəki silsilə boyunbağı, qulaqlarındakı yaqut sırğalar, incə belini bir az da incə göstərən qızıl kəmər şam işığında bərq vururdu. Qız utandığından başını aşağı dikmişdi. Həyəcandan sinəsi tez-tez qalxıb enirdi. İsmayıl mirzə qurşağından zərif bir boyunbağı çıxarıb qızın boynuna bağladı. Bu zaman qızın yaxası oymalı köynəyini qabardan iri döşləri İsmayıl mirzənin sinəsinə toxundu. O, bu xoş təmasdan duyğulandı və qızın əlindən tutub yatağına apardı. Onu həqiqi bir istəklə sinəsinə sıxıb gözlərini yumdu. Ürəyində Yaradana üz tutmuşdu: «Ya rəbbim, mənə bir oğul payı ver! Ey Ulu Tanrım, mən həmişə sənə pənah gətirmişəm. Ya rəbbim, mərhəmətini məndən əsirgəmə! Günahlarımı oğurlanmış gəncliyimə, nahaqdan zindanda keçən həyatımın 7 min 138 gününə bağışla! Allahım, Səfəvilər xanədanında səltənətimi yaşatmaq üçün mənə vəliəhd gərəkdir. İlahi, bu fani dünyadan haqq dünyasına vəliəhdsiz getməyi mənə rəva görmə!»

Qızın zümrüdü köynəyinin qızıl düymələrini açanda əllərinin titrədiyini hiss edib özünə acığı tutdu.

İsmayıl mirzə iki saata qədər Şamxal sultan Çəpkəzin qızının yanında qaldı.

… İki saatdan sonra hamama gedib çimdi, iki rükət namaz qıldı, Allaha dua etdi və yenə ondan vəliəhd istədi. Bundan sonra xacələrin müşayiəti ilə qızılı otağa – Hüseyn xan Xınıslının qızının yanına gəldi. Bu qızın da yengəsi şahla necə rəftar etməyi ona başa salmışdı. Allahdan ona xoşbəxtlik, oğul payı diləmişdi və onu içəri girən «özündənbəyin» ixtiyarına buraxıb çölə çıxmışdı.

İsmayıl mirzə qıza yaxınlaşanda o, dərhal ayağa qalxıb şahın ləbadəsinin ətəyindən öpdü və «Xoş gəldiniz, şahım», – dedi. Şah qarşılığında bu dilavər xanıma «Çox sağ ol, ocağımıza xoş gəlmisən», – deyə cavab verdi və onun çiyinlərindən tutub ayağa qaldırdı. O, tələsmədən qızın başındakı qızılı çarqatı götürdü və qarşısında Şamxal sultan Çərkəzin qızından da zərif, gözəl bir qız gördü. Qızın zərif qaməti, üzünün lətafəti göz oxşayırdı və onda adamın qəlbinə sirayət eləyən qəribə bir sehr vardı. Bəlkə də bu hal onda qadına olan ehtirasının bir qədər sönməsi ilə bağlıydı. Axı iki saat qabaq Allahın kişiyə bəxş etdiyi kişilik qüdrəti sayəsində Şamxal

sultan Çərkəzin qızının bəkarətini almışdı. Onun müşg-ənbər qoxuyan dağların qarı kimi ağappaq sinəsindən, qönçə dodaqlarından çoxlu-çoxlu öpmüşdü. Ömrə-günə yazılası xoş anlar yaşmışdı. İndi o, bu qıza başını dumanlandıran ehtirasının gözü ilə yox, ağlının gözü ilə baxırdı və belə bir gün üçün Allahına minnətdardı: «Allah gec eləmişdi, amma onu hər kəsə nəsib olmayan ixtiyar sahibi eləmişdi. Əks təqdirdə, bir gecədə iki gözələ «bağbanlıq» eləyə bilərdimi?!

İsmayıl mirzə qarşısında dayanmış gözəli bahar fəsli kimi seyr eləyirdi. Ona da bahalı hədiyyəsi vardı. Tələsmədən qoluna bazubənd taxdı, zərif boynuna üstü ceyran-cüyür şəklilli silsilə boyunbağı bağladı.

Qız ağıllı, nüfuzedici qaraca gözlərini ona zilləmişdi. Şah bu baxışların qabağında susa bilmədi. İki barmağı ilə qızın yumru çənəsindən tutub:

– Nəsə demək istəyirsən? – soruşdu.

Qızın üzündə mənalı bir təbəssüm işığı yanıb keçdi:

– Məgər qız olan bəndənin söz deməyə haqqı var?

– Əlbəttə, var.

– «Elə isə niyə soruşmursunuz sizə gəlməyə razıyam, yoxsa yox?» Amma atam Hüseyn xan məndən heç soruşmadı, şahın xanımı olmağa razıyam ya yox?

İsmayıl mirzənin qaşları çatıldı:

– Məgər sən mənim hərəmim olmağa razı deyilsən?

– …

– Səninləyəm…

– Əlahəzrət, əlbəttə, sizin xanımınız olmaq mənim üçün fəxrdir. Amma…

– Daha bu amma nədi?

– Axı siz mənimlə atam Hüseyn xanın xətri xoş olsun deyə evlənirsiniz, məni sevdiyinizə görə yox.

Şah gülümsədi:

– «Ay şeytan. Lap sarı simə vurur». Doğrudur, səni görənə qədər mən də elə düşünürdüm.

– İndi elə düşünmürsünüz, hökmdar?

– Yox… Gözəlliyin məni ovsunladı…

Qız davamlı baxışlarıyla az sonra əri olacaq adamın, Səfəvilər xanədanının hökmdarının şəklini çəkdi:

– Şahım, gözəlliyi verən Allahdı, bununla öyünə bilmərəm.

– Sən Allahın vergisisən. Şükürlər olsun ki, mənə qismət olmusan… Səndən bir oğlum olsa, dərdim olmaz.

– …

– Susursan.

– Hər şeyi verən Allahdı, nə deyim.

– Dua et, gözəl, dua et! Tanrı uzunsaçlının duasını tez eşidər.

Qız əllərini açıb dodaqaltı dua elədi.

Bu an qız ona o qədər füsunkar, ofsunlu göründü ki, ovunun üstünə şığıyan qartal sayağı bir göz qırpımında qızı qolları üstünə aldı. Bilmirdi nə etsin, bu yaşında sevgi dolmuşdu qəlbinə. Doğru deyirlər ki, sevgi aləmi biixtiyarıdır. Şahın ixtiyarı özündə deyildi daha. Bu gözəlin baxışlarıyla sanki gözəgörünməz tellərlə əl-qolu bağlanmışdı.

Qız da ixtiyarsız qollarını şahın boynuna dolamışdı. Şah onun qabarmış sinəsini qoxlaya-qoxlaya aparıb yatağına uzatdı. Arxası üstə uzanmış qızın mütənasib əndamı, qövsüvari qaşları altında parlayan qaraca gözləri, qızılgül ləçəyini xatırladan biçimli dodaqları, al yanaqları, yumru çənəsi, zərif buxağı İsmayıl mirzəyə yaşını, bir neçə saat əvvəl Şamxal sultan Çərkəzin qızıyla keçirdiyi o xoş anları unutdurdu. Çöldə, qapı önündə onu gözləyən yengəni, xacələri də unutmuşdu. Qəribə ovqatdaydı. Xasiyyətinin əksinə olaraq, xəyalında qurduqlarını həyata keçirməyə aşkarca həya eləyirdi. Bu qızın davranışı, düşündüyünü çəkinmədən etiraf etməsi onu sərhəd saxlamağa vadar edirdi. Otağa abır-həya ayaq basmışdı. Ancaq İlahinin izni ilə kişi-qadın mərhəmliyi onu öz vəzifəsini icra etməyə sövq edirdi.

Vüsala çatmaq anı yetişmişdi. Qalxıb bütün şamları söndürdü. Qaranlıqda otağın baş tərəfində parlayan bir cüt gözün işığını tutub çarpayıya yaxınlaşdı. Tələsmədən, öpüb oxşaya-oxşaya qızı soyundurdu. İndi də qaranlıqda qızın dağların qarı kimi bədəni işıq saçırdı. Məmləkətin şahı diz büküb uca dağ başından ucu-bucağı görünməyən mənzərələri seyr edən sayaq gözəli seyr etməyə başladı.

Baxdı, baxdı… fikirləşdi ki, kişi belə anlarda diz çökər. İsmayıl mirzə artıq özünü əla almaqda aciz idi. Dodaqaltı dua edə-edə özü də soyundu və …

Və İsmayıl mirzənin köksü altında həzzdən, həyadan bihuş olan qız birdən pıçıltıya bənzər bir səslə «ana» deyib hıçqırdı…

İsmayıl mirzə səhər gün çeştə çıxana qədər qızın yanından çölə çıxmadı.

* * *

İbrahim mirzə Gövhər bəyimə həmişəkindən də artıq məhəbbət göstərirdi. Ev dustaqlığının sonunun nə ilə – ölümlə, ya zindanla bitəcəyini bilmirdi. Buna görə də Tanrıya asi olmaqdan, ağlayıb-sızlamaqdansa, Yaradanın ona verdiyi ömür möhlətinin hər anını mənalı keçirmək istəyirdi. Gövhər bəyimlə saatlarla söhbət edir, onu öpüb-oxşayır, qumral saçlarına sığal çəkir, onun üçün yorulub usanmadan saz çalıb-oxuyurdu.

Gövhər bəyim isə ərinin ona göstərdiyi bu qayğıdan, məhəbbətdən çaş-baş qalmışdı. Te-tez üzünü ərinə tutub: «Sən Allah, sənə nə olub, təzə evlənmişik bəyəm, doyub-dolanmaq bilmirsən», – deyirdi.

İbrahim mirzə arvadına zümzüməylə cavab verirdi:

– Yağış yağar yer doymaz, mən səndən necə doyum?!

– Yağış bəyəm həmişə yağır, İbrahim?

– Yox, həmişə yağış yağmır, quraqlıq da olur. İş ondadı ki, təbiət hadisələri həmişə təkrar olunur, insan isə dünyaya bir dəfə gəlir. İstəmirəm sonra heyfsilənək ki:

Ömür keçdi, gün keçdi,

Cavan olmaram bir də mən.

Nə qədər ömrüm var sənin üçün çalıb-oxuyacam. Qoymaram alnını da turşudasan.

Gövhər bəyim ərinin bu istəyi, məhəbbəti qarşısında məmnun-məmnun gülümsəyir, ev dustağı olmalarının fərqində belə olmurdu.

İbrahim mirzənin saz çalıb-oxumağı həyətdə var-gəl eləyən qorçulara da ləzzət eləyir, onları darıxmağa qoymurdu. Yazıq qorçular başa düşə bilmirdilər ki, Təhmasib şahın sevimli kürəkəni, onun eşikağası, müşaviri, qızılbaşların alimi, şairi, xəttatı, nəğmə düzüb-qoşanı İsmayıl mirzənin qarşısında nə günah işlədib. Axı dünənki möhürdar, Səfəvilər xanədanının hörmətli sultanlardan biri niyə ev dustağı olmalıdır?

Qorçular növbə ilə evlərinə gedib-gəlirdilər. Şəhərdə, məmləkətdə nə baş verdiyini ancaq onlardan eşidib bilmək olardı.

İbrahim mirzə evdən çıxıb həyətlərindən axıb keçən arxın kənarına gəldi. Yay-qış bu arxla dumduru su axırdı. İbrahim mirzə Qəzvində yaşadığı illərdə ən xoş günlərini bu arxın kənarında, ağac kölgəsində keçirmişdi.

Payızın son fəsli olsa da, hava xoşdu. Gün çıxmışdı, zəif də olsa hərarəti vardı. Günəşin solğun şəfəqləri suda əks olunurdu. Onun kölgəsi də suya düşmüşdü. Su dayanmadan axıb gedirdi. İbrahim mirzə fikirləşdi ki, insan ömrü də belədi, su kimi axıb gedir. Amma su ilə heç kəsin işi yoxdu, məcrasını dəyişə, yer üstündə axmağına mane ola bilərlər, ancaq son anda yerin təkinə çəkilib yeraltı çaylara qovuşmasına mane ola bilməzlər. İnsanlar isə heç nədən bir-birinə qənim kəsilir. Bəzən kin-küdurətin səbəbi də məlum olmur.

Hənirti eşidib geri döndü. Qorçulardan biri arxada dayanmışdı.

– Nəsə lazımdı? – soruşdu.

– Heç nə, ağa, elə-belə gəldim. Siz bayaq saz çalıb-oxuyanda lap kövrəlmişdim.

– Sağ ol ki, məni duymusan… Bura bax, qoçaq, şəhərdə, məmləkətdə nə var, nə yox?

– Ağa, biz burda olan vaxtda şahımız özünə iki dəfə toy eləyib.

– Yox əşi?!

– Bəli, bəli. Əvvəl toy eləyib Pirə Məhəmməd xanın qızını alıb. Üç gündən sonra da Şamxal sultan Çərkəzlə Hüseyn xan Xınıslının qızlarını bir gecədə hərəmxanasına gətirdib.

– Nə olub belə, tələsir?

– Şahın vəliəhdi yoxdu, ağa, ona görə.

– Nə isə, Allah mübarək eləsin, oğul-qız sahibi olsun.

– Amin, ağa!

– Mən öz evimdə çoxmu dustaq olacam?

– Biz kimik, ağa, şahdan ismarıc gözləyirik.

– Nə barədə?

– Şahın məramını biz hardan bilək, ağa. Buyurub keşiyinizi çəkək, biz də çəkirik.

İbrahim mirzə:

– Darıxma, çox çəkməz şahımızın məramını bilərsiniz, – dedi və yenə axar suya tamaşa etdi. Onun fikrə daldığını görən qorçu gəldiyi kimi də sakitcə çəkilib getdi.

* * *

Bir gün bir gecə də ötüb keçdi. İkinci günün axşamı İbrahim mirzə ora-bura vurnuxan qorçuların hərəkətindən şübhələndi. Hiss olunurdu ki, onunla danışmaqdan yayınırlar. Nədənsə, dünən onunla danışan qorçu gözə görünmürdü. Bəlkə də onunla danışdığı üçün ondan şübhələnmişdilər.

İbrahim mirzənin ürəyinə dammışdı ki, bu gecə nə isə xoşagəlməz bir hadisə olacaq. O, özündən çox Gövhər bəyim üçün narahat idi. Qadını ona çox bağlıydı, demək olar, onunla nəfəs alırdı. Arada bir neçə dəfə onu qardaş-bacılarının yanına göndərmək istəmişdisə də, Gövhər bəyim onu tək qoymaq istəməmişdi.

Sübhə yaxın, yuxunun şirin vaxtı İbrahim mirzə yataq otağının qabağında hənirti duydu. Gövhər bəyim bərk yatmışdı, onu oyatmamaq üçün ehtiyatla yerindən qalxdı: «Nə olur-olsun, təki Gövhər bəyimin bundan xəbəri olmasın». Tez paltarını geyindi, xəncərini belinə bağladı, qılıncını götürüb ayaqlarının ucunda qapıya yaxınlaşdı. Hiss elədi ki, səs salmadan qapının arxadan bağlı olub-olmadığını yoxlayırlar.

İbrahim mirzə səs-küy olacağından, Gövhər bəyimin oyanıb qara-qışqırıq salacağından ehtiyatlanıb qəflətən qapını açdı. Qorçular onu görüb çaşdılar. İbrahim mirzə alatoranda qorçulardan birisinin əlində ip gördü və dərhal başa

düşdü ki, onu boğmağa gəliblər: «Deməli İsmayıl mirzə onu aradan götürməyi tapşırıb».

Kimsədən səs çıxmırdı. İbrahim mirzə qapının ağzından uzaqlaşmaq niyyətilə heç nə olmamış kimi pilləkənləri düşə-düşə qorçulardan:

– Xeyirdimi? – soruşdu.

İlk dəfə qapısını döyən qorçubaşı təkəş-təkəş dilləndi:

– Yox, şərdi, – dedi və geri çəkilərək. – Ey, qorçular, laf yeri deyil, ipi bunun boynuna atın.

İbrahim mirzə geri çəkilib qılıncını tovladı və bir göz qırpımında qorçubaşının qarnına yeritdi. Qorçubaşı nə isə demək istəsə də, bacarmadı, çölə tökülən bağırsaqlarını əlləri ilə tutub üzü üstə yerə sərildi. Qorçular bir an çaşsalar da, tez özlərini ələ alıb İbrahim mirzəni tutmaq üçün irəli atıldılar. Çünki şah onlara İbrahim mirzəni qılıncla yox, boğaraq öldürmələrini əmr etmişdi.

İbrahim mirzə irəli atılıb ona kəmənd atmaq istəyən qorçunu da şaqqaladı:

– Rədd olun burdan! Rədd olun! – deyə onu əhatəyə almış qorçuların üstünə bağırdı.

Onun səsini eşidən Gövhər bəyim hövlnak özünü çölə atdı:

– İbrahim! – deyə qışqırdı. İbrahim yarına tərəf dönəndə qorçular kəndiri onun boynuna atıb dartdılar. O son gücünü toplayıb qorçulardan birini yaraladı. İp boynunu bərk-bərk sıxmaqdaydı, son nəfəsdə xırıltılı səslə: – Gövhər… qızım amanatı, – deyə bildi və sustalıb üzüqoylu yerə yıxıldı.

Gövhər bəyimin fəryadı uca barını aşıb Qəzvinin hələ yuxuda olan küçələrinə yayıldı:

– Vəhşilər! Namərdlər! Alçaqlar! Allahsızlar. Bir görün kimə qıydınız? Bir görün neylədiniz?.. İbrahim… İbrahim, qalx ayağa, məni namərd qardaşıma tapşırıb getmə… Yox, mən sənsiz yaşaya bilmərəm. Sənsiz mənə heç nə gərək deyil! Ey bu şübhün sahibi, ədalətini göstər! Yoxsa, sənə də asi olaram.

Ortada üç meyit, bir yaralı qalmışdı. Qorçular onu atıb getmişdilər.

Gövhər bəyim İbrahim mirzənin meyitini qucaqlayıb hönkürdü:

– Sən hər şeyi bilirmişsən, İbrahim. Ona görə mənim uzaqlaşmağımı istəyirmişsən. İstəmirmişsən müsibətini görüm. Mən Səfəvilər xanədanın sultanını, atam Şah

Təhmasibin sevimli kürəkənini şərəfini qoruyan gördüm. Yox, od vuracam bu Qəzvinə, o Çehelçütun eyvanına! Sənə qıyan o İsmayılı öz əlimlə parçalayacam. Nifrət olsun ona, nifrət, nifrət…

Gövhər bəyim ərinin cənazəsinin üstündə özündən getdi.

* * *

Səhər Gövhər bəyimin fəryadı ilə açıldı. Lakin İbrahim mirzənin qətlə yetirilməsi xəbəri dildə-ağızda dolaşmamış, Səadətabad meydanında elə işlər, faciələr baş verdi ki, möhürdarın şəhidliyi az qala unuduldu. Allah elə bil səhər-səhər Səadətabad meydanına alış-verişə gələn adamların ağlını başından almışdı. Meydanda qoyun-quzu alqı-satqısı üstündə dava düşmüşdü. Hüseynqulu Xüləfanın sufiləri hücum çəkib bazarın müdirini, darğanın mülazimlərini şil-küt eləmişdilər.

Mülazimlərdən biri ağız-burnunun qanını silə-silə aradan çıxıb bazarda baş verənləri darğaya xəbər vermişdi. Darğa da, tənbəllik eləməyib on nəfər atlı qorçu göndərmişdi ki, iki-üç qoyuna görə dava salmış, onun mülazimlərinə əl qaldırmış o dəli-qudurmuşları tutub onun hüzuruna gətirsinlər. Amma sufilər onları aparmağa gəlmiş qorçulara əl-qol atmağa aman verməmişdi. Döyülüb-söyülmüş qorçular aradan çıxıb darğanın yanına qayıtmışdılar. Darğa bu xəmirin çox su aparacağından ehtiyatlanıb özü bu işi yoluna qoymaq üçün atlanıb meydana gəlmişdi. Lakin sufilər başının dəstəsi ilə meydana girər-girməz onu daş yağışına tutdular. Sonra isə xəncər-bıçağa əl atdılar. Meydanda aləm bir-birinə dəydi. Yaralıların ah-ufundan, cığır-bağır səslərindən qulaq tutulurdu.

Meydanda baş vermiş iğtişaşı İsmayıl mirzəyə xəbər verdilər. İsmayıl mirzə onsuz da sufilərin Hüseynqulu Xüləfaya bəslədikləri rəğbətə, həmrəyliyə görə, onlar sarıdan tam arxayın deyildi və onların nə vaxtsa baş qaldıracaqlarından ehtiyat edirdi.

Şahın əmri ilə yaraqlanmış qızılbaş əmirləri Şah atı meydanında sıraya düzülüb İsmayıl mirzənin verəcəyi qərarı gözləyirdilər. Çox keçmədi şahın çaparı sufilərin «qətliam edilməsi» fərmanıyla gəldi. Əmirlər dərhal atlarını Səadətabad meydanına çapdılar. Sufilər siyirmə qılınc üstlərinə gələn qızılbaş əmirlərini görəndə Hüseynqulu Xüləfanın evi ətrafındakı mənzillərinə doğru qaçdılar. Amma qızılbaşlar onları haqlayıb qılıncdan keçirdilər.

Bir göz qırpımında Hüseynqulu Xüləfanın evi ətrafında beş yüz sufinin meyiti qaldı. Ancaq faciə bununla bitməmişdi. Qırğının, vay-şivənin baş qatdığı bir vaxtda cəlladlar şahzadələri, əmizadələri meydanlara çəkib Allahın dərgahına göndərirdilər. Rumlu camaatının arasında yaşayan Mahmud mirzənin nə səltənətdən, nə də bu dünyadan bir umacağı yoxdu. Amma onu və bir yaşlı oğlu Məmmədbağırı boğub öldürdülər. İmamqulu mirzəylə Əhməd mirzəni dövlətxanaya gətirərək At meydanı yaxınlığında qətlə yetirdilər. Gəncədən bu günlərdə gətirilmiş Əli mirzəyə, İbrahim mirzənin qardaşı oğlu Məhəmməd Hüseyn mirzəyə rəhm eləyib hər ikisinin gözlərinə mil çəkdilər. Dünya işığına həsrət qalmış Əli mirzə taleyi ilə barışsa da, Məhəmməd Hüseyn mirzənin ah-ufu, nifrini kəsilmək bilmirdi. Onun əhvalını şaha söyləyib: – Qibleyi-aləm, Məhəmməd Hüseyn mirzə sakitləşmir, nə edək? – sordular. Şah da: – Səsini birdəfəlik kəsin! – əmrini verdi. Məhəmməd Hüseyn mirzəni də öldürüb meyitini o biri şahzadələrin cənazəsinin yanına qoydular. İsmayıl mirzə Pərixan bəyimin nişanlısı, əmizadəsi Bədiüzzaman mirzəni, onun kiçik yaşlı oğlunu da unutmadı. Eyni gündə onu da balaca oğlu ilə bir yerdə Sistan vilayətində iş başında qətlə yetirtdi.

Hakimiyyətə iddialı olan şahzadələrin qətlə yetirilməsi ilə İsmayıl mirzənin ürəyi bir qədər rahatlıq tapdı. Arif adamlar başa düşdülər ki, bazarda baş verənlər, sufilərin qətlamı qızılbaş əmirlərinin başını qatmaq, şahzadələri, əmizadələri qətlə yetirmək üçün qurulmuş bir oyunmuş.

Mürdəşirlər yuat yerində yan-yana qoyulmuş şahzadələrin, İbrahim mirzənin cəsədlərini yuyurdular. Mürdəşirlərdən biri pıçıltıyla yoldaşına dedi ki, deyirlər gecəyarısı dava düşür, Molla Nəsrəddin yorğanını çiyninə atıb çölə çıxır ki, görsün nə baş verib. Oğrular onun çiyninə saldığı yorğanı götürüb qaçırlar. Molla sitildəyə-sitildəyə evə qayıdır. Arvadı Molladan soruşur ki, nə baş verib? Molla deyir ki, heç, arvad, dava yorğan davasıymış.

Aşkarca hiss olunurdu ki, şahzadələrin meyitlərini tez-tələsik kəfənləyib basdırmağa tələsir, cinayəti torpaq altında gizlətmək istəyirlər. Pəhləvan cüssəli Mahmud mirzənin meyitinə qüsul verib kəfənləmək istərkən gözlənilmədən hərəkət edib gözlərini açdı. Mürdəşirlər bu qəfil «dirilmədən» diksinib geri sıçradılar: «Bismillah! Bismillah!»

Mahmud mirzə çaşqın, hürkək nəzərlərlə ətrafına, başının üstündəki adamlara baxdı və qalxıb oturdu. Çılpaqlığından həya eləyib ona biçilmiş kəfənlə ayıbını örtdü. Mürdəşirlərdən biri tez xirqəsini gətirib onun çiyninə saldı. Ona su içirtdilər.

Mahmud mirzə özünə gələndə körpəsinin də meyitini yanında gördü: – Ay alçaqlar, – dedi, – bu körpənin günahı nəydi?

Mürdəşirlər başlarını aşağı salmışdılar, şahzadə ilə necə rəftar edəcəklərini bilmirdilər. Onların peşəsi ölü yumaq idi. Onlar üçün meyidin şaha, yaxud nökərə aid olmağının elə də fərqi yoxdu.

Birdən bu işlərə nəzarət edən yasavul yuat yerinə gəldi və çiyni xirqəli Mahmud mirzəni görəndə yerində donub qaldı. Mahmud mirzə əvvəl key-key yasovulun ağarmış üzünə, heyrətdən böyümüş gözlərinə baxdı və qəflətən yerindən qalxıb onun xirtdəyindən yapışdı:

– Get o alçaq şahına de ki, namərdcəsinə boğdurduğun sultan Mahmud Allahın izni ilə dirilib. Ona söylə ki, dünən atamızı, bu gün bizi kəfənləyənlər sabah da onu kəfənləyəcəklər. Amma şahın övladlarını qırdığına görə qızılbaşlar onun tənasülünü kəsib ağzına soxacaqlar.

Mahmud mirzə var gücü ilə yasavulu itələdi. Yasavul dal-dalı getdi, özünü saxlaya bilməyib yıxıldı. Hıqqına-hıqqına yerindən qalxıb dövlətxanaya qaçdı.

İsmayl mirzə gözləri az qala həlqəsindən çıxan yasavuldan «dirilmə» əhvalatını eşidəndə bir an duruxdu:

– Bəs onu necə boğublar ki, dirilib?!

– Qibleyi-aləm, mürdəşirlər söylədilər ki, şahzadəni boğan zaman ip onun boynunun şah damarından birini yaxşı sıxmayıb.

– İndi mən o Mahmud mirzəni boğanları boğduraram, bir də belə qələt eləməsinlər.

Yasavul şahın qərarını gözləyirdi. Şah isə cavab verməyə tələsmirdi. Fikirləşirdi ki, Allahın izni ilə dirilmiş şahzadəni bu gün bağışlasa, balaca oğlunun meyitini görən, ölüb dirilən Mahmud mirzə sabah onu bağışlayacaqmı? Lap bağışlasa belə, onun bu dirilmə əhvalatı bütün məmləkətə yayılacaq, künc-bucaqda ona şəbədə qoşacaqlar. Şah üzünü yasavula tutub dedi:

– Mən heç vaxt verdiyim fərmanı dəyişmirəm. Gedin o bədbəxti Haqqın dərgahına yola salın, sağ qalsa, oğul dağına dözməz.

Yasavul mürdəşirlərin yanına qayıtdı. Mahmud mirzə onlara yaxınlaşan yasavulun qırımından hər şeyi başa düşdü və bərkdən güldü:

– Dediklərimi söylədinmi şahına?

Yasavul baxışlarını şahzadədən gizlətməyə çalışdı:

– Ağa, söylədiklərinizi yox, dirildiyinizi söylədim.

– Nə buyurdu?

– Yenidən boğulmanızı əmr etdi… Dedi sağ qalsa, oğlunun dərdinə dözməz.

– Doğru deyib. Eybi yox, oğul dağı göstərənlər oğul dağı görəcəklər. – Birdən çılğıncasına, – o xəncərini mənə ver! – deyə hayqırdı.

Yasavul geri çəkildi:

– Verə bilmərəm, ağa.

– Qorxma, səni öldürməyəcəm. Sizi adam öldürmək əzabından qurtaracam, – deyə Mahmud mirzə yasavulun qarşısına yeridi. Yasavul qılıncına əl atmaq istədi, ancaq Mahmud mirzə cəld tərpənib qılıncı onun əlindən aldı. Mürdəşirlərin, yasavulun nitqi qurumuşdu.

– İstəsəm, bu saat hamınızı doğrayaram, amma əlimi qana batırmaq istəmirəm. Atasının, babasının yoluyla getməyən İsmayıl mirzənin cəhənnəmə döndərdiyi məmləkətdə yaşamaqdansa yaşamamaq yaxşıdı, – deyib qılıncı bir anda boynuna çəkdi. Qan yasavulun sifətinə sıçradı. Mahmud mirzə bir qədər ayaq üstə durub qanının axaraq necə yerə töküldüyünü seyr elədi və birdən sustalıb dizi üstə çökdü.

Yasavul, mürdəşirlər donub qalmışdılar.

Beləcə, II Şah İsmayıl Səfəvi çaldırdığı toydan sonra doğmalarına yüz illər boyu unudulmayacaq bir toy tutmuşdu. Bir gün sonra bu toyun əks-sədası çox-çox uzaqlarda eşidilməyə başladı.

XXXIII FƏSİL

MÜQƏDDƏS RAMAZAN GECƏSİ

İstədim mən səni məsud edəyim,

Duymadın qəlbimi, artıq nə deyim?

Hüseyn Cavid

Gövhər bəyim heç cür özünü əla ala bilmirdi. Qohum-qonşu Gövhər sarıdan çox nigaran idi, ən çox da Pərixan bəyim. Qorxurdu ki, Gövhər bəyim havalanar, Allah eləməmiş, ağlı başından çıxar. Qadının çılğınlığı son həddə çatmışdı Çinixanadakı əntiq qab-qacağı, əşyaları, kitabları gətirib suya atır, sındırır, od vurub yandırırdı: «Qoy hər şey məhv olsun, təki cəlladımızın əlinə keçməsin. Təki onun qan tutmuş gözləri bu şeyləri görməsin». Onu tutduğu yoldan çəkindirmək mümkün olmurdu. Demək olar ərinin illərlə topladığı əntiq əşyaları, nadir əlyazmaları məhv edirdi: «İbrahimsiz bunlar mənə gərək deyil» deyib hönkürürdü. Bununla da ürəyi soyumadı, tək-tənha Çehelsütün eyvanının qabağına gəldi, üzünü bu məşhur eyvana, şahın oturduğu iqamətgaha tutub söyüb-söyləndi:

– İsmayıl, İsmayıl, eşidirsən məni, sən qatilsən, cəlladsan! Şahzadələr yox, sən ölməliydin, sən! Ey yeri, göyü yaradan, göstər qüdərtini, al bu qatil şahın canını! Ona qan qusdur! Bu mərhəmətsizə, bu qatilə göstər öz kəramətini, İlahi!!!»

II Şah İsmayıl bacısının ona yağdırdığı nifrinlərini aydınca eşidirdi. Əvvəlcə cəlladı göndərib onun səsini kəsdirmək istədi, ancaq qadına əl qaldırsa, qızılbaşların gözündən düşəcəyindən ehtiyat etdi. Sonra düşündü ki, iki nəfər xacə göndərsin, yapışsınlar onun qolundan, aparıb atsınlar evinə.

Xacələr Gövhər bəyimə yaxınlaşıb qolundan tutdular: «Xanım, sakit olun, qarğış eləməyin, Allaha ağır gedər», – deyə onu uzaqlaşdırmaq istədilər. Gövhər bəyim onların üstünə çımxırdı:

– Ağzından süd iyi gələn körpələri, cavan şahzadələri, əmizadələrini yatağında boğduran, qanına qəltan eləyənin əməli Allaha xoş gəlir?! Hə, xoşu gəlir Allahın bu işlərdən?

– …

– Gözünüzü döyürsünüz? Cavab vermirsiniz? Çünki Əzrailə dönmüş şahınızdan qorxursunuz. Mən nifrət eləyirəm ona! Nifrət, nifrət, nifrət.

Gövhər bəyimin səsi Çehelsütun eyvanının divarlarına dəyib əks-səda verdi. «Nifrət, nifrət, nifrət …»

Küçədə, eyvanın qabağında dayanıb ona nifrin yağdıran bacısına qarşı İsmayıl mirzənin içində elə bir qəzəb qaynadı ki, dişlərini qıcadı, «Ay ana!» deyib taxtına çökdü. Ürəyinin üstündə quluncu ağaca dönmüşdü. «Yoxsa Allah onun qarğışını eşitdi?», – deyə düşündü. Amma Gövhər bəyimin şahın halından xəbəri olmadı. Hələ də qarğış etməkdəydi…

Xacələr onu çox çətinliklə Çehelsütun eyvanının qabağından uzaqlaşdırdılar. O, həyətinə girəndə özündə-sözündə deyildi. Pərixan bəyim onun qoluna girdi, aparıb yatağına uzatdı:

– Sənə dedim axı getmə. Bizim şahımıza söz təsir etməz.

– Bəs neyləyim, qoy öz qulağı ilə eşitsin ki, Səfəvilər ona nifrət eləyir. Görüm onu qan qussun! İbrahim kimi bir oğula qıyardılar? Görəsən, Allah bu zülmü yerdə qoyacaq?!

– Yox, qoymayacaq, bacı. Allah heç bir zülmü yerdə qoymur. Bunu mən hər kəsdən yaxşı bilirəm… «Heydər mirzədən sonra nələr olmayıb, İlahi. Hələ heç kəs başa düşməyib ki, Allahın qəzəbinə tuş gəlmişik. Bu dünyada qatil də özünü haqlı hesab eləyir, heç kəs günahını boynuna almır. Allahın verdiyi cəzanı da qəzavü-qədər sanır. Amma elə Yaradanın izni ilə insanlar bir-birinə cəza verir».

– Görmürəm, bacı

– İnşallah görərsən, – Gövhər bəyimin pırtlaşıq saçını sığalladı. – Sakit ol, bacı, özünü ələ al.

– Necə sakit olum, gör neçə evdə matəmdi. Səfəvi xanımlarına matəm libası geyindirib günü qara gəlmiş.

– Doğru deyirsən, bacı, doğru deyirsən. Ən böyük günahkar mənəm. Onu taxtda mən oturtdum, mən. Sən ona yox, mənə nifrət elə.

Gövhər bəyim qəzəbdən qovruldu:

– Oy-oy-oy… Yanıram, bacı, yanıram, odsuz-ocaqsız yanıram, tüstümü görən yoxdu, halıma qalan yoxdu… Partlayıb öləcəm, balam yetim qalacaq. Yazıq balam, tənha balam…

Pərixan bəyim daha göz yaşlarını saxlaya bilmirdi: «Darıxma, bacı, mən onu məhv edəcəm! Mən ona layiq olduğu yeri göstərəcəm! Şahzadələrin, İbrahimin, Bədiüzzamanın qanını ona bağışlamayacam. Bu gündən onun ən böyük düşməni mənəm».

– Oy başım, oy başım, – deyə Gövhər bəyim zarıdı. – Pərixan, bilirəm mən İbrahimsiz yaşamayacam. Onsuz bu dünya mənə zindandı. O madar balamı sənə tapşırıram.

Pərixan əlini onun kürəyində gəzdirdi:

– Belə naümüd danışma. Ölənlə ölmək olmaz. Allah qoysa, qızına özün baxacaqsan.

– Yox, bacı, halım fənadı. Sabah qızı gətir, onunla halallaşım.

– Yaxşı, yaxşı, gətirərəm, sakit ol. Çalış bir az yatasan.

Gövhər bəyim sustalıb başını yastığa qoydu. Pərixan bəyim xeyli oturub onun yuxuya getməsini gözlədi. Nəhayət, Gövhər bəyimi yuxu tutdu.

* * *

İbrahim mirzənin sarayında əvvəlki çal-çağırdan, ürfan məclislərindən əsər-əlamət qalmamışdı. Evin nizami büsbütün pozulmuşdu. İbrahimin faciəli ölümündən bərk sarsıntı keçirmiş Gövhər bəyim yatağa düşmüşdü. Pərixan bəyim onun qızını götürüb gəlmişdi. Gövhər qızını görəndə göz yaşlarını saxlaya bilmədi: – «Mən ölsəm, halın necə olacaq, ay qızım?» – düşünüb omaşıdı*. Pərixan bəyim onu ovundurmağa çalışdı. Ancaq Pərixan bəyim Gövhər bəyimin ağarmış bənizindən, gərilmiş əsəbindən anladı ki, bacısının əcəli yetişib. Tezliklə ruhu İbrahim mirzənin ruhu ilə qovuşacaq.

Gövhər bəyim nə qədər israr etsə də, Pərixan bəyim onu bu vəziyyətdə qoyub sarayına qayıtmadı, yastığının yanını kəsdirib durdu…

Pərixan bəyim yanılmamışdı, üç gündən sonra cümə axşamı Gövhər bəyimin əhvalı pisləşdi. – İbrahim, İbrahim, hardasan, sənsiz yaşaya bilmirəm. Yaşamaq istəmirəm, istəmirəm, – deyə haray qopardı və gözlərini əbədi yumdu.

* * *

Bu hadisələrdən aylar ötmüşdü. İsmayıl mirzənin cariyədən oğlu dünyaya gəlmişdi. Onun sevincinin həddi-hüdudu yoxdu. Bu münasibətlə Qəzvinin hər bir məhəlləsində şadlıq məclisləri qurulmuşdu. O, oğluna Müzəffərilər dövlətinin hökmdarı Şah Şüca Müzəffərin şərəfinə Şah Şücaəddin Məhəmməd adını verdi. Şah oğlunun lələliyini Şiraz hakimi Vəli sultan Zülqədərə tapşırdı. Vəli sultan

şahın ona göstərdiyi bu iltifatdan hədsiz şad olmuşdu. Mənzilini şahzadəyə layiq bir dəbdəbəylə bəzətdirmişdi. O, vədə vaxtı Şah Sücaəddin Məhəmmədin ləl-cəvahirlə işlənmiş beşiyini dövlətxanadan çıxartdı və atlanıb beşiyi qucağına götürdü. Şahın əmri ilə adlı-sanlı dövlət adamları dünyanın işlərindən xəbərsiz şirin-şirin uyuyan vəliəhdin beşiyinin arxasınca addımladılar. Müşayiət edib vəliəhdi Vəli sultanın mənzilinə apardılar.

İsmayıl mirzənin Vəli sultanı oğlunun lələsi seçib şərəfləndirməsi təsadüfi deyildi. Şirazda Vəli sultanla İsmayıl mirzənin qardaşı Məhəmməd mirzə arasında ixtilaf yaranmışdı. Zülqədərlər tayfası isə Məhəmməd mirzənin tərəfini saxlayıb, Vəli sultana qarşı kobudluq etmişdilər. Vəzifəsi nüfuzdan düşmüş Vəli sultan da işləri belə görub Qəzvinə, dövlətxanaya qayıtmışdı. İsmayıl mirzə onu şərəfləndirmiş, zamanı gələndə onun əli ilə zülqədərləri cəzalandırmaq niyyətini isə hələlik qəlbində gizlətmişdi.

Beləcə, İsmayıl mirzə vəliəhd sarıdan arxayınlaşmışdı. Və gələcəkdə varisinin əl-ayağına dolaşa biləcək hər kəsi aradan götürməyə hazır idı. Onun yeganə nigarançılığı qardaşı Məhəmməd mirzənin uşaqlarıydı. Onları da birdəfəlik zərərsizləşdirmək fikrindəydi. Ancaq hələlik anası Sultanım bəyimdən həya edirdi. Çünki anası nəvələrini çox istəyirdi. Bir də ki, anasına qarşı sayğısızlıq göstərsə, xalqın bunu yaxşı qarşılamayacağının fərqindəydi. Digər tərəfdən, hələlik qardaşı uşaqlarından elə bir namərdlik də görməmişdi.

Son zamanlar, daha doğrusu, şah Şücaəddinin dünyaya gəlməsi ilə İsmayıl mirzə tez-tez məclislər keçirir, alim və şairlərlə müxtəlif mövzu ətrafında mübahisələr edir, cürbəcür mülahizələr irəli sürürdü. Axır vaxtlar ürfan məclislərində şiə-sünni məzhəb ixtilafları barədə çəkinmədən fikirlər yürüdürdü. İsmayıl mirzə Peyğəmbərin xanımı Aişəyə şiələrin tənə etməsini açıqca qəbul etmirdi. Bir dəfə xidmətində olan şiə üləmalarından soruşdu:

– Deyin görüm, şiə camaatı hansı dəlilə əsasən Tanrı Rəsulunun möhtərəm həyatına tənə edilməsini caiz hesab edir? Siz də yaxşı bilirsiniz ki, onun şəninə ismət və paklıq ayəsi nazil olmuşdur. Aişə xatun Peyğəmbərlə bir yastığa baş qoymuşdu, onun məhbubəsi idi. İndi siz deyin, necə ola bilər ki, Aişə xatun axirətin alovuna və cəzasına layiq olsun? Bəsrədə Təlhə və Zübeyrin qızışdırması və təhriki ilə Aişə xatun ilə Həzrət Əmirəlmöminin Əbi ibn Əbu-Talib arasında münaqişə baş versə də, Həzrəti Əli onun qadınlara məxsus olan düşüncə zəifliyini, ağlının nöqsanını əsas tutaraq, onu əfv etdi. Bu əfvin sübutu belədir ki, Aişə xatunu izzət və ehtiramla Mədinəyə göndərdi. Buna görə də Aişə xatuna edilən tənə Həzrət Əlidən qaynaqlanmır. Şiə üləmaları bu barədə nə söyləyirlər?

Üləmalar susdular, onun fikrini nə inkar, nə də təsdiq etdilər. İsmayıl mirzə sualına cavab almadıqda üzünü xüləfa Bolgara tutdi:

– Xəlifə!

– Bəli, qibleyi-aləm, – deyə xüləfa Bolgar təzim etdi.

– Əgər bir kəs sənin zövcənin adını camaat arasında çəksə, onu söysə, sənin acığına gələr, ya yox?

– Bəli, gələr.

– Bəs, nə üçün adamlar Tanrının Rəsulunun möhtərəm hərəmini lənətləyirlər?

Xüləfa Bolgar özünü itirmədi:

– Söyüş söymək haramdır, – dedi, – amma lənət Tanrının rəhmətindən uzaqlaşanlara aid olunur və qarğış kimidir. Yəni hər kəs ki, pis əməl edibdir, onun işini Tanrıya həvalə edirsən. Bu işdə bir qüsur yoxdur.

İsmayıl mirzə sorğusuna müsbət cavab almadığı üçün soruşdu:

– Xəlifə, sən sadəlövh bir türk kişisisən, bu məsələni sənə kim öyrədib?

Xülafə:

– Cənnətməkan şahın zamanında üləmalardan eşitmişəm, – dedi.

Bolgarı sevməyənlər onun üzünə durdular:

– Şah həzrətləri, Xəlifə yalan söyləyir. Bir neçə vaxt bundan əvvəl şahlıq eyvanında mərhum İbrahim mirzənin hüzurunda bu məsələ barədə üləmaların arasında danışılanda eşidib.

İsmayıl mirzə bu sözləri eşidəndə qəzəbləndi:

– Bir xəlifə ki, öz mürşidi-kamilinə yalan deyir, cəzaya layiqdir!

Məclisdə oturan sufilər də elə bil bu sözlərə bənd imişlər. Bir göz qırpımında Xüləfa Bolgarı təpikaltı elədilər. Yazıq kişi nəfəsini belə almırdı. Sufilər onu ölmüş bilib, cəsədini keçəyə büküb mənzilinə apardılar. Sufilər gedəndən çox sonra kişinin huşu özünə qayıtdı. Yerindən qalxa bilmirdi. O, ancaq iki-üç aydan sonra hərəkət edə bildi. İsmayıl mirzə isə onun vəzifəsini Dədə Xüləfa Ustaclıya tapşırdı.

İsmayıl mirzənin şiə-sünni məzhəb ayrılığına münasibəti heç də bununla bitmədi. O, şiə üləmalarına əmr etdi ki, bu gündən təbərra mərasimi küçələrdən, məhəllələrdən yığışdırılsın. Şah on iki nəfər qorçu ayırdı ki, məscidlərdə moizə məclisində təbərra deyən hər kəsin cəzasını versinlər. Şah fərmanı cümə axşamı vermişdi, elə həmin axşam da moizə məclisi idi. Moizə bitəndən sonra çörəkpulu təbərra söyləməkdən çıxan Dərviş Qənbər Təbərrayi özünü saxlaya bilməyib bir beyt oxudu:

Əliyə və nəslinə canü-könüldən salavat,

Əli düşmənlərinə həmişə lənət olsun!

Qorçular bir andaca Dərviş Qənbəri dəyənəyin altına saldılar. Təbərra deməkdə misli olmayan, bu məharətinə görə Təbərrayi ləqəbini qazanan Dərviş Qənbərin döyülməsi şiələrin göz yaşlarına səbəb oldu.

Bir gün də şahın məclisində İsmayıl mirzənin sünni-şiə siyasətini dəstəkləyənlərdən biri qalxıb dedi: – Qibleyi-aləm, məscidlərdə şeir oxumaq və yazmaq qadağan olsa da, Qəzvin məscidlərinin daş-divarları aşiqanə şeirlərlə doludur.

İsmayıl mirzə məclisə göz gəzdirib axtardığını tapdı:

– Ey Mir Zeynalabdin Kaşi, sən bu Qəzvinin möhtəsibisən*, sabah səhərdən adamlarını götürüb məscidlərə gedirsən, o şeirləri məscidlərin tavanından, divarlarından qaşıtdırırsan. Eşitdinmi?

– Bəli, qibleyi-alim, eşitdim.

Səhərisi Mir Zeynalabdin Kaşi dəstəsi ilə məscidlərə gedib Həzrəti Əlinin, məsum imamların şərəfinə yazılmış şeirləri xüsusi bir canfəşanlıqla pozdurdu. Bu əhvalatdan sonra şiə üləmaları arasında şahın sünni məzhəb olması barədə pıçhapıç başladı. Sonra bu pıçıltı böyüyərək məmləkəti dolaşdı, ordugahda yayıldı.

İsmayıl mirzə künc-bucaqda danışılanlara əhəmiyyət verməyərək islahatını davam etdirirdi. O, hələ də öz adına qızıl pul zərb etdirmədiyindən, alış-veriş köhnə üsulla aparılırdı. Zərrabçılar yeni sikkələrin zərb olunmasını, zərbxanaların mənafeyinin gözlənilməsini ondan xahiş edirdilər. İsmayıl mirzə sikkənin bir tərəfində «La ilahə illəllah, Məhəmmədən rəsulallah, Əliyyən vəliyullah» sözlərinin nəqş olunub-

olunmaması haqqında çox düşünmüşdü. Axırda bu məsələni meydana topldaşmış camaatın qarşısında həll etməyə qərar vermişdi. Vəziri Mirzə Salman da yanında idi. O:

– Camaat, – dedi, – bu dirhəm və dinarlar** ticarət zamanı yəhudilərin, ermənilərin, məcusların***, hindlilərin, bir sözlə, kafirlərin də əlinə keçir, bununla da «Quran» ayəsinə zidd olaraq natəmiz adamlar, Allahın isminə toxunurlar. Ona görə də sikkələrin bir üzündə Şeyx Əttarın Həzrət İmam Əlinin, onun nəslinin şərəfinə söylədiyi bu beytinin yazılmasını əmr edirəm:

Nə olsun ki, şərqdən qərbə imandır?!

Əli ilə nəsli bizə tamamdır.

Beləcə, sikkələrin üzərindən «Əliyyən vəliyullah» sözləri silindi, digər üzündə isə İsmayıl mirzənin Adili təxəllüsünə yaraşan «nu əl-adil» (ədalətlidir) sözləri zərb olundu.

Onun bu cür qərarları qızılbaşlar və sufilər arasında heç də yaxşı qarşılanmadı. Bəzi əmirlər və əyanlar Səadətabad bağının qapısı yaxınlığında yığışıb şahın hərəkətlərini müzakirə edir, çıxardığı qərarlar ətrafında mübahisələr edirdilər: «Cənnətməkan şahın oğlu, Şeyx Səfinin törəməsi, Əli ibn Əbu-Talibin – ona salavat və salam olsun – nəslindən olan mürşidimizin, vəlinemətimizin məzhəbi barədə əcaib, qəribə sözlər dolaşmaqdadır. Onu Şahi-Mərdanın düşmənlərinə dost olmaqda ittiham edirlər», – kimi fikirlər artıq hər yerdə səslənməkdə idi.

Əlbəttə, danışan dillərin hamısını kəsmək olmazdı. Son vaxtlar ordugahdan da İsmayıl mirzənin qulağına onu əndişələndirən cürbəcür şaiələr gəlib çatmaqdaydı. Nəhayət, şah başa düşdü ki, şiə-sünni məzhəbi barədə verdiyi qərarlarla şiələrin heysiyyəti ilə oynayıb… Şayiələrdən birisi çox inandırıcıydı. Söyləyirdilər ki, bəs, Mazandarana hakim təyin etdiyi qardaşı oğlu Sultan Həsən mirzə orada hörmətini itirdiyindən onun icazəsi olmadan Tehrana gəlib. Bəzi qızılbaş əmirləri onu Səfəvilər taxtından salıb Sultan Həsən mirzəni oturtmaq istəyirlər.

Yazıq Sultan Həsən mirzənin isə əmisinin yerini tutmaq heç ağlına da gəlmirdi və İsmayıl mirzənin əmrini gözləyirdi ki, Qəzvinə, onun hüzuruna gəlsin, Mazandaranda başına gələnləri ona söyləyib, ondan nə edəcəyi barədə məsləhət alsın. Əmisi isə onun Qəzvinə gəlməsi üçün icazə verməyə tələsmirdi.

İsmayıl mirzənin sufilərindən və tərəfdarlarından olan Ərdoğan xəlifə Təkəli bir gün Səadətabad bağının qabağına toplaşan sufilərə, qızılbaş əmirlərinə dedi ki, şahın şiə məzhəb olub-olmaması barədə xatircəm olmaq istəyirsinizsə, qazilər və sufilər adından Əmir xan hökmdarın hüzuruna gəlsin, onunla görüşdürüm.

Camaat arasında bu sözləri eşidən bir nəfər dərhal sivişib aradan çıxdı. Əməlli-başlı matəm libası geyinib şahın hüzuruna buyurdu, ikiqat olub dedi: – Qibleyi-aləm, indicə Səadətabad bağından gəlirəm. Türkman və təkəlü əmirləri Əmir xan və Ərdoğdu xəlifənin sərkərdəliyi altında ittifaq bağlayıblar. Söyləyirlər ki, şah məzhəbini tərk etmişdir. Sizi aradan qaldırmaq istəyirlər».

Bu sözləri eşidən İsmayıl mirzə qəzəb atına mindi. Fərraşları çağırıb:

– Gedin o Əmir xanla Ərdoğan xəlifəni hüzuruma gətirin.

Fərraşlar çıxdılar.

Bir saatdan sonra artıq Əmir xanla Ərdoğan xəlifə İsmayıl mirzənin hüzurundaydılar. Şah onların üstünə qəzəb püskürdü:

– Nə üçün siz məni qızılbaşlar arasında bihörmət edirsiniz? Sizə kim deyib ki, mən sünni məzhəbini qəbul etmişəm? Camaatın mənə olan inamını niyə sarsıdırsınız?

Əmir xan özünü itirmədi:

– Allah eləməsin ki, biz şah həzrətləri barədə səhv gümana düşək. Biz deyirik ki, bəzi hallarda şərəfli hökmdardan məzhəb barədə laqeydlik baş versə də, bu dövlət işlərinin zərurəti ilə bağlıdır, düşmənlərimizi zərərsizləşdirmək üçündür. Amma zahirdə şiə, batində sünni məzhəb olan bəzi üləmalar şərəfli hökmdarı bədnam edib, camaata açıq-aydın deyirlər ki, şah həzrətləri sünnilik məzhəbinə meyl edir. Şah həzrətləri bu məsələni yanlış hesab edirsə, bu cür üləmaları tənbeh etsin, bizi yox.

İsmayıl mirzə bayaqdan susub dayanmış Ərdoğan xəlifəyə üz tutdu:

– Budur, Əmir xan sənin arxanda dayanıb, sənə himayədarlıq edir. Nə sözün var de!

Ərdoğan xəlifədən qabaq Əmir xan cavab verdi:

– Şah həzrətləri, nə üçün bizim kimi dövlətsevərlərin barəsində qərəzli adamların söylədiklərinə inanırsınız? Həmin sözlərin doğru və yalan olmasını aydınlaşdırmadan, bizim kimi fədakar tərəfdarlarınızı nifaq əhli hesab edirsiniz?

İsmayıl mirzə, nəhayət, onu qəlbən narahat eləyən mətləbini dilə gətirdi:

– Ona görə ki, siz mənim qızılbaşlara padşahlıq etməyə ləyaqətimin olmadığını düşünüb, bir-birinizlə razılaşaraq, Sultan Həsəni Tehrandan gətirib padşah etməyi qərara almısınız.

Əmir xan kəfənini boynuna dolamışdı, heç bir təlaş keçirtmədən dedi:

– Şah sağ olsun, biz iyirmi ildir ki, sizin şərəfli zatınızın tərəfdarıyıq və dostluq təbilini döyəcləyirik. İndi ki, mətləbimizə çatmışıq, Sultan Həsəndən nə fayda tapa bilərik? Onun padşahlığı heç xəyalımızdan da keçməmişdir.

Şah indi əsl niyyətinin üstünə gəldi:

– Doğru deyirsinizsə, onda məni Sultan Həsən barədə xatircəm edin.

Bu o demək idi ki, Sultan Həsəni öldürün, sizə inanım. İki od arasında qalan Əmir xanın başı razılıq əlaməti olaraq sinəsinə əyildi. Ya şahın əmrini icra etməliydi, ya da öz başından keçməliydi.

Şahın əmri ilə Ərdoğan xəlifə zindana, Əmir xan isə Tehrana, Sultan Həsənin qətlini həyata keçirməyə yollandı. İsmayıl mirzə bu hökmü verəndə hətta anası Sultanım bəyimin nəvəsi Sultan Həsən mirzəyə sonsuz məhəbbətini də nəzərə almadı.

* * *

Hicri 985-ci il idi (1577). Ramazan ayı təzəcə girmişdi. İsmayıl mirzə Sultan Həsən mirzənin qətlindən sonra da sakitləşə bilmirdi. Çox düşünüb-daşındıqdan sonra doğma qardaşı Məhəmməd mirzəni, onun oğlanlarını – hətta yeddi yaşlı Abbası (gələcəyin şahını) da aradan götürməyi tapşırdı. Sanki onun ürəyi bu sözlərlə döyünürdü: «Hakimiyyətin şəriki olmamalıdır!»

O, son vaxtlar Qəzvində ən çox Pərixan bəyimdən nigaran idi. Onun necə dəvə kimi kinli, həm də ağıllı, tədbirli olduğunu bilirdi. Qızılbaş əmirlərinin bu xanıma rəğbət bəslədiklərindən də xəbəri vardı. Fikirləşirdi ki, Pərixan bəyim yəqin ki, şahzadələrin, hörmət bəslədiyi İbrahim mirzənin, nişanlısı Bədiüzzamanın qətlə yetirilmələrini heç vaxt ona bağışlamayacaq. Onun hətta bir belə faciələrdən sonra ağlayıb-sıtqadığını da eşitməmişdi. Yəqin ona olan sonsuz nifrəti qoymur qızı ağlamağa…

Əlbəttə, bu xanımı çox asanlıqla aradan götürə bilərdi – hərçənd onu məhv etmək üçün ilk öncə keşiyində duran Şamxal sultan Çərkəzi zərərsizləşdirməliydi. Nə olsun ki, qayınatasıdır. Amma onun qarşısını kəsən ən çox el tənəsiydi. Pərixan bəyimi öldürtsə, qızılbaşlar, sufilər buna yaxşı baxmazdılar.

Ancaq son anda Pərixan bəyimi başqa cür cəzalandırmaq fikrinə düşdü. Göstəriş verdi ki, onun imarəti dağıdılsın, kəniz saxlaması isə qadağan edilsin. Bu kəniz məsələsini isə onun ağlına arvadı Səkinə sultan salmışdı.

Fərman verilmişdi, hökm yerinə yetiriləcəkdi, sadəcə, müqəddəs Ramazan ayının çıxmasını gözləyirdilər.

Bu əcaib qərarı eşidəndə Pərixan bəyim bilmədi neyləsin. Evdə, Səadətabad bağında xeyli var-gəl elədi. İsmayıl mirzənin əksi elə bil gözünün içinə girmişdi. Onu heç cür gözlərinin aynasından çıxarıb ata bilmirdi. Gözlərini yumanda da onu görürdü. Ürəyində ona deyiləsi bir dəvə yükü sözü vardı. Bəlkə ondan sonra ürəyi boşalardı, amma fərmandan sonra kim idi Pərixan bəyimi onun yanına buraxan?! Çox düşünüb-daşındı. Axırda evə qayıdıb İsmayıl mirzəyə məktub yazmağa qərar verdi.

Məktubu yazıb qoca xacəyə verdi ki, Çehelsütun eyvanına gedib şaha çatdırsın.

Bir saatdan sonra İsmayıl mirzə Pərixan bəyimin məktubunu oxuyurdu. Məktubun hər sətirindən Pərixan bəyimin qəzəbli səsi eşidilir, kinli baxışları onu acıqlı-acıqlı müşayiət edirdi. O yazırdı:

«Bu məktubu* mübarək başınızın qərəzkarlıqdan təmizləndiyi vaxt mütaliə edin… Əvvəla, Məhəmməd Mustafa salavatullah və Əli Mürtəza əleyhüssalam ailəsinə nümunə olan o Cəm məqamlı mərhum padşahın** ailəsinə qarşı sizin etdiyiniz dəyyusluq töhməti yaxşı iş deyildir. Siz Qəhqəhə qalasında dustaq olan vaxt gözlənilməz hadisələr törətməkdə ittiham olundunuz. Şah Təhmasibdən sənin etdiyin günahların əfv olunmasını rica edən təkcə mən olmuşam… Sən demisən ki, övrətlər dövlət işlərinə qarışmalı deyillər. Bu boş bir xəyaldır. Övrətlərin heç vaxt səltənət iddiası olmayıbdır. Elə iddia olsaydı, ixtiyar ipini əldə tutduqları vaxt olardı və övrət, dodaqlarından süd iyi gələn padşah övladlarından birini aradan götürər, özü rahatlıqla səltənət başına çıxardı… Qardaşının qaladan çıxarılması və nicatı üçün elə mübarizə aparmazdı. Bəli, doğru məsəldir: yaxşılıq əvəzinə yamanlıq!.. Mənim bütün ömrüm fiqh*** kitablarının mütaliəsi ilə keçmişdir. Mən təfsirlərin**** əksəriyyətini mühafizə edirəm… Çünki mən başqa şahzadələr kimi atamın paytaxtından uzağa getməmişəm, dövlətxanaya küçədən keçib daxil olmamışam, şəhər hamamlarını görməmişəm, şikara çıxmamışam, heç bir töhmət

küncündə oturmamışam… Amma başqaları rahatlıq və səltənət arzusundadırlar. Onlar qoy öz əllərini qadınların ətəklərindən kənar etsinlər. Cəm məqamlı padşahın istəyinin əleyhinə hərəkət etməsinlər ki, elə hərəkətin nəticəsi yaxşı olmaz. Yox, əgər dünyanı tutmaq və asudə olmaq istəyirlərsə, yaxşılığı özlərinə peşə edib, öz başlarını rəhm papağından kənara çıxarsınlar… Allaha and olsun ki, qətl etmək və öldürməklə səltənət işi irəli gedə bilməz. İrəli getsə belə, zülmkarlıq Fironun, Hamanın və Şəddadın etdiklərindən az olmaz… Bundan başqa, siz bu zəif qadının imarətinin dağıdılması barədə əmr vermisiniz. Bunu etmək asan işdir, amma gərək gor evi abadan olsun… Sizin mübarək xatiriniz məndən narahatdırsa, onda məni özümə layiq olan gülxəndə***** yerləşdirin. O cür bir atanın vəfatından sonra mənə gülxən ən yaxşı yerdir, gülşən isə qoy uca və əziz övladlara qismət olsun… Başqa bir sözüm də budur ki, siz bu zəif kimsənin özünə kəniz saxlamağını qadağan etmisiniz. İsmət əhlinin, dövlət və təharət****** taxtına əyləşən qadının, yəni nəvvabın******* möhtərəm hərəmi Səkinə sultan xanımın fikri budur ki, kənizi olmayan hər bir qadının şöhrəti, şanı da yoxdur. Bu fikir düzgün deyildir. Kənizi olmayan qadınlar da şan sahibidirlər. Mənim əgər-əskiyimindən heç kimin xəbəri yoxdur, çünki mən hərəmxanadan heç yana çıxmıram. Həzrət Səkinə sultan xanım isə buyurmuşdular ki, mənə xidmət üçün iki kəniz kifayətdir. Ya rəb, görəsən, nə üçün ona yüz nəfər qulam kifayət deyil, amma mənə iki kəniz bəsdir?.. Budur, bu baş, bu kəfən. Ölməyə hazıram. Əlindən gələni et!»

Məktubu oxuyub bitirdi. Pərixan bəyim açıqca onu təhdid edirdi: «Budur, bu baş, bu kəfən. Ölməyə hazıram. Əlindən gələni et!» Pərixan bununla nə demək istəyir? Yoxsa onu təkbətək döyüşə çağırır? Yoxsa kimliyimi, nəyə qadir olduğumu unudur, mənim kinli bacım… İnsafən məni taxta o çıxarıb. Amma sonra yerini bilmədi, padşahlıq işinə qarışdı… Nəsə, bu qızdan xata əskik deyil. Qoy bu Ramazan ayı çıxsın, ondan sonra bu xanım barədə bir şey fikirləşərik.

Axşam İsmayıl mirzə başının mülazimləriylə şəhərə gəzməyə çıxdı. Həmişə olduğu kimi, yenə başını qaldırıb göy üzünə çitənmiş ulduzlara tamaşa etdi. Və birdən Qövs bürcündə bir quyruqlu ulduz gördü. Ulduzun quyruğu səmanın ortasından məğribə tərəf uzanırdı. O, bundan çox narahat oldu. Mülazimlərin yanında bir söz deməsə də, səhər tezdən münəccimləri yanına çağırmağı qərara aldı.

Gecəni çox narahat yatdı. O, yaxşı bildiyi nücum elminin dəlillərinə əsasən, belə düşünürdü ki, bu hadisənin baş verməsi padşahlardan birinin dünyasını dəyişməsinə işarədir.

Səhər tezdən münəccimlər saraya gəldilər. Şahı sakitləşdirib dedilər ki, ulduzun quyruğu məğribə tərəf uzandığı üçün onun ən böyük təsiri Rum vilayətində və qərb torpağında baş verəcək.

İsmayıl mirzə münəccimlərin sözlərini eşidib bir qədər sakitləşdi.

… Bu hadisədən üç gün keçmişdi. İsmayıl mirzə Ramazan ayının 13-ü (24 noyabr 1577), yekşənbə günün gecəsi çoxlu şərab içib nəşələnmişdi. Hüseyn xan Xınıslının qızıyla bir saat əylənəndən sonra şəhərə çıxmaq fikrinə düşdü. O, dostu Həsən bəy Halvaçıoğlu və bir neçə yaxın adamı ilə Qəzvinin küçələrində gəzib-dolaşdı. Gecəyarısı geri qayıtdılar. Şah gec olduğundan sarayına yox, dostu Həsən bəyin qapısı Şah atı meydanına açılan evinə getdi. Taxta çarpayıya uzanıb gözlərini tavana zillədi. Şahzadələr, əmizadələri bir-bir gəlib xəyalından keçdi. Fikirləşdi ki, bir il yarımlıq padşahlığı dövründə nə qədər nahaq qanlar töküb, hələ nə qədər də tökməlidi. Nəyin naminə? Hakimiyyətin, vəliəhd Şah Sücaəddinin sabahı naminə! Səfəvi xanədanı mənim qanımı daşıyanların qılıncının gücünə daha da genişlənəcək… Bu Pərixan bəyim, görəsən, nə cəsarətlə o məktubu mənə yazıb? Hər sözü bir batman ağırlığındadı… Sən bunun sözünə bax: «… bu baş, bu kəfən. Ölməyə hazıram. Əlindən gələni et!» Baş üstə, əlimdən gələni edərəm. Qoy bu müqəddəs Ramazan ayı çıxsın, sənin dərsini verəcəm. Dostunu səslədi:

– Ey Həsən bəy, mənə tiryək gətir, gözümə yuxu getmir... Nə axmaq gecədi. Fikrim çalpaşıq düşüb. Hə… münəccimlər söylədilər ki, Zurbabə quyruğunu Rum vilayətinə uzadıb, birdən Osmanlı padşahı ölər.

Həsən bəy əlində tutduğu qutudan tiryək götürüb ona verdi.

İsmayıl mirzə tiryəki ondan alıb atdı.

– Azdı, yenə də ver, – dedi. – Hər şeyi, keçmişimi, sabahımı, düşmənlərimi unutmaq istəyirəm.

Həsən bəy matdım-matdım ona baxırdı. Şah xumarlanmış gözlərini ona zillədi:

– Sən on doqquz il altı ay, iyirmi bir gün zindanda yatmağın nə demək olduğunu bilirsənmi, Halvaçıoğlu? Bilirsənmi neçə gün eləyir?

– Xeyr.

– 7 min 138 gün eləyir, Halvaçıoğlu. 7 min 138 gün! Qadınsız, məhəbbətsiz… Qəhqəhə qalasında, daim nəzarətdə… Belə məşəqqətli günləri yaşayanın ürəyində mərhəmət, şəfqət olarmı? Halvaçıoğlu, sən bilirsənmi mən kiməm?

– Bu nə sözdü, hökmdar. Əlbəttə, bilirəm. Şah İsmayılın nəvəsi, Şah Təhmasibin qəhrəman oğlu, Səfəvilər xanədanının şəhriyarı… Mürşüdi-kamilimiz…

– Saxla, saxla. Deyim mən kiməm?

Yazıq Həsən bəy çaşıb qalmışdı.

– Buyurun, hökmdar.

– Mən Allahın yer üzündəki ölüm mələyiyəm. Bildinmi, ölüm mələyi! Əzrail!

– Belə sözlər deməyin, hökmdar.

– Bunu mən demirəm, qətlinə fərman verdiklərim gecələr yuxuma girib belə söyləyirlər. Tiryək ver, tiryək, olmuşları unutmaq istəyirəm.

Həsən bəy Halvaçıoğlu ona yenə tiryək verdi. İsmayıl mirzə tiryək atıb uydu. Sanki nəfəs almırdı.

EPİLOQ

Nə baxırsan gülə-gülə,

Mən də baxdım gülə-gülə.

Uçacaqsan sən də bir gün,

Baxacaqlar gülə-gülə.

Elin sözü

Qəzvinin adi gecələrindən biri idi. Ağacların budaqları bir-birinə çırpılır, külək ömrünü yaşamış saralmış yarpaqları qabağına qatıb küçələrdə hara gəldi qovurdu.

Həmişə olduğu kimi, xidmətçilər, müqərrəblər şahın gecələdiyi evin qabağına toplaşıb onu gözləyirdilər. Ancaq nədənsə bu gün şah yuxuya qalmışdı. Vaxt ötür, Şah atı meydanına bitişik otağın qapısı isə açılmırdı. Kimsənin ixtiyarı yoxdu ki, şahın yataq otağına yaxınlaşsın. Vəzir Mirzə Salman da şahın dövlətxanaya gəlməməsindən nigaran olub qorçubaşı ilə Şah atı meydanına gəldi. Artıq günortaya az qalırdı. Yox, bir belə yatmaq olmazdı. Şah hətta sərxoş olduğu

gecələrdə də bir belə yatıb yuxuya qalan deyildi.

Nəhayət, vəzir Mirzə Salman özündə cəsarət tapıb otağın qapısını açdırdı. Yataq otağına girəndə şahın hərəkətsiz halda arxası üstə uzandığını gördü. Mirzə Salman – Hökmdar, hökmdar! – deyə qışqırdısa da, ondan səs çıxmadı, deyəsən, nitqi batmışdı. O, çox ağır nəfəs alırdı. Mirzə Salman həkimbaşını çağırtdırdı, o da şahın bəbəklərinə baxandan sonra ümidsiz halda başını buladı.

Mirzə Salman ancaq bu zaman yerindən tərpənməyə halı olmayan, qorxusundan sarısını udmuş Həsən bəy Halvaçıoğlunu gördü. Onu sorğu-suala tutmağın vaxtı deyildi. Mirzə Salman qorçubaşına Əmir xanla Pirə Məhəmməd xanın dalınca adam göndərməyi tapşırdı.

Əmir xanla Pirə Məhəmməd xan özlərini hadisə yerinə yetirəndə artıq İsmayıl mirzə dünyasını dəyişmişdi.

Əmir xan qəflətən yaxınlaşıb yerindən tərpənməyən Həsən bəy Halvaçıoğlunun xirtdəyindən yapışdı:

– Qurumsaq, düzünü de görüm nə baş verib?

Gözləri kəlləsinə çıxan Halvaçıoğlu:

– Şəhriyarımız axşam iftardan sonra şərab içdi, bir saat hərəmxanada, Hüseyn xan Xınıslının qızının yanında qaldı. Sonra gəlib dedi ki, şəhəri gəzmək istəyir. Gecənin yarısına kimi şəhərdə dolaşdıq. Hamamın yanında bir halvasatan oturmuşdu. Şahımız onun halva-çörəyindən çox yedi. Doymaq bilmirdi. Biz evə qayıtdıq. Artıq gec idi. Şah tiryək istədi. Tiryək qutusunu əlimə alanda sübhələndim. Çünki tiryək qutusunu həmişə mən möhürləyirdim. Amma bu dəfə mənə elə gəldi ki, möhür pozulub. Mən bunu şaha dedim, amma o, buna fikir vermədi. Nə üçünsə yaman dərdlənmişdi. Çoxlu tiryək atıb yatdı. Gün çeştə çıxanda onu belə halsız gördüm. Qorxudan ayaqlarım qıc oldu.

Əmir xan qışqırdı:

– Halvaçıoğlu, bizim padşahımızı zəhərləyiblərsə, sənin köməyin, yardımın olmadan bu iş baş tutmazdı. Səni indi o dünyaya göndərəcəm.

Halvaçıoğlu:

– Mən padşahın mərhəməti sayəsində bütün qızılbaşların böyüyü idim, nədən ötəri onu zəhərləməliydim?! – dedi.

Əmir xan əmirlərə bu işi araşdırmaq istədiyini söylədi. Vəzir Mirzə Salman, başqa əmirlər ona bu işi şişirtməyin heç bir faydasının olmayacağını, indi dövlətin sabitliyini qorumağın vacibliyini söylədilər. Əmirlərin təklifi ilə aralarında ixtilaf olan türkman tayfasının böyüyü Əmir xanla Pirə Məhəmməd xan ata-oğul sazişi bağladılar. Bu sazişdən sonra səltənət və padşahlıq məsələsi ətrafında söhbət etdilər. Şiraz hakimi Vəli sultan söylədi ki, atanın mirası oğula çatmalıdır. Gəlin, Şah Şücaəddini şah elan edək.

Əmir xan ona qəti etiraz etdi:

– Vəli sultan, sən yoxsa vəkili-səltənə olmaq, qızılbaşların böyüyünə çevrilmək istəyirsən?! Səkkiz aylıq tifil bu boyda İran səltənətinə necə padşah ola bilər?

Vəli sultan geri çəkilmək istəmədi:

– Onda səltənəti Pərixan bəyim idarə etsin. Sikkə isə Şah Şücaəddinin adına kəsilsin.

Əmir xanla Pirə Məhəmməd xan dedilər:

– Əsl vəliəhd cənnətməkan Şah Təhmasibin böyük oğlu Məhəmməd mirzədi, onu gətirib Səfəvilər taxtında oturdaq.

Bəzi əmirlər dedilər ki, Məhəmməd mirzənin görmə qabiliyyəti zəifdi. Bu vəziyyətdə hərbi və mülki məsələləri o necə yoluna qoya bilər?

Lakin bu fikirdə olanlara əhəmiyyət verən olmadı. Məhəmməd mirzənin taxta çıxarılmasından ən çox narahat olan Vəli sultan oldu. Çünki vaxtilə Şirazda ona qarşı hörmətsizlik etmişdi.

Qızılbaşlar verdikləri yekun qərardan vəcdə gələrək qışqırdılar: «Dövlət – Sultan Məhəmməd padşahın dövlətidir!» Sonra əmirlər qərara gəldilər ki, Məhəmməd mirzə Qəzvinə gəlib taxtda oturana qədər Pərixan bəyim səltənət işlərini aparsın. Qızılbaşlar «Allah! Allah!» sədaları altında Pərixan bəyimin Səadətabad bağındakı mülkünün qarşısına toplaşdılar.

Pərixan bəyim 13-ü Ramazan gecəsi sübhə qədər oyaq qalmışdı. O, doğmalarına qənim kəsilmiş İsmayıl mirzənin ölüm xəbərini gözləyirdi. Əks-təqdirdə, onun özünü boğub öldürəcəkdilər. Bilirdi ki, qanının arasına müqəddəs Ramazan bayramı girib.

Çöldə «Allah! Allah!» sədaları hələ də kəsilməmişdi. Nəhayət, Pərixan bəyim bir padşah əzəməti ilə əmirləri qəbul edib, nə baş verdiyini soruşdu (guya heç nədən

xəbəri yoxdu). Ona bu gecə İsmayıl mirzənin müəmmalı şəkildə öldüyünü söylədilər.

Pərixan bəyim:

– Allah rəhmət eləsin. Əziz qardaşım Allaha xoş getməyən çox nahaq işlər tutdu. Bu da axırı. Xalq yaxşı deyib: «Su səhəngi suda sınar». Heç bir təlaş keçirməyə hacət yoxdur. Vaxtilə etdiyimiz kimi, Ağsaqqallar şurasını bərpa edib Məhəmməd mirzə paytaxta gəlib taxta oturana kimi səltənəti idarə edəcəyik.

İlk öncə Məhəmməd mirzənin padşah seçilməsi ilə bağlı vəsiqə yazıldı və əmirlər hamısı bu vəsiqəyə qol çəkib möhür basdılar. Sonra vəsiqəni xüsusi elçi vasitəsi ilə Şiraza göndərdilər.

Günün axırında At meydanının qapısını açdılar və carçılar atlanıb iftar vaxtı İsmayıl mirzənin Haqqa qovuşduğunu xəbər verdilər. Xalq arasında heç bir təlaş yaşanmadı. Məmləkət rahat nəfəs aldı.

Səhəri gün Pərixan bəyim əmr etdi ki, Heydər mirzənin tərəfdarları qazamatdan azad edilsin. İsgəndər bəy bu xəbəri eşidən kimi atlanıb zindanxanaya getdi ki, Hüseyn bəy Yüzbaşıya gözaydınlığı verib onu oradan çıxartsın. O zindana çatıb Hüseyn bəy Yüzbaşını görmək istədiyini deyəndə, zindanban onun üç gün qabaq ishal xəstəliyindən vəfat etdiyini söylədi. İsgəndər bəy bu xəbəri eşitdikdə göz yaşlarını saxlaya bilmədi.

– Heyif Hüseyn bəydən, kaş bu günü görəydi. O belə bir günün gələcəyini il yarım bundan əvvəl söyləmişdi, – dedi.

Zindanban ona təsəlli verib:

– Keçmiş olsun, – dedi.

İsgəndər bəy azadlığa buraxılmış dustaqlara qoşulub dəftərxanaya qayıtdı.

… Şiraza Məhəmməd mirzəni qarşılamağa gedənlər hamısı Pərixan bəyimdən icazə alırdılar. Vəzir Mirzə Salman Pərixan bəyimə və gecə-gündüz onun keşiyində duran dayısı Şamxal sultan Çərkəzə bir o qədər də bel bağlaya bilmirdi. Qərara aldı ki, Məhəmməd mirzənin etimadını qazanmaq üçün onu qarşılamağa getsin. Bu niyyətlə Pərixan bəyimin hüzuruna gəlib şirin dilini işə saldı:

– Pərixan bəyim, – dedi, – indi dövlət üçün münasib olan budur ki, yad adamların öncədən gedib sizinlə qardaşınız arasında fəsad toxumu səpməsinin qarşısını alım. Sizin ona olan sonsuz məhəbbətinizi, necə həsrətlə yolunu gözlədiyinizi söyləyim.

Pərixan bəyim vəzirin ona söylədiklərində heç bir hiylə sezməyib getməsinə icazə verdi.

Mirzə Salman az qaldı qanadlanıb uça. O, dərhal atlanıb yola çıxdı. Gecə-gündüz miniyini dəyişə-dəyişə Məhəmməd mirzə hələ Şirazdan çıxmamış özünü onun hüzuruna yetirdi. Diz üstə çöküb təzim etdi və Qəzvindəki vəziyyət barədə Məhəmməd mirzəyə və onun zövcəsi Məhdi-Ülyaya hərtərəfli məlumat verdi. Sözarası Pərixan bəyimin boyuna kəfən biçməyi də unutmadı:

– Həşəmətli şahımızın, onun möhtərəm xanımı Məhdi-Ülya həzrətlərinin nəzərinə onu da çatdırmağı özümə borc bilirəm ki, Pərixan bəyim Səfəvilər xanədanının banusu, səltənət işlərinin idarəedicisi olduğu təqdirdə şərəfli hökmdarın quru addan savayı heç bir padşahlığı olmayacaqdır! – Sonra diqqətlə onu dinləyən Məhdi-Ülyaya üz tutdu. – Əlbəttə, belə olan təqdirdə xanım Məhdi-Ülya da hərəmxananın adi qadınlarından biri olacaqdır.

Mirzə Salmanın söylədiyi bu acı həqiqətlərdən sonra söhbət ancaq Pərixan bəyimdən getdi.

Məhdi-Ülya ərinə dedi ki, Mirzə Salman çox etibarlı adama oxşayır, onu bu gündən xanədanın «etimad-əd-dövlə»si («dövlətin etimadı») seçək. Beləcə, Mirzə Salman ali divanın vəziri təyin edildi.

Mirzə Salmanın dəlil-sübutundan sonra Məhəmməd mirzə ailəsi və məiyyəti ilə birgə Şirazı tərk edib İsfəhan-Kaşan-Qum-Savə yolu ilə Qəzvinə hərəkət etdi. Onlar müqəddəs Qum şəhərində Sultanım bəyimlə görüşdülər. Sultanım bəyim qara geyib oğlu İsmayıl mirzəyə və sevimli nəvəsi Sultan Həsən mirzəyə yas saxlayırdı. Sultanım bəyim çoxdan görmədiyi oğlunu və nəvələrini görəndə çox sevindi.

Məhəmməd mirzə bir neçə gün Qumda qaldıqdan sonra Qəzvinə yola düşdü. O, Qəzvinə yaxınlaşdıqca Pərixan bəyim bəzi əmirlərdən özünə qarşı etibarsızlıq hiss edib pərişan olurdu. Əmir xanla Pirə Məhəmməd xan da, əvvəlcədən danışıldığı kimi, Pərixan bəyimin məiyyətini və kəcavəsini müşayiət edərək şahı qarşılamağı şənlərinə sığışdırmadılar, daha doğrusu, bundan hökmdarın qəzəbinə gələcəklərindən ehtiyat etdilər. Ondan icazə almadan hökmdarı qarşılamağa getdilər.

Mirzə Salmanın məsləhəti ilə başında silahlı çərkəzlər olan Şamxal sultanı zərərsizləşdirmək üçün şahın imzası ilə ona bir fərman göndərdilər. Fərmanda deyilirdi: «Cənnətməkan şahın zamanında Şəki vilayəti bir neçə il Şamxal sultanın

ölkəsi olmuşdur. Buna görə də biz Şəki vilayətinin hakimliyini və rəhbərliyini ona bəxş edirik». Şamxal sultan da şahı qarşılamaqdan özgə başqa çıxış yolu görmədi.

Zülhiccə ayının ilk günündə – yəni 9 fevral 1578-ci ildə Məhəmməd mirzə məiyyəti ilə Qəzvinin yaxınlığındakı Pirəsufiyanda düşərgə saldı. Beş yüz nəfər hərəm qorçuları, mülazimlər, xacələr Pərixan bəyimin daş-qaşla bəzədilmiş zərnigar kəcavəsini çiyinlərinə götürüb onu düşərgəyə – hərəmxana çadırına gətirdilər. O saat da xacəsaraylar xidmət göstərməyə başladılar. Nəhayət, Məhəmməd mirzəylə Pərixan bəyimin görüşü baş tutdu. Məhdi-Ülya da ərini müşayiət edirdi. Məhdi-Ülya ürəyincə olmasa da, özünü padşah kimi aparan Pərixan bəyimin əlini öpdü və ürəyində «bu sənə baha oturacaq, Pərixan, – dedi. – Sənin ölüm fərmanını Şirazda verib gəlmişəm».

Pərixan bəyim bir qədər qardaşı İsmayıl mirzənin tutduğu işlərdən danışdı.

Elə burdaca saray münəccimindən xəbər gəldi ki, şeşənbə günü, zilhiccətül-hərəm ayının 3-ü (13 fevral 1578) şahın tac qoyması üçün ən uğurlu gündü. Bu xəbərdən sonra atlanıb Qəzvinə – dövlətxanaya doğru hərəkət etdilər. Bayaqkı beş yüz nəfər yenə eyni coşqunluq və əzəmətlə Pərixan bəyimin kəcavəsini lap öndə aparırdılar. Məhdi-Ülya və səltənətin başqa xanımları da atlanaraq kəcavənin ardınca gedirdilər. Ərinin sağlığında Pərixan bəyimə kənizlər saxlamağı rəva belə bilməyən Səkinə sultan da qızı Sultanbəyimlə birgə onu müşayiət edənlərin arasındaydı.

Dövlətxananın qabağına çatanda böyük qələbəliyin şahidi oldular. Hər kəs təzə şahı qarşılamağa gəlmişdi. İsgəndər bəy də burda idi.

Pərixan bəyim qələbəliyi görəndə qorçulara işarə elədi ki, onu evinə aparsınlar. Qarşıda kəcavə, arxalarınca isə səltənət sülaləsinin xanımları hərəm bağçasına daxil oldular. Pərixan bəyim evinə yaxınlaşanda qarşıda pərxaşlıq düşdüyünü hiss elədi: «Görəsən, bu cürət sahibləri kimlərdi? Kimdi ona qarşı bu sayğısızlığı göstərən?!».

İtələşməni lap aydınca gördü. Böyük bir dəstə onun adamlarına kəcavəni yerə düşürtməyə imkan vermirdi. Pərixan bəyim kəcavədən başını çıxardıb çiynində oturduğu qorçulardan soruşdu ki, nə baş verib?

– Lələniz Xəlil xanın adamlarıdı. Xan əmr edib ki, Sizi onun evinə aparaq.

Pərixan bəyimin üzündə acı bir təbəssüm dolaşdı: «Əcəlim gəldi!»

– Eybi yox, aparın məni Xəlil xanın evinə, – dedi və dönüb kəcavəsinin arxasınca gələn səltənət xanımlarına baxdı. Atın belində şahanə oturmuş Məhdi-Ülya onun

baxdığını görüb bir an rübəndini kənara edib üzünü göstərdi. Onun üzündə Pərixan bəyimin varlığını alt-üst eləyən, söyüşdən, təhqirdən betər bir təbəssüm vardı…

* * *

… Pərixan bəyim Xəlil xanın evində tək-tənha oturur «Quran» oxuyub, zikr eləyirdi. Haqqın dərgahına qovuşmağa tam hazırdı. Taleyinin belə sonluqla bitməyindən də narazı görünmürdü. Fikirləşirdi ki, Allah heç kəsin günahını bağışlamır. Hər kəs günahına görə öz cəzasını alır. «Mənim isə Allah qarşısında günahım çoxdu. Nişanlımın gözlərini yolda qoyub ona ərə getmədim… Amma getsəydim də yəqin ki, xoşbəxt olmayacaqdım… Bədiüzzamandan oğlum olsaydı, İsmayıl mirzə onu da atası ilə bir yerdə öldürtdürəcəkdi. Yəqin Allah məni Heydər mirzəyə görə cəzalandırır. Doğurdan da, Heydər mirzəyə görə mən hər cəzaya layiqəm. O şah olsaydı bir belə insan qanı tökülməzdi. Tanrım, o sadədil, pakqəlbli Heydərə görə verəcəyin hər cəzaya layiqəm, kimin əli o şahzadənin qanına batıb, cəzalandırmısan. Bilirəm, dayım Şamxal sultan da sənin cəzandan kənarda qalmayacaq. Allahım, yəqin ki, İsmayıl mirzəni zəhərlətdirdiyimə görə məni bağışlayarsan. Mən onu zalımlığına, müstəbidliyinə görə öldürtdüm, əks təqdirdə, o məni öldürtdürəcəkdi… Mən ondan tez tərpəndim, müqəddəs Ramazan bayramını ona haram elədim. Mən onun padşahlığına nifrət edirəm, amma gəncliyində göstərdiyi qəhrəmanlıqları qəlbimdə yaşayır. Bir-birinə qənim kəsilmiş insanlar papaqlarını qarşılarına qoyub fikirləşsələr, görərlər ki, bu işıqlı dünyada yaşamaq gor evində yaşamaqdan çox-çox gözəldi. Təki yaşamağa və yaşatmağa adamda qeyrət olsun. Tanrım, mən də yaşamağı və yaşatmağı sonadək bacarmadım. «Quran»la yatıb «Quran»la dursam da, sənin buyurduğun yolla axıradək gedə bilmədim, yolumu sapdım. İlahi, hər cəzaya layiqəm. Daha bu məkirli, hiyləgər insanlar arasında yaşamaq istəmirəm!»

* * *

Məhəmməd mirzənin tacqoyma mərasimi hicri 985-ci il zülhəccə ayının 3-də (13 fevral 1578) oldu. Pərixan bəyim ev dustağı olduğu üçün bu məclisdə iştirak etmirdi. Lələsi Xəlil xan Əfşarın evində tək-tənha oturub əcəlini gözləyirdi. O,

özünə qəsd də edə bilərdi, amma bu hərəkəti şəriətə zidd hesab etdiyindən boğulacağı anı gözləyirdi.

Pərixan bəyimi Məhdi-Ülya xatunun istəyi ilə tacqoyma mərasimindən üç gün sonra, fevral ayının 17-də, gecəyarısı lələsi Xəlil xan Əfşarın evində boğub Haqqa qovuşdurdular. Mübarizələrlə dolu otuz illik bir xanım ömrü belə başa çatdı. Onun əmlakı xidməthaqqı olaraq Xəlil xana bağışlandı.

İsmayıl mirzənin bir yaşı tamam olmamış yeganə oğlu Şah Şücaəddini də, böyüyüb gələcəkdə əl-ayağa dolaşmaması üçün ağzına yastıq basıb öldürdülər. Şamxal sultan Çərkəzi isə əlində şah fərmanı Şəkiyə yola düşərkən yolda qabağını kəsib qılıncdan keçirdilər.

Əmir xan Türkman Təbriz, Pirə Məhəmməd xan Ərdəbil əyalətlərinin hakimi vəzifəsinə sahib oldular.

Məhdi-Ülya qohumu Xan Əhmədi Şah Təhmasibin qızı Məriyəm sultanla evləndirib Biye-pişə əyalətinin hakimliyini özünə qaytardı.

Ləvənd xanın oğlu İsa xanı Şah Təhmasibin qardaşı Sam mirzənin qızı ilə evləndirib Şəki əyalətinə göndərdilər.

Lursabın oğlu Sumayun İslamı qəbul edib Sultan Mahmud xan oldu və vətəni Gürcüstana qayıtdı.

İsmayıl mirzənin Səkinə sultandan olan qızı Sultanbəyim Şah Xəlilullaha ərə verildi.

İbrahim mirzənin yeganə qızı böyüyüb dini elmlərə yiyələndi, fəzilətli və mömün bir xanım oldu.

Hüseynqulu Xüləfa dünya işığına həsrət qalsa da, Məşhəddə İmam Rza məqbərəsində qorçubaşı vəzifəsini can-başla yerinə yetirirdi.

İsmayıl mirzənin kor etdiyi qardaşı Əli mirzə gününü dövlətxananın yanındakı söyüd ağacının altında keçirirdi. İsgəndər bəy vaxtaşırı ona baş çəkir, yanında oturub görüb-eşitdiklərindən, oxuduqlarından ona danışırdı. Əli mirzə də bundan çox məmnun olurdu.

Şah Məhəmməd Xudabəndə vaxtilə ona qarşı kobudluq etmiş Vəli sultan Zülqədəri bağışladı və onu eşikağası vəzifəsinə təyin etdi. Şah ondan başqa cür rəftar

gözləyən əmirlərə dedi ki, Vəli sultan öz padşahının əmrini yerinə yetirib mənimlə kobud rəftar etmişdi. O, zabit kimi yüksəlməyə layiqdi.

Lakin Vəli sultan eşikağası vəzifəsini çox tez itirdi. Məhdi-Ülya xatun onu bağışlamadı, İstəxir qalasında dustaq edi. O da orada çox yaşamayıb dünyasını dəyişdi.

Mirzə Salman isə, təkbaşına rüknüssəltənə və etimadüddövlə olub məmləkətin işlərini idarə etməyə başladı. Uzun illər onun bəxti gətirdi, hətta şah onun qızı ilə evləndi. Amma o da öz əcəli ilə ölmədi. Pərixan bəyimin ahı onu da tutdu.

Səfəvilər xanədanının şahı Məhəmməd Xudabəndə olsa da, məmləkəti Məhdi-Ülya idarə edirdi. Bu hökmlü qadının icazəsi olmadan bir iş görülə bilməzdi. Fars-tacik əsilli bu xanım ali divanın vəkili seçilmişdi. Ona şahın fərmanlarına vəzirin möhüründən yuxarıda möhür vurmaq səlahiyyəti verilmişdi.

Məhdi-Ülya xatun getdikcə qızılbaş əmirlərini sıxışdırıb onların yerinə fars-tacik əsilli insanları oturdurdu. Nəticədə qızılbaşlarla Məhdi-Ülya arasında ixtilaf son həddə çatdı. Başda Pirə Məhəmməd xan Ustaclı olmaqla bir neçə əmir şahın hüzuruna gəlib hərəmi Məhdi-Ülyanın susdurulmasını tələb etdilər. Şah dedi ki, xanımı saraydan uzaqlaşdıraram, amma günahsız bir seyidənin öldürülməsinə icazə verə bilmərəm.

Əmirlər bununla razılaşmadılar. Bir neçə adam dövlətxanadan Məhdi-Ülyanı Pərixan bəyimin mənzilinə apardı. O, onu boğmağa hazırlaşan adamlara üzünü tutub dedi ki, mən dörd şahzadə anasıyam, intiqamımı Allah-taalanın izni ilə övladlarıma tapşırıram. Bu sözdən sonra Məhdi-Ülyanı boğdular.

10 aprel – 30 dekabr 2011

SON

Mənbə:

http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?id=2494

http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?id=2594

http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?id=2706